**BAKI DÖVLƏT UNİVERSİTETİ**
**TARİX FAKÜLTƏSİ**

№6(6) 2022

ISSN: 2708-3934 (Print)
ISSN: 2708-3942 (Online)

# “Türk dünyası gənc tədqiqatçılar dərnəyi”nin Araşdırmaları

## Studies of the Turkic World Young Researchers Association

***Bakı Dövlət Universitetinin***
***Türk xalqları tarixi kafedrasının***
***30 illik yubileyinə həsr olunur***

**6**

**Bakı - 2022**

*Tarix fakültəsi Elmi Şurasının 18 may 2022-ci il tarixli qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №9).*

<u>*Baş redaktor:*</u> Sevinc Ruintən / Sevinj Ruintan
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*

<u>*Redaktor müavini:*</u> Səidə Quliyeva / Saida Quliyeva
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*

<u>*Redaksiya heyəti:*</u>

Arzu Məmmədova /Arzu Mammadova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Cavid Əlisgəndərli / Javid Alisgandarli
*Türk Dünyası gənc tədqiqatçılar dərnəyi / Turkic World Young Researchers Association Azerbaijan*
Elvira Lətifova / Elvira Latifova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
İqbal Ağayev / Igbal Agayev
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Kader Özlem / Kader Ozlem
*Uludağ Universiteti, Bursa, Türkiyə / Uludag University, Bursa, Turkey*
Kəmalə Nəcəfova / Kamala Najafova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Kərəm Məmmədov / Karam Mammadov
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Qismət Davudov / Qismat Davudov
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Lalə Əliyeva / Lala Aliyeva
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Murat Jane / Murat Jane
*İstanbul Aydın Universiteti, Türkiyə / İstanbul Aydın University, Turkey*
Rövşən Hətəmov / Rovshan Hatamov
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Sevinc Qasımova / Sevinj Qasımova
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*
Talqat Moldabay / Talqat Moldabay
*L.N.Qumilyov adına Avrasiya Milli Universiteti, Qazaxıstan / L.N.Gumilyov Eurasian National University, Kazakhstan*
Vladimir Redçenko / Vladimir Redchenko
*N.Q.Çernışevski adına Saratov Dövlət Universiteti, Rusiya / Saratov State University, Russia*
Zərifə Nəzirli / Zarifa Nazirli
*Bakı Dövlət Universiteti / Baku State University, Azerbaijan*

© Türk Dünyası Gənc Tədqiqatçılar Dərnəyinin Araşdırmaları, 2017
Bakı Dövlət Universiteti, Azərbaycan

# Redaksiyadan

Bakı Dövlət Universiteti "Türk xalqları tarixi" kafedrasının 25 illik yubileyi münasibətilə 2017-ci ildən nəşrinə başlanmış "Araşdırmalar" kafedranın nəzdində fəaliyyət göstərən "Türk dünyası gənc tədqiqatçılar" dərnəyinin jurnalı olaraq təsis edilmişdir. Türk xalqları tarixi kafedrasının və Tarix fakültəsi Elmi Şurasının qərarları alınmaqla, ildə 1 sayı nəşr olunur. Jurnalda yalnız tələbə məqalələri nəşr edilir. Məqalələr 4 dildə qəbul edilir: Azərbaycan, türk, rus və ingilis dillərində. Jurnalda Türk dünyası gənc tədqiqatçılarının tarix üzrə araşdırmaları ilə bərabər, həm də ümumilikdə gənc tarixçi tələbələrin Türk dünyası ilə bağlı araşdırmaları dərc edilir.

*Redaksiya ilə əlaqə:* txt_kaf@bsu.edu.az
*Jurnalın web-səhifəsi:*http://history.mamedov.co/turk-dunyasi-genc-tedqiqatcilar-derneyi-nin-arasdirmalari

## MÜNDƏRİCAT / CONTENTS

*Şah I Abbasın həyata keçirdiyi islahatlar*
Aliyə Hacıyeva (Azərbaycan Universiteti) ................................. 6

*Son Qızılbaş: miflər, arqumentlər, paralellər*
Azər Həndəmov (Bakı Dövlət Universiteti) ................................ 17

*II Dünya müharibəsi illərində SSRİ-nin işğal olunmuş ərazilərində kollaborasionizm*
Balamirzə Məmmədli (Bakı Dövlət Universiteti) ....................... 32

*II Dünya müharibəsi illərində SSRİ-nin Türkiyəyə ərazi iddiaları və Türkiyənin buna münasibəti*
Elşad Quliyev (Bakı Dövlət Universiteti) .................................. 48

*Mart hadisələri: Vətəndaş müharibəsi və azərbaycanlıların soyqırımı*
Əli Novruzov (Lənkəran Dövlət Universiteti) ............................ 62

*Azərbaycan tarixində Mir Cəfər Bağırov şəxsiyyəti*
Fatimə Şirinova (Bakı Dövlət Universiteti) ............................... 79

*XX əsrin sonları – XXI əsrin əvvəllərində ABŞ-da arxiv işi*
Gözəl Həbibullayeva
(Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) ...... 94

*Tarixi faktlar işiğında saxta "erməni soyqırımı" iddiaları*
İzzət Bağırov (Qərbi Kaspi Universiteti) ................................... 106

*Şəkinin Səfəvi dövlətinə birləşdirilməsi*
Leyla Tağızadə (Azərbaycan Universiteti) ................................ 116

*Послевоенные репрессии в СССР, истории жертв: Авиаторы, Трофейное дело и «Союз борьбы за дело революции»*
Нушираван Ибадов
(Российский Университет Дружбы народов, Москва) .......... 124

*Azərbaycan tarixinin tədrisində şagirdlərin tarixi şəxsiyyətlərin qəhrəmanlıq nümunəsində tərbiyə edilməsində interaktiv təlimin rolu*
Reyhan Bayramova (Azərbaycan Dövlət Pedaqoji Universiteti). 136

*Azərbaycan nümayəndə heyəti Paris Sülh konfransında*
Rəcəb Zeynallı (Bakı Dövlət Universiteti) .................................. 144

*Bizans'ta ikonoklazma hareketi*
Sümeyya Ekinci (*İnönü Üniversitesi, Malatya, Türkiyə*) ........... 156

*Türklərin dünya hökmranlıq idealı - Qızıl alma*
Ülfər Məmmədli (Bakı Dövlət Universiteti) ............................... 168

*Azərbaycan Xalq Cümhuriyyətində qadın haqları*
Ülfər Məmmədli (Bakı Dövlət Universiteti),
Səma Şahbaz (Humbolt Universiteti, Almaniya) ........................ 180

*AXC dövründə təhsil və tarixin tədrisi məsələləri*
Şəhla Məhyəddinli (Bakı Dövlət Universiteti) ............................ 192

*Əli bəy Hüseynzadə ictimai fikrin ideoloji əsasının yaradıcısı kimi*
Zəhra Əlili (Bakı Dövlət Universiteti) ....................................... 212

UOT 94(479.24)

**ALİYƏ HACIYEVA**
*Azərbaycan Universitetinin II kurs magistrantı*
**haciyev.a.liya99@mail.ru**

# ŞAH I ABBASIN HƏYATA KEÇİRDİYİ İSLAHATLAR

*Elmi rəhbər:*
Tarix elmləri doktoru Qabil Əliyev
Bakı Dövlət Universiteti

## ŞAH I ABBASIN HƏYATA KEÇİRDİYİ İSLAHATLAR

*Məqalədə şah I Abbas hakimiyyətə gəldiyi zaman Səfəvi dövləti daxilində mövcud vəziyyət işıqlandırılmışdır. Dövlət idarəçiliyindəki böhranlı vəziyyət, qızılbaş əyanlarının özbaşınalığı və bu halların qarşısının alınması üçün görülən tədbirlər araşdırılmışdır. Şah I Abbasın yeni islahatlar həyata keçirməsi səbəbləri araşdırılmış, xüsusilə hərbi, inzibati və dövlət idarəçiliyi sahələrində, iqtisadi sahədə həyata keçirdiyi dəyişikliklər barədə məlumat verilmişdir. Ordu quruculuğundakı yeniliklər, qulam ordusu – şah qvardiyası haqqında bilgi verilmişdir. Səfəvi dövlətinin xarici və daxili ticari həyatının canlandırılması üçün görülən tədbirlərin, şah I Abbasın həyata keçirdiyi islahatların nəticələri təhlil edilmişdir.*

*Açar sözlər*: Şah I Abbas, Səfəvi dövləti, iqtisadi islahatlar, hərbi islahatlar, inzibati islahatlar, dövlət idarəçiliyi.

***Giriş.*** 1590-cı il İstanbul sülh müqaviləsi imzalanmasından sonra şah I Abbasın qarşısında dayanan ən önəmli vəzifə Səfəvi dövlətinin düşmüş olduğu böhranlı vəziyyətdən çıxarmaq idi. Səfəvi dövlətini bu ağır vəziyyətdən qurtarmağın yeganə yolu isə əsaslı islahatlar keçirilməsi idi. I Abbas yaxşı başa düşürdü ki, Osmanlı dövləti Azərbaycanın əksər hissəsini, şərqdə də özbək qüvvələri Xorasanı ələ keçirdikdən sonra Səfəvi dövlətinin sarşılmış qüdrətini bərpa etmək,

ərazi bütövlüyünü təmin etmək üçün təxirəsalınmaz tədbirlər görülməsi vacibdir.

Şəfəvi şahı Osmanlı dövləti ilə yeni sərhəd xəttinin Qəzvinə yaxınlaşması ilə əlaqədar dövlətin paytaxtı üçün real təhlükə yarandığından, paytaxtı Qəzvin şəhərindən daha təhlükəsiz olan İsfahan şəhərinə köçürməyə qərar verdi. 1598-ci ildə paytaxt Qəzvin şəhərindən İsfahana köçürüldü. İsfahan şəhərində və onun ətraf ərazilərinin çox hissəsində hələ şah I İsmayıl zamanında burada türklərdən ibarət etnik dayaq yaratmaq və bu bölgənin təhlükəsizliyini təmin etmək üçün təklə türkləri köçürülmüşdü. Şah I Abbas da həmin siyasəti davam etdirərək, buraya Təbriz şəhərindən xeyli sayda əhalini köçürdü. Həmin əhali üçün Zayəndərud çayının sahilində Təbrizabad adlandırılan (digər bir adı Abbasabad – A.H.) bir məhəllə saldıraraq onları burada məskunlaşdırdı. Həmçinin şahın əmri ilə İsfahan şəhəri paytaxta çevrildiyi zaman buraya Təbriz şəhərindən 200-ə yaxın sənətkar ailəsi də köçürüldü. Dövlətin yeni və daha təhlükəsiz paytaxtında türk əhalinin məskunlaşdırılmasında şah I Abbasın əsas məqsədi burada özünə türk-qızılbaş tayfalarından ibarət möhkəm dayaq yaratmaq idi. Bu istədiyinə nail olan şah I Abbasın həyata keçirdiyi yeni tədbirlər dövlətin iqtisadi inkişafına, Avropa və Şərq ölkələri ilə də əlaqələrin möhkəmləndirilməsinə yönəldi [1, s.230].

Ölkədəki ümumi geriliyi aradan qaldırmaq üçün iqtisadi islahatların keçirilməsi olduqca vacib idi. Şah I Abbas iqtisadi və maliyyə sahəsində islahatları bir-birinin ardınca həyata keçirərək, bu geriliyi yavaş-yavaş aradan qaldırmağa müvəffəq oldu. Şahın əsas məqsədi bu islahatların həyata keçirilməsi nəticəsində Səfəvi dövlətini daha da gücləndirməklə Osmanlı dövləti tərəfindən işğal olunmuş Səfəvi mülklərini geri qaytarmaq və Bəsrə körfəzindən Səfəvi dövlətinin içərilərinə doğru irəliləməyə çalışan Qərb dövlətlərinin də işğalçılıq siyasətinin qarşısını almaq, bütün təhdidlərə qarşı dura biləcək qüvvətli bir Səfəvi dövləti çıxarmaq idi.

Qeyd etdiyimiz kimi, şah I Abbas hakimiyyətə gəldiyi zaman Səfəvi dövləti bütünlüklə çox ağır vəziyyətdə idi. Bunun da ən böyük səbəblərindən biri qızılbaş əmirlərinin özbaşınalığı və yeritdikləri

mərkəzdənqaçma siyasətləri idi. Ayrı-ayrı qızılbaş əmirlərinin arasında gedən çəkişmələr mövcud vəziyyətin daha da ağırlaşmasına səbəb olurdu. Bütün bu halların aradan qaldırılması üçün gənc şah dikbaşlıq edən qızılbaş əmirlərinin bir çoxunu təqib etməyə, onları tutmuş olduqları vəzifələrdən azad etməyə, sərt şəkildə cəzalandırmağa başladı. Şah I Abbas mərkəzi hakimiyyətin qüvvətləndirilməsinə tərəfdar olan feodal zümrəsinə və sənətkar-tacir qruplarına arxalanaraq, iri hərbi qüvvələrə rəhbərlik edən, mərkəzi hakimiyyətlə hesablaşmayan qızılbaş tayfa başçılarının müqavimətini qırdı [7, s.268]. Bu sərt, bir çox hallarda qəddar tədbirlərin əsas məqsədi dövləti bir növ əllərinə almış qızılbaş əmirlərinin hərbi-siyasi güclərini zəiflətmək, mərkəzi hakimiyyətigücləndirmək idi. Bunun üçün də bütün qızılbaş əmirlərinə onların dövlətə olan sədaqət və ya xəyanətindən asılı olmayaraq yanaşılırdı. Xəlifət-əl-xüləfa Qorxmaz Sultan Rumlu, möhürdar Əliqulu Xan Zülqədar, Əbulməsum Sultan Türkman dövlət idarəçiliyindən kənarlaşdırıldılar, özləri də aradan götürüldülər. Hətta, I Abbasın şah taxtına çıxarılmasında böyük rol oynamış Mürşüdqulu xan da cəzalandırılanlar arasında idi, o, şahın buyruğu ilə 1589-cu ildə öldürüldü.

Taxta yenicə oturduğu zaman şah I Abbas 12 min müsəlmanlığı qəbul etmiş gürcünü işə götürdü. İlk gün sarayda yeni şaha andiçmə mərasimi keçirildikdən sonra, şah I Abbas taxta çıxmasının ertəsi günü üçün bütün xanlar və qoşun başçılarını mülki geyimdə və silahsız bir şəkildə saraya gəlmələrini əmr etdi. Ertəsi günü hər kəs şahın buyurduğu qaydada saraya gəlib divanda toplaşdılar. Daha sonra şah I Abbasın əmri ilə onun tərəfindən işə yeni götürülmüş gürcü qvardiyası sarayın və onun qarşısındakı meydanın bütün giriş və çıxış qapılarını bağladılar. Bunun ardınca şah I Abbas divana toplaşanlara bu sualla müraciət etdi: “Öz şəhzadəsini qətlə yetirən adam hansı cəzaya layiqdir?” (bu sualla şah I Abbas əslində divana toplaşanları onun anası və qardaşlarının öldürülməsində günahlandırırdı – A.H.) Divana toplaşan hər kəs bir ağızdan həmin şəxsin ölümə layiq olduğunu bildirdilər. Bu sözün ardınca şah I Abbas işarə verdi və gürcü qvardi-

yaçıları bir göz qırpımında divana toplaşan hər kəsin başını kəsib nizəyə keçirdilər.

Daha sonra, şah I Abbasın əmri ilə nizəyə keçirilmiş edam edilmiş qızılbaş əyanlarının 22 başı sarayın pəncərələrindən çölə çıxarıldı ki, digərlərinə də görk olsun. Bütün bu sərt tədbirlər nəticəsində şah I Abbas həm dövlətdə mövcüd olan və onu daxildən zəifədən ara çəkişmələrini azalda bildi, həm də mərkəzi hakimiyyəti əsaslı şəkildə möhkəmləndirməyə müvəffəq oldu. Aradan götürülmüş qızılbaş əmirlərinin yerinə, daha gənc olan və nisbətən az tanınan yeni qızılbaş əmirləri gətirilirdi. Lakin şah I Abbas yeritdiyi siyasəti ardıcıl şəkildə davam etdirərək, həmin gənc və yeni vəzifə almış qızılbaş əmirlərinin də səhvlərini və digərləri kimi davrandıqlarını gördükdə, onları da dərhal aradan götürürdü [6, s.31]. Şah I Abbas hakimiyyətə gəldiyi zaman dövlət idarəçiliyinə dövlətin tərkibində olan başqa xalqların əsilzadələrini, eyni zamanda kiçik yaşlarından saraya gətirilərək burada böyüdülən çərkəz, gürcü qulları da cəlb etdi. Bu tədbirləri görməklə şah I Abbasın məqsədi dövlət idarəçiliyində qızılbaş əmirlərinin mövqeyini zəiflətmək deyildi, əksinə şah I Abbas bu tədbiri görməklə Səfəvi dövlətinin tərkibində olan digər xalqların mərkəzdənqaçma və dövlətə qarşıdurma hallarının qarşısını almaq istəyirdi. Şah Təhmasibin ölümündən sonra mərkəzi dövlət hakimiyyətində möhkəmlənmək üstündə iri tayfa başçıları arasında başlanmış olan mübarizəyə şah I Abbasın görmüş olduğu bu tədbirlər sayəsində son qoyuldu.

XVI əsrin sonunda Səfəvi dövlətinin tərkibində yaşayan digər xalqların, o cümlədən çərkəz və gürcülərin az yaşlı oğlan uşaqları yığılaraq qızılbaş ruhunda tərbiyə olunmağa başlandı. Bunun üçün ayrıca bir sosial-siyasi qurum yaradıldı ki, ona da qullar ağası adlanan şəxs başçılıq edirdi. Ilk andan etibarən müsəlman ruhunda tərbiyə olunan bu şəxslər daha sonra həm mülki vəzifələri yerinə yetirməyə, həm də Səfəvi dövlətində bir sıra hərbi vəzifələri icra etməyə cəlb olunurdular. Lakin qeyd etmək lazımdır ki, Səfəvi dövlətinin idarəçilik və bir sıra başqa mülki və hərbi vəzifələrinə bu cür şəxslərin cəlb olunması heç də dövlətin milli mahiyyətinin dəyişilməsi demək de-

yildi. Şah I Abbasın bu tədbirləri görməkdə məqsədi öz siyasətində dövlətin milli mahiyyətini dəyişdirmək deyil də, şaha son dərəcə sadiq insanları məsul vəzifələrə təyin etməklə, mərkəzi hakimiyyəti daha da gücləndirmək idi. Qeyd etmək lazımdır ki, Səfəvi dövlət quruluşunda 1628-ci ildə müxtəlif vəzifələrdə çalışan 92 əmirdən 54 nəfərini türk qızılbaşlar, 15 nəfərini isə türklüyü qəbul etmiş və yaxud da türk dilindən başqa dili bilməyən qulamlar, çox cüzi hissəsini isə qeyri-türklər təşkil etmişlər [2, s.242].

Şah I Abbas dövləti möhkəmləndirmək və xaricdən gələn təhlükələrə qarşı möhkəm dayana biləcək bir dövlət hazırlamaq üçün dövlətin hərbi sahəsində də bir sıra önəmli tədbirlər həyatə keçirdi. Belə ki, şah I Abbas hərb sahəsində islahat keçirdiyi zaman əsasən Osmanlı dövlətinin yeniçəri hərbi institutunu örnək almışdı. Osmanlı dövlətində olduğu kimi qulam, tüfəngçi kimi nizami alaylar yaratmış, daha sonra isə topçu bölüyünü təşkil etmişdi. Səfəvi dövlətinin tərkibində yaşayan digər xalqların nümayəndələrindən olub və kiçik yaşlarından etibarən xüsusi tərbiyə olunmağa başlayan şəxslər əsasən hərbi xidmətə cəlb olunurdular. Həmin gənclərdən ibarət xüsusi əsgəri birləşmələr yaradılırdı ki, onlardan da biri qulam qoşunu (qulamani-xasseyi-şərifə – A.H.) adlandırılırdı.

Türkiyə tarixçisi Nihat Çətinkaya qeyd edir ki, SəfəvI qoşununda xüsusi təlim görmüş qorçular qulam qoşunu yaradılmasını, onların hərbi işdən kənarlaşdırılması üçün qurulduğunu zənn edərək, bu qoşuna düşməncə davranır və hər fürsətdə onları aşağılayırdılar. Səfəvi dövlətinə gəlmiş fransız səyyahı J.Şarden hətta yazmışdı ki, qorçular qulamlara nifrət edir və buna bağlı olaraqda onlara “qara oğlan” deyirdilər [5, s.536-537]. Qulamlar dəstəsinə qullarağası rəhbərlik edirdi. Qulam qoşununda olan əsgərlər öz ailəsi ilə, nəsli və dini əqidəsilə əlaqəni kəsmiş, erkən yaşlarından etibarən şah sarayında xüsusi tərbiyə olunmuş, hərb sənətinin incəliklərinə yiyələnmiş gürcü, çərkəz mənşəli şəxslərdən ibarət idi. Qulam qoşununda xidmət edənlər bütün varlıqları ilə şaha bağlı olurdular. Şah I Abbasın zamanında yaradılan bu qulam qoşununda xidmət edənlərin sayı təxminən 15 min nəfərə çatırdı.

Qulam qoşununda öz şəxsi istedadına, xidmətinə və sərkərdəlik bacarığına görə fərqlənənləri şah I Abbas ən yüksək vəzifələrə irəli çəkirdi. Belə ki, qulam qoşununa vaxtilə rəhbərlik edən qullarağası Allahverdi xan Fars bəylərbəyi, Yusif xan Şirvan bəylərbəyi, Qarçıqay xan Səfəvi ordusunun baş komandanı kimi vəzifələrə təyin edilmişdilər. Əsasən atlı dəstələrdən ibarət olan bu əsgəri birləşmələr Səfəvi dövlətinin istər daxili, istərsə də xarici siyasətinin yeridilməsində şahın əlində kəsərli bir silaha çevrilmişdi.

Əyalətlərin oturaq əhalisindən gənc nəsil nümayəndələrinin toplanılması hesabına yaradılan tüfəngçi alayları da Səfəvi dövlətinin hərbi islahatında mühüm tədbir idi. Yaradılmış hər bir tüfəngçi alayına minbaşı rəhbərlik edirdi. Qeyd eləmək lazımdır ki, məhz tüfəngçi alaylarının tərkibində fars ünsürlərinə nisbətən çox rast gəlinirdi. Şah I Abbas tüfəngçi dəstələrinə rəhbərlik işini İsfahan əyanlarından birinə tapşırmışdı. Daha bir əsgəri birləşmə isə Şahsevən birləşmələri idi. Bu qrupa müxtəlif türk gəncləri, çox az sayda isə qeyri-türklər daxil idi ki, onlar əsasən Avropa qvardiyasına bənzəyən imtiyazlı bir əsgəri birləşməni təşkil edirdilər. Bu əsgəri birləşmə şah olmuş Səfəvi şeyxinə mürid vurğunluğu və sədaqəti ilə seçilirdi. Onlar əsasən şahın şəxsi buyruğunda duraraq sadəcə onun əmrlərini yerinə yetirirdilər.

Şah I Abbasın hərbi sahədə həyata keçirdiyi bu islahatların nəticəsində ölkə də 44 min əsgəri qüvvəsi olan yeni bir nizamlı ordu yaradıldı. Süvarilərin sayı 200 minə, qvardiyaçı qulamların sayı 10-15 minə, tüfəngçilərin sayı 12 minə çatmışdı. Şah I Abbasın ordusunun 500-ə qədər topu vardı. Topçu birləşmələrinin də çox hissəsini tüfəngçi alayında da olduğu kimi farslar təşkil edirdi. Bu vaxt yarımköçəri qızılbaş tayfalarından toplanmış "çərik" qoşunu olduqca zəifləmişdi, lakin tamamilə aradan qalxmamışdı. Qeyd etmək lazımdır ki, bütün XVII yüzillik boyunca Səfəvi dövlət ordusunun başlıca özülünü yenə də türk qızılbaş qorçular təşkil edirdi. Şah I Abbasın hərbi sahədə həyata keçirmiş olduğu bütün bu tədbirlərin nəticəsində Səfəvi dövlətinin əsgəri gücü təkmilləşdirilərək, hərbi-siyasi baxımdan gücləndirildi.

Şah I Abbas hakimiyyətə gəldikdən sonra qızılbaş əmirlərinə qarşı həyata keçirdiyi tədbirlər sadəcə olaraq onların dövlət idarəçiliyindən uzaqlaşdırılması və ya aradan götürülməsi ilə bitmədi. Belə ki, şah I Abbas Əfşar, Zülqədar, Qacar, Bayat kimi türk-qızılbaş tayfalarını əski yurdlarından köçürürərək onların əski yurdlarında yaşayışına son qoydu. Şah I Abbas bu türk-qızılbaş tayfalarını əsasən İranın içərilərinə doğru köçürdü. Bu tədbirdən sonra artıq əvvəllər Kuh-Giluyə bölgəsi Əfşar yurdu, Fars Zülqədar yurdu, Kəzzaz və Giruh-rud Bayat yurdu, Qarabağ isə Qacar yurdu adlandırılırdısa, artıq bu köçürülmədən sonra vəziyyət dəyişdi. Şah I Abbasın hakimiyyəti zamanı həm də əvvəllər Osmanlı idarəçiliyi zamanı Osmanlıya xidmət edən Otuziki, Qazax, Şəmşəddil kimi oymaqlar xainliklə günahlandırılaraq onlara dönük adı verildi. Qarabağ və Şirvan bölgəilərində yaşayan türk əhalisinin təxminən 15 minə yaxın ailəsi Mazandarana köçürüldü.

Şah I Abbasın hakimiyyəti dövründə Səfəvi dövlətinin mülki təşkilində işə götürülən farsların sayı da xeyli artmışdı. Lakin qeyd etmək lazımdır ki, yenə də Səfəvi dövlətində istər onun siyasi, istər hərbi, iqtisadi, istərsə də onun mədəni həyatında türklərin rolu yenə də üstün olaraq qalırdı. İ.Petruşevski XVI yüzilliyin əvvəllərindən şah I Abbasın islahatlarına qədərki dövrdə Səfəvi dövlət aparatında və ordusunda rəhbər rolun əsasən azərbaycanlıların ixtiyarında olduğunu bildirir, lakin o da daha sonra bir sıra digər tarixçilər kimi, XVII əsrin əsrin əvvəllərindən etibarən artıq Səfəvi dövlətində iranlaşma prosesinin başlandığını və bunun da XX əsrin I rübündə başa çatdığını bildirmişdi [9]. Doğrudur, şah I Abbas imperiyada mərkəzdənqaçma hallarının qarşısını almaq üçün dövlət idarələrinə müsəlman dinini qəbul etmiş, Səfəvi sarayında tərbiyə almış türkdilli gürcü, çərkəzləri cəlb etmişdi. Lakin istər onların, istərsə də bir çox fars əyanın idarəçiliyə cəlb olunması yenə də Səfəvi dövlətində qızılbaşların mövqelərinə əsaslı zərbə vura bilməzdi. Şah I Abbasın daxili siyasəti iranlılaşdırma işinə yox, dövlət hakimiyyətinin möhkəmləndirilməsinə xidmət etmişdir ki,onun hakimiyyəti zamanı və ölümündən

sonra da türk-qızılbaş əyanlarının dövlət idarəolunmasında mövqeləri yenə də qorunub saxlanılmışdı [4, s.23-25].

Şərq ölkələrinin bilik adamlarının düşüncələrinə görə, hər bir dövlətin səciyyəsi onu yaşadanların kimliyi ilə hər zaman sıx bağlı olmuşdur. Bunu XII yüzilliyin görkəmli alimi və şairi olmuş Fəxrəd-din Mübarəkşah qeyd edirdi ki, "Türklərin başqa insanlardan mürəc-cah (yəni üstün – A.H.) olmalarının bir neçə səbəbi olmuşdur. Biri budur ki, ərəb dilindən sonra türk dilindən daha yaxşı və daha heyrət-li bir dil yoxdur. Bu gün türk dilinə rəğbət əski zamanlardan xeyli çoxdur. Bunun səbəbi isə əmirlərin və sipahsaların çoxunun türk ol-masıdır ki, dövlət də məhz onlarındır". Biz bu cəhəti Səfəvi dövlətin-də də aydın olaraq görürük. Belə ki, dövlətdə şah ailəsi üzvləri başda olmaqla dövlət əmirlərinin və sipahsalarının böyük çoxluğunun soy-kökü türklər və yaxudda türkləşmiş qulamlar idi. Dövlət işlərində: sarayda da, orduda da, dövlətlərarası yazışmalarda da XVII yüzillik-də türk dili öz üstün mövqeyini qoruyub saxlamışdı. Şah I Abbasın zamanında Azərbaycan türk dili orduda və şah sarayında üstünlüyə malik idi. Səfəvi şahları və xidmətçiləri məhz Azərbaycan türk dilin-də danışırdılar.

Ölkədəki ümumi geriliyi aradan qaldırmaq üçün iqtisadi isla-hatların keçirilməsi olduqca vacib idi. Şah I Abbas iqtisadi və maliy-yə sahəsində islahatları bir-birinin ardınca həyata keçirərək, bu gerili-yi yavaş-yavaş aradan qaldırmağa müvəffəq oldu. Belə ki, şah I Ab-basın daxili və xarici ticarətin inkişafında karvan yollarını abadlaş-dırması, yolboyu bir çox karvansaralar inşa etdirməsi, həmçinin yol-ların təhlükəsizliyini artırması da Səfəvi dövlətinin ticari həyatında mühüm irəliləyişlərin də əldə olunmasına səbəb oldu. Şah I Abbas həmçinin ölkənin vergi sahəsində də islahat keçirdi. T.Musəvinin Sə-fəvilər dövrünə dair fars dilli sənədlərin araşdırılması ilə bağlı yaz-mış olduğu əsərində göstərilir ki, şah I Abbas 1601-ci ildə Azərbay-canda soyurqallığın dayandırılması haqqında fərman vermişdi [8, s.14]. Həmin islahatların nəticəsində isə ayrı-ayrı bölgələr, şəhərlər üzrə vergilər azaldıldı, hətta bir çox ərazidə müəyyən müddətə də ol-sa vergilər ləğv olundu. Şahın vermiş olduğu 1598-1599-cu il fər-

manlarına əsasən, Əcəm İraqında heyvandarlıqla bağlı təsərrüfat sahəsindən alınan çobanbəyi vergisi ləğv edildi. Bu sahə ilə bağlı olan digər vergilər isə azaldıldı və ləğv olundu. Müəyyən müddətə vergilərdən azad olunan ərazilərdən biri isə İsfahan şəhəri və mahalı idi ki, şah I Abbasın vermiş olduğu fərmana əsasən bu ərazi bir il müddətinə, daha sonra isə 1613-cü ildə isə üç il müddətinə bütün vergilərdən azad edildi. Həmçinin şah I Abbas İsfahan tacirlərinə və əsnaflarına da böyük imtiyazlar verdi və onları da bir çox vergilərdən bir il müddətinə azad etdi. Vergilərdən azad olunma müddətində həmçinin həmin ərazilərin divan və xassə torpaqlarındakı icarədarlarda icarə haqqlarını ödəməkdən azad edilmişdilər. Səfəvi dövlətinin Şimal və Qərb torpaqları Osmanlı dövlətindən geri alındıqdan sonra, vergilər barədə hazırlanmış qərarlar bu bölgələrə də aid edilməyə başlandı. Belə ki, Ordubad, Dərbənd və 1615–ci ildə Təbriz şəhərinin əhalisi mal-xərac vergilərindən azad edilirlər. Həmin vaxt Təbriz şəhərində daruğəgi və ehdas kimi vergilərin verilməsi də ləğv edilir. Məhz şah I Abbasın vergi islahatının və onun bütün Səfəvi dövləti miqyasında həyata keçirilməsinin nəticəsində Səfəvi dövlətinin zəifləmiş iqtisadiyyatı qismən də olsa bərpa edildi. Əslində şah I Abbasın vergi islahatını həyata keçirməklə Səfəvi dövlətinin iqtisadi sahədəki geriliyini aradan qaldırmaq və dövlət büdcəsinin gəlir qaynaqlarını bərpa etmək kimi bütün bu addımlarının da sadəcə bir məqsədi vardı ki, oda itirilmiş torpaqları geriye qaytarmaq və Səfəvi dövlətində mərkəzləşdirmə siyasətini həyata keçirmək, ölkənin hərbi-siyasi qüdrətini artırmaq idi [3, s.64].

Şah I Abbasın zamanında Səfəvi dövlətində buraxılan sikkələr əsasən qızıl, gümüş və misdən kəsilirdi. Dövriyyəyə buraxılan qızıl sikkələr əsasən yeni şah hakimiyyətə keçdikdə zərb edilirdi və bu sikkələr dövriyyədə çox az olurdu, onlardan alqı-satqıda çox az və nadir hallarda istifadə olunurdu. Şah I Abbasın zamanında qızıldan zərb olunan sikkələrin dəqiq vəzni də məlum deyildi. Şah I Abbasın zamanında onun vermiş olduğu sikkə islahatı və fərmanına əsasən "abbası" adlandırılan gümüşdən zərb edilən sikkələr üstünlük təşkil etməyə başlamışdı. Dövriyyəyə buraxılan abbasinin rəsmi çəkisi bir

misqal, yəni 4,64 qram idi. Dövriyyədə olan sikkələrin dinarla dəyərinə gəldikdə isə bir abbası 200, bir şahı 50, bir bisti 20, bir kasbeki 5 dinar, bir tümən isə 100 min dinara və yaxudda 50 abbasıya bərabər idi.

***Nəticə.*** Şah I Abbas tərəfindən Səfəvi dövlətinin iqtisadi, hərbi-siyasi cəhətdən qüvvətləndirilməsi üçün həyata keçirilmiş olan islahatlar öz effektiv nəticəsini verdi. Şah tərəfindən həyata keçirilən inzibati islahatların nəticəsində dövlətin ictimai-iqtisadi və hərbi-siyasi həyatında oturaq əhalinin rolu daha da artırılmış oldu. Ölkədə siyasi sabitlik yaradıldı və məhsuldar qüvvələrin fəaliyyəti canlandı. Görülən bu tədbirlərin nəticəsində Səfəvi dövləti artıq qarşısında duran digər önəmli vəzifə olan 1578-1598-ci il Səfəvi-Osmanlı müharibəsi nəticəsində Osmanlı idarəçiliyi altına düşən ərazilərini geri qaytarmaq iqtidarına sahib oldu.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. Yeddi cilddə. III cild (XIII-XVIII əsrlər). Bakı: “Elm”, 2007, 592 səh.+56 səh. illustrasiya.
2. Aydoğmuşoğlu C. I Şah Abbas ve zamanı (1587-1629). Ankara: “Berikan yayın evi”, 2013, 327 s.
3. Baxşəliyev A. Səfəvi dövlətinin sosial iqtisadi həyatı və beynəlxalq əlaqələri. Bakı: ADPU mətbəəsi, 2009, 274 s.
4. Bayramlı Z. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə sistemi. Bakı: “AVROPA”, 2015, 348 s.
5. Çetinkaya N. Kızılbaş Türkler tarihi, oluşumu ve gelişimi. Ankara: “BRC matbaası”, 2010, 575 s.
6. Həsənəliyev Z. Səfəvi dövləti XVII əsrdə (Avropa səyyahlarının məlumatları əsasında). Bakı, 2005, 294 s.
7. Mahmudov Y. Azərbaycan diplomatiyası. Bakı: “Təhsil”, 2006, 416 s.
8. Musəvi T. Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər (XVI-XVIII əsrlər). Bakı: “Elm”, 1977, 237s.

9. Петрушевский И.П. Азербайджан в XVI-XVII вв. / Сборник статей по истории Азербайджана. Вып.1. Баку: Изд-во АН Аз. ССР, 1949, с.225-298.

**ALİYA HAJIYEVA**
*2nd year mater's student of Azerbaijan University*

## REFORMS IMPLEMENTED BY SHAH ABBAS I

The article highlights the internal situation in the Safavid state when Shah Abbas I came to power. The crisis situation in public administration, the arbitrariness of Qizilbash officials and the measures taken to prevent such cases were investigated. The reasons for Shah Abbas I`s new reforms especially the changes in the military, administrative and public administration, and the economic sphere were investigated. Innovations in army building, information about the Shah Guard of the qulams army were given. The results of the measures taken to revive the foreign and domestic trade life of the Safavid state, the reforms implemented by Shah Abbas I were analyzed.

*Keywords*: Shah Abbas I, Safavid state, economic reforms, military reforms, administrative reforms, public administration.

*Daxil olma tarixi*: 26.04.2022-ci il.
*Çapa imzalanma tarixi*: 25.05.2022-ci il.

**UOT 94(479.24)**

**AZƏR HƏNDƏMOV**
*Bakı Dövlət Universiteti SABAH Qrupları*
*Tarix müəllimi ixtisası üzrə III kurs tələbəsi*
**ahendemov@gmail.com**

# SON QIZILBAŞ: MİFLƏR, ARQUMENTLƏR, PARALELLƏR

*Elmi rəhbər:*
Tarix üzrə fəlsəfə doktoru İqbal Ağayev
Bakı Dövlət Universiteti

*Orta əsrlərdə xalqımızın dövlətçilik tarixində Səfəvilər imperiyası onun rəhbərliyi altında ən yüksək mərhələ kimi əvvəlki və sonrakı Azərbaycan dövlətləri zəncirində bir halqa olmuşdur. Səfəvi hökmdarı Şah İsmayıl Azərbaycan tarixində həm də Azərbaycan dilinin və Azərbaycan ədəbiyyatının inkişafında xidmətləri olan bir şəxs kimi qalmışdır. Onun hakimiyyəti illərində Azərbaycan dili adi bir ünsiyyət vasitəsi olmaqdan əlavə, həm də siyasi əhəmiyyət kəsb edirdi. Avropa müəllifləri (mütəfəkkirləri), tarixçiləri, araşdırmaçıları belə onun fəaliyyətinə heyrandı. Onlardan Karl Marks demişdir: "Səfəvilər sülaləsinin yaradıcısı Şah İsmayıl fateh olub. O hakimiyyətdə olduğu 14 il ərzində 14 əyaləti fəth edib". Həqiqi alimlər, nüfuzlu tarixçilər üçün Şah İsmayıl böyük dövlət xadimi və istedadlı sərkərdə olaraq qalır. Azərbaycanlıların şüurunda isə Şah İsmayıl Azərbaycan torpaqlarını birləşdirmiş, Mərkəzləşdirilmiş Azərbaycan Dövlətini yaratmış şəxsiyyətdir. Şah İsmayıl Səfəvinin şəxsiyyətindən söhbət düşəndə həmvətənlərimizin əksəriyyəti çox vaxt onun bioqrafiyasını və şiəliyi dövlət ideologiyası səviyyəsinə çatdırmaqla bağlı fəaliyyətini xatırlatmaqla kifayətlənir, bu addımın siyasi məqsədlərini açıqlamırlar. Lakin Şah İsmayılın böyük irsi qarşısında bu dəlillər çox sönükdür, çünki bunlar onun öz xalqı qarşısındakı böyük xidmətlərini göstərməyə qabil deyildir.*

*Açar sözlər*: Şah İsmayıl, Şüubiyyyə, Aləmşahbəyim, Taclı, Çaldıran savaşı, II Kir.

***Giriş.*** I Şah İsmayıl tərəfindən qurulan və tamamilə türk qızılbaş oymaqlarının gücünə arxalanan Azərbaycan Səfəvilər dövləti bütün türk dünyası tarixində ən qüdrətli imperiyalardan biri olmuş və Azərbaycan tarixinin ən şərəfli səhifələrindən birini təşkil etmişdir (8, s.7). Şah İsmayıl tarixinin öyrənilməsi üçün istər Azərbaycan tarixşünaslığında, istər İran və Türkiyə tarixşünaslığında, istərsə də sovet və qərb tarixşünaslığında xeyli tədqiqatlar aparılmışdır. Yəni, Şah İsmayılın şəxsiyyətinə, onun fəaliyyətinin tarixiliyinə maraq hər zaman tədqiqatçıların diqqətini özünə cəlb etmişdir. Sözsüz ki, əhatə dairəsinə, elmi dərinliyinə görə bu tədqiqatların heç də hamısı eyni səviyyədə deyil. Əslində, bu tədqiqatların aparılması zamanı qarşıya qoyulan məqsəd də eyni deyildir. Obyektiv yanaşmanı, mənbə materiallarının tərəfsiz dəyərləndirilməsini, tarixi hadisələrin real mənzərəsini özündə əks etdirən çoxlu sayda araşdırmalarla bərabər, bir tərəfli, mübahisəli fikirlərlə zəngin olan, bəzən isə səthi araşdırmalara da rast gəlmək mümkündür. Bu məqalədə şaha qarşı sürülmüş bəzi iftiralar və bunlara qarşı cavab konsepsiyası ilə yanaşı, həm də siyasi və həyatı ilə bağlı paralelləri göstərmişik.

*İsmayıl ibn Heydər:* Sultan Əli tərəfindən Səfəvi təriqətinin rəhbəri və mürşidi elan edilmiş İsmayıl Mirzə hicri tarixi ilə 892-ci il rəcəb ayının 25-də, çərşənbə axşamı, miladi tarixlə 1487-ci il iyul ayının 17-də Ərdəbildə dünyaya gəlmişdir. İsmayıl Mirzə ailəsinin kiçik oğlu idi. Mənbələrdəki məlumatlara görə, atası Sultan Heydər böyük oğullarını müşahidə etdikcə hakimiyyət nişanəsini onların üzündə hiss etmirdi və ona görə də Allaha çoxlu-çoxlu dua edirdi ki, onun varisi ola biləcək bir övladı olsun. İsmayıl Mirzə dünyaya gələndən sonra dövrünün münəccimləri atasının intizarında olduğu övladın dünyaya gəldiyini və İsmayıl Mirzənin taleyinin də ilk imam Əmir əl-mömünin Həzrət Əlinin taleyinə oxşar olduğunu bəyan etdilər. Mənbələrdə olan məlumata görə, Sultan Heydər yeni oğlunun olması xəbərini eşidəndən sonra Quranın İbrahim surəsinin 39-cu ayəsini dilə gətirdi. Həmin ayədə həzrət İbrahimin dilindən Allaha şükr edilirdi ki, yaşlı vaxtında ona İsmayılı bəxş etdi. Bu ayədə Həzrət İs-

mayılın adı çəkildiyi üçün Sultan Heydər də oğlunu İsmayıl adlandırdı (7, s.109).

Şah İsmayıl güclü imperiya yaradaraq Azərbaycan torpaqlarını birləşdirmiş, Ağqoyunlu dövlətinin keçmiş qüdrətinin artıq öz dövrünü başa vurmuş miskin qalıqlarını ləğv etmiş və ümumi Azərbaycan arealının bir hissəsi olan bəzi Azərbaycan vilayətlərinin separatist səylərini neytrallaşdırmışdır (11). Qacar, Əfşar, Rumlu və digər ən iri türk tayfaları mərkəzləşmiş vahid dövlət yaradılmasında və onun möhkəmləndirilməsində Şah İsmayılı silah və maddi resurslarla dəstəkləyirdi. Bununla bərabər, unutmaq olmaz ki, Şah İsmayıl Azərbaycanı birləşdirərkən hər halda başqa bir tarixi dövrün özünəməxsus çağırışlarını dəf edirdi (12, s.8).

*MİFLƏR və ARQUMENTLƏR:* Hər bir güclü, bacarıqlı, istedadlı tarixi şəxsiyyət haqqında müsbət fikirlərlə yanaşı, həm də mənfi fikirlər mövcuddur. Şah İsmayıl haqqında danışarkən biz öz cəmiyyətimizdə bu fikirlərə daha çox rast gəlirik. Salnamə tipli yazılar, Qərb tarixçilərinin türk müsəlman dövlətlətinin münasibətlərini qızışdırmaq istəyi müəyyən mənada şaha qarşı mifik fikirlərin yaranmasına gətirib çıxarmışdır. Sizə şaha qarşı sürülən mənbələrə istinad olunmayan miflərdən bəziləri haqda danışacağıq və bunlara qarşı sürülmüş arqumentləri göstərəcəyik.

Mənbələrə istinad olunmadan şaha qarşı qara yaxmağa,onu gözdən salmağa çalışan bəzi şaiyəçilər İsmayılın anasını qətlə yetirməsi haqda bəzi informasiyalar yazmağa,yaymağa başlamışlar.

**1. Şah İsmayıl öz anasını qətlə yetiribmi?**

**MİF:** “Şah İsmayılın ana babası Uzun Həsənin hakimiyyəti dövründə sünnilik geniş yayılmışdı, bu məzhəb rəsmən qəbul olunmuşdu. Ancaq şiələr sıxışdırılmırdı. Əksinə, Uzun Həsən hər iki məzhəbə qulluq edənləri birləşdirməyə çalışırdı. O, öz qızı Martanı şiəliyi təbliğ edən Səfəvilərin başçısı Şeyx Heydərə vermişdi. Şərqdə Aləmşahbəyim kimi tanınan bu qadın Şah İsmayılın anası idi. Məhz bu qadın dəfələrlə sarayda oğlunun sünnilərə qarşı genosidinə qarşı çıxmışdı və onu bu dəhşətli fikirdən daşındırmağa çalışmışdı. Amma

Şah İsmayıl şiə təriqətinin bərqərar olması naminə anasını da qurban vermişdi" (14).

**ARQUMENT:** Aləmşah bəyimin Şah İsmayılın özü tərəfindən öldürülməsi ilə bağlı bəzi hallarda elmi-tarixi ədəbiyyata çıxarılan məlumatların obyektivliyi ciddi sayıla bilməz. Çünki Şah İsmayılın öz anasına dərin ehtiramla yanaşdığı məlumdur. Şah İsmayılın öz anasının ölümünə səbəb olması barəsində şərq mənbələrində hər hansı bir məlumat yoxdur. Bu barədə şaiyə xarakterli məlumatlar qərb müəlliflərinin əsərlərində özünə yer tapmışdır ki, onlar da etibarlı dəlillərə əsaslanmır. Şah İsmayıl (İsmayıl Mirzə) Lahicandan öz hərəkatına başlayanda əvvəlcə Ərdəbilə gəldi, həm əcdadlarının qəbrini, həm də anasını ziyarət etdi. Sonra isə Ərdəbili tərk etmək məcburiyyətində qaldı. İsmayıl Mirzə hələ Lahicanda olarkən qardaşı İbrahim Mirzə hərəkatdan kənarlaşaraq Ərdəbilə, anasının yanına dönmək arzusunu bildirdi. İsmayıl Mirzə bununla razılaşdı. Onun İbrahim Mirzənin xahişi ilə razılaşması həm də anasının Ərdəbildə tək qalmaması istəyi ilə bağlı idi. Aləmşah bəyimin Şeyx Səfi türbəsində dəfn edilməsi ona olan ehtiramın təsdiqi ola bilər. Çünki əgər onun Şah İsmayıl tərəfindən öldürülməsi haqqında şayiələr doğru olsaydı, onda Şah İsmayıl onun Şeyx Səfi türbəsi kimi müqəddəs bir məkanda dəfninə icazə verməzdi (7, s.780-781).

**2. Qızılbaşlar şuubiyəçidirmi?**

**MİF:**Səfəvi əleyhdarı olan Güntay bəyin iddialarından biri də budur ki, guya Səfəviliyi, ümumən şiəliyi "gizli fars-şüubiyyə təşkilatı" yaradıbmış və Şah İsmayıl da onların agenti olubmuş. "Şüubiyyə" sözü "şuub" sözündən götürülüb. Bu söz "şəb" sözünün cəmi olub mənası "xalqlar" deməkdir. Adından da göründüyü kimi bu hərəkatda təkcə farslar yox, digər xalqlar da iştirak etmişlər. Bu etiraz hərəkatı hakimiyyətdə olan ərəblərin qeyri-ərəblərlə ikinci - üçüncü dərəcəli insanlar kimi rəftar etməsinə son qoymaq məqsədilə başladılmışdı. Guya bu hərəkat, İslamı yıxıb yerinə qədim Sasani dövrünü bərpa etmək, fars imperiyası qurmaq istəyirmiş! Guya Şah İsmayıla Gilanda dərs demiş Molla Şəmsəddin Lahıci gizli şüubiyyəçi imiş və məhz gizli agent olduğuna görə də mənbələrdə onun haqqında heç

bir məlumat yox imiş. Şah İsmayıl Təbrizdə "qətliam törətdiyi zaman" Molla Şəmsəddin Lahıci və digər "şüubiyyəçilər" də orda imiş, guya kənarda dayanıb bütün bu "qətliamlara" baxıb sevinirmişlər (6, s.122-133).

**ARQUMENT:** Molla Şəmsəddin Lahici haqqında mənbələrdə yetərincə yoxdur və bir halda ki, haqqında danışılan "təşkilat" gizli təşkilat idi, o zaman, bu qədər gizliliyin içərisində onun casus olduğu məlumatı necə əldə edilib? Elə bu ziddiyyət özü bir daha sübut edir ki, bütün bu iddialar əsassızdır.Ümumiyyətlə, fars şüubiyyə adlı gizli bir təşkilatın olduğu iddiası həqiqəti əks etdirmir. Bunu sübut edəcək heç bir tutarlı dalil yoxdur. Şiəliyi "gizli fars-şüubiyyə təşkilatının" yaratdığı, şiə məzhəbli Şah İsmayılı bu "gizli təşkilat"ın yetişdirdiyi və onun vasitəsilə İslamı yıxmaq istədiyi iddiaları da tamamilə uydurmadır, böhtandır. Çünki, şiəliyin tarixi Səfəvilərdən daha qədimdir və şiəlikdə İslamın əleyhinə savaş yoxdur. Əksinə, şiə-İslam inancına görə Allah qatında qəbul ediləcək yeganə din İslamdır, bütün dünya yalnız İslami qanunlarla idarə edilməlidir (9, s.37-38).

**3. Şah İsmayılın Çaldıran savaşından sonra heç bir hərbi yürüyüşü olmayıb?!**

Digər yayılmış miflərdən biri də Şah İsmayılın Çaldıran savaşından sonra hərbi hakimiyyətini sonlandırması, siyasi hakimiyyətində durğunluq və ərşə çəkilməsi ilə bağlı yanlış fikirlər toplanmışdır. Aydındır ki, Şahı gözdən salınması üçün atılan bu addım tarixçilər tərəfindən birmənalı qarşılanmadı.

**MİF:** "Çaldıran döyüşü Azərbaycan Səfəvi dövləti üçün böyük itkilərlə yadda qaldı, torpaqlarının bir hissəsinin itirilməsinə gətirib çıxardı. Osmanlılar düz Təbrizə kimi irəliləsələr də, onlar burada cəmi 8 gün qala bildilər. Bu vuruşdan sonra Şah İsmayıl bir də heç bir döyüşə girməyib, heç bir əraziyə qoşun göndərilmədi, ancaq dövlət quruculuğu ilə məşğul oldu" (5).

Şah İsmayılın bu ilk məğlubiyyətinin ağır nəticələri tədricən özünü göstərir. Diyarbəkir, daha sonra Ərzincan Osmanlı torpaqlarına qatılır. Çaldıran məğlubiyyəti İsmayılı dərindən sarsıdır, bundan sonra o, bir daha özünə gələ bilmir. Çünki, bu məğlubiyyət adi bir

məğlubiyyət deyildi. Bütün arzularının məhv olması demək idi. Çaldıran döyüşündən sonra Şah İsmayıl ömrünün sonuna kimi heç bir ciddi hərbi səfər etmir (4).

**AQRUMENT:** Mənbələrə istinad edən görkəmli Səfəvişünas Oktay Əfəndiyev özünün "Azərbaycan Səfəvi dövləti" kitabında yazır: "Sultanın barışmaz mövqeyi ilə qarşılaşan I Şah İsmayıl Cənubi Qafqaz ölkələrində, xüsusilə də Gürcüstanda öz mövqelərini möhkəmləndirmək üçün ciddi tədbirlər gördü. Səfəvilərin vəziyyəti onun hesabına yüngülləşmişdi ki, Gürcüstan XVI əsrin əvvəlində bir-birilə düşmənçilik edən bir sıra müstəqil çarlıqlara parçalanmışdı. Qızılbaşların Gürcüstana yürüşləri üçün formal bəhanə gürcü çarlarının kömək üçün özlərinin müraciəti oldu. Mesxi (Samtsixi) çarı IV Kvarkvare (1516-1535) digər gürcü çarı "Başı Açıq" (İmeretiya) hökmdarı Mənuçöhr tərəfindən məğlub edilərək İsmayılın Naxçıvandakı qış düşərgəsinə gəldi və müdafiə olunmasını xahiş etdi. Şah İsmayıl Div Sultan Rumlunun başçılığı ilə bir neçə qızılbaş sərkərdəsini Gürcüstana göndərdi (10, s.64-65).

Digər bir mötəbər araşdırmaçılardan olan Zabil Bayramlı və Bəymirzə Şabıyevin tədqiqatına görə: "Səfəvilərin Gürcüstana ilk yürüşü 1516-cı ildə oldu. Mesxiya çarı IV Kvarkvare (1516-1535) Başıaçıq (İmeretiya) çarı Mənuçöhrlə savaşda yenildikdə, Şah I İsmayıldan kömək istədi. Şah İsmayıl Div sultan Rumlunun başçılığı ilə ona kömək göndərdi . Mənuçöhrü məğlub edan Div sultan IV Kvarkvareni yenə də öz ölkəsində hakimiyyətə gətirdi" (15, s.78-79).

Bütün bunlar göstərir ki, İsmayıl Çaldıran savaşında məğlub olsa da, bu onun ömrünün qalan son 10 ilində həm siyasi,həm də ictimai işlərdən kənarda qalmasına təsir etməyib.

**4.Ölümü içkidən olub?!**

Ortaya atılmış miflərdən biri də şahın ölümünün içkidən olmasıdır. Güya Çadıran savaşından sonra öz hərəminə çəkilən şah artıq içkiyə qurşanır və xəstəliyə düçar olur.

**MİF:** "Türkiyəli tarixçi Faruq Sümər qeyd edir ki, Şah İsmayılın "miniatürlərə görə, saqqalı taraş olunmuş, uzun bığlı, türkman üzlü bəyləri ilə gecə-gündüz içdiyini bilirik". Tədqiqatçı miniatürlərdə

əksini tapmış qabların içərisindəki içkinin məhz şərab olduğunu necə müəyyənləşdirdiyini bildirməsə də, qərəzlə iddia edir ki, "içkiyə qarşı hədsiz düşkünlüyü onun gənc yaşında həyata vida etməsində, hər halda, çox mühüm bir amil olmuşdur" (13).

**ARQUMENT:** Halbuki mötəbər mənbələr Şah İsmayılın şərab içilməsinə və sərxoşluğa qarşı mənfi münasibət göstərdiyini qeyd edirlər. İfrat eyş-işrətdən xoşlanmayan Şah İsmayıl hətta qonşu hökmdar Sultan Hüseyn Bayqaranın ona hədiyyə göndərdiyi rəqqasələr qrupunu da acıqla geri qaytarmışdı.Dini ideologiyanı əldə rəhbər tutaraq, öz səltənətini müqəddəslik örtüyünə bürüməyə çalışan Şah İsmayıl ibadətə xüsusi fikir verirdi. Onun İraqdakı Kərbəla, Nəcəf, Kazimeyn, Samirə ziyarətgahlarında, İmam Rzanın Məşhəddəki məqbərəsində xüsusi rituallar həyata keçirdiyi məlumdur. O, hətta Nəcəfdəki Həzrət Əli məqbərəsində saatlarla təkbaşına ibadət etmişdi. Bəzi vaxtlarda isə bütün gecəni oyaq qalaraq, minacatla məşğul olurdu" (13).

**5.Taclı bəyim məsələsi:**

Osmanlı mənbələri Taclı Bəyimin Çaldıran döyüşündə iştirak etdiyini və əsir alındığını qeyd edirlər. Səfəvi mənbələri isə onun əsir alınması haqqındakı məlumatları təkzib edirlər.

**MİF:** "Təvarixi-ali-Osman" adlı əsərdə "Şah İsmayılın xanımlarını döyüş meydanında qoyub qaçdığı və onların əsir düşdüyü" bildirilir. Digər Osmanlı müəllifləri (Cəlalzadə Mustafa və Sucudi) isə əsir alınan qadınların gözəlliyindən bəhs edirlər. Cəlalzadə Mustafaya görə, əsir alınan İsmayılın arvadı Taclı, Sultan Səlimin hüzuruna gətirilmiş, o da bu qadını qazı-əsgər Tacızadə Cəfər Çələbiyə vermişdir. Heydər Çələbi "Ruznamə" adlı əsərində əsirlər arasında qızılla bəzənmiş libas geyən bir qadının yer aldığını və aparılan araşdırmalar nəticəsində onun Şah İsmayılın arvadı olduğunun ortaya çıxdığını xəbər verir. Ona görə, bu qadın Osmanlı sultanının əmri ilə Tacızadə Cəfər Çələbiyə verilmişdir. Osmanlı tarixçisi Lütfü də eyni məlumatı təkrar edir. Lakin Mir Mehmet Katibi adlı başqa bir tarixçi əsir alınan şah arvadının "əmanət olaraq Tacızadəyə verildiyini" bildirir (3).

**ARQUMENT:** Bəzi elmi-tarixi ədəbiyyatda Şah İsmayılın Taclı xanım adında iki xanımının olması haqqında da məlumat vardır. Güman edilir ki, onlardan biri Şah İsmayılın yanında qalmış və digəri isə Osmanlı əsirliyində olmuşdur. Bu fikrin təsdiqi üçün müəyyən mənbələrə də istinad edilir. Taclı xanımın əsirlikdən xilas olaraq Təbrizə gəlib çıxması "Aləmara-yi Səfəvi" və "Aləmara-yi Şah İsmayıl" əsərlərində təsvir edilmişdir. Bu təsvirlər bir-birindən müəyyən fərqlərə malikdirlər. Amma onlar bu məsələ haqqında ümumi bir təsəvvür yaradırlar. Verilən məlumatlara görə, Taclı xanım Osmanlılara qarşı döyüşdə iştirak etmişdi və Osmanlı döyüşçüləri də onu tutmağa çalışırdılar. Bu onlara nəsib olmadı. Döyüşün səhəri günü Şah İsmayıl xanımının onların yanında olmadığını gördü və onun harada olması ilə maraqlandı. Əyanlar və əmirlər onun Təbrizdə olmasını ehtimal etsələr də, sonradan onun orada da olmadığı aşkar oldu. Bunu eşidəndə Şah İsmayılı kədər bürüdü və söylədi ki, xanımın Osmanlı əsirliyində olması onun namus məsələsidir. Sonra da əlavə etdi ki, əgər namus əldən getsə daha yaşamağa dəyərmi? Durmuş xan da ona bildirirdi ki, bizə nicat verən pərvərdigar namusumuzu da qoruyar. Şah İsmayıl Durmuş xana tapşırıq verir ki, 300 nəfərlik bir dəstə götürsün və Osmanlı qoşunları tərəfə hərəkət etsin, yolda-irizdə onunla qarşılaşarsa qarşılayıb saraya gətirsin. "Aləmara-yi Səfəvi"yə görə, Taclı xanım osmanlılarla döyüşdə yaralanmışdı və döyüş meydanından çıxandan sonra ata minərək oradan uzaqlaşmağa çalışırdı. Hara getdiyini bilmədiyindən iki gündən sonra bir səhraya gəlib çıxmışdı. Təsadüfən Durmuş xanın vəziri Mirzəşah Hüseyni İsfahani Heratdan Durmuş xanın yanına gələrkən həmin səhraya gəlib çıxmış və orada Taclı xanımla rastlaşmışdı. Mirzəşah Hüseyni İsfahani də onu Durmuş xanın yanına gətirir. Durmuş xan Taclı xanımı görəndə çox sevinir və dərhal Taclı xanımı özü ilə birlikdə saraya aparır. Şah İsmayıl bir tərəfdən Taclı xanımı görməyə sevinir. Digər tərəfdən də itkin düşməsindən narahat olduğunu onun nəzərinə çatdırır. O, Taclı xanıma deyir ki, əgər bir daha müharibələrdə iştirak etməyəcəyinə and içərsə ona toxunmayacaq. Yox, əgər yenidən döyüşlərə qatılmaq fikrinə düşəcəksə, onda onu edam etdirəcəkdir. Taclı bəyim də and

içir ki, bir daha döyüşlərə qatılmayacaqdır və bundan sonra Şah İsmayıl da onun həyatına toxunmur (7, s.780-783).

*Paralellər.*

**1. II Kir və İsmayıl nəhəng imperiyaların əsasını qoymuşlar.**

Ən qüdrətli dövrlərində Əhəməni imperiyasının ərazisi 8.000.000 kv.km olmuşdur. Əhəmənilərin ərazisi SSRİ-nin (Şarqi Avropa və Monqolustan nəzərə alınmadan) ərazisindən 3 dəfə kiçik olsa da, o dövrdə dünya əhalisinin yarıdan çoxu - təxminən 50.000.000 insan Əhəməni imperiyasında yaşamışdır.

Səfəvi imperiyasının ən qüdrətli vaxtlarında onun ərazisi 3.500.000 kv.km olmuş, bugünkü Azərbaycanı, İranı. Şərqi Anadolunu, İraqı, Əfqanistanı, Orta Asiyanın bir hissəsini, Iran körfəzindəki ərəb ölkələrini, bütün Cənubi Qafqazı, Şimali Qafqazın böyük bir hissəsini əhatə etmişdir (1, s.53).

**2. İmperiya qurmalarına rəğmən, Böyük Kirin və Şah İsmayılın sülalələri onları özlərinin deyil, ulu babalarının adları ilə tanındı**.

Böyük Kirin sülaləsi onun ulu babası - Pasarqadın birinci şahı Əhəmənin adı ilə Əhəmənilər adlandırıldı. Şah İsmayılın sülaləsi isə onun ulu babası - böyük sufi alimi, Səfəviyyə təriqətinin banisi Şeyx Səfiəddin al-İshaq al-Musəvi əl-Ərdəbilinin (1252-1334) adı ilə Səfəvilər kimi tanındı (1, s.53).

**3. İsmayılın hökmdarlıq titulları ilə digər dövlət başçıları ilə oxşarlıq təşkil etmişdir.**

**Xaqan** - I İsmayılın daşıdığı ilk hökmdarlıq titulu “xaqan” olub. Bunu Səfəvilərdən günümüzə qədər gələn rəsmi dövlət sənədləri də təsdiq edir. Səfəvi dövrü mənbələrində də İsmayılın bu titulu “Xaqani-İskəndər Şan”, “Xaqani-Süleyman Şah”, “Xaqan Şah İsmayıl” olaraq qeyd edilir.Xaqan titulu ilk dəfə hunlar tərəfindən istifadə edilib. B.e.ə.I əsrdə hunlar haqqında məlumat verən Çin mənbələrində bu ad hu-yü (oxunuşu: xax-xa) şəklində yazılıb. 293-cü ilə adi Paikuli kitabəsində hunların hökmdarı “kağan” olaraq zikr edilir.

Hökmdar səviyyəsində “xaqan” titulunu ilk dəfə Siyenbi hökmdarları daşıyıblar. Göytürk hökmdarları da “xaqan” tituluna sahib idi. Türklərin əfsanəvi hökmdarı olan Əfrasiyab (Alp Ər-Tonqa) “xaqanlar xaqanı” titulu daşıyırdı. Qaraxanlı hökmdarları Əfrasiyabın nəslindən gəldikləri üçün özlərini “xaqan” hesab edirdilər.

**Bahadır** - I İsmayılın daşıdığı ikinci hökmdarlıq titulu isə “bahadır” idi. Bahadır adı Böyük Hun yabqusu Metenin şəxsi adıdır. Çin mənbələrinə istinadən səhv olaraq “Mete” oxunan bu hun hökmdarının əsl adı “Mo-tun”dur. Sinoloqlar bu adın “baqatır” olduğunu iddia edirlər. Əslində “bahadır” “bayandur” adının fərqli oxunuşundan yaranıb. Hun hökmdarı Mo-tunun əsl adı da “Bayandur” idi.

**Sultan** - I İsmayıl “sultan” titulu da daşımışdır. Amma daha sonra I İsmayıl bu titulu öz əmirlərinə vermişdir. Buna səbəb olaraq I İsmayılın Şeybani dövlət sistemini əsas aldığı iddia edilir. Amma I İsmayıl Osmanlı sultanlarının öz əmirləri səviyyəsində olduğunu göstərmək üçün onlara “sultan” titulu verdiyi aydın olur. İskəndər Bəy Münşiyə görə, Şah İsmayıl, osmanlılardakı “sultan” adının ancaq “sancaq bəyinə” təkabül etdiyini” deyirdi.Buna baxmayaraq, Şah İsmayılın ilk dövrlərdə “sultan” titulu aldığı məlumdur. İskəndər Bəy Münşiyə görə, qızılbaşlar “əşhədü ən la ilahə ilallah” dedikdən sonra “Sultan oğlu Sultan, Xaqan oğlu Xaqan” deyirdilər.

**Şah** - I İsmayıl mənbələrdə, xüsusilə də müasir dövr əsərlərində “Şah İsmayıl” adı ilə zikr edilir. “Şah” titulu I İsmayıldan sonra, xüsusən də onun oğlu Təhmasib zamanında geniş yayılmışdı. Amma qızılbaşların İsmayıla “şah” şəklində xitab etdikləri də məlumdur. Hətta qızılbaşlar görüşdükləri zaman “salamunəleyküm” yerinə bir-birlərinə sadəcə “şah” deyirdilər.“Şah” adının kökəni və mənası geniş mübahisələrə səbəb olmuşdur. Mənbələrdə “şah” və “şahlar şahı” titulunun Quşan hökmdarları tərəfindən istifadə edildiyi haqqında məlumatlar mövcuddur. G.Fusmanın apardığı tədqiqatlara görə, Quşan hökmdarları Selevki krallarının istifadə etdiyi “basileus basileon” titulunun müqabilində “şaonano şao” (şahlar şahı) titulu daşıyırdılar (2).

**4. Həm Böyük Kirin, həm də Şah İsmayılın rəmzlərindən biri günəş diskinin təsviri olmuşdur**.

Böyük Kirin Pasarqaddakı məqbərəsində aparılmış tədqiqatlar zamanı arxeoloqlar binanın fronton hissəsinin (bir üfüqi, iki maili karnizdən ibarət üçbucaq) yuxarı tərəfində, damın altında günəş diskinin təsvirini tapmışlar. Ehtimala görə, günəş tok Tanrı Ahura-Mazdanın ilkin simvoludur. Şah I Təhmasibin saray şairi Mirza Qasimi Günabadinin 1533-cü ildə başa çatdıraraq şaha təqdim etdiyi "Şahnamə" adl tarixi poemasının "Şah İsmayıl-nams" adlı birinci hissəsinda Şah İsmayılın dövründə ay və günəş təsvirli yaşıl bayraqların mövcudluğu qeyd olunmuşdur. Şah İsmayıl şeirlərinin birində günəş va ay rəmzlərinin mənalarını belə izah edirdi.

Xatayi der: rəhm etməzəm yalana,
Özün təslim edər özü gələna,
Ay Əlidir. Gün Muhammad bilana,
Bax, nəzər eylə də, həmən arif ol".

Günəş diski Səfəvi bayraqlarında bəzən qoç, bəzən isə arslan, yaxud digər simvollarla birlikdə təsvir olunurdu. Müsəlman simvolizmində günəş rəmzi yeni məzmunla zənginləşərək Allahın Yer üzünə yaydığı nuru, İslam Peyğəmbərini ifadə etməyə başlamışdır” (1, s.37-38).

**5. Həyatlarının ən böhranlı məqamlarında onları təhlükədən qadınlar xilas etmişlər.**

Babası Astiaqın əmri ilə saray adamı Qarpaq yeni doğulmuş Kiri vəhşi heyvanlara yem etməsi üçün çoban Mitridata verdikdə sonuncunun arvadı Spaka onsuz da tərəddüd edən arini bu fikirdən daşındırmış, balaca şahzadəni övladlığa götürüb saxlamış, boya-başa çatdırmışdı.

1494-cü ildə Şeyx Heydərin böyük oğlu Şeyx Sultan Əli az yaşlı qardaşlarının qaçıb gizlənmələrinə vaxt qazanmaq üçün Cənubi Azərbaycanın Şəməsi adlanan məntəqəsində Ağqoyunlu sultanı Rüstəm Mirzənin onları təqib edən sayca çox üstün qüvvələrinin üzərinə həmlə etdi. Şeyx şiddətli döyüşdə əsl bahadır kimi vuruşaraq şəhid olduqdan sonra Səfəvilərin sədaqətli müridləri balaca İsmayılı Ərdə-

bildə gizlətdilər. Onların ardınca İsmayılı hər vasitə ilə tapıb qətlə yetirmək tapşırığını almış Ağqoyunlu sərkərdəsi Əbihsultanın dəstələri şəhərə daxil oldular. Balaca İsmayıl anası Aləmşahbəyimin ilk vaxtlarda onu və qardaşlarını gizlətdiyi Seyx Səfiəddin məqbərəsini tərk edib Səfəvi müridi Qazi Əhməd Kakulinin evinə köçdü və üç gün orada qaldı. Sonra isə yeddi yaşlı İsmayılı Xancan adlı qadının himayəsinə verdilər. O, bibisi Paşa xatundan (Məhəmməd bəy Türkmanın arvadı) başqa hamı dan gizlənərək bir ay Xancanın himayəsi altında yaşadı. Əbihsultan Ərdəbildə olduğu müddətdə İsmayılın qaldığı yeri anası Aləmşahbəyim xatuna belə söyləmədilər. Paşa xatun İsmayılı Zülqədər tayfasından olan Übayi-cərrahə adlı qadının yanına gətirdi. Həmin qadının evi Əmir Teymurun əsir aldığı və Şah İsmayılın ulu babası Şeyx Xacə Əlinin xahişi ilə azad edib Ərdəbildə yerləşdirdiyi türk əsirlərinin nəsilləri yaşayan Rumlu məhəlləsində idi. Əbihsultanın adamlarının Rumlu məhəlləsində axtarışlara başlamasından xəbər tutan Üba İsmayılı ehtiyatla öz evindən çıxararaq Ərdəbilin Cümə məscidinə gətirib Allahvermiş ağa adlı şəxsin dəfn olunduğu sərdabədə yerləşdirdi. Üba aradabir Aləmşahbəyimin yanına gedir, ona oğlu İsmayılın sağ-salamat olduğunu xəbər verirdi. Beləliklə, Böyük Kiri Spaka, Şah İsmayılı isə Xancan, Paşa xatun və Üba adlı qadınlar xilas etmişlər (1, s.24-26).

***Nəticə.*** Şah İsmayılın xidmətlərini bir heç etmək üçün, xalqımızın qəhrəmanlarına qara yaxmaq üçün işlədilən bəzi propokandalı yazılar, nəşrlər ictimaiyətin şüuruna böyük zərbələr endirmişdir. Azərbaycan xalqının Şah İsmayılla təkcə böyük dövlət xadimi kimi deyil, həm də cəsur, istedadlı sərkərdə,yüksək mənəvi keyfiyyətləri hətta o vaxtlar Azərbaycana gələn Qərb diplomatlarında da heyranlıq doğuran şəxsiyyət kimi fəxr etməyə tam haqqı vardır. Biz onun sərkərdə istedadı sayəsində yaranmış tarixi dövlətin varisləriyik, elə bir dövlətin ki, sonralar ərazisində bır sıra dövlətlər yaranmışdır və indi də mövcuddur. Şah İsmayılın obrazı təbiətin Azərbaycan xalqına necə böyük mənəvi və fiziki potensial bəxş etməsinin nümunəsi olmuşdur və olacaqdır. Biz əcdadlarımızın böyük əməlləri ilə yalnız fəxr etməklə kifayətlənməməliyik, həm də bu keyfiyyətləri itirməmək, hə-

yatda onların bizə yol yoldaşı olması üçün əməli fəaliyyət göstərməliyik. Haradan qaynaqlandığından asılı olmayaraq, tariximizə edilən hücumlara layiqli cavab vermək üçün ictimai rəyi səfərbər etmək çox vacibdir. Zəngin keçmişə malik formalaşmış millət olmağımızı dünyaya yalnız bu yolla bəyan edə bilərik. Heç şübhəsiz, öz tarixi keçmişi kimi möhkəm bünövrəyə arxalanmayan xalqın gələcəyi ola bilməz. İsmayıl şəxsiyyəti elə bir portretə malikdir ki onu heç bir tarixi obrazla müqayisə etmək mümkün olmur. Məqalədə istifadə edilən paralellər areal baxımından və ictimai-sosial-siyasi həyatında baş vermiş oxşarlıqlarının məcmuusundan irəli gəlmişdir.

## ƏDƏBİYYAT

1. Araz Şəhrili."Səfəvilər: paralellər, ehtimallar, həqiqətlər...". Bakı, Mücrü nəşriyyatı MMC, 2019, 252 s.
2. Əkbər Nəcəf. "Şah İsmayıl 3500 illik titulu necə diriltdi?"- https://azmarka.az/manset/28201-ah-smayl-3500-illik-titulu-nec-diriltdi-sfvi-hkmdar-haqda-blnmynlr.html?fbclid=IwAR37GVsB_xjdCCd6a4Zj6Hj1NFxCr_-nlb6f5zrZ4NoQ2Un0GBdUbhYgo5c [Müraciət tarixi: 21.04.2022].
3. Əkbər Nəcəf. Şah İsmayılın xanımı. - https://www.xural.com/sah-ismayilin-xanimi/ [Müraciət tarixi: 21.04.2022].
4. Əntiqə Rəşidqızı. Tarixi şəxsiyyət I Şah İsmayıl Xətai / Ədalət, 2010, 8 iyun, s.5. - http://anl.az/down/meqale/adalet/2010/iyun/123413.htm [Müraciət tarixi: 21.04.2022].
5. Çaldıran savaşından 500 il ötür / Xalq Cəbhəsi, 2014, 23 avqust, s.13. - http://anl.az/down/meqale/xalqcebhesi/2014/avqust/388281.htm [Müraciət tarixi: 21.04.2022].
6. Güntay Gəncalp (CavanÇir). Səfəvilər. Bakı, Alatoran, 2014, 272 s.
7. Mehman Süleymanov. Şah İsmayıl Səfəvi. Bakı, «Elm və təhsil», 2018, 824 s.- https://www.ebooks.az/view/q76wQvG4.pdf [Müraciət tarixi: 21.04.2022].

8. Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti (“Tarix-i Aləmara-yi Şah İsmayıl” əsəri əsasında). Bakı, “Nurlan”, 2011, 481 s. - http://lib.az/users/1/upload/files/I_SAH_ISMAYILIN__HAKIMIYYETI.pdf [Müraciət tarixi: 21.04.2022].
9. Nicat Səfərov. Səfəvilər haqqında şübhələrə cavablar. I Cild. Bakı, “MBM”, 2016, 176 s.
10. Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti. Bakı, “Şərq-Qərb”, 2007, 344 s.+8 səh.(illüst.).
11. Ramiz Mehdiyev. Şah İsmayıl Səfəvi ali məramlı tarixi şəxsiyyət kimi / “Azərbaycan”, 2012, 5 dekabr, № 271, s.3-6. - https://www.elibrary.az/docs/QAZET/qzt2012_2742.pdf [Müraciət tarixi: 21.04.2022].
12. Ramiz Mehdiyev. Tarixi idarakın elmiliyinə problemlərinə dair. Bakı, Şərq-Qərb, 2013, 144 s.- https://kitabxana.net/files/books/file/1447134881.pdf [Müraciət tarixi: 21.04.2022].
23. “Şah əslində necə öldü?”- https://axar.az/news/layiheler/277834.html [Müraciət tarixi: 08.04. 2022]
14. Şah İsmayıl anasını niyə öldürtdürdü? - https://kulis.az/xeber/tarix/-2900 [Müraciət tarixi: 21.04.2022].
15. Zabil Bayramlı, Şabiyev B.Ş. Azərbaycan Səfəvi dövləti (XVI-XVII əsrlər) (təkmilləşdirilmiş ikinci nəşri). Bakı, «Elm və təhsil» nəşriyyatı, 2017, 360 s.

**AZER HANDAMOV**
*Baku State University SABAH Groups*
*3rd year student of the speciality of History teacher*

## THE LAST KHİZİLBASH: MYTHS, ARGUMENTS, PARALLELS

In the Middle Ages, in the history of the statehood of our people, the Safavid Empire was a link in the chain of previous and subsequent Azerbaijani states as the highest stage under his leadership.

The Safavid ruler Shah Ismail was known in the history of Azerbaijan as a person who also contributed to the development of the Azerbaijani language and Azerbaijani literature. During his reign, the Azerbaijani language was not only an ordinary means of communication, but also of political importance. Even European authors, historians and researchers admired his work. Among them, Karl Marx said: “Shah Ismail, the founder of the Safavid dynasty,he was a real congueror. During his 14 years in power, he conquered 14 provinces. For true scholars and influential historians, Shah Ismail remains a great statesman and a talented commander. In the minds of Azerbaijanis, Shah Ismail is the person who united the Azerbaijani lands and created the Centralized Azerbaijani State. When it comes to the personality of Shah Ismail Safavi, most of our compatriots often simply mention his biography and his work to bring Shiism to the level of state ideology, do not disclose the political goals of this step. However, in the face of Shah Ismail's great legacy, these arguments are very dull, because they are incapable of rendering his great services to his people.

*Keywords*: Shah Ismail, Shuubiyya, Alemshahbeyim, Tajli, Battle of Chaldiran, II Kir.

*Daxil olma tarixi*: 30.04.2022-ci il.
*Çapa imzalanma tarixi*: 25.05.2022-ci il.

**UOT 94; UOT 94"19/..."**

**BALAMİRZƏ MƏMMƏDLİ**
*Bakı Dövlət Universitetinin*
*"Slavyan ölkələri tarixi" ixtisası üzrə I kurs magistrantı*
**balamirza.mammadli@bsu.edu.az**

# II DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ SSRİ-NİN İŞĞAL OLUNMUŞ ƏRAZİLƏRİNDƏ KOLLABORASİONİZM

*Elmi rəhbər:*
tarix elmləri doktoru Fazil Baxşəliyev
Bakı Dövlət Universiteti

*Keçən əsrin əvvəllərində Avropanın bir çox ziyalıları belə hesab edirdilər ki, XX əsr müharibələrsiz elmi-texniki tərəqqi əsri olacaq və bütün bəşəriyyət üçün "qızıl əsrə" çevriləcək. Lakin, zaman keçdikcə tarix göstərdi ki, onlar elmin və texnologiyanın inkişaf edəcəyini düzgün hiss etsələr də, müharibələrin baş verməməsini söyləməkdə yanılıblar. Çünki, həm iki dünya müharibəsi, həm də dünyanın ən müxtəlif ölkələrində baş verən kifayət qədər çoxlu sayda lokal münaqişələr XX əsri bütün bəşər tarixinin ən qanlı yüzilliyinə çevirmişdir. Məhz XX əsrdə baş vermiş İkinci dünya müharibəsi də milyonlarla insan üçün ən ağır sınaqlardan biri olmuşdur: xüsusilə, düşmən işğalı altına düşən ərazilərin sakinləri üçün. Həmin insanlar işğal şərtləri altında yaşamaq – həyatda qalmaq üçün hər cür fəaliyyətə razı olmağa sadəcə olaraq məcbur idilər. Belə fəaliyyətlərindən biri də kollaborasionizm idi. Lakin, SSRİ-nin nasistlər tərəfindən işğal olunmuş ərazilərindəki bu kollaborasionizm əksər hallarda "sağ qalmaq uğrunda" olması ilə səciyyələnirdi. Məqalədə, İkinci dünya müharibəsinin başa çatmasından sonrakı bir neçə onilliklər ərzində sovet tarixçiləri tərəfindən səthi yanaşılmış və əsaslı tədqiqatlardan kənarda qalmış kollaborasionizm hadisəsi, onun səbəbləri, formaları və nəticəsi müasir elmi ədəbiyyat əsasında tədqiq edilmişdir.*

*Açar sözlər:* SSRİ, Almaniya, İkinci dünya müharibəsi, nasist işğal rejimi, kollaborasionizm.

***Giriş.*** İkinci dünya müharibəsi, xüsusilə onun mühüm tərkib hissəsi olan Almaniya-SSRİ müharibəsinin tarixi ilə bağlı bu günə kimi çoxlu sayda elmi əsərlər yazılsa da, bir sıra məsələlər uzun illər boyunca elmi-obyektiv tədqiqatlardan kənarda qalmış, səthi yanaşılmış və ya təhrif olunmuşdur. Müharibə tarixindəki belə məsələlərdən biri də nasist işğalı zamanı baş verən kollaborasionizmdir. Kollaborasionizm deyildikdə, ilk növbədə nasist işğal rejimi ilə hərbi, iqtisadi, siyasi, ideoloji, inzibati və s. kimi müxtəlif formalarda əməkdaşlıq nəzərdə tutulur. Elə terminin özü də, fransızca hərfi mənası "əməkdaşlıq" olan "*collaboratio*" sözündən götürülmüşdür. 1941-ci ildə Almaniya-SSRİ müharibəsinin başlanmasına qədər kollaborasionizmi Filipp Petenin rəhbərlik etdiyi Vişi rejiminin simasında Fransa, Vidkun Kvislinq hökumətinin simasında Norveç kimi bir sıra Avropa ölkələrində müşahidə etmək olar.

İkinci dünya müharibəsi zamanı kollaborasionizmin miqyasına görə daha geniş yayıldığı ölkələrdən biri də SSRİ olmuşdur. Sovet tarixşünaslığında bu problemin üzərindən çox vaxt sükutla keçilmiş, kollaborasionizmə bütöv bir hadisə kimi deyil, düşmənlə əməkdaşlıq edən tək-tək adamlar – kollaborasionistlər prizmasından yanaşılmış və həmin adamların hamısı bir qayda olaraq "satqın", "vətən xaini", "casus", "cinayət əlbiri" kimi adlarla təqdim olunmuşdular. Bundan başqa, müharibə zamanı sovet vətəndaşlarının nasist işğalçıları ilə əməkdaşlığına əsasən yalnız "vlasovçular" hərəkatı mövqeyindən baxılmış və Andrey Vlasov satqınlığın özünəməxsus etalonu hesab mişdi. Lakin, Sovet İttifaqının dağılmasından sonra məxfi arxivlərin açılması ilə postsovet məkanında, xüsusilə Rusiyada problemə elmi-obyektiv yanaşmalar göstərdi ki, kollaborasionizm təkcə vlasovçular hərəkatından ibarət olmamış, əksər hallarda işğal şərtləri altında sağ qalmaq məcburiyyətindən kollaborasionizmdə "iştirak edən" insanların heç də hamısı satqın və ya vətən xaini olmamışdılar.

SSRİ-nin işğal olunmuş ərazilərində yaşayan yerli əhalinin öz iradələrindən asılı olaraq və ya olmayaraq düşmənlə bu və ya digər formada əməkdaşlıq etməsinin məcburi xarakterə malik olması ilə bağlı məntiqi bir aspekt diqqəti cəlb edir: belə ki, onların başqa se-

çimi sadəcə olaraq yox idi. Çünki, Sovet İttifaqında şəxsi mülkiyyət anlayışı mövcud deyildi və buna görə də dolanmaq üçün hər hansı dövlət müəssisəsində işləməkdən başqa yol yox idi. Məsələ burasındadır ki, əgər vətəndaş hansısa fabrik və ya zavodda işləyirdisə və nasist işğalından sonra da orada işləməkdə davam edirdisə, o de-fakto olaraq işğalçı rejimə işləməklə qeyri-iradi olaraq "kollaborasionistə" çevrilmiş olurdu. Bu baxımdan, II dünya müharibəsi zamanı kollaborasionizm fenomeninin daha ətraflı təsnifatını alman tarixçisi Hans Verner Noylen vermişdir. O, hesab edirdi ki, əslində işğal edilmiş ərazinin bütün əhalisi kollaborasiondur, fərq yalnız müxtəlif tərəflərin subyektiv və obyektiv yanaşmasındadır. H.Noylen kollaborasionizmi aşağıdakı növlərə ayırırdı:

1) neytral kollaborasionizm: bu zaman şəxs işğal şərtləri altında elə yaşamağa davam edir ki, sanki onun ölkəsində heç bir dəyişiklik baş verməyib və bunu "dəvəquşu siyasəti" adlandırmaq olar; 2) taktiki kollaborasionizm: düşmənlə əməkdaşlıq edən şəxs əlverişli siyasi məqam gözləyir ki, işğalçıdan xilas olsun; 3) şərti kollaborasionizm; 4) danışıqsız və ya qeyd-şərtsiz kollaborasionizm. (25, s.268-290).

***Kollaborasionizmin səbəbləri.*** Nasist Almaniyasının hücum etməməklə bağlı paktı pozaraq SSRİ-yə hücum etməsi ilə başlanan müharibənin ilk mərhələsində alman ordusunun güclü zərbə qüvvəsi, tank və motorlaşdırılmış birləşmələrinin sürətlə irəliləməsi nəticəsində Qırmızı ordu birləşmələrinin idarəetməsi pozulmuş və ölkənin içərilərinə doğru geri çəkilməyə başlamışdı. Artıq, 1941-ci ilin iyun-sentyabr aylarında 1 milyon 699 min nəfər sovet əsgər və zabiti əsir və ya itkin düşmüşdür (8, s.751). Almanların məlumatına görə, 1941-ci ilin 1 dekabrına kimi 3,8 milyon nəfər, müharibənin sonuna kimi isə, 5,7 milyon nəfər sovet hərbi qulluqçusu onlara əsir düşmüşdü (14, s.22-32.). Nasist Almaniyası artıq 1941-ci ilin dekabrın əvvəlinə kimi Sovet İttifaqının 8,7% ərazisini ələ keçirməyə nail olmuşdu. İşğal edilmiş ərazilərə Belorusiya SSR, Ukrayna SSR, Moldova SSR, Pribaltika ölkələri, habelə RSFSR-in sıra regionları (əsasən qərb və cənub-qərb) daxil idi. (7, s.509).

Almaniyanın SSRİ-yə müdaxiləsinin kulminasiya dövründə nasistlərin ələ keçirdiyi ərazilərdə 70 milyon insan yaşayırdı (1, s.20). Lakin müharibə illərində nasistlərin tərəfinə keçmiş, kollaborasionizmdə iştirak etmiş sovet vətəndaşlarının dəqiq sayı ilə bağlı vahid bir fikir yoxdur. Ordu generalı rütbəli hərbi tarixçi M.Qaryeyevin məlumatına görə, Rus Azadlıq Ordusu (RAO) və digər nasionalist formalaşmalar 200 min nəfəri əhatə etmişdir (10). Rusiya tarixçisi A.Epifanov yazır: "1 milyon nəfər əlində silah hitlerçilərin tərəfində çıxış etmişdir. SSRİ vətəndaşlarından 150 min nəfəri SS ordularında, 60-70 min nəfəri hərbi idarələrdə, 300 min nəfəri mülki idarələrdə, 250 min nəfəri "milli şərq legionlarında", 500 min nəfər vermaxtın ayrı-ayrı bölmələrində xidmət etmişdir" (12, s.38). Mühacir tarixçi Y.Andreyeva özünün Londonda nəşr olunmuş əsərində yazır ki, 1944-cü ildə təqribən 1 milyon sovet vətəndaşı vermaxtda xidmət etmiş, təqribən 3 milyon nəfər isə Üçüncü reyxin icbari işlərində çalışmışdır (1, s.20). Hətta, başqa bir mühacir müəllif – A.Kazansev özünün "Üçüncü qüvvə" adlı kitabında yazır ki, 1941-1945-ci illərdə 10 milyona qədər sovet vətəndaşı stalinizmlə mübarizədə iştirak etmişdi (16). A.Kazansevin göstərdiyi rəqəm bir qədər qeyri-real görünsə də, hər halda müxtəlif müəlliflərin verdiyi məlumatlarda söhbətin milyonlardan getməsi müharibə illərində SSRİ-nin işğal edilmiş ərazilərində kollaborasionizmin niyə bu qədər kütləvi xarakter alması sualını doğurur.

Sovet İttifaqında kollaborasionizmin səbəbləri içərisində ilk növbədə müharibəyə qədərki dövrdə SSRİ vətəndaşlarının böyük hissəsinin sovet hakimiyyətindən narazılığını, zorakı kollektivləşdirmə, kütləvi aclıqlar, repressiyalar, ateizm ideologiyası altında dini təqiblər, bir sözlə Stalinin qurduğu sərt totalitar rejimin mövcud olmasını göstərmək olar. Rusiya tarixçiləri O.Budnitski və Q.Zelenina bununla bağlı yazırlar: "Müharibə ərəfəsində Sovet İttifaqında insanların heç də az olmayan hissəsi sovet hakimiyyətinin sonunu arzulayır, bir çoxları onun məhvi üçün istənilən xarici qüvvə ilə əməkdaşlıq etməyə hazır idilər. ...Stalinist modernizasiyanın yaratdığı ağır sənaye və kolxoz quruluşu milyonlarla insan tələfatına səbəb olmuşdu. Əhali

arasında 1930-cu illər aclığının səbəb olduğu itkilər ölkənin Birinci dünya müharibəsindəki ümumi itkiləri ilə müqayisə olunacaq dərəcədə çox idi" (2, s.7).

Statistik faktlar göstərir ki, həqiqətən də Almaniya ilə müharibə ərəfəsində SSRİ-də sosial-demoqrafik vəziyyət, sovet vətəndaşlarının sosial rifahı son dərəcə aşağı olmuşdur. Belə ki, 30-cu illərin sonlarında Sovet İttifaqında bütün ölənlərin yarısı 16-49 yaş arası əhali olmuşdur. 1940-cı ildə SSRİ-də orta ömür müddəti kişilər üçün 38,6 yaş, qadınlar üçün 43,9 yaş idi (21, s.26-47). 30-cu illərin sonlarında din əleyhinə kampaniya, ateist təbliğatı son dərəcə güclənmiş, ibadət evlərinin dağıdılması və din xadimlərinin repressiyaları kütləvi hal almışdı. Belə ki, əgər 1936-cı ildə SSRİ ərazisində 20 min kilsə və məscid var idisə, 1941-ci ilin əvvəlində onların sayı mindən daha az qalmışdı (2, s.7). Bu isə, əhalinin xüsusilə inanclı hissəsi arasında stalinist rejimə qarşı kəskin qəzəb yaratmışdı.

Bütün yuxarıdakı səbəblərlə yanaşı, kütləvi kollaborasionizmin əsas səbəbi kimi işğal şərtləri altına düşən milyonlarla vətəndaşın, xüsusilə, qocalar, qadınlar və uşaqların fiziki olaraq sağ qalması problemini göstərmək vacibdir. Rusiya tarixçisi F.Sinitsın kollaborasionizmin səbəbləri arasında xüsusi yer alan psixoloji motivlərlə bağlı yazır ki, "işğalçıların qəddarlığı qarşısında qorxu, öz ailəsini qorumaq və əsirliyin ağır şərtlərindən xilas etmək kimi psixoloji motivlər sovet hərbi əsirlərinin kollaborasionizmə cəlb olunmasında başlıca rolu oynayırdı" (23, s.17-41). Bu baxımdan dinc sakinlər arasında kollaborasionizm əsasən məcburi xarakterə malik olmuşdur. Eyni zamanda hərbi kollaborasionizmdə iştirak etmiş bütün hərbi qulluqçuları da "vətən xaini" hesab etmək düzgün olmazdı. Çünki, onların əksəriyyəti öz iradəsi ilə düşmən tərəfə keçməmiş, mühasirə vəziyyəti, yaralanma, qeyri-müəyyən şərait, öz hərbi hissəsi ilə rabitəni itirmə kimi hallar buna şərait yaratmışdır (4, s.265-266). Bu baxımdan Harvard Universitetinin professoru Stenli Hoffmanın kollaborasionizmi "məcburi (qeyri-iradi)" və "şüurlu" olmaqla 2 yerə bölməsini haqlı bölgü hesab etmək olar (6, s.375-395). Sovet kollaborasionistlərinin böyük hissəsini məhz birinci tipə aid olmuşdur. Elə buna görədir ki,

sonradan 17 sentyabr 1955-ci ildə SSRİ Ali Soveti Rəyasət heyəti də "1941-1945-ci illər Böyük Vətən müharibəsi dövründə işğalçılarla əməkdaşlıq etmiş sovet vətəndaşlarının amnistiyası haqqında" sərəncam imzalamışdı.

***Hərbi kollaborasionizm.*** Hələ SSRİ-yə hücum başlanmazdan əvvəl "almanlardan başqa heç kimə silah daşımağa icazə verilməməsini" bildirən Üçüncü reyxin füreri Hitler hesab edirdi ki, yaxın vaxtlarda işğal altına salınacaq xalqları hətta asan şəkildə silahlı köməyə cəlb etmək mümkün olsa belə, bunu etmək düzgün deyil: "Günlərin birində onların silahının bizim özümüzə qarşı çevirməsi qaçılmazdır. Ona görə də, slavyana, çexa, kazaka, ukraynalıya deyil, yalnız almana silah verilməlidir!" (20, s.48-49). Lakin, Sovet İttifaqına hücumun ilk günlərindən rumın, macar, slovak, italyan və fin əsgərlərinin, ispanların "mavi diviziyasının" və digər xalqların nümayəndələrinin vermaxtla birlikdə hərbi əməliyyatlarda iştirak etməsi göstərdi ki, Hitler sonradan fikrini dəyişib. Və məhz buna görə idi ki, işğal olunmuş SSRİ ərazilərində də elə ilk vaxtlardan müxtəlif antisovet nasionalist dəstələrin təşkil olunmasına başlanıldı. Xüsusilə, bu zaman Pribaltika nümayəndələrindən yaradılan silahlı birləşmələr sayca daha çox idi. Artıq 1941-ci ilin avqustundan, "Şimal" ordu qrupunun komandanı olan feldmarşal Vilhelm fon Leyeb Pribaltika xalqları – latışlar, litvalılar və estonlardan ibarət xüsusi dəstələrin, könüllü batalyonların vermaxtda xidmətə başlamasına və antipartizan mübarizəsində iştirak etməsinə rəsmi icazə vermişdi. 1941/42-ci ilin qışında yaradılan Baltik müdafiə batalyonları ilk olaraq arxa cəbhə üçün xidmətə cəlb edilsə də, 1942-ci ilin iyulundan ön cəbhəyə yönəldilmişdi (5, s.26-27).

SSRİ-nin işğal olunmuş ərazilərində slavyan mənşəli (xüsusilə ruslar, ukraynlar) sovet vətəndaşlarının hərbi kollaborasionizmə cəlb edilməsi ilk vaxtlar məsələni bir qədər qəlizləşdirmişdi. Bunun səbəbi nasistlərin irqi siyasəti ilə bağlı idi. Belə ki, ari nəzəriyyəsinə görə, yəhudilər və qaraçılarla yanaşı slavyanlar da "untermenş" (almanca tərcümədən: qeyri-insan, adamcıq) hesab olunurdu (3). Ona görə də, nasist rəhbərliyi əvvəlcə onlara silah vermək istəmirdi. Lakin, Mosk-

va döyüşündən sonra "ildırımsürətli müharibə" planının pozulmasından sonra III Reyx komandanlığı artıq rusların döyüş potensialını başqa cür qiymətləndirərək onlarla da hərbi əməkdaşlıq etməyə razılıq verdi. Beləliklə, həmin vaxtdan etibarən işğal olunmuş sovet ərazilərinin yerli əhalisi nasist xüsusi xidmət orqanlarına – polis və cəza dəstələrinə, təbliğat-təşviqat və kəşfiyyat məktəblərinə cəlb olunmağa, "Rus Azadlıq Ordusu", "Rus Azadlıq Xalq Ordusu" kimi hərbi birləşmələri formalaşdırılmağa başlandı. Rus Azadlıq Ordusunun rəhbəri general Andrey Vlasovun silahdaşlarından biri olan Vilfrid Ştrik-Ştrikfeldt artıq 1941-ci ilin yayından minlərlə rusun nasistlərlə əməkdaşlığa qoşulması ilə bağlı yazırdı: "Müharibənin ilk aylarından Qırmızı ordunun əsgər və zabitləri, həmçinin çoxlu sayda şəhərli və kəndli alman hərbi hissələrinə qoşulurdular... Könüllü hissələr əvvəlcə "bizim ivanlar", daha sonra isə "hilfsvilliger" (qısaca hivi; yəni "könüllü köməkçilər" – B.M.) adlandırılırdı" (26, s.57-58). V.Ştrik-Ştrikfeldt həmçinin etiraf edir ki, "könüllü köməkçilərdən" ən ağır işlərdə: yolların, körpülərin, ümumiyyətlə hitlerçilərin arxa cəbhəsinin təchizatı üçün lazımi obyektlərin tikintisində istifadə olunurdu. Bundan başqa, müharibənin ilk aylarında nasistlərin "könüllü köməkçiləri" sovet müqavimətinin nümayəndələri, partizanlar üçün almanlardan daha təhlükəli idi. Çünki, vermaxt əsgərlərindən fərqli olaraq onlar fəhlə və kəndlilərə məxsus mülki geyimdə olur, öz "sinfi qardaşlarına" qarşı vuruşurdular. Ona görə də, partizanlar və podpolşiklər düşmən ilə əlbir olanların fiziki məhvi üçün müntəzəm olaraq əməliyyat aparırdılar.

Sovet-alman cəbhəsində əsaslı dönüşün başlanması, antifaşist müqavimət hərəkatının güclənməsi nasist təbliğat-təşviqat xidmətini kollaborasion bölmələrə sovet vətəndaşlarını daha fəal cəlb etmək üçün yeni planlar hazırlamağa vadar edirdi. Əgər 1941-ci ildə almanlar yerli əhalidən əsasən iqtisadi dəstək tələb edirdilərsə, 1942-43-cü illərin hərbi əməliyyatlarında, xüsusilə Stalinqrad döyüşündə canlı qüvvədə əhəmiyyətli itkilərin olması səbəbindən, yerli əhalini səfərbər edərək köməkçi dəstələr yaratmağa daha çox önəm verirdilər. Nasistlərin işğal olunmuş ərazilərdə yeniyetmələr və qocalar da daxil

olmaqla, bütün kişi əhalisini səfərbərliyə məcbur etməsi səbəbindən yerli əhalinin çox hissəsi meşələrə qaçır və ya partizanlara qoşulurdular.

Alman kəşfiyyat xidməti və Reyxin təbliğat nazirliyinin təşəbbüsü ilə 1943-cü ilin ortalarında Qırmızı ordunun keçmiş general-leytenantı A.Vlasovun komandanlığı altında Rus Azadlıq Ordusu (RAO) yaradıldı. Vlasov Qırmızı ordunun 2-ci zərbə ordusunun komandiri kimi uğursuz Lyuban əməliyyatı zamanı, 1942-ci ildə almanlara əsir düşmüş, Qırmızı ordunun almanlara əsir düşən ali zabitlərinin hərbi düşərgəsində hərbi kollaborasionizmdə iştirak etməyə razı olmuşdur. A.Vlasovun şəxsiyyətinin motivləri tarix elmində hələ də mübahisəli məsələlərdəndir. O.Budnitski və Q.Zelenina Vlasovla bağlı yazır: "heç kim demir ki, o, əsir düşənə qədər də Rusiyanı "xilas etmək" fikrində olub" (2, s.6).



*General Andrey Vlasov və "Rus Azadlıq Ordusunun" əsgərləri. Müharibənin sonlarında sovet ordusuna əsir düşən Vlasov hərbi rütbəsindən və bütün dövlət mükafatlarından məhrum edilmiş, Vətənə xəyanət ittihamı ilə 1 avqust 1946-cı ildə asılaraq edam olunmuşdur (1, s.116).*

A.Vlasov 1942-ci ilin 27 dekabrında Smolenskdə "Rusiyanı kommunizmdən azad etmək" üçün alman komandanlığına "Rus Azadlıq Ordusunun" (RAO) yaradılmasını təklif edən bəyannamə imzalamışdı. Smolensk bəyannaməsində bolşevizmi rus xalqının düşməni adlandıran Vlasov Stalin siyasətini kəskin tənqid edir, Rus ko-

mitəsinin yaradılmasını elan edirdi (24). 1943-cü ildə yaradılmağa başlanan RAO birləşmələri ilk növbədə SSRİ-nin işğal edilmiş ərazilərində nasist polis-mühafizə xidmətlərinə və partizanlarla mübarizəyə cəlb olundular (22, s.844-849). 29 aprel 1943-cü ildə vermaxtın Ali Baş Komandanlığının baş qərargah rəisi, general-mayor Kurd Zeitsler tərəfindən verilən könüllülər haqqında nizamnaməyə əsasən, rus millətindən olan bütün könüllülər rəsmi olaraq Rus Azadlıq Ordusunda birləşdirildi (11, s.189). RAO əsasən əsir düşən sovet əsgərlərindən, habelə mühacirlərdən formalaşdırılmışdı.

Almanlar kollaborasionist bölmələr üçün ixtisaslı kadrlar hazırlamaq məqsədilə xüsusi məktəblər şəbəkəsi yaratmağa başladılar. Bu baxımdan Berlin ətrafındakı Dabendorf məktəbi xüsusilə fərqlənirdi. Qırmızı ordunun almanlara əsir düşən siyasi işçiləri və zabitləri içərisindən kollaborasionizmə könüllü razılıq verənlər bu məktəblərdə müəllim kimi dərs keçirdilər. RAO-nun müəllimlərinin əsas vəzifəsi kursantlara "bolşevizmə qarşı alman ordusu ilə birlikdə mübarizə aparmağı, müharibədən sonra yəhudilərsiz və kommunistlərsiz yeni Rusiya qurmağı" təlqin etmək idi (18, s.106).

***İqtisadi kollaborasionizm.*** Nasistlər digər işğal olunmuş ərazilər kimi, SSRİ-nin də işğal olunmuş vilayətlərində iqtisadi sferada kollaborasionizmə xüsusilə böyük diqqət yetirirdilər. "Biz sonuncu nəfərinə kimi hər kəsi, bizim üçün işləməyə məcbur edirik" – deyə, Hitler 1941-ci noyabrında bildirirdi. Reysxmarşal German Görinq də füreri dəstəkləyərək deyirdi: "Rus fəhlələri güclü rus sənayesini quran zaman öz əmək qabiliyyətlərini sübut etdilər. İndi onlardan Almaniya üçün istifadə etmək lazımdır" (19, s.161).

Təsadüfi deyildir ki, nasist Almaniyasında SSRİ ərazilərinin istifadə olunması ilə bağlı direktivlər hələ müharibəyə qədər hazırlanmışdı. Bu məsələlər ilə Görinqin başçılıq etdiyi Şərq qərargahının iqtisadi rəhbərliyi məşğul olurdu. Bu qərargahda alman ordusu tərəfindən ələ keçirilmiş sovet vilayətlərinin iqtisadi baxımdan istismarı üzrə ümumi direktivlər hazırlanmış və "Yaşıl qovluq" şərti adı altında dərc olunmuşdu. Şərq qərargahının direktivləri, işğal olunmuş bölgələrin bütün iqtisadi resurslarının vermaxt və hərbi sənayenin

təchizatı məqsədilə müharibənin sonuna kimi tam və hərtərəfli istifadə edilməli olduğunu göstərirdi. “Yaşıl qovluq” taxıl və ərzaq ehtiyatlarının, neft məhsullarının, əlvan metalların, nəqliyyat vasitələrinin, hər növ sənaye xammalının, yarımfabrikat və hazır məhsulların tam olaraq müsadirə olunmasını təsbit edirdi. Həmçinin SSRİ-nin işğal olunmuş ərazilərində iri sənaye müəssisələrinin ləğvi nəzərdə tutulurdu. İşğal edilmiş şərq ərazilərinin reyxs naziri Alfred Rozenberq gizli əmrlərdən birində: “sənaye mərkəzlərindəki yerli əhalinin siyasi baxımdan arzu olunmayan hissəsindən qurtulacağıq” – deyə, bildirirdi (13, s.52).

Moskva döyüşündəki məğlubiyyətdən sonra müharibə nasist Almaniyasından daha çox ərzaq, neft, metal, kömür və digər strateji materiallar tələb edirdi. Döyüş texnikası və nəqliyyat vasitələrinin təmir edilməsinin zəruriliyi nasistləri vadar edirdi ki, işğal edilmiş ərazilərdə müxtəlif əmək müəssisələri təşkil etsinlər. Ona görə də, 1942-ci ilin yanvarında Üçüncü reyx rəhbərliyi “işğal edilmiş şərq vilayətlərində sənaye təsərrüfatının bərpası haqqında icbari əsasnamə” qəbul etdi. Burada kömür-mədən təsərrüfatı, dəmir zavodları, nəqliyyat müəssisələri və s. bərpası nəzərdə tutulurdu (15, s.24). Lakin, əksəriyyəti tamamilə dağıdılmış fabrik və zavodların bərpası almanlar üçün o qədər də asan deyildi. Dağıntıya məruz qalmış sənaye müəssisələrinin bərpası üçün mühəndis-texniki heyət və ixtisaslaşdırılmış fəhlələr, habelə lazımi təchizat, alətlər və tikinti materialları çatışmırdı. Nasistlər insan resursları ilə bağlı çatışmazlığı aradan qaldırmaq və işğal olunmuş ərazilərdəki əhalini, xüsusilə əmək qabiliyyətli insanları iqtisadi kollaborasionizmə cəlb etmək üçün şəhərlərdə birjalar yaratmağa başladılar. Onların vəzifəsi şəhər əhalisinin bu və ya digər əmək sahəsində işləməyən hissəsini hər həftə qeydiyyata almaq və onlardan ibarət işçi qüvvəsi yaratmaq, həmin işçi qüvvəsini Almaniyanın iqtisadi maraqları üçün səfərbər etmək idi. Birjada qeydiyyatdan keçənlərə xüsusi məlumat vərəqəsi verilir və orada almanca şəxsin harada işləməsi qeyd olunurdu (18, s.172).

Üçüncü reyx rəhbərliyi SSRİ-nin işğal olunmuş ərazilərindəki vətəndaşları ağır fiziki əmək tələb edən işlərə cəlb etməyə daha çox

üstünlük verirdi. Hələ Almaniya-SSRİ müharibəsinin ilk aylarında Reyxin silahlanma və sursat üzrə naziri Frits Todt sovet vətəndaşlarının ən ağır fiziki işlərdə işləməsi ilə bağlı 28 iyul 1941-ci ildə sərəncam imzalamışdı. Həmin sərəncamda deyilirdi: “Qərbi Avropa ilə müqayisədə, rus torpaqlarında işçi qüvvədən istifadə ilə bağlı qaydalar fərqlidir. İşçi qüvvədən istifadə heç bir əvəzi ödənilməyən əmək mükəlləfiyyəti kimi həyata keçirilməlidir (20, s.191). Almanlar işğal olunmuş sovet ərazilərindəki əhalinin istismarı ilə bağlı son dərəcə sərt metodlar hazırlayırdılar. Almaniya komandanlığının təsərrüfat üzrə qərargahının 4 dekabr 1941-ci il tarixli sirkulyarında deyilirdi: “Alman ixtisaslı fəhlələri hərbi sənayedə çalışmalıdır. Onlar yer qazmalı, daş sındırmalı deyillər: bunun üçün ruslar var” (18, s.168; 17, s.93). Nasistlərin ari nəzəriyyəsinə əsaslanan bu sirkulyar “untermenşlərin” əməyindən dağ-mədən işlərində, yolların, yeraltı tikililərin və s. tikintisində istifadə edilməsini nəzərdə tuturdu. Bu məqsədlə işğal olunmuş ərazilərdə “əmək kalonnalarının” yaradılmasına başlanmışdı. Ümumiyyətlə, nasist işğalçılarının qarşılarına qoyulmuş əsas vəzifələr işğal olunmuş sovet ərazilərini Üçüncü reyxin xammal əlavəsinə, həmin ərazilərdəki yerli əhalini isə alman sənaye müəssisələri üçün qula çevirmək idi (18, s.169).

Üçüncü reyxin hərbi komandanlığı işğal olunmuş sovet ərazilərindəki yerli əhalinin 14 yaşdan 60 yaşa kimi bütün nümayəndələrini – kişilərlə yanaşı, qadınları və qocaları yolların, körpülərin, müdafiə tikililərinin, istehkamların tikilməsi kimi ağır əmək tələb edən işlərə səfərbər edirdi. Əməkdən çoxuşaqlı analar, xəstələr, əmək müddətini başa çatdırmış ixtisaslı mütəxəssislər də azad edilmirdilər. 14 saata qədər davam edən gərgin iş günündə əmək fəaliyyəti əsgərlərin və polisin nəzarəti altında həyata keçirilir, ləng və səliqəsiz işləyənlər müxtəlif cəzalara, hətta güllələnməyə də məruz qalırdılar (17, s.93). Bütün bu ağır şərtlər altında işləyən insanların ərzaqla təchizatı da son dərəcə zəif idi. Məhz buna görə idi ki, əmək düşərgələrində və kalonnalarında ölüm halları son dərəcə geniş yayılmışdı. Əməkdən yayınanlar repressiyalara, əksər hallarda isə ən ağır cəzaya – güllələnməyə məruz qalırdılar. Bundan başqa, nasistlər işğal edilmiş sovet

ərazilərindəki əmək qabiliyyətli əhalini Üçüncü reyxin müxtəlif ərazilərinə də zorakı şəkildə deportasiya edirdilər. 1942-1943-cü illərin qışında, xüsusilə 13 yanvar 1943-cü ildə Hitlerin "total səfərbərlik" elan etməsindən sonra işğal olunmuş ərazilərin bütün əmək qabiliyyətli əhalisinin zorakı şəkildə Almaniyaya göndərilməsinə başlanıldı. İşğal olunmuş ərazilərdəki müqavimət dəstələri və partizanlar dinc əhalinin bu cür irimiqyaslı köçürülməsinin qarşısını almaq üçün əllərindən gələni edir, bir çox hallarda canları bahasına da olsa buna nail ola bilir, yüz minlərlə sovet vətəndaşının Almaniyaya göndərilməsinin qarşsını alırdılar. Bütün bunlarla yanaşı, İkinci dünya müharibəsi illərində SSRİ-dən ümumilikdə 4 milyon 978 min nəfər Üçüncü reyx ərazilərinə göndərildi (18, s.161). Sonradan, Nürnberq hərbi tribunalında da nasistlər tərəfindən sovet vətəndaşlarının kütləvi şəkildə zorakı deportasiyasına insanlıq əleyhinə cinayət kimi hüquqi qiymət verilmişdir.

Ümumilikdə, SSRİ-nin işğal olunmuş ərazisində milyonlarla dinc sakin zorakı yollarla iqtisadi kollaborasionizmə cəlb edilsə də, onlardan yalnız bir neçəsi sənayedə və kənd təsərrüfatında "yeni nizamın" qurulmasında nasistlərə fəal kömək etdi.

***Nəticə.*** Beləliklə, SSRİ-nin işğal olunmuş ərazilərində kollaborasionizm Sovet İttifaqı əhalisinin çoxmillətli tərkibə malik olması səbəbindən Avropadakı kollaborasionizm ilə müqayisədə daha mürəkkəb və çoxcəhətli xarakterə malik olmuşdur. Sovet xalqlarının ayrı-ayrı nümayəndələri arasında kollaborasionizm üçün siyasi, iqtisadi, milli və ideoloji zəmin mövcud olmuş, digər tərəfdən isə, onlar işğal olunmuş ərazilərdə fiziki olaraq sağ qalmaq şərtləri altına düşmüşdür. Belə bir şəraitdə, nasist işğalçıları da ələ keçirdikləri ərazilərin sakinlərini müxtəlif formalarda özləri ilə əməkdaşlığa cəlb etməkdə kifayət qədər maraqlı idilər. Çünki, tarix boyunca heç bir işğalçı rejim, işğal ordusu yerli əhalinin bu və ya digər elementlərindən ibarət dayaq olmadan zəbt edilmiş əraziləri daha effektiv idarə edə bilməmişdir. Buna görə də, müharibə illərində kollaborsionizm nasist Almaniyası üçün mühüm əhəmiyyət kəsb etmiş və nasistlər bunu zorakı yollarla da olsa həyata keçirmişdilər.

# ƏDƏBİYYAT

1. Андреева Е. Генерал Власов и русское освободительное движение (перевод с английского). Лондон, Overseas Publications Interchange Ltd, 1990, 370 с.
2. Будницкий О.В., Зеленина Г.С. «Свершилось. Пришли немцы!» Идейный коллаборационизм в годы Великой Отечественной войны. Москва, РОССПЭН, 2012, 325 с.
3. Gumkowski J., Leszczynski K. Hitler's Plans for Eastern Europe. Poland Under Nazi Occupation. Warsaw, Polonia Pub. House, 1961, 219 p.
4. Hətəmov R. SSRİ-nin işğal olunmuş ərazilərində nasistlərin milli siyasəti // Tarix və onun problemləri, №2, 2013, s.265-271.
5. Hoffmann J. Die Ostlegionen 1941-1943. Turkotataren, Kaukasier, Wolgafinnen im deutschen Heer. Freiburg, Rombach, 1976, 197 p.
6. Hoffmann S. Collaborationism in France during World War II // The Journal of Modern History. Vol. 40, No.3, 1968.
7. Великая Отечественная война 1941-1945 годов: в 12 томах. Том 1: Основные события войны. Москва, Кучково поле, 2015, 976 с.
8. Великая Отечественная война 1941-1945 годов: в 12 томах. Том 2: Происхождение и начало войны. Москва, Кучково поле, 2015, 864 с.
9. Газета «За Родину», 26 мая 1943.
10. Гареев М.Л. О мифах старых и новых // Военно-исторический журнал, №4, 1991, с.42-52.
11. Дробязко С.И. Под знамёнами врага. Антисоветские формирования в составе германских вооружённых сил 1941-1945 гг. Москва, Эксмо, 2004, 608 с.
12. Епифанов А.Е. Ответственность за военные преступления, совершенные на территории СССР в годы Великой Отечественной войны. Волгоград, Волгоградская академия МВД России, 2005, 295 с.

13. Загорулько М.М. Крах плана «Ольденбург» / М.М. Загорулько, А.Ф.Юденков. Москва, Экономика, 1980, 376 с.
14. Земсков В.Н. «Статистический лабиринт». Общая численность советских военнопленных и масштабы их смертности // Российская история, 2011, № 3, с.22-32.
15. Земсков В.Н. Ведущая сила всенародной борьбы. Борьба советского рабочего класса на временно оккупированной фашистами территории СССР (1941-1944 гг.). Москва, Мысль, 1986, 269 с.
16. Казанцев А.С. Третья сила. Россия между нацизмом и коммунизмом. Москва, Посев, 1994, 343 с.
17. Ковалев Б.Н. Коллаборационизм в России в 1941-1945 гг.: типы и формы. Великий Новгород, НовГУ имени Ярослава Мудрого, 2009, 372 с.
18. Ковалев Б.Н. Нацистская оккупация и коллаборационизм в России, 1941-1944. Москва, АСТ, 2004, 483 с.
19. Немецко-фашистский оккупационный режим (1941-1945 гг). Москва, Политиздат, 1965, 388 с.
20. Преступные цели – преступные средства. Документы об оккупационной политике фашистской Германии на территории СССР (1941-1944 гг.). Москва, Экономика, 1985, 328 с.
21. Сахаров А.Н., Жиромская В.Б. Облик народа к началу Великой Отечественной войны // Народ и война: очерки истории Великой Отечественной войны 1941–1945 гг. Москва, “Гриф и К”, 2010, 730 с.
22. Семиряга М.И. Коллаборационизм. Природа, типология и проявления в годы Второй мировой войны. Москва, РОССПЭН, 2000, 862 с.
23. Синицын Ф.Л. Коллаборационизм: историко-правовой анализ терминологии // Пособники. Исследования и материалы по истории отечественного коллаборационизма: [Сборник] / редактор-составители Д.А. Жуков и И.И. Ковтун. Москва, Издательство «Пятый Рим» (ООО «Бестселлер»), 2020, 464 с.

24. Смоленская декларация. - http://generalvlasov.ru/documents/smolenskaya-deklaraciya.html [Müraciət tarixi: 22.02.2022].
25. Фомин А.А. К вопросу о разграничении понятий «коллаборационизм» и «сотрудничество» применительно к практике взаимодействия советских граждан с немецкими оккупантами в годы Великой Отечественной войны // Genesis: исторические исследования, 2015, №6.
26. Штрик-Штрикфельдт В. Против Сталина и Гитлера. Генерал Власов и Русское Освободительное Движение. Москва, Посев, 1993, 440 с.

**BALAMIRZA MAMMADLI**
*1st year master student of Baku State University*
*in the specialty "History of the Slavic countries"*

# COLLABORATIONISM IN THE OCCUPIED TERRITORIES OF USSR DURING THE SECOND WORLD WAR

At the beginning of the last century, many European intellectuals believed that the XX century would be a century of scientific and technological progress without wars. However, history has shown that although they rightly believed that science and technology would develop, but they were wrong in saying that there would be no wars. Because both world wars and a large number of local conflicts turned the XX century into the bloodiest century in the history of mankind. Namely, the World War II in the XX century was one of the most difficult trials for millions of people around the world, especially for the inhabitants of the occupied territories. These people simply had to agree to any activity in order to survive under the occupation. Collaborationism was one such activity. However, collaboration in the occupied territories of USSR was often characterized by "survival".

The article examines the phenomenon of collaborationism, its causes, military and economic motives on the basis of modern scientific literature, which Soviet historians approached superficially for several decades after the end of World War II and remained outside the framework of fundamental research.

*Keywords*: USSR, Germany, World War II, Nazi occupation regime, collaborationism.

*Daxil olma tarixi*: 10.04.2022-ci il.
*Çapa imzalanma tarixi*: 25.05.2022-ci il.

**UOT 94; UOT 94"19/..."**

**ELŞAD QULİYEV**
*Bakı Dövlət Universitetinin*
*Türk dünyası tarixi üzrə magistrantı*
**Elsadquliyev105@gmail.com**

# II DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ SSRİ-NİN TÜRKİYƏYƏ ƏRAZİ İDDİALARI VƏ TÜRKİYƏNİN BUNA MÜNASİBƏTİ

*Elmi rəhbər:*
Tarix elmləri doktoru İsmayıl Məmmədov
Bakı Dövlət Universiteti

*Türkiyə II Dünya müharibəsi ərzində bitərəflik siyasəti yürüdərək müharibəyə qoşulmadı, müharibə edən tərəflərlə münasibətlərini əvvəlki qaydada davam etdirdi.Türkiyənin müharibə dövründə Sovetlə münasibətləri çox tez-tez dəyişirdi. Müharibənin əvvəllərində Türkiyəni İngiltərə və Fransa ilə "Dostluq" müqaviləsi imzalamaqda günahlandıran SSRİ, müharibənin sonlarında özü bu dövlətlərlə eyni cəbhədə mübarizə aparmağa başlamışdı. Müharibənin sonlarında Türkiyə də müharibədən sonra yaranacaq "yeni dünya düzənində" yer tuta bilmək üçün Almaniya və Yaponiyaya müharibə elan etmişdi. Müharibə dövründə Türkiyənin birinci ən çətin vəzifəsi ölkəni müharibəyə daxil etməmək idisə, ikinci vəzifəsi SSRİ-nin tələblərinə cavab vermək idi. Müharibənin sonlarında başlanan sovet iddiaları istər beynəlxalq konfranslarda istərsə də məxfi sənədlərdə öz əksini tapırdı. Sovet Rusiyası tərkibində olan dövlətlərin xarici işlər nazirliklərinin yaradaraq "bir dövlət, bir səs" prinsipindən çıxış edərək Cənubi Qafqaz respublikalarının Türkiyədən tələblərini gündəmə gətirirdi. Bu tələblərin başlanğıcı Rusiyanın 1925-ci ildə imzalanmış və hər 5 ildən bir yenilənməli olan Türk-Rus dostluq müqaviləsini ləğv etməsi oldu. Bununlada Sovetin Qars, Ərdahana torpaq tələbləri, boğazlar məsələsinə yenidən baxılması iddiaları gündəmə gəldi. Türkiyə isə bu iddiaların cavabında sovetin iddialarından əl çəkməsi müqabilində münasibətlərini davam etdirəcəyini, əks halda sovetlərlə müharibəyə*

*də hazır olduğunu bildirdi. Bu məqalədə İkinci Dünya Müharibəsi və ondan sonrakı dövrdə Rusiyanın Türkiyədən torpaq tələbləri və boğazlar məsələsi, Türkiyənin sovetlərə qarşı mübarizəsi əks olunmuşdur.*

*Açar sözlər*: Türkiyə, II Dünya müharibəsi, SSRİ, Torpaq iddiaları, Türkiyə boğazları böhranı.

***Giriş.*** I Dünya müharibəsindən İkinci dünya müharibəsinə qədərki dövrdə SSRİ - Türkiyə münasibətlərinin maraqlı tarixi olmuşdur. XX əsrin 20-ci illərində bu iki dövlət oxşar vəziyyətdə idi, tədricən beynəlxalq münasibətlər sistemində öz yerlərinə tutmağa başlamışdılar. 1920-1940-cı illərdə Sovet-Türk münasibətlərini bütövlükdə dostluq hətda bəzi məqamlarda qardaşlıq münasibətləri kimi də səciyyələndirmək olar (2, s.12).

İkinci Dünya Müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya hücumu ilə başladı. Türkiyə İkinci Dünya Müharibəsi illərində neytrallıq siyasəti yeritdi. Bu istiqamətdə Türkiyə 19 oktyabr 1939-cu ildə İngiltərə və Fransa ilə üçtərəfli yardım müqaviləsini və 18 iyun 1941-ci ildə Almaniya ilə "Hücum etməmə müqaviləsini" imzaladı. Bu yolla Türkiyə hər iki qrupa qarşı öz təhlükəsizliyini təmin etmək istəyirdi.

Müharibə başlayandan etibarən döyüşən tərəflər Türkiyənin öz tərəflərinə çəkmək istəyirdilər. Türkiyə isə öz növbəsində tərəfsizlik siyasətindən əl çəkmirdi. 1943-cü ildə müttəfiqlər Aralıq dənizində və Rusiya düzənliklərində hərəkətə keçdilər. Müttəfiq dövlətlərin çıları tez-tez görüşür və hər görüşlərində əsas məsələ Türkiyənin müharibəyə qoşulması olurdu. Tehranda Türkiyə Cümhuriyyətinin müharibəyə dəvət edilməsi qərara alındı və türklərə məlumat verildi. Türkiyə Cümhuriyyətinin Prezidenti İ.İnönü Qahirəyə dəvət olunmuş və bu məsələ ilə bağlı cənab Ruzveltlə görüşmüş və bildirmişdir ki, 1943-cü ildə qəbul edilmiş Türkiyənin silahlanması həyata keçirilməmişdir. İ.İnönü bildirdi ki, Türkiyənin müharibəyə girməsi üçün yetərli silah-sursatı yoxdur. İngiltərə Türkiyənin tələb etdiyi silahları

verməkistəmirdi, bu da Türkiyə üçün müharibədən yayınmağa əsaslı bəhanə idi (7, s.2-3).

Türkiyə müharibənin sonlarında Almaniyanın məğlub olacağını anlayaraq müttəfiq dövlətlərin tərəfində müharibəyə qoşulmağı qərara aldı. İngilis və Amerikalıların təklifi ilə 1944-cü ilin fevralında Türkiyə; Almaniya və Yaponiyaya müharibə elan etdi və bunun nəticəsində San Fransiskoya dəvət edildi. Bütün bu dövr ərzində Sovet-Türkiyə münasibətləri daim dəyişirdi. Artıq müharibənni sonlarında Türkiyə və Sovet eyni "cəbhədə" idi. 9 may 1945-ci ildə Almaniyanın məğlub olması ilə Avropada Rusiyanı qarşı gələ biləcək güc qalmadı (11, s.119).

Bunun nəticəsində ərazisini genişləndirmək siyasətini davam etdirən Rusiya bir çox ölkələr kimi Türkiyə üçün də ciddi təhlükəyə çevrildi. Bu inkişaflar Türkiyənin Rusiya ilə bağlı Adanada keçirilən Çörçill-İnönü görüşlərində də səsləndirilən proqnozlarının özünü doğrultduğunu göstərdi.

***SSRİ-nin Türkiyəyə iddialara hazırlaşması. "Bir dövlət bir səs prinsipi".*** Sovet dövləti Türkiyəyə qarşı iddialara müharibənin sonlarında başlamasına baxmayaraq, əslində 1943-cü ildə artıq hazırlıqlar başlanmışdı. 1943-cü ilin oktyabr ayında Xarici İşlər nazirlərinin Moskvada keçirilən müşavirəsində beynəlxalq təhlükəsizlik orqanının yaradılması haqqında qərar qəbul edilmiş və bu təşkilatın nizamnamə prinsiplərini müəyyənləşdirmək üçün 1944-cü ilin yayında Dumbarton-Oksda konfransın keçirilməsi haqqında razılığa gəlinmişdi. Qarşıdakı Dumbarton-Oks konfransında müzakirələr Birləşmiş Millətlər Təşkilatının yaradılması haqqında gedəcəyindən, Sovet İttifaqı həmin birlikdə daha çox səslə təmsil olunmağın müxtəlif variantlarını axtarırdı. Belə variantlardan biri ayrı-ayrı müttəfiq sovet respublikalanmn müstəqil dövlət statusunda BMT-də təmsil olunması məsələsi idi, lakin beynəlxalq münasibətlərin və beynəlxalq hüququn universal prinsiplərinə görə Xarici İşlər nazirliyi olmayan ölkələr müstəqil dövlətlər sayıla bilməzdilər. Bu məqsədlə, SSRİ XİXK-nm və ÜİK(b)P MK-nın Siyasi Bürosunun təqdimatı ilə 1944-cü ilin fevral ayında SSRİ Ali Soveti xarici əlaqələr sahəsində müttəfiq respub-

likalara səlahiyyət verilməsi və sovet respublikalarında Xarici İşlər Xalq komissarlıqlarının bərpa edilməsi haqqında qanun qəbul etdi (3, s.107).

Bu nazirliklər əslində SSRİ-nin nəzarəti altında Türkiyəyə qarşı iddialar səsləndirmək üçün yaranmışdı, çünki beynəlxalq hüquqa görə xarici işlər nazirliyi olmayan dövlətlər beynəlxalq münasibətlərdə iştirak edə bilməzdilər. Müharibənin sonlarında Ermənistan SSR, Gürcüstan SSR bu məqsədə çatmaq üçün əlindən gələni edirdi. Bu dövrdəki iddialar yalnız Türkiyəyə qarşı olmamış, həm də Azərbaycan SSRİ-yə qarşı olmuşdur. Ermənistan Dağlıq Qarabağa, Gürcüstan isə Qax, Zaqatala, Balakən rayonlarına qarşı iddialara başlamışdı.

1945-ci ildə Moskvada ÜİK(b)P MK Siyasi Bürosunun üzvləri Anastas Mikoyan və Lavrentiy Beriya Azərbaycan rəhbəri Mircəfər Bağırov ilə görüşərkən sovet ordu hissələrinin İranda olmasını və azərbaycanlıların orada baş verən milli-azadlıq mübarizəsini nəzərdə tutaraq, "Cənubi Azərbaycan məsələsinin həll olunması ilə əlaqədar olaraq Azərbaycan SSR-in ərazisi xeyli genişlənəcəkdir" deyib, Azərbaycan SSR DQMV-nin Ermənistana, Zaqatala, Balakən və s. ərazilərinin isə Gürcüstana birləşdirilməsini təklif edərək, təzyiq etməyə başladılar. M.Bağırov cavabında "bu barədə danışmağın hələ tez olduğunu" bildirdi (9, s.229). Bu tələblərdən sonra Stalin siyasətinin iç üzünü görmək mümkün olur.

***Gürcüstan SSR-in tələbləri.*** Türkiyə ərazilərini, Qara dəniz boğazları üzərində nəzarəti ələ keçirtmək üçün fəaliyyətini artıran SSRİ rəhbərliyi gürcü amilindən də istifadə etməyə başladyır. Mərkəzin göstərişlərinə uyğun olaraq gürcü alimlərinin Türkiyədən "tarixi torpaqlarını" tələb edən məqalələri dərc edilir. Akademiklər S.Canaşia və N.Berdzenişvili gürcü dilində dərc edilən "Kommunist" qəzetində, az sonra isə "Pravda", "İzvestiya" və "Krasnaya Zvezda" qəzetlərində dərc etdirdikləri məktublarında yazırdılar ki, onlar dünya ictimaiyyətinin diqqətini Türkiyənin zəbt etdiyi gürcü torpaqlarının geri alınmasına cəlb etmək istəyirlər. Tarixə özünəməxsus şəkildə səyahət edən bu şəxslər "Ardahan, Artvin, Oltu, Tortum, İspir, Bay-

burt, Gümüşxana, Şərqi Lazıstan, Trabzon və Giresunu" tələb edirdilər (9, s.236).

İddia olunan ərazi 26 min kv km-dən ibarət idi. Moskva hesab edirdi ki, bunun 20500 kv km-i Ermənistana, 5500-ü isə Gürcüstana çatmalıdır. Gürcülər bununla razılaşmayaraq həmin ərazilərin təxminən bərabər bölünməli olduğu fikrini müdafiə edirdilər. Üstəlik, gürcü iddiaları Trabzon, Rizə, Giresun, Ordu ərazilərinə qədər uzanırdı.

Əlbəttə, sovet idarəçilik sistemi şəraitində həm Acarıstan qazısının, həm də patriarxın özbaşına belə iddialar irəli sürməsi mümkün deyildi. Göstərişin sovet rəhbərliyindən verildiyi şübhəsiz idi. Elə buna görə də respublika rəhbərliyinin mövqeyinin bəyan edilməsi özünü çox da gözlətmədi. Gürcüstan K(b)P MK katibi K.Çarkviani 1946-cı il fevralın 28-də "Pravda" qəzetində dərc olunmuş və respublikada sovet hakimiyyətinin qurulmasının 25 illiyinə həsr edilmiş məqaləsində bu iddiaları daha da möhkəmləndirdi. O, yazırdı ki, gürcü xalqının həyata keçirilməyən bir arzusu qalır: "O da Ardahan, Artvin, Oltu, Tortum, Bayburt, İspir, Gümüşxana və Lazıstanın geri qaytarılmasıdır". Bir müddət keçmiş, mayın 30-da professor E.Takaşvili "Zarya Vostoka" qəzetində guya Türkiyənin işğal etdiyi gürcü torpaqları haqqında bir məqalə dərc etdirdi. O da gürcü xalqının qanuni tələblərinin yerinə yetirilməsini istəyirdi. Heç şübhəsiz, müttəfiq respublikaların müstəqil olmadığı sovet dövründə gürcü xadimləri Türkiyəyə qarşı ərazi iddialarını özbaşına irəli sürə bilməzdilər. SSRİ-də Moskvanın, Kommunist Partiyasının həyata keçirtdiyi vahid xarici siyasət xətti mövcud idi. Qonşu bir ölkə, xüsusən Türkiyə ilə ərazi məsələlərinin SSRİ-ni təşkil edən bir müttəfiq respublika tərəfindən müstəqil surətdə gündəliyə gətirilməsi mümkün deyildi. Hətta ərazi iddiaları barədə kimsə düşünsəydi belə, onu bütün mətbuatın partiyalı və total nəzarət altında olduğu bir şəraitdə qəzet səhifələrində dərc etdirə bilməzdi. Yaranmış əlverişli şəraiti görən erməni xadimləri də Türkiyəyə qarşı əsassız ərazi iddiaları ilə çıxış etməyə başladılar. Belə fəaliyyətlər həm Türkiyənin daxilində, həm də xarici ölkələrdə genişləndi (8, s. 475).




*Gürcüstan SSR-nin Türkiyədən tələb etdiyi ərazilər*

***Sovet tələblərində "erməni məsələsinin" yeri. Ermənistan SSR-in tələbləri.*** Türkiyə tarixinə nəzər yetirdikdə məlum olur ki, hər hansısa dövlət Türkiyəyə qarşı sanksiya tətbiq edəndə ilk olaraq erməni məsələsini qaldırır. "Məzlum" xalq adıyla özünü dünyaya tanıdan ermənilər tarix boyu Türkiyəyə düşmən olmuşdur. Bildiyimiz kimi I dünya müharibəsinin sonunda Osmanlı İmperiyası da ləğv edildi. Onun yerində yaranan Türkiyə ilə Rusiya arasında 1921-ci ildə imzalanmış Moskva və Qars müqaviləsinə əsasən, bu gün də qüvvədə olan sərhədlər müəyyənləşdirildi (13).

Lakin ermənilərin torpaq iddiaları II Dünya müharibəsinin sonlarında yenidən gündəmə gəldi. 1945-ci il aprel ayının 19-da İ.Stalin

bütün ermənilərin katolikosunun müavini, arxiyepiskop Georq Çeorekçiyanı qəbul etdi. Bu bir tərəfdən bütün ermənilərin katolikosunun seçkiləri ilə bağlı idisə, digər tərəfdən, ermənilərin Türkiyə əleyhinə yönəlmiş təbliğatına və tələblərinə əməli xarakter vermək niyyətindən irəli gəlirdi. Erməni katolikosunun müavini Eçmiədzinin bərpa olunması, dini akademiyanın açılması, keçmiş dini akademiyanın kitabxanasının Eçmiədzinə qaytarılması, Eçmiədzinə mətbəə saxlamağa icazə verilməsi, bir sıra binaların ona qaytarılması, katolikosun zəmanəti ilə bir sıra dindarların Sovet Ermənistanına gəlməsinə icazə verilməsi, xaricdən yepiskop və eparxiya rəhbərlərinin dəvət edilməsinə icazə verilməsi və s. məsələlər barədə hələ 1945-ci il aprel ayının 3-də İ.Stalinə müraciət etmişdi (2,s.154)

Moskvada İ.Stalinin erməni kilsəsi rəhbərlərindən birini qəbul etməsindən az sonra ABŞ-dakı Erməni Milli Şurası Birləşmiş Millətlərin San-Fransisko konfransına və konfransın iştirakçısı olan ayrı-ayrı nümayəndələrə "Erməni xalqının işi" adlı memorandumu təqdim etdi. Orada göstərilirdi ki, erməni məsələsinin ədalətli həlli erməni diasporlarına imkan verər ki, öz doğma yurdlarına qayıtsınlar. Memorandumda Amerikadakı Erməni Milli Şurası erməni xalqının nümayəndəsi kimi təqdim edilir və bu təşkilat da sənəddə yazıldığı kimi, "kiçik faşist partiyası sayılan daşnaklar istisna olmaqla" bütün erməni dini və milli cəmiyyətlərinin birləşdirildiyi göstərilirdi. Sənədin ikinci bölməsi "Erməni xalqının işinin tarixi perspektivləri" adlanırdı. Burada məsələ çox qədimlərə gedib çıxır, Mesopotamiya dövründən bəri hadisələr sadalanır və belə məlum olurdu ki, guya ermənilər Asiyadan gələn böyük istilaçıların qarşısında alınmaz qalaya çevriliblər. Ona görə də qeyd edilirdi ki, erməni xalqının bu müraciəti xüsusi diqqətəlayiq olmalıdır. Memorandumun üçüncü bölməsi türklərin tarix səhnəsinə çıxışı və onların guya Yaxın Şərqə, Balkanlara və Mərkəzi Avropaya fəlakətlər gətirməsi barədə idi. Bundan sonrakı bölmədə ermənilərin qəzələli təqilələrin obyektinə çevrilməsi, XIX əsrin sonunda bu təqilələrin geniş xarakter alması və guya bir milyon ermənini bu prosesdə özü qurban verməsi qeyd edilirdi.

Birinci Dünya müharibəsi dövründə ermənilərin müttəfiqlərlə birlikdə vuruşduğunu bildirən memorandum müəllifləri Sevr müqaviləsinin şərtlərinin dünya tərəfindən qəbul edilməsini tələb edirdilər. Sevr müqaviləsi ilə onlara verilməsi nəzərdə tutulan torpaqların türklərdə qalmasına görə milyon yarım erməninin mühacirətdə yaşadığına toxunan Erməni Milli Şurası yazırdı: "Hətta bizim xalqımızın iftixarı və şərəfi sayılan, onun arzu və ümidlərinin simvolunu daha qabarıq ifadə edən Ararat dağı (Ağrı dağı nəzərdə tutulur ) türklərin hakimiyyəti altında qalmaqdadır". Daha sonra qeyd edilirdi ki, "müstəqil və azad" Sovet Ermənistanından ayrılmış Türkiyənin erməni vilayətlərinin yenidən Ermənistanla birləşməsi və xaricdəki ermənilərin də "öz xoşbəxt qardaşları"na qovuşması erməni xalqının həyatının yenidən qurulmasına, onun canlanmasına və Sovetlərdə xoşbəxtlik tapmasına gətirib çıxara bilər.

Orada deyilirdi: "Zaman gəlib çatib ki, Türkiyənin ağalığı altında olan Ermənistan Sovet ittifaqının sərhədləri daxilində müstəqil və azad şəkildə mövcud olan Ermənistana birləşsin və xaricdə yaşayan ermənilərə də öz vətənlərinə qayıtmaq icazəsi verilsin". Nə vaxtsa türklərin ağalığı altında olmuş xristian xalqlarından yalnız ermənilərin hələ öz azadlıqlarını və vətənlərini türklərdən xilas edə bilmədiyi memorandumda göstərilirdi. Erməni Milli Şurasının nümayəndələri San-Fransisko konfransının repatriasiya və sərhədlər məsələsini həll etməyə səlahiyyətli olmadığını qeyd etsələr də, konfransın ruhunun erməni xalqının ümid və arzularına yardımçı olacağını bildirirdilər.

Sənədin sonunda V.Qladstonun belə bir fikri vurgulanırdı ki, "Ermənistanı xilas etmək - sivilizasiyanı xilas etmək deməkdir". Buna uyğun olaraq memorandumda yazılırdı: "Böyük Sovet İttifaqı 25 illik qısa müddətdə sübut etdi ki, Ermənistanı xilas etmək - deməli, həqiqətən sivilizasiyanı xilas etmək deməkdir". Sənədin məzmunu və orada istifadə edilən ifadələr onun Sovet nümayəndələri tərəfindən hazırlandığını təsdiq edirdi (2, s.155).

Xəritə 1.
(*Mənbə: Soğuk Savaş'ın Başlarında Sovyet Rusya'nın Güney Politikası Ve Türkiye'ye Etkileri, s.18*).




***SSRİ-nin Türkiyəyə notaları.*** Yalta konfransında Stalin boğazlar məsələsini gündəmə gətirmişdi, bundan sonra artıq Türkiyəyə qarşı notaları başlamağı qərara aldı (11, s.120). 19 mart 1945-ci ildə ilk sovet notası göndərildi. Bu notada Rusiya 1925-ci il dostluq müqaviləsinin ləğv edilmsinin tərəfdarı olduğunu bildirirdi. Lakin müqavilənin uzadılması üçün də şərtlər irəli sürülmürdü. Türkiyə bu notadan sonra qərbə meyillənməyə daha da üstünlük verməyə başladı və bu notadan İngiltərəni də xəbərdar etdi. Türkiyə 4 aprel 1945-ci ildə rəsmi şəkildə cavab notası göndərdi və SSRİ ilə dostluq münasibətlərini davam etdirmək istədiyini bildirdi (5, s.252-253).

7 İyun 1945-ci ildə ikinci sovet notası göndərildi. Bu notada dostluq müqaviləsinin yenilənməsi üçün problemlərin həll edilməsi tələb olunurdu. Notada maraqlı olan isə odur ki, SSRİ bu notada Türkiyədən ilk dəfə rəsmi formada tələblər edirdi: 1. Boğazlarda Rusiyaya səlahiyyət verilməsi, 2. Qars və Ərdəhan ərazilərini. Türkiyə bu notanın cavabını dərhal vermişdi, Türkiyə-SSRİ sərhədlərinin Moskva müqaviləsi ilə tənzimləndiyini, bu müqavilənin müzakirəyə qo-

yulmayacağını bildirmişdi. Boğazlar məsələsində Rusiyaya səlahiyyət verilməyəcəyini də bildirmişdi (4, s. 112.)

1945 iyul ayında Potsdam konfransında Sovet tələbləri yenidən gündəmə gəldi. Boğazlar məsələsi, Türkiyədən torpaq tələbləri, İtalyan koloniyaları üzərində səlahiyyətlər almaq sovetin əsas tələbləri idi. Stalin Boğazlar məsələsini Türkiyə ilə öz aralarında həll etmək istədiyini bildirdikdə, Amerika birlikdə hərəkət etmək qərarı vermişdi. Bu dövrün rəsmi görüşlərində sovetin tələblərinə baxmayaraq, Türkiyənin Avropa dövlətləri və Amerikayla yaxınlaşması müşahidə olunurdu (11, s.15).

III nota. 7 Avqust 1946-cı ildə üçüncü sovet notası verildi. Notanın tərkibi boğazlar məsələsinə həsr olunmuşdu: 1) Boğazlar həmişə bütün dövlətlərin ticarət gəmilərinin keçməsi üçün açıq olmalıdır (2). Boğazlar Qara dənizlə həmsərhəd olan dövlətlərin hərbi gəmilərinin keçidi üçün həmişə açıq olmalıdır (3). İstisna hallar istisna olmaqla, Qara dənizə sahili olmayan dövlətlərin hərbi gəmilərinin boğazlardan keçməsi qadağan edilməlidir (4). Boğazlarla bağlı yeni rejim yalnız Türkiyə və Qara dəniz sahili dövlətlər tərəfindən tənzimlənməlidir (5). Ticarət, tranzit azadlığı və boğazların təhlükəsizliyi bu mövzuda ən uyğun və səlahiyyətli dövlətlər olan Rusiya və Türkiyə tərəfindən birgə vasitələrlə təmin edilməlidir (6, s.12).

İlk üç maddə Türkiyə tərəfdən qəbul edilə bilərdi, lakin 4 v 5-ci maddələr Türkiyənin suverenliyini sual altında qoyurdu.Buna görə də Türkiyə bu şərtləri qəbul etməkdən imtina etdi (1, s.1)

Türkiyə 22 Avqust 1946-cı ildə rəsmi cavablayaraq bildirdi ki, ilk 3 maddə müzakirə oluna bilər, lakin 4-5-ci maddələr qəbul edilə bilməz.

Sentyabr 1946-cı ildə IV notada sovetin tələbləri daha da sərtləşdi. Boğazlara birlikdə nəzarət edilməsini tələb etdi. Bununla bərabər II dünya müharibəsi dövründə Boğazlardan almanların istifadə edilməsini iddia etdi (5, s.286-294). Türkiyə sovetin notasının nüsxələrini Amerika və İngiltərəyə də göndərmişdi. Bu dövlətlər də Türkiyənin tərəfdarı idi.

Peker bu notanın cavabında sovet tələblərinin Türkiyə tərəfindən heç bir halda qəbul edilə bilməyəcəyini bildirmişdi: "Türkiyə heç kimə bir qarış torpaq verməyə və ya torpaq parçaları üzərində bazalar qurmağa razı ola bilməz" (11, s.21).

***BMT və Sovet tələbləri.*** Notalarla Türkiyədən istədiklərinə nail ola bilməyəcəyini anlayan SSRİ bu tələblərini BMT-də müzakirəyə çıxaracağına qərar vermişdi. BMT Baş Assambleyasının Siyasi Komitəsinin 1947-ci il oktyabrın 22-də keçirilən iclasında sovet nümayəndəsi Andrey Vişinşi Türkiyəni müharibəyə təhrik etməkdə ittiham etdi. Bu ittihamlara cavab verən türkiyəli nümayəndə Səlim Sarper bildirib ki, Türkiyə müharibəyə səbəb olmayıb; əksinə, o, daim sülh üçün çalışır; Bildirib ki, Rusiyanın Türkiyə ilə bağlı siyasətindən razı qalan bir türk yoxdur. Sarper həmçinin bildirdi ki, sovet mətbuatı və radiosu Türkiyə vətəndaşlarını bir-birinə qarşı qızışdırıb; Rusiya türk ordusunu hökumətə qarşı üsyana təşviq edir; Türkiyənin daxili işlərinə qarışdığını və onun ərazi bütövlüyünə qarşı çirkin niyyətlər irəli sürdüyünü; Türk Millətini qonşularına, qonşularını isə Türk Millətinə qarşı təhrik etdiyini bildirdi. Bunun onun əsas müharibə təxribatı olduğunu bildirən Sarper Türk Milləti adından BMT-yə şikayət etdi. Sarperin açıqlamaları qarşısında Rusiyanı təmsil edən Vişinşki, II. İkinci Dünya Müharibəsi illərində o, bitərəflik siyasəti yürüdən Türkiyənin sovet ərazilərini ilhaq etmək üçün Almaniya ilə əməkdaşlıq etməsi ilə bağlı gülünc bir iddia irəli sürdü. Vişinşki Gürcüstanın əyalətləri olduğunu iddia etdiyi Qars və Ərdahanın da Gürcüstanla birləşməli olduğunu müdafiə etdi. İngilis nümayəndə Makney Vişinşkinin əsassız iddiaları qarşısında Türkiyənin cavabını belə gözləmədən Rusiyanın iddialarını kobud, pis və dəyərsiz bir hay-küy kimi qiymətləndirdi. Rusiyanın Türkiyəni müharibəyə təhrik etməkdə günahlandıran təklifi rədd edildiyindən, reaksiyalar nəticəsində Vişinşki ittihamlarını geri götürməli oldu. Vişinşkinin beynəlxalq toplantıda sovet tələblərini rəsmən səsləndirməsi vəziyyətin ciddiliyini göstərmək baxımından əhəmiyyətlidir. Digər mühüm məsələ isə Rusiyanın tələbləri qarşısında Türkiyənin BMT-də beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənəsidir (12, s.130-134).

Bu hadisələrin təsiri ilə Türkiyə ABŞ və İngiltərənin dəstəyi ilə Rusiya təhlükəsinə qarşı Qərblə ittifaq qurdu. Lakin o, Rusiyaya qarşı düşmən münasibətdən də çəkinirdi.

O, tələblərindən imtina edəcəyi təqdirdə Rusiya ilə yaxşı münasibət qurmaq istədiyini həm mətbuat, həm də diplomatik yolla bəyan edirdi. Lakin o, Rusiya ilə yaxşı münasibət qurmaq üçün Qərb ittifaqından əl çəkməyəcəyini, quru və baza tələblərində güzəştə getməyəcəyini qətiyyətlə bildirmişdi.

***Nəticə.*** Sovet-Rus münasibətlərinin tarixinə nəzər yetirdikdə, Rusiyanın Türkiyə üzərindəki tələblərinin tarixinin daha qədim dövrə gedib çıxdığını görmək mümkündür.Osmanlı dövlətinin tarixinə baxdıqda Rusiyanın niyyətlərini dah aydın başa düşmək olur. Aydın olur ki, rejimin dəyişməsinə baxmayaraq, Rusiyanın niyyətləri tarix boyu dəyişməmişdir. Rusiya öz niyyətlərini həyata keçirmək üçün uyğun zaman gözləmişdir, bu zamanlardan biri də İkinci dünya müharibəsi olmuşdur.

Rusiya İkinci Dünya müharibəsinin sonlarından etibarən Türkiyəyə qarşı tələblərə başlamışdır. Amerika və İngiltərə əvvəlcə Rusiyanı müdafiə etməsinə baxmayaraq sonralar Türkiyənin tərəfinə keçmişdir.

Rusiya Türkiyəyə rəsmi nota verərək boğazlar məsələsində öz haqqını tələb etmiş, bundan başqa bir sıra tarixi türk torpaqlarına iddialar səsləndirmişdir. Notalar, tələblər göndərməsinə baxmayaraq Rusiya bu dövr ərzində yalnız diplomatik yollarla mübarizə aparmış, hərbi yola əl atmamışdır. Türkiyə Rusiyaya qarşı mübarizədə soyuq müharibədə Amerikanın tərəfində çıxış etdi. Bununla da Türkiyə yeni dünya düzənində öz yerini müəyyənləşdirmiş oldu. Bu siyasi manevrlər Qərbin Türkiyənin yanında yer almasına, Türkiyəyə yardımlar etməsinə səbəb oldu. Türkiyənin NATO-ya üzv olması SSRİ-ilə mübarizədə onun qələbə çalması kimi qiymətləndirilir. Bununla da SSRİ-nin Türkiyəyə qarşı bütün planları iflasa uğramış oldu.

1953-cü ildə Stalinin ölümü ilə SSRİ Türkiyəyə qarşı bütün iddialarından əl çəkdiyini rəsmi olaraq açıqladı, bununla da SSRİ-Türkiyə münasibətləri normallaşma mərhələsinə qədəm qoydu.

# ƏDƏBİYYAT

1. Rıfkı Atay. Rus İsteklerinin Karşısında / Ulus, 15 Ağustos 1946, s.1.
2. Cəmil Həsənli. SSRİ-Türkiyə: soyuq müharibənin sınaq meydanı. Bakı, "Adiloğlu " nəşriyyatı, 2005, 544 s.
3. Cəmil Həsənli. İkinci Dünya Müharibəsi illərində Azərbaycan hərbi, siyasi və diplomatik münasibətlərdə: 1939-1945. Bakı, Yazıçı, 2015, 540 s.
4. Hale, William. Türk Dış Politikası 1774-2000. Çev. Petek Demir. İstanbul, Mozaik Yayınları, 2003, 413 s.
5. II. Dünya Savaşı Yılları (1939-1946), Türkiye Dış Politikasında 50 Yıl. Ankara, T.C. Dışişleri Bakanlığı, Araştırma və Siyaset Planlama Genel Müdürlüğü, 317 s.
6. İsmail Köse. Sovyetler Birliği'nin Türk Boğazlariyla İlgili Talepleri: 1945-1946 Notalari // Ankara Üniversitesi SBF Dergisi, Yıl 2019, Cilt 74, Sayı 4, s.1125-1148.
7. İsmet İnönü."İkinci Dünya Savaşı Sürecinde Türkiye'nin Tarafsızlığı" - 1948 / İnönu Vakfı-1983. - https://www.ismetinonu.org.tr/ikinci-dunya-savasi-surecinde-turkiyenin-tarafsizligi-ismet-inonu-1948/ [Müraciət tarixi: 01.04. 2022].
8. Musa Qasımlı. Beynəlxalq münasibətlərdə Azərbaycan məsələsi. Bakı, Azərnəşr, 1993, 91 s.
9. Musa Qasımlı. Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları: tarix – olduğu kimi (1920-1994-cü illər). – Bakı, Azərbaycan Respub- likasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2016, 520 s.
10. Musa Qasımlı. SSRİ -Türkiyə münasibətləri (Türkiyədə 1960-cı il çevrilişindən SSRİ-nin dağılmasınadək).I cild. 1960-1979. Bakı, "Adiloğlu" nəşriyyatı, 2007, 560 s.
11. Nasrullah Uzman. II. Dünya Savaşı Sonrasında Sovyet Talepleri ve Türkiye'nin Tepkisi // Gazi Akademik Bakış, Yıl 2018, Cilt 11, Sayı 22, s.117-142.

12. Sabit Dokuyan, İkinci Dünya Savaşı Sonrasında Sovyetler Birliği'nin Türkiye'den İstekleri, CTAD, Yıl 9, Sayı 18 (Güz 2013), s.119-135.
13. Türkiyə-Ermənistan münasibətləri: son 30 ildə nələr olub? - https://www.bbc.com/azeri/region-59826271 [Müraciət tarixi: 01.04.2022].

**ELSHAD GULIYEV**
*Baku State University, Master of History of the Turkic World*

## TERRITORIAL CLAIMS OF THE USSR TO TURKEY DURING WORLD WAR II AND TURKEY'S ATTITUDE TO IT

Turkey did not join the war by pursuing a policy of neutrality during World War II, but maintained relations with the warring parties as usual. Turkey's relations with the Soviet Union changed frequently during the war. At the end of the war, Turkey declared war on Germany and Japan in order to gain a foothold in the post-war "new world order." The Soviet claims, which began at the end of the war, were reflected in both international conferences and classified documents. The beginning of these demands was Russia's cancellation of the Turkish-Russian friendship agreement signed in 1925 and renewed every 5 years.

In response to these allegations, Turkey said it would continue its relations in exchange for the Soviet Union's withdrawal, otherwise it would be ready for war with the Soviets.

*Keywords*: Turkey, World War II, USSR, Land claims, Turkish Straits crisis.

*Daxil olma tarixi*: 12.04.2022-ci il.
*Çapa imzalanma tarixi*: 25.05.2022-ci il.

**UOT 94(479.24)**

**ƏLİ NOVRUZOV**
*Lənkəran Dövlət Universiteti*
*Tarixin tədrisi metodikası və metodologiyası*
*ixtisası üzrə I kurs magistr tələbəsi*
**ali.novruzov@bsu.edu.az**

# MART HADİSƏLƏRİ: VƏTƏNDAŞ MÜHARİBƏSİ VƏ AZƏRBAYCANLILARIN SOYQIRIMI

*Elmi rəhbər:*
Tarix üzrə fəlsəfə doktoru Sevinc Ruintən
Bakı Dövlət Universiteti

*XX əsr Azərbaycan tarixində 1918-ci ilin özünəməxsus əhəmiyyəti vardır. 1918-ci il tarixi Azərbaycan tarixində cərəyan edən iki əhəmiyyətli hadisəni özündə ehtiva edir ki, bu hadisələrdən ən ön planda olanı 1918-ci ilin mart hadisələri və 1918-ci ilin mayın 28-də nəinki Azərbaycan, bütün Zaqafqaziya tarixində önəmli hadisə olan millət dövlətlərin yaranmasıdır. Məhz 1918-ci ilin mart hadisələri Müsavatın Azərbaycanın muxtariyyətinə olan ümidlərini qıraraq, müstəqil dövlət qurmaq idealanı həyata keçirməyə və keçmiş müttəfiqləri olan bolşeviklərdən uzaqlaşaraq Türkiyəyə meyl etməsinə səbəb olmuşdu (9, s.162). Məqalədə Müsavat-Daşnaksütyun-Bolşevik partiyalarının bir-birilərinə olan münasibətinə əsasən mart hadisələrinin səbəbləri, Müsavat və bolşeviklər arasındakı münasibətdə olan qırılma nöqtəsi, bolşeviklərin Azərbaycan milli hərəkatına olan münasibəti, vətəndaş müharibəsi və vətəndaş müharibəsinin kütləvi soyqırım aktına çevrilməsi kimi məsələlərə toxunulmuş və bunun üçün Qərb, Rus Sovet, erməni və Azərbaycan tarixçilərinin və müəlliflərinin əsərlərindən istifadə edilmişdir.*

*Açar sözlər:* Mart hadisələri, Müsavat, soyqırım, Daşnaksütyun, Bakı Soveti.

***Giriş.*** 1918-ci ilin mart hadisələrinin səbəblərini incələyən zaman diqqət yetirilməli önəmli olan məsələlərdən biri də Müsavatın

və bolşeviklərin, Müsavat və Daşnaksütyunun, bolşeviklərin və Daşnaksütyunun bir-birilərinə olan münasibətinin təhlilidir. Müsavatın və bolşeviklərin bir-birilərinə olan münasibətləri Müsavatın 1917-ci ilin sentyabrından başlayaraq müharibəyə qarşı mövqe sərgiləməsindən sonra yaxşılığa doğru dəyişməyə başlamışdı. Menşeviklər və daşnaklar kimi müharibəni dəstəkləyən Müsavatın müharibəyə qarşı mövqe sərgiləməyə başlaması müsavatçıları müharibə məsələsində bolşeviklərin təbii müttəfiqinə çevirmişdi (8, s.145). 1917-ci il noyabrın 17-də Bakı Soveti xalqı yeni sovet hakimiyyətini dəstəkləməyə çağırdıqda Müsavat Bakı Sovetini müdafiə etmişdi (4, s.90). Əslində, Müsavatın bolşeviklərlə yaxınlaşmasının əsas səbəbi, Müsavatın bolşeviklərin Leninist şüarı olan "xalqların öz müqəddəratını təyin etmə hüququ"ndan təsirlənməsi və bolşeviklərin gələcəkdə müsəlmanlara bu hüququ verəcəyi ilə bağlı Müsavatda yaranan ümidlərlə bağlı idi. Müsavat bu şüarı bolşeviklərlə yaxınlaşmada bir vasitə kimi görürdü. Dolayısı ilə əgər bolşeviklər verdikləri sözü tutsa idi, bolşeviklərə tolerant yanaşacaq yeganə partiya məhz Müsavat ola bilərdi (8, s.146). Bolşeviklər ilə müsavatçılar bir-birilərinə elə yaxın idilər ki, bu yaxınlığı onların rəqibləri də etiraf etmək məcburiyyətində qalmışdılar:

*"Hər hansısa bir məsələdə demək olmaz ki, Müsavat bolşeviklərə etiraz etmiş olsun. Əsas məsələlərdə Müsavat daima bolşevikləri müdafiə etmiş və digər fraksiyalara (menşeviklər, eserlər və daşnaklara) qarşı mübarizə aparmışdır"* (4, s.90).

ABŞ tarixçisi Svante Kornell də Çar Rusiyasının dağılması və Rusiya Müvəqqəti Hökumətinin qurulması dönəmində bolşeviklərlə müsavatçıların münasibətlərinin çox yaxşı olduğunu, bununla yanaşı Müsavatın bolşeviklərin Rusiya parlamentini buraxmasını dəstəklədiyini və Rusiyanı müharibədən çıxardan Brest-Litovsk müqaviləsində Müsavatın bolşeviklərə dəstək verən yeganə partiya olduğunu qeyd edir (2, s.21). Sovet tarixçisi Popov da Müsavatın xan və bəylərin mürtəce partiyası kimi deyil, inqilabın ilk vaxtlarında Müsavatın demokratiya və sosializmi müdafiə etdiyini partiya kimi özünü doğrultduğunu qeyd edir (4, s.73). Müəlliflərin Müsavatın bolşeviklərə olan

münasibətindən belə bir nəticəyə də gəlmək olar ki, müsavatçılar və bolşeviklər arasındakı baş verən yaxınlaşma yalnız bolşeviklərin ideoloji prinsipləri ilə deyil, həmçinin Müsavatın da bolşeviklərə olan ümidləri ilə bağlı məsələ idi.

*Müsavat və bolşeviklər arasında başlayan qırılma. Bolşeviklərin Daşnaksütyun ilə yaxınlaşması.* 1917-ci ilin sonundan etibarən müsavatçılar və bolşeviklər arasında münasibətlər pisləşməyə başladı ki, bu da özlüyündə 4 əsas obyektiv səbəblə bağlı idi:

- *Ermənilər və gürcülərdən fərqli olaraq müsəlmanlara silah paylanmasına icazə verilməməsi:* müsəlmanların milli hissələrinin nüvəsini Petroqraddan gələn Vəhşi diviziya təşkil edirdi. 1917-ci ilin payızında Bakı Hərbi məktəbində yerli zabit kadrlarının hazırlanması prosesinə başlanıldı. Ancaq azərbaycanlılar kifayət qədər çoxlu silaha malik deyildilər. Həm Qafqaz cəbhəsi komandanlığı, həm də Bakı Soveti müsəlman milli hərbi hissələrinə ayrıca silah verməyi nəzərdə tutmurdu (9, s.155). Ancaq sonradan Bakı Sovetinin müsəlmanlara nəyə görə silah vermədiyinin sinfi məsələlərlə deyil, erməni və rus bolşeviklərinin müsəlman əhaliyə göstərdiyi birmənalı olmayan münasibətlə bağlı olduğu özünü göstərəcəkdi;

- *1918-ci ilin yanvarından başlayaraq Müsavatın müsəlman xalq kütlələri arasında aparıcı siyasi partiyaya çevrilməsi:* Müsavatın getdikcə güclü partiyaya çevrilməsini onların barışmaz rəqibləri olan bolşeviklər də etiraf etməli olurdular (10, s.80). Bakı Sovetinin sədri bolşevik Stepan Şaumyan heç bir güclü hakimiyyəti və partiya ənənəsi olmayan rəqibləri Müsavatın inqilabın ilk dövrlərində artıq Zaqafqaziyada güclü siyasi partiyaya çevrildiyini qeyd edir (12, s.291);

- *Bolşeviklərin nəzərində milli hərəkatların mürtəce hərəkat kimi qəbul olunması:* Bolşeviklərin nəzərində həm Azərbaycan, həm də erməni milli hərəkatı mürtəce hərəkat kimi qəbul olunurdu. Ancaq Qafqazda hələlik Azərbaycan milli hərəkatı olan Müsavat gücləndiyinə görə hərbi qüvvə baxımdan zəif bolşeviklər erməni milli hərəkatı ilə alyansa girməkdən çəkinməyəcəkdilər. Məqalənin digər hissəsində Müsavat təhlükəsinə qarşı zəif bolşeviklərin erməni milli hərə-

katı ilə alyansa girmək barədə məsələlərə aydın gətirməyə çalışacağımıza görə bu hissədə bolşeviklərin əsasən Müsavatla olan rəqabətinə toxunalacaqdı. Bolşeviklər onlarla rəqabət aparan müsavatçıların siyasi gücünü zorla qırmaqdan başqa bir yol görmürdülər. Artıq Qafqazda milli çalarsız vətəndaş müharibəsi heç bir halda mümkün deyildi. Amma bu, hələ inqilabdan tamamilə imtina etmək lazım olduğu demək deyildi. Lenin və digər bolşeviklərə görə inqilabın qalib gəlməsinin yeganə yolu Zaqafqaziya quberniyasının müsəlman əhalisinin müqavimətinin qırılması ilə həyata keçirilə bilərdi. Almaniya tarixçisi Yorq Baberovskiyə görə, bolşeviklərin Azərbaycan milli hərəkatına olan mənfi münasibətinin səbəbi müsəlmanların Cənubi Qafqazda cəhalətin yeganə dayağı, onların müdafiə etdiyi Müsavat isə geridə qalmış bir xalqın mürtəce partiyası olması ilə bağlı idi (1, s.99). Baberovski bolşevizmin müsəlmanlara cəhalətin simvolu kimi yanaşmasını Çar Rusiyasının müsəlmanlara olan münasibətilə də əlaqələndirir. Çar Rusiyasının nəzərində islam mədəniyyəti yad mənşəli, vəhşilik və fanatizm kimi xarakterizə olunaraq Avropanın tərəqqi anlayışları ilə uyuşmurdu. Bu baxımdan islam və cəhalət sinonim ifadələr idi (1, s.25). Ancaq Yorq Baberovskinin sağçı tarixçi olduğunu nəzərə alsaq onun bu arqumenti ilə tam razılaşa bilmərik. Nəzərə alsaq ki, əvvəlcə də qeyd etdiyimiz ki, Azərbaycan milli hərəkatı ilə yanaşı erməni milli hərəkatı da bolşeviklər tərəfindən mürtəcelik kimi qəbul olunurdu. Məhz mart hadisələrindən sonra bolşeviklər tərəfindən Erməni Milli Şurasının hakimiyyətdən kənarlaşdırılması, ardınca da sağçı erməni mətbuat orqanı "Baku" və menşeviklərin mətbuat orqanı olan “Naşe Slovo” qəzetlərinin də bağlatdırılması, bolşeviklərin erməni milli hərəkatını da mürtəce hərəkat kimi alqılaması arqumentini doğrultmuş olur (4, s.100). Qafqazdakı bolşevik inqilabı zamanı, bolşeviklərin müsəlmanlara olan münasibəti ilə Böyük Fransa inqilabı zamanı baş verən Vandeya hadisəsi arasında da paralellik apara bilərik. XVIII əsrin 90-cı illərində Fransa inqilabının yeniliklərinə qarşı çıxan və feodal qaydaların müdafiəsinə qalxan Vandeya əhalisinin qətliama məruz qalması Fransa inqilabının nəzərində necə yeniliyin köhnəliyə qarşı mübarizəsi idisə, Qafqazdakı bolşevik inqi-

labı zaman baş verən mart hadisələri də bolşeviklərin nəzərində yeniliyin (bolşevizmin) köhnəliyə (Azərbaycan millətçiliyinə) qarşı mübarizəsi kimi qiymətləndirilirdi. Bu baxımdan Stepan Şaumyanın 1918-ci ilin aprelin 13-də Sovet Rusiyasının Xalq Komissarları Sovetinə göndərdiyi məktubunu təhlil etməyi də vacib hesab edirik:

*"Daşnaksütyun"un da 3-4 min nəfərlik milli hissələri var idi, onlar da bizim ixtiyarımızda idi. Milli hissələrin iştirakı vətəndaş müharibəsinə qismən milli qırğın xarakteri vermişdi, lakin buna yol verməmək mümkün deyildi. Biz bilərəkdən buna yol verirdik. Müsəlman yoxsulları böyük zərər görmüşlər, ancaq onlar, indi bolşeviklərin və Sovetin ətrafında birləşmişdir"(12, s.245, 246).*

Boberovskiyə görə, Şaumyan "milli qırğına şüurlu şəkildə getdik" deyərək, əslində mürtəce xarakterli Azərbaycan millətçiliyini və Azərbaycan millətçiliyinin əsas sosial bazası olan türk-müsəlman əhalini cəhalətin Qafqazda yeganə qalası kimi görərək özünə əsas təhlükə kimi görürdü (1, s.99). Həqiqətən də məktuba nəzər salsaq Baberovski ilə razılaşmaq olar. Çünki Şaumyanın nəzərində Müsavatın qalib gəlməsi Bakının Sovet Rusiyasından qoparılmasına və Azərbaycanın paytaxtı kimi Türkiyənin protektoratlığı altına keçməsi ilə nəticələnə bilərdi (12, s.246). İkinci bir tərəfdən də, Şaumyan məktubunda artıq müsəlman kütlələrin bolşeviklərin ətrafında birləşdiyini qeyd edir. Bunun da səbəbi artıq Müsavatın əvvəlki nüfuzunu itirməsi ilə bağlı idi. Bolşeviklər ətrafında birləşsə belə, artıq azərbaycanlı əhali artıq Sovet hakimiyyətini silah gücü ilə yaradılan yad hakimiyyət kimi qəbul edirdi Soyqırım prosesinin daha dəhşətli şəkildə Bakı quberniyasının digər bölgələrində (Şamaxı, Quba və Lənkəran qəzalarında) davam etdirilməsi də, Nərimanovun qeyd etdiyi kimi, müsəlman əhalinin yenidən öz burjuaziyasına meyl etməsinə səbəb olmuşdu. Üçüncü bir tərəfdən, Şaumyan qəbilindən şəxsiyyətlər qarşılarına qoyduqları hədəflər naminə heç bir üsul və vasitədən çəkinməzlər. O, soyuqqanlılıqla on minlərlə insanın məhvinə gedirdi, çünki inqilab kimi daima barıt çəlləyi kimi partlayan bir hadisədə adi yaşam normalarının qüvvədən düşdüyünə, fövqəladə qanunların işə salınmasına inanırdı. Necə ki, Böyük Fransa inqilabının amansız

məntiqi feodal düzəninin müdafiəçisinə çevrilmiş Vandeya kəndlilərinin məhvini tələb edirdi, eynilə 1918-ci ildə Cənubi Qafqazda bolşevik inqilabına qarşı Vandeya rolunu, Şaumyana görə, məhz geri qalmış, nadan müsəlman əhali oynayırdı. Onun hərəkatı nəyin bahasına olursa olsun, yatırılmalı idi;

- *Bolşeviklərin xalqların öz müqəddəratını həll etməsi ilə bağlı tam və dolğun konsepsiyasının olmaması:* bolşeviklər Zaqafqaziya xalqlarının vahid idarəçilikdə (kommuna quruluşu əsasında) idarə edilməsinin tərəfdarı idi, Müsavat və Daşnak partiyaları isə mərkəzləşməyə qarşı idi, muxtariyyət və federalizm uğrunda mübarizə aparırdı. Mart hadisələrindən sonra Stalin Şaumyana göndərdiyi məktubunda müsəlmanlara və ermənilərə muxtariyyət verilərək, ermənilər və müsəlmanlar arasında millətçilərə qarşı təbliğat aparmağın vacibliyini qeyd edirdi (11, s.48). Ancaq buna baxmayaraq, Şaumyan nə ermənilərə, nə də müsəlmanlara muxtariyyət vermədi. Stalin və Leninə nəzərən Şaumyanın milli məsələlərə münasibəti fərqli idi. Hətta Rəsulzadəyə yazdığı cavab məktubunda da Şaumyan fəhlə sinfini milli baxımdan fərqləndirmir və onu "bolşevik milləti" adlandırırdı (12, s.214). Məhz Şaumyanın erməni muxtariyyətinə də qarşı olması, nəticədə Daşnak partiyasının Bakı kommunasına düşmən mövqedə dayanmasına səbəb olmuşdu. Müsəlmanlara öz müqəddəratını təyin hüququnun verilməsi bir də 1919-cu ildə Hümmətçilər tərəfindən Zaqafqaziya Orqbürosunda gündəliyə gətirildi və 1919-cu ilin iyulun 19-da Zaqafqaziya Orqbürosunda bolşeviklər tərəfindən gələcəkdə Nərimanovun rəhbərlik edəcəyi Azərbaycan SSR-in mühacir hökuməti tanındı (9, s.227).

Müsavat və bolşeviklər arasındakı müttəfiqlik yalnızca taktiki xarakter daşıyırdı. Bununla bərabər hər iki siyasi partiyanın bir-birinə olan düşmənçiliyi dərin idi və Qafqaz Azərbaycanı uğrunda apardıqları mübarizədə bu düşmənçilik özünü biruzə verəcəkdi (4, s.90). Yelizavetpol (Gəncə) hadisələri Bakı Soveti ilə Müsavat arasındakı münasibətləri daha da gərginləşdirdi. 1917-ci il dekabrın 17-də Müsəlman hərbi birlikləri ilə bolşevik tərəfdarı 219-cu polk arasında silahlı münaqişə baş verdi (8, s.191). 1918-ci ilin yanvarında baş verən

Şamxor qətliamı da Bakı Soveti ilə Müsavat arasındakı gərginliyi pik həddə çatdırdı. Ronald Suniyə görə Şamxor döyüşləri zamanı 1000 rus əsgəri ölmüşdü (8, s.192). ABŞ tarixçisi Tadeuş Svetaxovskiyə görə isə, 1000-ə yaxın azərbaycanlı həyatını itirmişdi. Şamxor hadisələrindən sonra silahlanan müsəlman hərbi birlikləri Lənkəran və Şamaxıdakı bolşevik qarnizonlarını da ələ keçirmişdilər (9, s.156). Həm bolşeviklər, həm də müsavatçılar aralarında bir müharibənin olacağının fərqində idilər və hər ikisi də öz qələbələrini zəmanətə almaq üçün tədbirlər həyata keçirirdi. Bolşeviklərə görə, Müsavat Azərbaycan millətçilərinin mürtəce partiyası idi və hər iki partiya arasındakı müttəfiqlik əlaqələrinin davamlı olacağı qeyri-mümkün idi. Bolşevikləri düşündürən suallar qarşıdan gələcək vətəndaş müharibəsində kimlərin yardımına bel bağlayacaqları ilə bağlı idi. Çünki bolşeviklər hərbi qüvvə baxımdan tamamilə zəif idilər və onların rəqiblərini dəf etmək üçün müttəfiq axtarışına çıxması obyektiv siyasi reallıqdan irəli gəlirdi. Bakıda sovet hakimiyyətinin əsas rəqibi Erməni Milli Şurası və Daşnak partiyasının rəhbərliyi altında olan erməni hərbi hissələri idi. Bununla yanaşı, Bakıda hərbi baxımdan üstünlük də elə Daşnak partiyasında idi (8, s.196). Bolşeviklər də məhz siyasi maraqlar naminə öz ideoloji düşmənləri olan daşnaklarla əsas rəqibləri olan Müsavatı məğlub etmək üçün müttəfiqə çevrilmişdilər. Bolşeviklərə görə, Bakı daşnakları Tiflis daşnaklarından fərqli olaraq Bakı Sovetinin hakimiyyətini tanıyır və Bakının Sovet Rusiyasından ayrılmasına qarşı idilər (8, s.197). İkinci bir tərəfdən, bolşeviklərə görə, Müsavatın millətçiliyə meyl etməsi bolşeviklərə Müsavatla müttəfiq olmağa imkan vermirdi və 1917-ci ilin sonundan başlayaraq bu millətçilik daha da mürtəce hal alaraq Osmanlı ilə yaxınlaşmağa qədər gedib çıxmışdı (8, s.145). Daşnaklara görə isə, onları milli düşmənləri olan müsavatçılardan qorumağın yeganə yolu, əqidə baxımından düşmən belə olsa, bolşeviklərə sığınmaq idi. Çünki nəticədə bolşeviklər etnik baxımdan rus idilər (4, s.98). Müsavata görə isə, bolşeviklər etibarsız müttəfiq idilər. Çünki bolşeviklər muxtariyyətə qarşı mübarizə apararaq müsəlmanların öz müqəddəratını təyin etmək hüququnu tanımır və siyasi prinsiplərini mərkəzləşdirilmə isti-

qamətində təyin etmişdilər. Müsavatın lideri Rəsulzadə də Müsavat Partiyasının, hakimiyyətin Sovetlərə keçməsi prinsipinə etiraz etmədiyini, ancaq Bakı Sovetinin demokratik təməldə seçilməməsi və ayrıca kəndlilərin təmsil edilməməsi səbəblərinə görə Müsavat partiyası Sovetdəki iqtidarından əl çəkdiyini qeyd etsə də əsas səbəblər az əvvəl adlarını çəkdiyimiz muxtariyyət və mərkəzləşdirilmə məsələlərinə görə idi. Artıq bolşeviklərlə daşnaklar arasında yaxınlaşma olduğuna görə bolşeviklər Müsavata qarşı taktiki əməliyyatlarını həyata keçirə bilərdilər. Bunun üçün də Müsavata hücum etmənin ən rahat yolu, Müsavatı millətçi qiyamlara təşfiq etmək və bununla da Müsavatı əksinqilabçı kimi günahlandırmaq idi. Bunun kimi taktikalar arzu edilən nəticələri verə bilərdi, ancaq Sovet, müsəlmanlara qarşı ermənilərin yanında görünməmək üçün diqqətli davranmalı idi. Çünki Sovetdə çoxlu sayda rus və erməni var idi və əgər Sovet müsəlmanlar əleyhinə siyasət həyata keçirtməyə başlasa, azərbaycanlı kütlələr Müsavatın ətrafında birləşə bilərdilər. Erməni tərəfdarı kimi görünməmək üçün bolşeviklər, mətbuat yolu ilə, həm Müsavata, həm də Daşnaksütyuna hücum etdilər. Bununla bağlı 30 yanvar 1918-ci il tarixində Bakinski Raboçi qəzetindəki məqalədə bolşeviklər həm Müsavata, həm də Daşnaksütyuna hücum etsə də, əsil hədəf Müsavat idi. Sovet eyni zamanda bu iki düşmənə qarşı mübarizə apara bilməzdi. Hətta digərinin köməyi olmadan bolşeviklər bunlardan birinə qarşı qələbə qazana bilməzdi (4, s.93). Stepan Şaumyanın qardaşı olmuş Suren Şaumyan da bolşeviklərlə daşnaklar arasındakı müttəfiqlik əlaqələrinin rəqibləri olan Müsavatı dəf etmək üçün obyektiv reallıqdan irəli gəldiyini qeyd edirdi (4, s.95).

*Mart hadisələri: vətəndaş müharibəsi və azərbaycanlıların soyqırımı.* 1918-ci ilin qışın axırlarında Bakının müsəlman əhalisi erməni-daşnak hərbi birləşmələrinin varlığından narahat olmağa başlamışdılar. Bakı kəndlərindən fərqli olaraq, şəhər mərkəzində Azərbaycan hərbi qüvvələrinin sayının az olması müsəlman əhalini təpədən dırnağa qədər silahlanmış daşnak silahlı dəstələri qarşısında müdafiəsiz vəziyyətə gətirirdi (9, s.157). Fevralın sonunda müsəlman ailələr, kütlələr halında Bakını tərk etməyə başladılar. Bakı istisna olmaq di-

gər yerlərdə artıq müharibə başlamışdı. Lənkəranda köçəri ruslar və azərbaycanlı kəndlilər arasında hər il baş verən toqquşmalar Bakı Sovetinin müdaxiləsi nəticəsində yatırılmışdı (8, s.206). Hələ 1917-ci ilin dekabrında Bakı Sovetinin əsgərləri tərəfindən müsəlman əhaliyə qarşı özbaşınalıq və soyğunçuluq halları artmışdı. Müsavat liderləri müsəlmanların özünümüdafiə dəstələri yaratması üçün Bakı Sovetinə müraciət etsə də, Şaumyan və Caparidze tərəfindən bu müraciət rədd edilmişdi (1, s.105). Bakıda baş verən özbaşınalığa və xaosa baxmayaraq bolşeviklər bu hadisələrin qarşısını almaq üçün heç bir tədbir görmədilər. Tadeuş Svetaxovski əvvəllər etnik münaqişəyə qarşı olan Bakı Sovetinin indi də bu etnik münaqişədən öz xeyrinə istifadə etməyi qərarlaşdırdığını qeyd edir (9, s.158). Şaumyanın "Bakı Cənubi Qafqazda vətəndaş müharibəsinin başlıca qalasına çevrilməlidir" kimi müharibəyə çağırış xarakterli çıxışları artıq Bakıda vətəndaş müharibəsinin törədiləcəyinə bir siqnal idi (10, s.158). Şaumyan və digər bolşeviklər müsəlman əhalini və tərəfdarı olduğu millətçiləri irticanın dayağı kimi görürdülər və buna görə də lazım gəlsə daşnak hərbi birləşmələrindən də istifadə etməkdən çəkinməyəcəkdilər. 1918-ci il martın 29-nun axşamı Lənkərandan gəlmiş "Vəhşi diviziya" əsgərlərinin olduğu Evelina gəmisi Bakı limanına yan aldı. Gəmi Sovetin göstərişi ilə inqilabçı dənizçilər tərəfindən mühasirəyə alındı və heyətin komandiri general Talışınski həbs edildi (1; 4). Talışınskinin həbs edilməsi nəticəsində Müsavat Bakı Sovetinin tərkibindən çıxdı (8, s.206). General Talışınski və hərbi heyətin həbs olunmasından bir neçə gün əvvəl Şaumyan Lenindən teleqram almışdı. Lenin teleqramında Şaumyana ehtiyatlı olmağa, münaqişəni diplomatik yolla həll etməyə çağırırdı. Talışınskinin azad edilməsi ilə məsələ həll oluna bilərdi, ancaq martın 30-da Bakı Sovetinin rəhbərliyinə müsəlman ekipajının silahlandığı və Bakı Soveti əleyhinə üsyan etmək üçün siqnal gözlədiyi barədə məlumat gəldi (4 s.94). Bu məlumat nə qədər etibarsız olsa da, Bakı Soveti rəhbərliyi vətəndaş müharibəsinə getməyə qəti qərarlı idi. Sonralar Rəsulzadə "Azərbaycan" qəzetində çap olunmuş məqaləsində 1918-ci ilin martında "Müsavat"ın Bakıda Sovetə qarşı qiyam qaldırmaq üçün nə iradəsinin, nə

də gücünün olduğunu qeyd edirdi (1, s.106). Vəhşi diviziyanın hərbi heyətinin həbs olunması müsəlman əhalinin etirazına səbəb oldu və silahların müsəlman hərbi birləşmələrinə geri qaytarılması üçün minlərlə müsəlman Bakı küçələrinə axışaraq, müsadirə olunmuş silahların geri qaytarılmasını tələb etdi. Müsəlman sosial-demokrat Hümmət partiyası Bakı Sovet ilə Müsavat arasında vasitəçi olmağa çalışdı. Hümmətçilər Şaumyanla Nərimanovun evində görüşdülər. Nərimanov Şaumyandan milli münaqişəyə çevrilməsi ehtimalı böyük olan vətəndaş müharibəsinin təxirə salınmasını və silahların Vəhşi diviziyadan alınaraq Hümmət partiyasına verilməsini istədi. Martın 30-u günorta saatlarında Caparidze Müsavatın nümayəndələri ilə görüşərək silahların geri qaytarılacağını bildirdi. Ancaq artıq gec idi. Şəhərdə atışmalar başlamışdı. Birinci olaraq kimin atəş açması hələ də dəqiq müəyyən edilməyib. Öz qüvvələrinin Müsavatla mübarizədə zəif olacağını bilən Bakı Soveti bir vətəndaş müharibəsinin yaxınlaşdığını fərq edərək özü üçün müttəfiqlər axtarmağa başladı. Bakı menşeviklərinin lideri Ayollo Bakı Sovetini dəstəkləyəcəklərini bildirdi. Eserler Müsavatın islami yönümünə qarşı olduğuna görə Bakı Soveti ilə Müsavata qarşı mübarizə aparacağına söz verdilər. Hətta kadetlər (sağçı liberallar) bolşevikləri Rusiyanın bölünməsinə qarşı vuruşduqları üçün dəstəklədilər. Müsavat mübarizədə tamamilə tək olduğunu gördü. Müsavatın nəşr orqanı olan "Açıq söz" qəzeti, bir il boyunca menşeviklərlə döyüşən eyni bolşeviklərin indi də kadetlər və daşnaklarla da ittifaq qurduğunu yazırdı (4, s.94). Ronald Suni isə əksinə müsavatçıların daşnaklara ittifaq təklifi etdiyini, ancaq Daşnak partiyasının vətəndaş müharibəsi başlayacağı təqdirdə tərəfsiz olaraq hərbi əməliyyatlara qarışmayacağını qeyd edərək Müsavata rədd cavabı verdiyini yazırdı (8, s.208). Daşnak Ermənistanın (1918-1920) baş naziri və Daşnak partiyasının sədri olmuş Hovannes Kaçaznuni isə etiraflarında 1918-ci ilin mart hadisələri zamanı Daşnak və Müsavat partiyalarının bolşeviklərə qarşı ittifaq üçün hərəkət etməli olduğunu, lakin aralarında qarşılıqlı etibarın olmamasına görə hər hansısa müttəfiqlikdən danışmağın mənasız olduğunu qeyd edir.

Daha sonra Kaçaznuni Daşnak partiyasının Müsavata bolşevik təhlükəsi üçün lazım olduğunu və Müsavatın hədəfində bolşeviklərdən sonra Daşnak partiyasının da olduğunu qeyd edir. Həmçinin bolşeviklər də sırf siyasi maraqlar naminə daşnaklarla ittifaqda idi, ideoloji olaraq isə həm daşnaklar, həm də bolşeviklər bir-biriləri ilə düşmən ideologiyanın sahibləri idilər. Müsavatçılar üzərində qələbə qazandıqdan sonra bolşeviklərin növbəti hədəfi daşnaklar olacaqdı. Bunun da səbəbi daşnakların öz maraqlarını erməni milliyətçiliyi üzərinə, bolşeviklərin isə beynəlmiləlçilik üzərində qurması ilə bağlı idi (3, s.43). Beləliklə martın 31-də Müsavat ilə bolşeviklər arasında hərbi əməliyyatlar Bakının mərkəzindəki Şamaxı küçəsində başladı. Xəzər dənizindən hərbi gəmilər İçərişəhəri və Bakının müsəlman məhəllərini ağır toplarla atəşə tutdular. Döyüşlərin gedişində aviasiya tətbiq olunur və təyyarələr ağına-bozuna baxmadan, evləri və dinc sakinləri atəşə tuturdular. İmkanlı müsəlman tacirlərin şəhərdəki sarayları artilleriya atəşləri nəticəsində yandırıldı. Rus hərbi gəmiləri müsəlman məhəllərini top atəşinə tutsa da, daşnakların yalan danışdıqlarını anlayıb, müsəlman məhəllərinə atılan top atəşlərini dayandırdılar. Hərbi əməliyyatlar neft mədənlərinə qədər yayıldı. Balaxanı və Ramanada işçilərin çoxu və kəndlilər heç bir tərəfdə vuruşmadılar. İranlı fəhlələr də baş verən münaqişədə tərəfsiz qalaraq hərbi əməliyyatların bitməsini gözlədilər (8, s.210). Aprelin 1-də nüfuzlu müsəlman rəhbəri Səfərəliyev bolşeviklər və müsavatçılar arasında vasitəçilik etməyə çalışan Nərimanova rəng etdi. Müsavatçılar düşmənçilik hərəkətlərinin dayandırılmasını xahiş etdilər. Astoriya otelində imzalanan müqavilə ilə vətəndaş müharibəsi qurtardı. Müsavat Bakıdakı Sovet hakimiyyətini tanımağa və Bakı ilə Sovet Rusiyasının əlaqəsini təmin edən Bakı-Petrovsk dəmiryolu xəttini açmağa məcbur oldu. Ronald Suni Müsavat ilə təslim aktının imzalanmasında bolşeviklərin məqsədinin müsəlmanları Sovetdən kənarlaşdırmaq yox, əksinə müsəlmanları öz tərəflərinə çəkmək olduğunu, ancaq, daşnakların müsəlmanlara qarşı qətliam həyata keçirməklə bolşeviklərin bu planını alt-üst elədiyini qeyd edir (8, s.212). Münaqişənin əvvəlindən tərəfsizliyini elan edən erməni-daşnak hərbi birləşmələri-

nin aprelin 1-də müharibəyə daxil olması ilə vətəndaş müharibəsi soyqırım aktına çevrildi. Erməni-daşnak hərbi birləşmələri siyasi ideologiyasından asılı olmayaraq bütün müsəlmanlara qarşı soyqırım aktının həyata keçirməyə başladılar (4, s.96). Daşnak hərbi birləşmələrinin Bakı Soveti tərəfindən müharibəyə daxil olması barədə bəhs edilən dövrdə Bakıda vəkil kimi çalışmış Baykov da öz xatirələrində qeyd edir. Baykov, Daşnaksütyunun əvvəlcə tərəfsizliyini elan etdiyini, lakin daha sonra Daşnaksütyunun Bakı komitəsinin hərbi əməliyyatlara qatılmağa qərar verdiyini qeyd edir (8, s.208). Nərimanov da xatirələrində bolşeviklərin qüvvə baxımdan zəif olduğuna görə Şaumyanın erməni-daşnak hərbi birləşmələrinin Sovet hakimiyyətini müdafiə etməyə razılıq verdiyini, ancaq bunun çox ağır nəticəsinin olduğunu, saat 12-yə qədər düzgün aparılan vətəndaş müharibəsinin artıq milli qırğına çevrildiyini qeyd edir (6, s.24). Nərimanov, 1919-cu ilin fevralında, 1918-ci ilin dəhşətli mart günlərini belə xatırlayırdı:

*“Dərin təəssüflər olsun ki, zamanında bir çoxu bu həqiqəti anlamadı və vətəndaş müharibəsi mümkünlüyünə yol verdi. Bakıda vətəndaş müharibəsi martın 18-də başladı. Hərçənd bu savaşı müsəlman burjuaziyası başlasa da, mən qətiyyətlə bildirirəm ki, martın 19-da gündüz saat 12-də bu vətəndaş müharibəsi Sovet hakimiyyətinin qələbəsi ilə başa çataraq, kəsildi. Lakin məsələ bu qələbə ilə bitmədi, və vətəndaş müharibəsi millətlərarası qırğına çevrildi. Silahlı erməni bandaları tərəfindən müsəlman əhalisinin vəhşicəsinə məhv edilməsini kim vətəndaş müharibəsi adlandıra bilər? Kim söyləyə bilər ki, erməni silahlı dəstələri Bakıda vətəndaş müharibəsi aparırdılar? Mənim özümü, bir türk bolşevikini, erməni bandalarının əlindən yalnız yoldaş Şaumyan qurtara bilmişdi. Tutaq ki, Bakıdakı mart hadisələri vətəndaş müharibəsini təmsil edirdi. Bəs onda daşnaklar Əmirovun və Styopa Lalayevin bundan sonra Şamaxıda törətdikləri vəhşi əməllərə nə ad verək?*

*Vicdansız, lənətə gəlmiş Lalayevin Şamaxıdakı əməlinə vətəndaş müharibəsi deyə bilərikmi? O, müsəlman qadınlarını və uşaqlarını, öncə namuslarının ləkələnməsi üçün dəstəsinə verdikdən sonra,*

*məsciddə toplamış, daha sonra isə məscid qarışıq onları yandırmışdı”* (5).

Qırğınlar və soyğunlar şəhərin müsəlman hissəsində iki gün davam etdi. Polkovnik Hamazaspın əsgərləri birbaşa küçələrdə insanları zorlayır, onları şikəst edir və öldürüdü. 2 apreldə mərkəzdən yuxarıda yerləşən müsəlman məhəlləri alova büründü. İnsanlar çaxnaşma içində yanan evlərdən qaçır, Bakının ətrafındakı bölgələrdə qurtuluş axtarırdılar. O vaxt şəhərdə olan vəkil Baykov dörd gün ərzində burada “əsl cəhənnəm”in hökm sürdüyünü xatırladırdı (1, s.108). Qırğınlar zamanı ideologiya fərqi qoyulmur və bolşevik əqidəli müsəlmanlar belə erməni-daşnak hərbi birləşmələri tərəfindən qətlə yetirilirdi. Erməni-daşnak birləşmələri bununla yanaşı şəhərdəki islam memarlığının ən gözəl nümunələrindən biri olan İsmaliyyə binasını və Kaspi mətbəəsi də yandırmışdılar (8, s.213). Şaumyan 1918-ci ilin aprelində Sovet Rusiyasının Xalq Komissarları Sovetinə göndərdiyi məktubunda hər iki tərəfdən 3000-nə yaxın insanın öldüyünü qeyd edir (12, s.245). Qırğınlar zamanı vəkil Baykov 6000 nəfərin öldüyünü, mühacir Mirzə Bala 14 000 nəfərin öldüyünü, yazıçı Əsəd bəy isə 30000-nə yaxın insanın kütləvi qətillərin qurbanı olduğunu qeyd edir. Almaniya tarixçisi Yorq Baberovski bu faktları sadalayaraq dağıntıların əsl miqyasının məlum olmadığını qeyd edir (1, s.108). Müsavat və müsəlman hərbi birləşmələri şəhərdən kənara çıxarılandan sonra, sosial-demokrat Hümmət partiyası müsəlmanların yeganə partiyasına çevrildi. Hümmətçilər daha sonra Erməni Milli Şurasının ordusunun dağıdılmasını və ya şəhərdən çıxarılmasını, müsəlman məhəllələrinin müdafiə edilməsi üçün Qızıl hərbi hissələrin formalaşdırılması ilə bağlı İnqilabi Komitəyə müraciət etdilər. İnqilabi Müdafiə Komitəsi tərəfindən müsəlman məhəllələrinə komissar təyin edilən Məşədi Əzizbəyov müsəlmanlardan şəhərdən çıxmaması üçün müraciət edərək, onları qoruyacağını bildirdi. Ronald Qriqor Suni bolşeviklərin artıq müsəlmanlarla uzlaşmağa çalışdığını və hətta müsəlmanların könlünü almaq üçün Erməni Milli Şurasının ordusunun böyük bir hissəsini dağıtdığını ancaq buna baxmayaraq Bakıda üstünlük erməni hərbi birləşmələrində olduğuna görə erməni-

daşnak hərbi birləşmələrinin əksər hissələrinin mövcudluğunu saxladığını qeyd edir (8, s.214-215). Məhz Bakı Sovetinin zabitlərinin daşnak olması və ordunun böyük bir hissəsinin erməni hərbi birləşmələrindən ibarət olması Bakı quberniyasının Şamaxı, Quba və Lənkəran qəzalarında aprel-may ayları ərzində soyqırım aktının davam etməsinə səbəb olmuşdu. Vətəndaş müharibəsi nəticəsində daşnaklar və müsavatçılar hakimiyyətdən kənarlaşdırıldı və 1918-ci ilin aprel ayının 25-də 9-u bolşevik və 3-ü sol eser olmaqla 12 komissarın rəhbərlik etdiyi Bakı Xalq Komissarları Soveti formalaşdırıldı (4; 8). Mart soyqırımında bolşeviklərin iştirak edib etməməsi haqqında da tarixçilər arasında fikir ayrılığı vardır. ABŞ tarixçisi Maykl Smit bolşeviklərin müsəlman əhalini daşnakların hücumundan qorumağa gücünün çatmadığını yazırdı (7, s.36). ABŞ tarixçisi Ronald Suni daşnaklar tərəfindən həyata keçirilən qətliamların Bakı Sovetindən xəbərsiz şəkildə həyata keçirildiyini qeyd edir (8, s.212). Sovet tarixçilərindən Popov, Yorq Baberovski və Firuz Kazımzadə kimi Qərb tarixçiləri də bolşeviklərin daşnaklarla soyqırımda iştirak etdiyini qeyd edir (1; 4). Azərbaycanlı bolşevik Sultan Məcid Əfəndiyev də mart soyqırımında erməni bolşeviklərinin iştirak etdiyini və Şaumyan ilə Caparidze kimi bolşeviklərin daşnakların əlində əsir olduğunu qeyd edir (5, s.96).

*Nəticə.* Mart hadisələri XX əsr Azərbaycan tarixində mühüm hadisə olmuş və bu hadisə nəticəsindı, Azərbaycan Cümhuriyyətinin öz müstəqilliyini elan edərək Cənubi Qafqazda millət-dövlət prosesinin başlanğıcını qoymuşdu. Bununla yanaşı mart hadisələri Müsavat-bolşevik münasibətləri və həmin münasibətlərin təməl faktorları nəticəsində də baş verən hadisə idi. Bolşeviklərə görə müsəlmanlar və onların dəstəklədiyi Azərbaycan milli hərəkatı Cənubi Qafqazda cəhalətin yeganə qalası, müsavatçılara görə isə bolşeviklər etibarsız müttəfiq idi. Məhz hər iki tərəfin sonradan bir-birilərinə olan etimadsızlığı və Müsavatın müsəlman xalq kütlələri arasında getdikcə nüfuzlu partiyaya çevrilməsi bolşeviklərin Müsavatı real təhlükə kimi görməsinə və bolşeviklərin hərbi qüvvə baxımdan öz zəifliklərini nəzərə alaraq müsavatçılara qarşı daşnaklarla ittifaq qurmasına səbəb

olmuşdur. Müsavata qarşı bolşevik-daşnak ittifaqı nəticədə vətəndaş müharibəsinə soyqırıma çevrilməsinə səbəb olmuş, Sovet hakimiyyətini qurmaq adı altında Azərbaycanın ayrı-ayrı bölgələrində baş verən soyqırım aktları müsəlman əhalinin Sovet hakimiyyətini silah gücü ilə qurulan yad hakimiyyət kimi qəbul etməsi ilə nəticələnmişdi. Bunun da nəticəsində, Nəriman Nərimanovun təbirincə desək, müsəlman proletariat Sovet hakimiyyətindən uzaqlaşaraq öz burjuaziyasına meyl etməyə və Türkiyəni xilaskar kimi alqılamağa başlamışdı (1; 5). Bununla yanaşı 1918-ci ilin mart hadisələri Müsavatın Azərbaycanın muxtariyyətinə olan ümidlərini qıraraq, müstəqil dövlət qurmaq idealını həyata keçirməyə və keçmiş müttəfiqləri olan bolşeviklərdən uzaqlaşaraq Türkiyəyə meyl etməsinə səbəb olmuşdu (9, s.162).

ƏDƏBİYYAT

1. Baberovski Y. Düşmən hər yerdədir. Stalinizm Qafqazda. Bakı, Alatoran Yayınları, 2021, 698 s.
2. Cornell E S. Azerbaijan Since Independence. London, Routledge, 2011, 485 p.
3. Kaçaznuni H. Erməni baş nazirinin etirafları. Daşnaksütyun – görüləsi bir iş qalmadı. Bakı, Parlaq İmzalar, 2020, 160 s.
4. Kazımzade F. Transkafkasya İçin Mücadele, 1917-1922. Türkiye-İngiltere-Rusya. Çeviren: Dr.Cengiz İ.Çay. TK Yayınları, 2016, 414 s.
5. Nəriman Nərimanov – Qafqazın ələ keçirilməsinə baxış (1919, fevral). - Praksis☭ - https://praksis01.wordpress.com/2019/01/06/n%C9%99riman-n%C9%99rimanov-qafqazin-isgalina-baxis/ [Müraciət tarixi: 11.03. 2022].
6. Nərimanov N. Ucqarlarda İnqilabımızın Tarixinə Dair. İ.V.Stalinə Məktub. Bakı, Azərbaycan Dövlət Nəşriyyat-Poliqrafiya Birliyi, 1992, 65 s.
7. Smith M. Anatomy of a Rumour: Murder Scandal, the Musavat Party and Narratives of the Russian Revolution in Baku, 1917-20 (англ.) // Journal of Contemporary History, 2001, p.227.

8. Suny R G. Bakü Komünü, 1917-1918. Rus Devriminde Milliyet ve Sınıf. İngilizceden Çeviren Kudret Emiroğlu. İstanbul, Aras Yayıncılık, 2019, 365 s.
9. Swietochowski T. Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycanı 1905-1920. Türkçesi: Nuray Mert. İstanbul, Bağlam Yayınları, birinci basım, 1988, 295 s.
10. Балаев А. Азербайджанское национальное движение в 1917-1918 гг. Баку, «Елм», 1998, 136 с.
11. Бурджалов Э. Двадцать шесть бакинских комиссаров. М.: Госполитиздат, 1938 г, 111 с.
12. Шаумян С. Г. Избранные произведения. Т.II. М., Издательство Политической литературы, 1978, 461 с.

**ALI NOVRUZOV**
*First-year master's student majoring in history teaching methodology and methodology of Lankaran State University*

## MARCH DAYS: CIVIL WAR AND GENOCIDE OF AZERBAIJANI PEOPLE

The year 1918 has a special significance in the history of XX century Azerbaijan. The history of 1918 includes two important events in the history of Azerbaijan, the most important of which are the events of March 1918 and the establishment of nation-states on May 28, 1918, which is an important event not only in Azerbaijan but in the whole Caucasus. It was the events of March 1918 that shattered Musavat's hopes for the autonomy of Azerbaijan, led to the realization of the ideal of building an independent state, and turned away from its former allies, the Bolsheviks, to Turkey (1, p.162). According to the Musavat-Dashnaktsutyun-Bolshevik triangle, the article discusses the causes of the March events, the breaking point in relations between Musavat and the Bolsheviks, the attitude of the Bolsheviks to the Azerbaijani national movement, the civil war and

the transformation of the civil war into an act of genocide. and works by Azerbaijani, Armenian, Soviet, West historians and authors.

*Keywords*: March days Musavat, genocide, Dashnaktsutyun, Baku Soviet.

*Daxil olma tarixi*: 14.03.2022-ci il.
*Çapa imzalanma tarixi*: 25.05.2022-ci il.

**UOT 94(479.24)**

**FATİMƏ ŞİRİNOVA**
*Bakı Dövlət Universiteti SABAH Qrupları*
*Tarix müəllimi ixtisası üzrə III kurs tələbəsi*
**fatimashirinova02@gmail.com**

# AZƏRBAYCAN TARİXİNDƏ MİR CƏFƏR BAĞIROV ŞƏXSİYYƏTİ

*Elmi rəhbər:*
Tarix üzrə fəlsəfə doktoru Sevda İsmayılova
Bakı Dövlət Universiteti

*Tarix öz şəxsiyyətlərini yetişdirir və bu şəxsiyyətlər müsbət və mənfiləri ilə yeni bir tarix yaradırlar. Belə şəxsiyyətlərdən biri də Mir Cəfər Abbas oğlu Bağırovdur. Məqalədə M.C.Bağırovun 1933-1953-cü illərdə AK(B)PMK-nın birinci katibliyi dönəmindəki ictimai-siyasi fəaliyyəti araşdırılmış,onun Cənubi Azərbaycan məsələsində rolu tətqiq edilmişdir. Mir Cəfər Bağırov Cənubi Azərbaycana bütov Azərbaycanın böyük hissəsi kimi baxırdı və bu səbəbdən də İran Azərbaycanı ilə bağlı siyasətinin müəyyən edilməsi Mir Cəfər Bağırova həvalə edilmişdi. Bağırov ziddiyyətli bir tarixi şəxsiyyətdir. Bu ziddiyyət isə repressiyalar dönəmindəki fəaliyyətindən doğur. Əlbəttə, göstərişlər birbaşa mərkəzdən həyata keçirilir və qarşısı alınmaz bir proses idi,amma hər halda, repressiyalar Azərbaycanın intelekt səviyyəsinə ciddi zərər vurmuş və buna haqq qazandırmaq mümkün deyildir.*

*Açar sözlər:* Mir Cəfər Bağırov, Dağlıq Qarabağ, Repressiya, Cənubi Azərbaycan, Bağırovun məhkəməsi.

***Giriş.*** Azərbaycan tarixinin ziddiyyətli şəxsiyyətlərindən biri də Mir Cəfər Bağırovdur. M.C.Bağırov AK(B)PMK-ya birinci katib seçilənə qədər bir çox vəzifələrdə çalışmışdır. M.C.Bağırovun birinci katib seçilməsinə qədər bu vəzifəyə qeyri-azərbaycanlılar rəhbərlik etmiş və partiya rəhbərliyi tez-tez dəyişmişdir. 1933-cü ildə Stalinin göstərişi ilə M.C.Bağırov AK(B)P MK-ya birinci katib seçilir. Bu-

nunla da Azərbaycanda Aprel işğalından sonra ilk dəfə olaraq azərbaycanlı MK-nın birinci katibi seçilmiş olur. M.C.Bağırov fəaliyyətdə olduğu bu illər ərzində Azərbaycanın hərtərəfli inkişafı sahəsində xeyli iş görmüşdür. Onun Cənubi Azərbaycan məsələsindəki rolu və Kremlin Azərbaycana uzanan erməni əlini bir qədər tutub saxlaya bilməsi təqdirə layiqdir. Lakin fəaliyyətinin 1937-1938-ci illərinə heç cür haqq qazandırmaq olmaz. Çünki bu illərdə Azərbaycanın minlərlə millətsevər alimi, şair və yazıçısı, partiya, dövlət xadimi və s. həbs edilmiş və güllələnmişdir. Əlbəttə, bir faktı da unutmamalıyıq ki, bu repressiyalar birbaşa Moskvadan idarə olunurdu və bu prosesə yerli rəhbərlərin müdaxiləsinə imkan verilmirdi. Stalinin ölümündən sonra məhkəmə prosesi həyata keçirilir və Bağırovu daha çox repressiyaların təşkilində ittiham edirdilər. Məhkəmənin qərarına əsasən, əmlakı müsadirə edilərək güllələnmə qərarı verilmişdi.

***Mir Cəfər Bağırovun ictimai-siyasi fəaliyyəti.*** 20-ci illərin sonunda M.C.Bağırov SSRİ miqyasında kifayət qədər tanınmışdı və diqqət mərkəzində idi. M.C.Bağırovun fəaliyyətinin 1920-1933-cü illər dövrü onun Azərbaycanda vəzifə kürsüsünün ən yüksək pillələrinə qalxdığı bir dövrdür (5, s.185).

Respublika partiya rəhbərliyində qarışıqlığın səbəblərindən biri mərkəzi partiya orqanlarının milli respublikaların partiya təşkilatlarına münasibətdə yeritdiyi düzgün olmayan kadr siyasəti idi (3, s.248). AK(b)P yaranandan 30-cu illərin ortalarına kimi Azərbaycanda partiya rəhbərliyi çox tez-tez dəyişirdi. Ona əvvəllər qeyri-milli kadrlar başçılıq etmişdir (6, s.268). Bu isə respublikada ictimai-siyasi şəraitə mənfı təsir göstərir və Azərbaycanın qarşısında duran mühüm problemlərin həllini mürəkkəbləşdirirdi (3, s.248).

1932-ci ildə Stalin Bağırovu Azərbaycana Xalq Komissarlar Sovetinin sədri vəzifəsinə göndərdi və tapşırdı ki, yarım ildən sonra Respublikada işlərin vəziyyəti barədə ona məruzə təqdim etsin. Bir il sonra isə Stalin Bağırovu AK(B)PMK-ya birinci katibliyə tövsiyə etməyi qərara aldı. Bununla da o, Stalinin xüsusi etibar etdiyi işçilər sırasına daxil oldu. Beləliklə, Aprel işğalından sonra Azərbaycanda ilk dəfə olaraq azərbaycanlı MK-nın birinci katibi seçildi. M.C.Bağı-

rov özü danışırdı ki, onun namizədliyi müzakirə olunan Siyasi Büro iclasında kəskin mübahisə getmiş, Siyasi Büro üzvlərinin bəziləri qəti olaraq onun namizədliyinin əleyhinə çıxmış, hətta 1926-cı ildə quldurları məhv edərkən sərhədyanı İran kəndində onun bir neçə kəndli evini yandırdığını xatırlamışlar. Bu zaman həmin əleyhdarlar Azərbaycanda yüksək vəzifədə olan azərbaycanlı kadrlardan heç kimin namizədliyini irəli sürməmiş, görünür, ümid etmişlər ki, Mərkəzdən Bakıya yenə öz adamlarından birini göndərə biləcəklər. Lakin Stalin öz dediyində axıra qədər möhkəm durdu, çünki o, Bağırova çox etibar edirdi, Bağırov onun ürəyinə yatmışdı (10, s.15).

O, bu məsul vəzifədə 1954-cüilədək olmuş, Azərbaycanın hərtərəfli inkişafına var qüvvəsi ilə çalışmışdır: Sənaye sahəsində M.Bağırovun bu dövrdəki fəaliyyəti nəticəsində Bakı neft sənayesinin hərtərəfli inkişafı ilə yanaşı, başqa sənaye sahələri də inkişaf etmiş, yeni-yeni fabrik və zavodların (Bakı Neftayırma zavodu, Bakı Elektrik maşınqayırma zavodu, Sumqayıt istilik elektrik stansiyası, Mingəçevir su elektrik stansiyası və s.) tikilib istifadəyə verilmiş, bir sıra yeni neft yataqları və mədənləri (Lökbatan, Neft daşları, Zığ) kəşf olunmuşdur. Nəticədə, neft hasilatı və emalı daha da artmış və yeni yaradılmış sənaye müəssisələri məhsul verməyə başlamışdır. M.Bağırovun bilavasitə rəhbərliyi altında tikinti işləri sürətlə aparılmış, Bakıda Nazirlər Kabinetinin binası, hökumət evi, Nizami adına kinoteatr, Şəhriyar adına mədəniyyət evi, xalça muzeyi, Respublika stadionu və s. tikilib istifadəyə verilmişdir. Onun hakimiyyəti illərində Azərbaycan Elmlər Akademiyası və onun bir sıra institutları və s. ali və orta məktəblər şəbəkəsi istifadəyə verilmişdir (13,s.64-65). Teyyub Qurbanın araşdırmalarına görə, 1928-ci ildə Mirzəyan Bakı Dövlət Universitetini bağlatdırır. Guya ki, bu Müsavat Partiyasının qalığıdır, ləğv edilməlidir. M.C.Bağırov isə 1934-cü ildə Bakı Dövlət Universitetinin yenidən açılmasına nail olur (9).

Bağırov respublikanın kadr məsələsinə də böyük fikir verirdi. Ali və orta ixtisas məktəblərinə ildən-ilə tələbələrin qəbulunun artmasına, partiya və dövlət işlərində çalışacaq kadrların hazırlanmasına, xalq təsərrüfatının müxtəlif sahələri üçün mütəxəssislərin təkcə

respublika deyil, Moskva, Leninqrad, Kiyev və s. şəhərlərdə hazırlanmasına xeyli əmək sərf etmişdir (13, s.65).

M.C.Bağırovun fəaliyyəti dövründə AK(b)P MK yanında Ali Partiya Məktəbi yaradıldı. Bu məktəb fəaliyyət göstərdiyi müddətdə Azərbaycanda partiya, sovet, komsomol, həmkarlar ittifaqları üçün minlərlə kadrlar hazırlandı (5,s.192). M.C.Bağırov Azərbaycan mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin inkişafı sahəsində də xeyli iş görmüşdür. M.Bağırovun başçılığı ilə Sumqayıt, Mingəçevir, Əli Bayramlı, Daşkəsən kimi yeni sənaye mərkəzləri salınmış, onlarla yeni-yeni fabrik və zavodlar, maşınqayırma müəssisələri yaradılmışdır. 1941-1945-ci illər Böyük Vətən müharibəsi zamanı M.Bağırov alman-faşist işğalçılarına qarşı mübarizəyə və qələbəyə Azərbaycan fəhlələrini, kəndlilərini və ziyalılarını var qüvvəsi ilə səfərbər etmişdir. Azərbaycan milli diviziyalarının yaradılması işinin təşkilatçısı olmuşdur (13, s.65).

1942-ci ilin yazında Mikoyan məharətlə Stalinin qarşısında məruzə ilə çıxış edir. Azərbaycanlıların türk olduğunu qeyd edərək, Almaniyada mövcud olan Azərbaycan legionlarını əsas gətirərək, Cənub sərhədlərində türklərin yerləşməsini gələcəkdə Bakı neftini itirmək təhlükəsini yaratdığını göstərir. Nəticədə, Azərbaycandan azərbaycanlıların "deportasiyası" məsələsi Siyasi Büroya çıxarılır. Beriyadan başqa Siyasi Büronun bütün üzvləri bu deportasiyaya razılıq verir. Beriya öz çıxışında "Bu işi M.C.Bağırovun razılığı olmadan həll etmək olmaz", - deyərək, Siyasi Büronun iclasında ümumi fikrə gəlməyə imkan vermir. İclasdan sonra M.C.Bağırova zəng edərək dərhal bir neçə tədbirləri həyata keçirməyi məsləhət görür. M.C.Bağırovun ictimai-siyasi əhəmiyyət daşıyan addımları və L.P.Beriyanın köməyi ilə 1942-ci ildə azərbaycanlıların deportasiyasının qarşısını alır. Ola bilsin ki, 1942-ci ilin sonunda Türkiyənin Almaniya ilə münasibətlərinin korlanması da deportasiya məsələsini 1947-ci ilə qədər gündəlikdən çıxartdı (1, s.121-122).

1943-cü ilin yazında Azərbaycanda müharibəyə hərbi çağırış keçirilirdi. Lakin, bu çağırış əvvəlkilərdən fərqlənirdi. Bu dövrdə müəyyən yaş həddi çərçivəsində qadınların da hərbi mükəlləfiyyətə

salınması və onların döyüş bölgələrinə göndərilməsi nəzərdə tutulurdu. O vaxtlar M.C.Bağırov həmçinin Zaqafqaziya Cəbhəsi üzrə Müdafiə Şurasının üzvü idi. O, problemin həlli yolunu yalnız Stalinlə görüşdə görürdü. Çünki bu əmri birbaşa Stalin vermişdi. Müharibə şəraitində komandirin əmrindən çıxmaq, sadəcə Hərbi Tribunal demək idi. M.C.Bağırov başqa respublikaların rəhbərlərindən fərqli olaraq, bu çağırışa cəsarətlə öz etirazını bildirmiş və bu sözləri demişdi: "Azərbaycan kişisinin alnında namus qırışı var. Biz qadınları məcburi şəkildə hərbi çağırışçı edə bilmərik". Stalin Bağırovun bu hikkəsinin qarşısında güzəştə getməyə məcbur olur (1, s.130).

İkinci Dünya müharibəsindən sonra Ermənistan K(b)P MK-nın birinci katibi Arutyunov Stalinə məktub göndərərək Dağlıq Qarabağın Ermənistana verilməsini xahiş edir. Stalinin göstərişi ilə ÜİK(b)P MK katibi V.Molotovun M.C.Bağırova ünvanladığı məktubda göstərilirdi ki, Ermənistan K(b)P MK katibi Arutyunov ÜİK (b) MK-ya baxılmaq üçün təklif verib ki, hazırda Azərbaycan SSR tərkibinə daxil olan Dağlıq Qarabağ Muxtar Vilayəti Ermənistan SSR tərkibinə daxil edilsin. Məktubla tanış olan M.C.Bağırov dərhal Azərbaycan SSR Elmlər Akademiyasının alimlərinə göstəriş verir ki, Dağlıq Qarabağın tarixi, iqtisadiyyatı, onun tarixən Azərbaycan ərazisi olması haqqında əsaslandırılmış faktlara birgə sənədlər hazırlasınlar. İrihəcmli arayışın əsasında yazılmış məktub Malenkova göndərildi. Məktubda göstərilirdi: "Göndərdiyiniz məktubda əsas tutulur ki, Dağlıq Qarabağda əhalinin çox hissəsi milliyyətcə ermənidir və ona görə də bu ərazi Ermənistana verilməlidir. Məsələnin belə qoyuluşu nə tarixi, nə də hüquqi cəhətdən düzgün sayıla bilməz. Əgər belə olarsa, onda gərək Ermənistanın və eləcə də Gürcüstanın əhalisinin əksəriyyəti azərbaycanlılar olan rayonları Azərbaycana verilsin. Rusiya da Dərbəndi Azərbaycana qaytarsın. Çünki Dərbənd vaxtilə Bakı quberniyasının tərkibində olub". Məktubla tanış olduqdan sonra erməni daşnakları və onları müdafiə edənlər başa düşürlər ki, məsələ belə həll olarsa, İrəvan, Şərur-Dərələyəz, Zəngəzur, Göyçə, vaxtilə Gürcüstana verilmiş Azərbaycan torpaqları Azərbaycana qaytarılmalıdır. Ona görə də erməni və onların havadarları M.C.Bağırovun qə-

tiyyəti və möhkəm iradəsinin təsiri altında öz fikirlərindən geri çəkilirlər (5, s.196).

M.C.Bağırovun yuxarıda göstərilmiş müsbət addımları ilə yanaşı, həm də onu ziddiyyətli obraza çevirən 1937-1938-ci illər fəaliyyətində qara ləkə kimi iz buraxmışdır. Çünki bu illərdə Azərbaycanın minlərlə millətsevər alimi, şair və yazıçısı, partiya, dövlət xadimi və s. həbs edilmiş və güllələnmişdir. Bu işdə M.Bağırovun günahı olsa da, o, partiya əsgəri kimi Ümumittifaq KP MK və SSRİ hökumətinin göstərişlərini, tələblərini yerinə yetirmişdir. Çünki o dövrdə "vətən xainləri", "əksinqilabçıları", "xariclə əlaqələri olanları" tapıb üzə çıxarmaq müttəfiq respublikalarda adi hal olmuş və plana çevrilmişdi (13, s.64).

Sözsüz ki, Azərbaycan oxucularının böyük əksəriyyəti bütün repressiya prosesinin başında M.C.Bağırovun durduğunu eşidib və oxuyublar. Ancaq bu repressiyalar birbaşa Moskvadan idarə olunurdu və bu prosesə yerli rəhbərlərin müdaxiləsinə imkan verilmirdi. 1937-ci ilin dəhşətli repressiyası SSRİ Xalq Daxili İşlər Komissarının həmin ilin 30 iyul 0044 sayli operativ əmri əsasında həyata keçirilirdi: "1937-ci ilin avqust ayının 5-dən bütün respublikalarda, diyar və vilayətlərdə keçmiş qolçomaqların, fəal antisovet ünsürlərin və cinayətkarların repressiya olunması üzrə əməliyyata başlansın" (1, s.97-98).

Repressiyanın amansız illərində 75-80 min Azərbaycan ziyalı nümayəndəsi-alim, şair, yazıçı, artist, müəllim, gənc, din xadimi, partiya və hökümət xadimi, hərbiçilər, bütün düşünən beyinlər, qeyri-adi təfəkkür sahibləri məhv edildilər (5, s.264-265). Təkcə 1937-ci ildə Azərbaycanda "xalq düşməni" kimi 29 min nəfər güllələnmiş və ya Sibirə sürgün edilmişdi (5, s.289).

Bir faktı da nəzərdən qaçırmaq lazım deyildir ki, repressiya prosesi Kremldən planlı surətdə idarə olunurdu. O dövrdə Stalinin təkidi ilə ÜİK(b)P MK katibi A.A.Jdanov Azərbaycan KP MK-ya, şəxsən Mir Cəfər Bağırova göndərdiyi məktubda (bu məktub onun məhkəməsində oxunmuşdur) o, M.C.Bağırovu əksinqilabçı düşmənlərin, sosializm əleyhdarlarının tapılıb ifşa edilməsində qətiyyətsizlik gös-

tərdiyinə görə günahlandırırdı. Sözsüz ki, bu xəbərdarlıq məktubu əsassız deyildi. Artıq Kremlə M.C.Bağırovun Azərbaycanın milli ruhlu bu və ya digər görkəmli ictimai-siyasi xadimlərini xilas etmək üçün birbaşa Sovet rəhbərlərinə göndərdiyi müraciətlər və Kremlin Azərbaycan üzrə olan agentlərinin M.C.Bağırovdan xəbərsiz mərkəzə göndərdikləri məxfi siqnallar Bağırova qarşı yuxarıdakı xəbərdarlıq məktubunun əsasını formalaşdırırdı (2, s.83-84).

Repressiyaya məruz qalanlar içərisində Abbas Mirzə Şərifzadə, Ayna Sultanova, Bəkir Çobanzadə, Cəmşid Naxçıvanski, Hüseyn Cavid, Mikayıl Müşfiq, Qambay Vəzirov, Ruhulla Axundov, Yusif Vəzir Çəmənzəminli, Ömər Faiq Nemanzadə, Əhməd Cavad və s. kimi Azərbaycanın görkəmli elm, mədəniyyət və ictimai xadimləri olmuşdur. Təkcə 1937-ci ildə 16 Azərbaycan generalı qətlə yetirilmişdir. Bununla da repressiya Azərbaycanın ümumilikdə intellekt potensialına sarsıdıcı zərbə vurmuşdur (7).

***M.C.Bağırov və Cənubi Azərbaycan***. İran Azərbaycanı Sovet rəhbərləri üçün çox vacib idi. Çünki ruslar buranı Sovet torpaqlarına açılan bir qapı və ümumi İran hakimiyyəti üçün açar olaraq görürdülər. İran Azərbaycanı ilə bağlı məlumatların toplanması, hesabatların hazırlanması və siyasətinin müəyyən edilməsi vəzifəsi Mir Cəfər Bağırova həvalə edilmişdi. Bağırovun üzərinə İran Azərbaycanında muxtariyyət tələb edən türk və kürdlərin təşkilatlanması da həvalə edilmişdi. Çünki Bağırov özü də Azərbaycan türkü idi və İran Azərbaycanını çox yaxşı tanıyırdı. Sovet İttifaqının ümumi İran məqsədlərindən əlavə, Bağırovun bu ölkəyə, xüsusən də İran Azərbaycanına qarşı müəyyən şəxsi ambisiyaları da var idi (8, s.2030-2031).

1921-ci il fevralın 21-də Rza xan rusların yardımı ilə dövlət çevrilişi etdi. Özünə dayaq yaratmaq məqsədilə Rza şah İranda Azərbaycana qarşı yönəlmiş antitürk siyasəti yeritməyə başladı. M.C.Bağırov İ.Stalinə Güney Azərbaycanla bağlı göndərdiyi məlumatda qeyd edirdi: “Rza şah diktaturası dövründə Azərbaycan əhalisi nəinki yüksək vəzifələrə, heç dövlət aparatında orta və kiçik vəzifələrə belə yaxın buraxılmırlar. Belə bir vəziyyət orduda da hökm sürür. Məktəblərdən Azərbaycan dili tamam sıxışdırılıb çıxarılıb, tədris yalnız

fars dilində aparılır. İdarələrdə bütün yazışmalar fars dilindədir. Rəsmi idarələrdə azərbaycan dili qəti qadağan edilib"(4,s.37-38).

Rza şah 16 sentyabr 1941-ci ildə hakimiyyətdən uzaqlaşdırıldı və onun yerinə oğlu Məhəmməd Rza Pəhləvi keçdi. O zamanlar Sovet rəhbərliyi kürdlərə, yoxsa azərbaycanlılara istinad etmək seçimi qarşısında idi. Çünki gələcəkdə İran İngiltərənin təsir dairəsinə düşəcək, bu da Sovetlər birliyini neft ehtiyatları ilə zəngin olan Mosul, Kərkük və Ərəbistana yaxınlaşmasının qarşısını ala bilərdi. Bağırov L.Beriyanın və xarici işlər XK-nın müavini V.N.Dekanozovun yardımı ilə Stalində İran azərbaycanlılarına əsaslanmaq barədə fikir yaratmağa müvəffəq oldular. 1941-ci il sentyabrın 9-da Stalin Bağırova bir günlük Moskvaya gəlmək barədə şifroqrama göndərir. Həmin görüşdə Bağırov öz təkliflər layihəsini Stalinə təqdim edir. Bu təklifə əsasən, Az.K (b) P MK-nın katibi Əziz Əliyev Cənubi Azərbaycana yollanacaq partiya qrupunun rəhbəri olacaqdı. Stalin Bağırovun bu layihəsini təsdiq edir. Sözügedən qrupa Süleyman Rəhimov, Mehbalı Əmiraslanov, Ağasəlim Atakişiyev, Mustafa Quliyev, Mirzə İbrahimov daxil edilir. Hərbi şuranın qərarı və Zaqafqaziya ordusu komandanının əmri ilə sentyabrın 16-da polkovnik-komissar Əziz Əliyev Təbrizə daxil olan 47-ci ordunun Hərbi Şurasının üzvü seçilir. Müəyyən vaxtdan sonra M.Bağırov Əziz Əliyevin qrupundan informasiya alır və 1941-ci ilin sonlarına qədər Cənubi Azərbaycandakı vəziyyət barəsində Stalinə məlumat verir. Bir müddətdən sonra Əziz Əliyevlə SSRİ-nin İrandakı səfiri A.Smirnov arasında fikir ayrılıqları başlandı. Bu fikir ayrılıqları Əziz Əliyevin sovet qarnizonunun rəhbərliyinə məktub yazmasından sonra baş verdi. Həmin məktubda o yerli əhalidən, yəni azərbaycanlılardan silahların yığılmasını dayandırmağı tələb edirdi. A.Smirnov buna görə Moskvaya məktub yazır və Ə.Əliyevi millətçi kimi xarakterizə edir. M.Bağırov xarici işlər XK-nin müavini Dekazanovla əlaqə saxlayaraq, Ə.Əliyevi müdafiə etməyə başlayır. 24 oktyabr 1941-ci ildə Əziz Əliyev M.Bağırova "Cənubi Azərbaycan haqqında hesabat" göndərir və burada yazır: "Məktəblərdə dərslər fars dilində aparılır, yerli azərbaycanlılar türk dilində təhsil

almaq istəyirlər, buna görə də "Vətən yolunda" qəzetinin buraxılması azərbaycanlılarda böyük sevinc doğurmuşdur" (12).

Artıq M.C.Bağırovun layihəsi İranda ilk bəhrəsini verməyə başlamışdı. İran tərəfi SSRİ-İran-B.Britaniya dövlətləri arasında ittifaq sazişinin bağlanması istiqamətində müzakirələrə başladı. 29 yanvar 1942-ci ildə SSRİ tərəfindən səfir A.Smirnov, Böyük Britaniya adından R.Bulard, İran tərəfindən xarici işlər naziri Süheyli Böyük Britaniya, SSRİ və İranın ittifaqı haqqında müqaviləni imzaladılar. Sovet rəhbərliyi İngiltərə ilə münasibətləri korlamamaq üçün faşist Almaniyası üzərində tam qələbə çalanadək Cənubi Azərbaycanda aktiv siyasi təbliğatın aparılmasını azaltdı. Amma sovet qoşunları hələ də İranda qalırdı. Bu aktivliyin azaldılması səbəbi ilə Bakıya qayıdan Əziz Əliyev tezliklə M.Bağırovun Stalinə təqdimatı əsasında Dağıstan partiya komitəsinin I katibi seçilir. Artıq 1944-cü ildə Almaniya üzərində tam qələbəyə əminlik yarandıqdan sonra sovet rəhbərliyi yenidən Cənubi Azərbaycan məsələsinə qayıtdı. SSRİ-də neftə olan tələbat günbəgün artırdı. Buna görə də sovet rəhbərliyi istənilən yolla İranı öz təsir dairəsinə çəkməyə çalışırdı. Neft uğrunda mübarizə Stalini ən kəskin addımlar atmağa məcbur edirdi. Bu imkandan istifadə edən M.Bağırov öz siyasi "kozır"ını ortaya atır. O, Stalini inandıra bilir ki, İranda yaşayan azərbaycanlıların hüquqlarını müdafiə etmək adı altında onlara muxtariyyət tələb etməklə şah rejiminə təzyiq göstərərək və SSRİ-nin maraqları naminə xeyir əldə etmək olar. M.Bağırovun əsl məqsədi isə Cənubi Azərbaycanı muxtariyyətdən suveren dövlətə çevirmək və SSRİ ərazisi ilə birləşdirmək, yəni Azərbaycan ərazisini genişləndirmək, bu regionda ABŞ və İngiltərənin təsirini azaltmaq idi. Stalin bu məsələyə ciddi yanaşdı və V.Molotova İranın azərbaycanlı əhalisinin hüquqlarının pozulması ilə bağlı İran şahına nota göndərməyi tapşırdı. 14 sentyabr 1944-cü il tarixdə M.Bağırov Stalinə ünvanlanmış məktubunda göstərirdi ki, Cənubi Azərbaycanda tezliklə demokratik quruluş yaradılacaq (12). 1946-cı ildə sovet qoşunlarının yerləşdiyi İran Azərbaycanında Seyid Cəfər Pişəvərinin rəhbərliyi ilə milli muxtariyyətin əldə olunması və Azərbaycan Demokrat Partiyasının yaradılması uğrunda silahlı mübarizə-

yə başlanıldı. Sovet qoşunlarının gizlədilməyən dəstəyi şəraitində əyalətdə şah rejimi devrildi və Azərbaycan Demokrat Partiyası elan olundu. Torpaq mülkədarlardan alınaraq kəndlilərə verildi. İran məktəbləri bağlanır, bunların yerinə Azərbaycan məktəbləri açılırdı. Radio verilişlərinin yalnız Azərbaycan dilində aparılmasına başlandı. Demokrat Partiyasının rəhbərləri nazir və millət vəkilləri kimi yüksək vəzifələr tutdular (1, s.193).

1946-cı il martın 18-də "İran məsələsi" ikinci dəfə Təhlükəsizlik Şurasının gündəliyinə çıxarıldı və martın 26-da bu məsələyə baxıldı. Ancaq sovet qoşunlarının martın 24-də yenidən təxliyəsi getdiyi üçün müzakirə İran hökumətinin xahişi ilə dayandırıldı. 1946-cı il aprelin 4-də Moskvada SSRİ və İran hökumətləri qalan qoşunların da çıxarılması haqqında razılığa gəldilər. Həmin tarixdə Tehran şəhərində imzalanmış Sovet-İran sazişinin 3-cü maddəsində deyilirdi: "Azərbaycan (Cənubi Azərbaycan nəzərdə tutulur) məsələsi İranın daxili işi olduğundan mövcud qanunlara görə hökumətlə Azərbaycan əhalisi arasında və Azərbaycan xalqına xeyirxah münasibət ruhunda islahat keçirməyin dinc yolu tapılacaqdır". 1946-cı il aprelin axırından həyata keçirilən sovet qoşunlarının təxliyəsi İranın başqa rayonları kimi, Cənubi Azərbaycanda da mayın 26-da başa çatdırıldı. Beləliklə, "Azərbaycan məsələsi İranın daxili işi olduğundan" artıq onun taleyi həll edilmişdi. 1946-cı il sentyabrın 1-də Azərbaycan Xalq hakimiyyəti üzərinə ümumi silahlı hücuma başlayan İran hökuməti 1946-cı il dekabrın 20-də onun fəaliyyətinə son qoydu (3, s.75).

***Mir Cəfər Bağırovun məhkəməsi.*** Əgər 1953-cü ildə Stalinin ölümündən sonra Bağırov-Beriya birliyi siyasi hakimiyyətə gəlsəydi, sözsüz ki, məhkəmə prosesi Mikoyan, Molotov üçün qurulacaqdı. Çünki Xruşşovun özünün Bağırova qarşı münasibəti birmənalı deyildi. O vaxtkı Rəyasət Heyətində əyləşənlərin əksəriyyəti Xruşşovun siyasi hakimiyyəti ələ ala biləcəyinə inanmırdı. Heç kəsin ağlına gəlməzdi ki, Xruşşov gələcəkdə meydana çıxaraq bütün səlahiyyətlərə sahib olacaq (2, s.13-16). Xruşşov xatirələrində qeyd edir ki, Stalinin ölümündən sonra Mikoyan mənə yaxınlaşaraq Beriyanın təhlükəli olduğunu dedi və hakimiyyəti necə ələ almağın yollarını göstə-

rərək kömək etmək istədiyini bildirdi. Siyasi Büronun üzvləri ilə görüşərək onları özümə tərəf çəkirdim (2, s.16-17).

1953-cü il iyul ayının 2-də Sov.İKP MK-nın plenumu keçirildi. Xruşşovun sədrlik etdiyi bu plenumda Beriyanın partiyaya və dövlətə zidd hərəkətləri barədə məsələ müzakirə edilirdi. İyun ayının 26-sı Xruşşov və Mikoyan üçün Stalinin vəfatından sonra ən fərəhli bir gün idi. Beriya məhkəməsiz və istintaqsız öldürülmüşdü(14,s.7).

Xruşşov Bağırovu Moskva plenumundan sonra həbs etdirə bilərdi, amma Bağırov ona hələ lazım idi. Beriya avtoritetini ölkədə məhv etmək, Xruşşov və onun əlaltılarının Beriyanın güllələnməsi hökmünün doğruluğunu əsaslandırmaq üçün Bağırov onlara hələ çox lazım idi. Bağırov qafqazlı və Beriyanın yaxın dostu idi. Xruşşovun Bağırovu həbs etməməsinin, əksinə, yeni bir vəzifə təklif etməsinin səbəbi bu idi. Bu, Xruşşovun taktiki gedişi idi və bir neçə ildən sonra onun hakimiyyətdə möhkəmlənməsi Bağırovu Beriyanın aqibətilə üzləşdirdi. Artıq bu andan Bağırov Xruşşova lazım deyildi (2,s.16-17).

13 iyul 1953-cü il plenumunda M.Bağırov öz vəzifəsindən azad olunur. 3 gün sonra şəxsi işi Sovet İttifaqı KP MK-nın sərəncamına göndərilir. 1954-cü ilin yazında hadisələr kəskin dəyişir. Martın 13-də Bağırov partiyadan xaric edilir. İlin sonunda onu həbs edirlər. Məhkəmə prosesində Bağırovu daha çox repressiyaların təşkilində ittiham edirdilər. Məgər bu repressiyalar birbaşa Moskvanın göstərişinə uyğun aparılmırdımı? Xruşşov Ukraynada, Arutyunov Ermənistanda, o cümlədən bütün SSRİ məkanındakı rəhbərlər bu göstərişləri həyata keçirmirdilərmi? (2,s.17). SSRİ-nin tərkibində olan respublikalardan biri kimi bu proseslərin Azərbaycanda da getməsi labüd idi (2, s.83).

Sov.İKP MK-nın iyul plenumunda N.S.Xruşşovun Ukraynadan tanıdığı Roman Andreyeviç Rudenko SSRİ baş prokuroru təsdiq olundu. Nümberq məhkəməsində faşizmə qarşı ittihamçı kimi çıxış etmiş məşhur hüquqşünasa Xruşşov və Mikoyan məxfi tapşırıq verdi: Azərbaycan xalqının rəhbərinə məhkəmə qursun. Həqiqi dövlət ədliyyə müşaviri, SSRİ baş prokuroru Mir Cəfər Bağırova qarşı hökmün layihəsini hazırladı: "Azərbaycan SSR, Quba şəhər sakini, 1896-cı ildə

anadan olmuş Bağırov Mir Cəfər Abbas oğlu - RSFSR Cinayət Məcəlləsinin 58-1«b», 58-8, 58-11 maddələrilə müqəssir bilinir" (14,s.9-10).

Bağırovun məhkəmə zalına ancaq xüsusi buraxılış vərəqəsi ilə düşmək olurdu. İlk məhkəmə iclası günü qəribə bir hadisə baş vermişdi. Rudenko belə bir mənzərəni Ukraynada görməmişdi. Bəlkə dünyanın heç bir ölkəsində buna bənzəri olmamışdı. Kürsüyə yaxın olan qapı açıldı və Mir Cəfər Bağırov görünən vaxt salondakılar qeyri-ixtiyari olaraq ayağa qalxdılar. Dünən rəhbər, bu gün müttəhim olan Mir Cəfər Bağırov üçün bundan böyük ehtiram olmazdı (14, s.19).

Bağırov etiraf edirdi ki, müttəhimlər günahsız adamların, o cümlədən partiya-sovet fəallarının cinayət işi üzrə çoxlu saxtalaşdırmalara yol veriblər. Lakin Bağırov həmin cinayətkar halların şəxsən onun sərəncamı üzrə həyata keçirildiyini danır, özünün bu işdə səhlənkarlığa görə günahlandırırdı. Bu barədə Bağırov göstərirdi: "O illərdə Azərbaycan XDİK orqanları tərəfindən həbs olunmuş partiya-sovet fəallarının sayının bu qədər çox olması mənə indi aydın olur. O vaxtlar mən bunu o qədər də hiss etmir, buna nəzarət etmir, XDİK-nin işini yoxlamırdım. Bu da kökündən səhv və yolverilməzdir. Ancaq bu məhz belə olub. Mənim bu səhlənkarlığım ciddi tənbehə və cəzaya layiqdir".

Bağırov həm də qeyd edirdi: "Mənim əsas səhvim odur ki, Beriyaya və onunla bağlı olan və onun düşmən mövqeyini müdafiə edən, orqanlarda birgə iş üzrə onunla uzun illər boyu əlaqədə olan Sumbatov, Borşev, Qriqoryan, Markaryana və b. göz yummuşam, onların iç üzünü tanımamışam. Mən onlara inanaraq XDİK orqanlarını onlara etibar etmişəm. Bu işdə xalqın qarşısında günahlarım o qədər böyükdür ki, məni güllələmək azdır, asmaq azdır, məni şaqqalamaq, parça-parça eləmək lazımdır" (11, s.114-115).

ARAYIŞ

Müttəhim Sumbatov-Topuradze Yuvelnan Davidoviç xəstə olduğu üçün onun üzərində istintaq işi dayandırılmışdır.

R.Rudenko

Azərbaycan SSR CPM-nin 316-317-ci maddələrini əldə rəhbər tutaraq SSRİ Ali Məhkəməsinin hərbi kollegiyası Bağırov Mir Cəfər Abbas oğlunu, Borşev Timofel Mixayloviçi, Markaryan Ruben Ambarsumoviçi, Qriqoryan Xoren İvanoviçi ən yüksək cinayət cəzasına-hər birinin bütün əmlakı müsadirə olunmaqla GÜLLƏLƏNMƏYƏ

Atakişiyev Afasəlim İbrahim Oğlunu, Yemelyanov Stepan Fyodoroviçi - hər birinin bütün əmlakı müsadirə olunmaqla cəzasını islah-əmək düşərgələrində çəkməklə, iyirmi beş il müddətinə azadlıqdan məhrum edir.

Məhkəmə xərcləri müttəhimlərin hesabına ödənilməlidir. Hökm qətidir və kassasiya şikayəti qəbul edilmir (11, s.118).

***Nəticə.*** Aprel işğalından 13 il sonra ilk dəfə olaraq azərbaycanlının AK(B)PMK -ya birinci katib seçilməsi ilə Azərbaycanın ictimai-siyasi həyatında bir çox dəyişikliklər baş vermişdir. Mir Cəfər Bağırov Azərbaycanın hərtərəfli inkişafına, milli kadr məsələsinə xüsusi diqqətlə yanaşmış, bu sahədə bir sıra tədbirlər həyata keçirmişdir. Bütün bunlarla paralel olaraq isə Azərbaycanın inkişafına ciddi şəkildə zərər də dəymişdir. Bu onun 20 illik fəaliyyətində tarixin yaratmış olduğu bir paradoks idi. Məhz bu paradoks M.C.Bağırovun Azərbaycan tarixinə ziddiyyətli bir şəxsiyyət kimi daxil olmasına səbəb olmuşdur.

## ƏDƏBİYYAT

1. Adıgözəl Məmmədov. Mir Cəfər Bağırov-Siyasi Portret. Bakı, “Zərdabi Nəşr” MMC, 2021, 424 s.
2. Adıgözəl Məmmədov. Siyasi liderlərin psixoloji portretləri. Bakı, “Mono Qroup” NPM, 2019, 250 s. - http://anl.az/el/Kitab/2019/02/cd/Azf-306816.pdf [Müraciət tarixi: 25.04.2022].
3. Azərbaycan tarixi, VII cilddə. VI cild (aprel 1920 - iyun 1941). Bakı, “Elm” nəşriyyatı, 2008, 568 s. + 48 səh. Illüstrasiya. - http://lib.az/users/1/upload/files/Azerbaycan_tarixi_7_cildde%2C_cild__6.pdf [Müraciət tarixi: 25.04.2022].

4. Cəmil Həsənli.Cənubi Azərbaycan: Tehran-Bakı-Moskva arasında (1939-1945). Bakı, "Diplomat" nəşriyyatı, 1998, 324 s.- http://www.anl.az/el/h/hc_ga.pdf [Müraciət tarixi:25.04.2022].
5. İbrahim Zeynalov. Totalitar sovet cəmiyyəti:Tarixin ibrət dərsləri (Azərbaycan SSR XX əsrin 20-50-ci illərində). Bakı, "Ləman nəşriyyatı poliqrafiyası" MMC, 2017, 724 s.
6. İradə Nuriyeva. Azərbaycan tarixi (ən qədim zamanlardan-XXI əsrin əvvəllərinədək). Ali məktəblər üçün dərslik. Bakı, "Mütərcim", 2015, 336 s.- http://anl.az/el/Kitab/2015/Azf-282700.pdf [Müraciət tarixi:25.04.2022].
7. Milli faciələr, Repressiya faciəsi- https://www.azerbaijans.com/content_1709_az.html [Müraciət tarixi:25.04.2022].
8. Mir Cafer Bağırov Örneğinde Sovyetler Birliği'nin İkinci Dünya Savaşında İran Politikası // Neyşehir Hacı Bektaş Veli Üniversitesi, 2021, Yılı-2019 Aralık sayısı, Cilt:11, Sayı:4, 2034 s.- https://dergipark.org.tr/en/download/article-file/2057754 [Müraciət tarixi:25.04.2022].
9. Mir Cəfər Bağırov haqda kitab yazan yazıçı sensasion faktlar açıqlayır, Cavidi Mir Cəfər qoruyurdu / Ədalət.- 2011.- 16 aprel.- s.16. - http://anl.az/down/meqale/adalet/2011/aprel/169014.htm [Müraciət tarixi:25.04.2022].
10. Mircəfər Bağırov xatirələrdə. Bakı, "Nurlan", 2006, 480 s.- http://web2.anl.az:81/read/page.php?bibid=16696&pno=1 [Müraciət tarixi:25.04.2022].
11. Mir Cəfər Bağırovun məhkəməsi(arxiv materialları). Bakı, Yazıçı 1993, 120 s.- http://web2.anl.az:81/read/page.php?bibid=40242&pno= [Müraciət tarixi:25.04.2022].
12. Mircəfər Bağırov və Cənubi Azərbaycan / Movqe.az, 14.02.2018. - https://www.movqe.az/news/siyaset/113357.html [Müraciət tarixi:25.04.2022].
13. Musa Qasımlı, Cavid Hüseynov. Azərbaycanın baş nazirləri // Bakı, "Adiloğlu" nəşriyyatı, 2005, 134 s.-

http://elibrary.bsu.edu.az/files/kitablar/867.pdf [Müraciət tarixi:25.04.2022].
14. Teyyub Qurban. Düşmənlərindən güclü şəxsiyyət, Birinci kitab, Mir Cəfər Bağırov haqqında məqalələr toplusu// Bakı, Şirvannəşr, 2006, 584 s. - https://www.history.az/pdf.php?item_id=20110408124505968&ext=pdf [Müraciət tarixi:25.04.2022].

**FATİMA SHİRİNOVA**
*Baku State University SABAH Groups*
*3rd year student of the speciality of History teacher*

## PERSONALITY OF MIR JAFAR BAGIROV IN THE HISTORY OF AZERBAIJAN

History cultivates its own personalities and these personalities create a new history with their pros and cons. One of such personalities is Mir Jafar Abbas oglu Bagirov. The article examines the socio-political activity of MC Bagirov during the first secretariat of the AK (B) PMK in 1933-1953 and his role in the issue of South Azerbaijan. Mir Jafar Bagirov considered South Azerbaijan as a large part of the whole of Azerbaijan, and therefore Mir Jafar Bagirov was entrusted with defining Iran's policy towards Azerbaijan. Bagirov is a controversial historical figure. This contradiction stems from his activities during the repressions. Of course, the instructions were carried out directly from the center and it was an unavoidable process, but in any case, the repressions seriously damaged the level of intelligence in Azerbaijan and it is impossible to justify it. However, even if there was someone else in the political power at that time, this process would take place.

*Keywords:* Mir Jafar Bagirov, Nagorno-Karabakh, Repression, South Azerbaijan, Bagirov’s trial.

*Daxil olma tarixi*: 30.04.2022-ci il.
*Çapa imzalanma tarixi*: 25.05.2022-ci il.

**UOT 930.25** **GÖZƏL HƏBİBULLAYEVA**
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin*
*"Arxiv işi, arxivşünaslıq" ixtisası üzrə I kurs magistrantı*
**hebibullayevagozel@icloud.com**

# XX ƏSRİN SONLARI – XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ ABŞ-DA ARXİV İŞİ

*Elmi rəhbər:*
kulturologiya üzrə fəlsəfə doktoru İlhamə Səfərova
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

*Amerika Birləşmiş Ştatlarında (ABŞ) ilk daimi arxivlər şəbəkəsinin formalaşması federal hökumət sisteminin yaranması ilə bağlıdır. İlk dövlət arxivləri XVIII əsrin sonunda federal hökumət orqanları nəzdində meydana gəlmişdir. Məhz, Vaşinqtonda federal hökumətin əsası qoyulduqdan sonra federasiyanın hər bir dövlət qurumunda daimi arxivlər, yəni arxiv idarələri şəbəkəsi formalaşmışdır. Bu dövrdən dövlət arxivlərinin idarəetmə sənədləri ilə sistemli şəkildə əldə edilməsinə, sənədli komplekslərin yaradılmasına başlanılmışdır. Bir əsrə yaxın müddət ərzində ABŞ hökuməti arxivlərə yalnız praktiki nöqteyi-nəzərdən, qəbul edilmiş qərarların hüquqi və sənədli sübutu, yaxud istinad materialı kimi baxmışdır. Bu vəziyyət 1899-cu ildə Arxiv Komissiyasının yaradılması və Amerika tarix cəmiyyətinin (American Historical Association) aktiv fəaliyyəti sayəsində dəyişməyə başladı. Bu zaman tarixi əhəmiyyət kəsb edən sənədlərin dəqiq müəyyənləşdirilməsi və mühafizəsi ilə bağlı məsələlər qaldırıldı və Amerika tarix cəmiyyətinin təsiri altında federal hökumət ABŞ-da arxivlərin yenidən təşkilinin, xüsusən də milli arxivlərin yaradılmasının zəruriliyini qəbul etdi.*

*Hazırda isə, ABŞ-da çoxlu sayda ictimai və dövlət arxivləri fəaliyyət göstərir. Xüsusilə, 1984-cü ildə yaradılmış Milli Arxivlər və Sənədlər İdarəsi (National Archives and Records Administration) ABŞ-dakı bütün növ arxivlərə metodiki dəstək göstərir. Müasir dövrdə ABŞ-da arxiv kadrlarının hazırlanması işinə xüsusi diqqət yetiri-*

*lir. Minlərlə üzvü olan Amerika arxivşünasları cəmiyyəti (Society of American Archivists) geniş şəkildə fəaliyyət göstərir. ABŞ arxivşünasları Beynəlxalq Arxiv Şurasının işində yaxından iştirak edirlər. Hal-hazırda ABŞ-da arxiv işi sənədlərin təkcə praktiki deyil, həm də elmi və tarixi məqsədlər üçün qorunması işinə də yönəlib.Məqalədə ilk olaraq ABŞ-da arxiv işinin formalaşması tarixində qısa eksurs edilmiş, XX əsrin II yarısı – XXI əsrin əvvəllərində bu ölkədə arxiv işinin xüsusiyyətlərini araşdırılmışdır.*

*Açar sözlər*: ABŞ, arxiv işi, prezident sənədləri, Milli Arxivlər və Sənədlər İdarəsi

***Giriş***. Dünyanın ən qabaqcıl və aparıcı dövlətlərindən biri olan Amerika Birləşmiş Ştatlarında arxiv işi sahəsi üzrə indiyə qədər mühüm uğurlara nail olunmuşdur. Amerikalı arxiv mütəxəssislərinin sözügedən sahədəki xidmətləri bütün dünyada yüksək qiymətləndirilir. Lakin bu uğurlar dərhal əldə edilməmiş, tarixən uzun bir inkişaf yolu keçmişdir. Bu sahədəki inkişaf dinamikasını izləmək və onu dərk etmək baxımından, ilk növbədə ABŞ-da arxiv işinin tarixinə nəzər yetirmək mühüm əhəmiyyət kəsb edir. 1775-1783-cü illərdə ABŞ-da İstiqlaliyyət müharibəsi başa çatdıqdan sonra yeni yaranmış ölkədə federal quruluş bərqərar oldu və bu konstitusiyada təsbit edildi. Nəticədə yerli qanunvericiliyə uyğun olaraq dövlət orqanlarının, regional və şəhər idarəetmə orqanlarının sənədlərinin saxlanması və istifadəsi dövlət idarələrinin səlahiyyətinə daxil edildi. Bu, arxiv işinin təşkilinə xeyli sayda yanaşmaya, sənədlərlə işləmək təcrübəsində ciddi uyğunsuzluqların mövcudluğuna, arxivlərin təkcə federal hökumət səviyyəsində deyil, həm də ayrı-ayrı ştatlar daxilində əlaqələndirilməsi və mərkəzləşdirilməsində çətinliklərə səbəb oldu. Sənaye erasında federal mərkəzin rolu əhəmiyyətli dərəcədə artdı.

ABŞ-da vətəndaş müharibəsi nəticəsində cənub ştatlarının məğlubiyyətindən sonra inteqrasiya proseslərinin intensivləşməsi milli problemlərin həlli məqsədilə müxtəlif federal hakimiyyət institutlarının yaradılması üçün ilkin şərtlərin yaranmasına səbəb oldu ki,

bu da federal səviyyədə böyük və rəngarəng arxivlərin təşkili üçün əlverişli şərait yaratdı. İqtisadiyyatın özəl sektorunun nümayəndələrinin ölkənin inkişafına mühüm təsir göstərmələrinə və mövqelərini möhkəmləndirmələrinə baxmayaraq, xüsusilə Şimal və Cənub arasındakı vətəndaş müharibəsindən sonra infrastruktur, maliyyə və sənaye obyektlərinin tikintisi demək olar ki həmişə hökumət tərəfindən, federal büdcədən ayrılan vəsait ilə həyata keçirilirdi.

İlk vaxtlar, ABŞ-da dövlət arxivlərinin mərkəzləşdirilmiş sistemi olmadığı üçün onların komplektləşdirilməsi sistemi də yox idi. Dövlət sənədlərinin əsas mühafizəçisi kimi kargüzarlıq xidmətləri və ya mövcud arxivlər çıxış edirdi. Lakin sənədlərdən bəziləri kitabxanalara da göndərilirdi. Bir çox təsisatlarda ancaq rəsmi dövlət sənədləri saxlanılırdı. Amerikalı tarixçilər bundan ciddi narahat idilər və XIX əsrin ikinci yarısından federal səviyyədə bütün mərkəzi təsisatlarda tarixi əhəmiyyət daşıyan materiallar üçün saxlanc yeri yaratmaq təklifləri irəli sürməyə başlamışdılar. 1884-cü ildə əsası qoyulmuş Amerika tarix cəmiyyəti bu dövrdə arxiv sənədlərinin toplanması və mühafizəsində böyük rol oynamışdır. Onun nəzdində arxiv mənbələrinə həsr olunmuş ilk soraq nəşrlərini hazırlayan Əlyazmalar üzrə tarix komissiyası fəaliyyət göstərirdi. Bir qədər sonra ştatların arxivlərinin tədqiqi ilə bağlı kifayət qədər ciddi iş aparılmağa başlandı, ardınca 1899-cu ildə cəmiyyətin nəzdində yaranan Arxiv komissiyasının rəhbərliyi altında ətraflı hesabatlar dərc olundu.

Beləliklə, 1789-cu ildə ABŞ konstitusiyasının qəbul edilməsindən sonrakı 100 il ərzində ali mərkəzi qurumları və yerli hakimiyyət orqanları çoxlu sayda sənədlər topladılar. XIX əsrin 90-cı illərində ABŞ konqresi həmin vaxt ölkədə mövcud olan 10 dövlət arxivinin vəziyyətini yoxlayan komissiyalar yaratdı. Komissiyaların işinin nəticələrinə əsasən belə qənaətə gəlindi ki, arxivlərdə islahatların aparılması zəruridir. 1909-cu ildə ABŞ-da arxiv işçilərinin ilk konfransının keçirilməsi təşəbbüsü irəli sürüldü. Həmin ilin dekabrında keçirilən konfransda əksər ştatların nümayəndələri iştirak etdilər. 1913-cü ildə Konqres milli arxivlərin yaradılması layihəsini hazırlamaq qərarına gəlsə də, bu layihə yalnız 1934-cü ildə ABŞ prezidenti Franklin

Delano Ruzveltin "Milli Arxiv haqqında" Aktı imzalaması ilə həyata keçirildi. Bundan sonra ABŞ-da arxiv xidməti fəaliyyətə başladı, mərkəzi repozitoriya (ingiliscə *repository* saxlanc yeri, anbar) yaradıldı və arxiv rəhbəri - illik maaşı 10000 dollar olan arxivarius vəzifəsi yaradıldı, R.D.Konnor bu vəzifəyə təyin edilərək ilk arxivçi oldu.

30 iyun 1949-cu il tarixli "Federal mülkiyyət və inzibati xidmətlər haqqında" qanunun qəbulundan sonra Milli Arxiv müstəqil struktur statusunu itirərək Milli Arxivlər və Sənədlər Xidmətinin (*National Archives and Records Service*; qısaca: NARS) tərkibinə daxil olmuşdur. Yeni xidmət çərçivəsində arxiv sənədləri ilə işin keyfiyyətinin yüksəldilməsi üçün xüsusi sənəd dövriyyəsi idarəsi yaradıldı. Ümumi xidmətlər administrasiyasına (*General Services Administration*) arxivlərə ümumi rəhbərlik etmək səlahiyyəti verildi. Eyni zamanda, Milli Arxivlər və Sənədlər Xidmətinin təşkilati strukturu xeyli mürəkkəbləşdi. Buraya təkcə Milli arxiv və sənədlərin idarə edilməsi departamenti deyil, həm də Prezident kitabxanalarının şöbələri, federal sənədləşdirmə mərkəzləri və federal reyestr daxil edildi.

***Milli Arxivlər və Sənədlər İdarəsinin (NARA) yaradılması və fəaliyyəti***. ABŞ Arxiv Xidmətinin hazırkı adı 1984-cü ildə prezident Ronald Reyqan tərəfindən imzalanmış "Milli arxivlərin və sənədlərin idarə edilməsi haqqında" aktın qüvvəyə minməsindən sonra yaranmışdır. Nəticədə Milli Arxivlər və Sənədlər İdarəsi (*National Archives and Records Administration* – NARA) yaradılmışdır. 1985-ci ildən NARA yalnız Prezidentə və ABŞ Konqresinə hesabat verən müstəqil icraedici federal orqan statusu almışdır (6). Milli Arxivə Senatın razılığı ilə Prezident tərəfindən təyin edilən Amerika Birləşmiş Ştatları arxivisti nəzarət edir. O, federal hökumət qeydlərini qorumaq və tədqiqatçılara təqdim etmək kimi məsuliyyət daşıyır. ABŞ-ın hazırkı arxivisti David Ferrierodur (4). Arxivistə Milli Arxivdə ondan sonra ikinci şəxs olan müavin kömək edir.

Birbaşa ABŞ arxivistinə arxiv idarəsinin idarə heyətinin 4 əsas nümayəndəsi hesabat verir: baş qərargah rəisi, baş əməliyyat direkto-

ru, innovasiya üzrə baş mütəxxəsis və administrasiya və idarə rəhbəri. Amerika Birləşmiş Ştatlarının arxivisti Milli Arxivin bir neçə müstəqil bölməsini də idarə edir: NARA Baş Müfəttişliyi, Bərabər Məşğulluq İmkanları İdarəsi, Milli Arxivlər Şurası və Konqres İşləri İdarəsi. Milli Arxivin baş əməliyyat direktoru (*NARA's Chief Operating Officer*) fiziki şəxslərlə aparılan əməliyyatların əksəriyyətini, eləcə də gündəlik arxiv işlərinə nəzarəti həyata keçirir. O, birbaşa Milli Arxivin fəaliyyətinin müxtəlif aspektləri ilə məşğul olan dörd departamentə tabedir: Korporativ Sənədlərinlərin İdarə Edilməsi; Hesabat İdarəsi; Federal Qeydiyyat İdarəsi; Sənədlərin mühafizəsi və personalın bərpası departmenti. Baş əməliyyat direktoru həmçinin Milli Arxivin əsas fəaliyyət sahələrini (tədqiqat, agentlik və muzey xidmətləri) idarə edən üç icraçı direktora tabedir (8). Tədqiqat xidmətləri Milli Arxivin ən mühüm hissəsidir, çünki onlar ictimaiyyət üçün arxiv xidmətləri göstərirlər. Onlara tədqiqat üzrə icraçı direktor rəhbərlik edir. Tədqiqat xidmətlərinin əsas alt sektorları Effektivlik və layihələr üzrə idarəetmə ofisi; Proqramların mühafizəsi ofisi; Müştəri dəstəyi xidməti; Malların və xidmətlərin rəqəmsallaşdırılması ofisi.

Milli Arxivlər və Sənədlər İdarəsi həm də ölkə üzrə 13 regional arxivə rəhbərlik edir. Ayrı-ayrı regionlarda tarixi sənədlərə əlçatanlığı asanlaşdırmaq üçün 1969-cu ildə Regional arxiv sistemi yaradılmışdır. Regional fondlar arasında xüsusilə nəzərə çarpanlar rayon apellyasiya məhkəmələri, hinduların işləri üzrə Bürodur. Regional arxivlər Vaşinqtondakı Milli Arxivdən fərdi mikrofilm nüsxələrini saxlayır. Məsələn, 1790-1930-cu illər üzrə federal siyahıyaalmalar bütün regional arxivlərdə mövcuddur. Arxivlərə əsasən geneoloqlar, tarixçilər, jurnalistlər, hüquqşünaslar, habelə müəllimlər, tələbələr və tarixi məlumatlarla maraqlanan digər şəxslərin axını olur (2).

Dövlət Arxivləri Şurası (*Council of State Archivists* – CoSA) Milli tarixi nəşrlər və sənədlərin idarə edilməsi komissiyasının (*National Historical Publications and Records Commission* – NHPRC) fəaliyyəti nəticəsində yaradılmışdır. NHPRC qaydalarına uyğun olaraq, arxiv xidmətlərinin direktorları öz ştatlarında bu komissiyanın

koordinatorları kimi çıxış edir və Dövlət tarixi sənədlər üzrə məsləhət şurasına (*State Historical Records Advisory Board* – SHRAB) sədrlik edirlər. 1989-cu ildə koordinatorlar öz təşkilatlarını yaradıblar. 2005-ci ildə bu qurum indiki adını almışdır. CoSA çərçivəsində kollektiv şəkildə fəaliyyət göstərən dövlət arxivşünasları ştatlar və onların tarixi sənədlər üzrə məsləhət şuraları arasında qarşılıqlı maraq doğuran məsələlər üzrə əməkdaşlığı təşviq edir; arxivlərin və sənədlərin idarə edilməsi ilə bağlı milli məsələləri müəyyən edir və bununla bağlı layihələr irəli sürür; ölkənin sənədlərlə bağlı irsinin qorunmasını və onlara əlçatanlığı təmin etmək üçün ABŞ Milli Arxivləri, NHPRC və digər milli agentliklər və təşkilatlarla əməkdaşlıq edirlər (3).

Federal reyestr idarəsi Milli Arxivlər və Sənədlər İdarəsinin bir bölməsidir. O, Milli Arxiv rəhbərinin, Ədliyyə Departamentinin nümayəndəsinin, Federal reyestr şöbəsinin müdirinin və dövlət nəşriyyatının rəhbərinin daxil olduğu İnzibati Komitə tərəfindən idarə olunur. Federal reyestr idarəsi ilə əməkdaşlıq çərçivəsində dövlət nəşriyyatı "Federal Reyestr" sənədlərin birbaşa nəşri ilə məşğul olur (7, s.143-144). "Amerika Birləşmiş Ştatlarının Qanunlar Məcəlləsinin" 44-cü başlığında (bölməsində) "Federal Reyestr haqqında" qanuna uyğun olaraq, İdarə tərəfindən dərc edilən materiallara aşağıdakılar daxildir: federal qanunlar, prezident sənədləri, inzibati qaydalar, ictimai çıxışlar, federal təşkilatların təsviri, onların proqramları. Federal Reyestr normativ aktların nəşrlərinin hazırlanması ilə yanaşı, şöbəyə yeni növ sənədli kolleksiyaların, dövlət məlumat kitabçalarının, qurumlar üçün işgüzar metodik vəsaitlərin nəşrinə hazırlıq funksiyaları həvalə edilmişdir (7, s.147-149).

Milli arxivlərin işinin prioritet istiqamətlərini müəyyən edən əsas sənəd kimi NARA-nın Strateji planı qüvvədədir və hər üç ildən bir mümkün yenilənmə ilə onillik müddətə hazırlanır. 2018-2022-ci illər üçün strateji inkişaf planı hazırda qüvvədədir. NARA-nın fəaliyyəti üçün normativ baza "Federal sənədlər haqqında" və "Prezident sənədləri haqqında" qanunlardır. Federal Sənədlər Aktı hələ 1950-ci ildə qəbul edilib. 2014-cü ildə edilən dəyişikliklərə əsasən, Milli Ar-

xivə federal icra sənədlərini idarə etmək səlahiyyəti, o cümlədən hökumətin qanunvericilik və məhkəmə orqanlarında (Ali Məhkəmə və Konqres istisna olmaqla) federal qeydlərə nəzarət etmək səlahiyyəti verilib. Bundan əlavə, NARA federal qurumlara sənədlərin idarə edilməsi, məhvetmə qrafiklərinin təsdiqi və federal sənədlərin daxil edilməsi ilə bağlı məsləhətlər verir. NARA-nın məlumatına görə, federal agentlik tərəfindən sənədlərin yalnız təxminən 5% -i daimi olaraq saxlanılır (5).

ABŞ Milli Arxivində 7 milyarddan çox kağız sənəd, 5,5 milyondan çox xəritə, 35 milyona yaxın fotoşəkil və digər materiallar saxlanılır. Milli Arxivin əsas binası (qeyri-rəsmi olaraq “Arxiv I” kimi tanınır) Vaşinqtonda yerləşir. 1994-cü ildə Merilend Universitetinin yaxınlığında Kollec Parkında Milli Arxivin yeni binası (və ya "Arxiv II") fəaliyyətə başlamışdır. Yeni binanın planlaşdırılması 1980-ci illərin sonunda Merilend Universiteti tərəfindən tikinti sahəsi üçün arxivə 33 hektar torpaq sahəsi bağışlamasından sonra başladı. Burada çoxlu sayda sənəd emalı və saxlama sahələri, beş səviyyəli tədqiqat mərkəzi, konservasiya və xüsusi media laboratoriyaları, ofislər və konfrans otaqları var. Kolumbiya dairəsində yerləşən Vaşinqton Milli Sənədlər Mərkəzi (WNRC), federal sənədləri saxlayan böyük bir anbardır. Federal dövlət qurumları bu mərkəzdə sənədlərin saxlanması üçün hər il vəsait ödəyirlər. WNRC-də müvəqqəti sənədlər ya ödəniş qarşılığında saxlanılır, ya da müvəqqəti saxlama müddəti bitdikdə məhv edilir. WNRC həmçinin tədqiqat xidmətləri təklif edir (1, s.134-135).

Milli Arxivdə komplektləşdirmənin əsas mənbələrindən biri ABŞ Konqresidir. Konqres katibi, Palata katibləri və ya komitələr tərəfindən göndərilən rəsmi sənədlər də daxil olmaqla tarixi dəyərə malik olan sənədlər daimi olaraq saxlanılır. Amma Konqresin ayrı-ayrı üzvlərinin şəxsi mülkiyyəti sayılan sənədlər Milli Arxivə təhvil verilmir. Nümayəndələr palatası və Senat bu materialların sahibləridir və onlara daxil olmaq qaydalarını müəyyən edir. Beləliklə, Senatın sənədlərinə 20 ildən sonra, Nümayəndələr palatasının sənədlərinə isə 30 ildən sonra müraciət etmək olar (1, s.135). 1985-ci ildə Milli

Arxiv tərəfindən qanunvericilik arxivləri şöbəsi yaradılmış və bu şöbə 1988-ci ildə NARA-nın konqres sənədlərinə cavabdeh olan bölməsi kimi Qanunvericilik Arxivləri Mərkəzi adlandırılmışdır. 1990-cı ildə Mərkəzə məsləhət vermək, Kapitoliya ilə Milli Arxiv arasında birbaşa əlaqə yaratmaq üçün Konqres sənədləri üzrə məsləhət komitəsi yaradılmışdır. Buraya əsasən tədqiqatçılar və Konqres üzvləri müraciət edirlər. NARA-nın Milli kadr sənədləri mərkəzi (NPRC) Sent-Luisdə yerləşir və ABŞ hökumətinin həm hərbi, həm də mülki xidmətləri üçün kadr sənədlərinin mərkəzi deposudur. Dövlət qulluğunda olan 100 milyona yaxın hərbçi və ya mülki şəxsin şəxsi sənədləri (təxminən 9 milyard mətn, rəqəmsal sənəd və mikrofilm) burada cəmləşib. Ən qədim sənədlər 1821-ci ilə aiddir. Xüsusilə, mülki kadrların uçotu 1850-1951-ci illərdə 112-dən çox müxtəlif federal qurum tərəfindən yaradılmışdır. Mərkəzin yeni saxlama yerləri 2012-ci ildə fəaliyyətə başlayıb. Sənədlər ümumi saxlama tutumu 2,3 milyon kub fut olan 15 ayrı saxlama yerində yerləşdirilib. Eyni binalarda köhnə hərbi və mülki sənədlərin qanuni mühafizəsini həyata keçirən Milli Arxivin filialı yerləşir. Mərkəzə gələnlərin yarıdan çoxu ailə tarixinin öyrənilməsi ilə məşğul olan insanlardır (1, s.136).

***Prezident sənədləri üzrə arxiv işi***. ABŞ-da prezident sənədləri haqqında qanun hələ 1955-ci ildə qəbul edilib, lakin bu qanun prezidentlərin öz sənədlərini ictimai mühafizəyə təhvil vermək vəzifəsini ehtiva etmirdi. Harri Trumenin (1957), Duayt Eyzenhauerin və Herbert Huverin (1962) kitabxanaları qanuna müvafiq olaraq yaradılan ilk kitabxanalardır. ABŞ prezident Lindon Conson öz kitabxanasını 1971-ci ildə açıb. ABŞ prezidentlərinə aid 1978-ci ilə qədərki sənədlər onların şəxsi mülkiyyəti sayılırdı. Bu sahədə dəyişikliklər 1972-1974-cü illərdə Uotergeyt qalmaqalından sonra baş verdi. Prezident Riçard Nikson istefa verdikdən sonra bu qalmaqalla bağlı bir sıra səsyazmaları məhv etmək istəyirdi. Konqres bu sənədləri qorumaq və Milli arxivdə yerləşdirmək üçün 1974-cü ildə Prezident sənədləri haqqında qanun qəbul etdi. 19 oktyabr 1984-cü ildə düzəliş edilmiş bu qanunun mətni Birləşmiş Ştatların qanunları məcəlləsinin 44-cü başlığına (44USC) daxil olmuşdur. Qanunda təsbit edilmiş müddəa-

lar NARA-da "Nikson administrasiyasının Prezident tarixi sənədlərinin saxlanması, mühafizəsi və əlçatanlığı haqqında" əsasnaməsi ilə işlənib hazırlanır və dəqiqləşdirilir. Bu sənəd 1986-cı ildən bəri qüvvədə olan ictimai giriş qaydalarına və "tənzimləmə sazişinə" əsaslanır. Bu üçtərəfli saziş 12 aprel 1996-cı ildə Niksonun ailəsi, ABŞ arxivistləri və elmi ictimaiyyətin nümayəndələri arasında Riçard Niksonun prezidentliyinə aid sənədlərinin sərbəst əldə edilməsi, surətinin çıxarılması prinsipləri və şərtləri ilə bağlı məhkəmə prosesi çərçivəsində imzalanmışdır (9, s.54-55).

1978-ci ildə növbəti dövlət başçısından (Ronald Reyqan) başlayaraq prezidentlik sənədlərinin dövlət mülkiyyəti olduğunu təsbit edən yeni Prezident Sənədləri Aktı qəbul edildi. Qanun ABŞ prezidentlərinin və vitse-prezidentlərinin 1981-ci il yanvarın 20-dən sonra yaradılan və ya əldə edilmiş rəsmi sənədlərinin idarə edilməsini tənzimləyir. Qanuna əsasən, prezident sənədlərinə prezidentin özü, onun ən yaxın əməkaşları və ya bölmələri tərəfindən yaradılan istənilən formatda sənədli materiallar, bütün prezidentlik sənədləri, qanunla başqa hal nəzərdə tutulmadığı təqdirdə, prezident administrasiyasının səlahiyyət müddəti başa çatdıqdan beş il sonra ABŞ arxivistlərinə təhvil verilməli və heç bir halda bu sənədlər "sadəcə olaraq" məhv edilməməlidir (10, s.66-67).

Yeni qanun əsasında prezident arxiv mərkəzləri açılmağa başlandı. Uzun hazırlıqdan sonra 1979-cu ildə Bostonda prezident Con Kennedi Mərkəzi yaradıldı. Sonrakı illərdə bir neçə yeni mərkəzlər yaradılmışdır: Cerald Ford (1981), Cimmi Karter (1986), Ronald Reyqan (1991), Corc Buş (1997), Bill Klinton (2004) mərkəzləri. 2007-ci ildə R.Niksonun şəxsi kitabxanasına aid sənədlər dövlət arxivinə verilib. Belə ki, bu prezidentin bütün qeydləri onun kitabxanasında cəmləşmişdi. Hazırda 14 prezident kitabxanası var. Sonuncu dəfə Çikaqoda B.Obama Kitabxanası açılmışdır.

***Nəticə.*** Beləliklə, bir prezident administrasiyası digəri ilə əvəz olunduqda Milli Arxivlər və Sənədlər İdarəsi (NARA) bu işdə mühüm rol oynayır. 1978-ci il Prezident sənədləri haqqında qanun qüvvəyə mindiyi gündən bu materiallar avtomatik olaraq administrasiya-

nın son günü günorta saatlarında NARA-ya ötürülür. Milli Arxiv Ağ evin müxtəlif departamentləri və Vitse-prezident ofisi ilə birlikdə NARA-ya hansı sənədlərin nə vaxt verilə biləcəyini əlaqələndirir. Elektron sənədlərin ötürülməsi ən çətin məsələlərdən biridir, çünki prezident administrasiyaları tərəfindən yaradılan sənədlərin həcmi və çeşidi həddən artıq çox olur. Elektron materiallar NARA Elektron Arxivlərinə ötürülür ki, bu da onların Milli Arxivdə əlçatanlığına imkan yaradır. Federal agentliklərdən fərqli olaraq, NARA-nın Ağ Ev tərəfindən yaradılmış sənədlərə nəzarət etmək səlahiyyəti yoxdur. Milli Arxiv prezident administrasiyasına yalnız sənədləşmə məsələləri ilə bağlı məsləhətlər verir. Federal sənədlərdən fərqli olaraq, bütün prezident sənədləri daimi sənədlər hesab olunur və heç vaxt məhv olunmur.

## ƏDƏBİYYAT

1. Бакшаев А.А. Архивное дело в странах Европы и США в конце XX – начале XXI в. Екатеринбург : Изд-во Урал. ун-та, 2020, 160 с.
2. Cox-Paul L. There’s a NARA Near You! Exploring the Regional Archives / National Archives, Prologue Magazine, Fall 2005, Vol.37, No.3. - https:// www.archives.gov/publications/prologue/2005/fall/regions.html [Müraciət tarixi: 19.03.2022].
3. Council of State Archivists. - https://www.statearchivists.org/home [Müraciət tarixi: 23.03.2022]
4. David S. Ferriero Sworn in as 10th Archivist of the United States / Press Relase. / National Archives, November 13, 2009. - https://www.archives.gov/press/press-releases/2010/nr10-23.html [Müraciət tarixi: 20.03.2022]
5. Ferriero D. NARA’s Role under the Presidential Records Act and the Federal Records Act. - https://www.archives.gov/publications/prologue/2017/summer/archivist-pra-fra [Müraciət tarixi: 22.03.2022]

6. Плетнева М. В. Становление и развитие системы управления документацией в США: теоретический и нормативно-правовой аспекты: заключительный отчет о НИР / Урал. федер. ун-т им. первого Президента России Б.Н.Ельцина. Екатеринбург, 2013, 19 с.
7. Степанов В.А. Управление Федерального регистра в структуре администрации Национальных архивов и документации: история создания и его роль в государственно-правовом регулировании // Вестник РГГУ, 2015, № 12 (155), с.142-151.
8. The U.S. National Archives and Records Administration. - https://www.archives.gov/about/organization [Müraciət tarixi: 22.03.2022]
9. Волкова Т. С. Президентский архив Р. Никсона: статус, хранение, состав, доступность // Отечественные архивы, 2006, № 2, с.52-69.
10. Волкова Т.С. Правовой режим хранения и использования президентской документации в США (президентские бумаги) // Отечественные архивы, 2005, № 2, с.66-81.

**GOZAL HABIBULLAYEVA**
*1st year master student of Azerbaijan State University of Culture and Arts in the speciality of "Archive work, archival studies"*

# ARCHIVE WORK IN THE USA AT THE END OF XX - THE BEGINNING OF XXI CENTURIES

The formation of the first network of permanent archives in the United States is associated with the establishment of a federal government system. The first state archives appeared at the end of the 18th century under federal government agencies. Namely, after the establishment of the federal government in Washington, permanent archives, ie a network of archival offices, were formed in each state body of the federation. From this period, the systematic acquisition of state archives with management documents and the creation of do-

cumentary complexes began. For nearly a century, the U.S. government viewed archives only from a practical point of view, as legal and documentary evidence of decisions made, or as reference material. This situation began to change in 1899 with the establishment of the Archival Commission and the active work of the American Historical Association. At this time, issues related to the accurate identification and protection of documents of historical importance were raised, and under the influence of the American Historical Society, the federal government recognized the need to reorganize archives in the United States, especially national archives.

There are currently many public and state archives in the United States. In particular, the National Archives and Records Administration, established in 1984, provides methodological support to all types of archives in the United States. In modern times, the United States pays special attention to the training of archival staff. The Society of American Archivists, which has thousands of members, is widely active. US archivists are closely involved in the work of the International Archives Council. Currently, archival work in the United States focuses not only on the protection of documents, but also for scientific and historical purposes. The article first gives a brief overview of the history of the formation of archiving in the United States, discusses the features of archiving in this country in the second half of the 20th century - the beginning of the 21st century.

*Keywords*: USA, Archive work, Presidential documents, National Archives and Records Administration (NARA).

*Daxil olma tarixi*: 10.04.2022-ci il.
*Çapa imzalanma tarixi*: 25.05.2022-ci il.

**UOT 94; UOT 94"19/..."**

**İZZƏT BAĞIROV**
*Qərbi Kaspi Universiteti*
*Tarix ixtisası üzrə V kurs tələbəsi*
**izzetbagir93@gmail.com**

# TARİXİ FAKTLAR İŞIĞINDA SAXTA "ERMƏNİ SOYQIRIMI" İDDİALARI

*Elmi rəhbər:*
Tarix üzrə fəlsəfə doktoru Sevinc Ruintən
Bakı Dövlət Universiteti

*"This tiny state's chief export since 1918 has been terrorism and the chief import has been foreign aid from Christians around the world".*
Samuel A. Weems.

*Ermənilərin saxta "soyqırım" iddiaları ilə bağlı demək olar ki hər il müxtəlif ölkələrdə müzakirələr aparılır, bir sıra ölkələr onu tanıdığını elan edir. Bir əsrdən artıqdır ki, ermənilər saxta sənədlərlə və lobbiçilik fəaliyəti ilə böhtan, saxtakarlıq piramidası quraraq açıq təcavüzə keçmişdir. Nəticə isə acınacaqlıdır erməni yalanı dünyada ayaq tutub yeriyir, bizim böyük həqiqətlərimizisə demək olar ki, heç kim bilmir. Hazırki məqalədə ABŞ araşdırmaçısı, hüquqşünaslıq doktoru Səmyuel A. Uimz (Samuel A. Weems) və Kiprli Türk tarixçi Prof. Dr. Salahi R. Sonyelin araşdırmaları əsasında tarixi həqiqətləri işıqlandırmağa cəhd edilmişdir.*

*Açar sözlər*: Şərq məsələsi, Erməni məsələsi, I Dünya müharibəsi, Erməni "soyqırımı", Türkiyə, Ermənistan.

***Giriş.*** "Böyük Ermənistan", "Erməni soyqırımı", "Kişik Asiya Bibliya Ermənistanı" ifadələri necə və nə vaxt ortaya çıxdı? Osmanlının dağılmasını sürətləndirən daxili çaxnaşmalar, ermənilərə üfrülmüş alovlu "3000 min illik tarixə sahibsiniz" yalanı. Bütün bunların kimlərin mənfəətinə xidmət etdiyinə "mənfəət sahiblərinin" arxivlərindən çıxmış dəlillərlə şahid olacaqsınız.

1800-cü illərin ilk başlanğıcında Çar Rusiyası özünün bir əsrlik arzusunu, yəni Osmanlıya və Qərb ölkələrinə aid limanları və torpaqları ələ keçirmək arzusunu yerinə yetirmək üçün qanlı imperiyanın sərhədlərini genişləndirməyə başladı. İsti dənizlərə çıxmaq üçün onun yolunu kəsən Osmanlı imperiyasının torpaqlarının işğalına başlamazdan əvvəl onu zəiflətmək üçün ortaq dinə sahib olduğu Osmanlı ərazilərində yüz illiklər boyu sülh və əmin-amanlıq içində yaşamış ermənilərdən, yunanlardan və slavyanlardan istifadə etməyi düşünürdü. Bunun üçün o, Osmanlıya xüsusi agentlər göndərir və ermənilərə 1820-ci ildən sonra vədlər verməyə başlayır ki, ermənilər üçün dövlət yaradacaq. Rusiya türk boğazlarını ələ keçirmək xəyallarını gerçəkləşdirə bilməsə də, qərb və cənub istiqamətində sərhədlərini genişləndirməyi bacarır.

Osmanlı imperiyası XIX əsrdə sürətli şəkildə tənəzzülə doğru addımlayırdı, bunu görən xarici qüvvələr, yəni İngiltərə və Fransa Osmanlıda missionerlik fəaliyyətini maliyyələşdirirdilər. İngiltərə və Fransa geri qalmaq istəməyən Rusiya da Osmanlının parçalanmasında Anadoluda yaşayan ermənilərin ləkəli xisılətindən istifadə etməyi özünə məqsəd qoymuşdu. Və beləliklə, saxta “Böyük Ermənistan” xülyasının əsası qoyulmuş oldu. Bu xülya davamı İngiltərədən gəldi. 1880-ci illərdə Böyük Birtaniyanın baş naziri olmuş Uilyam Qladston (W.E.Gladstone) ermənilərə bir başqa “ideya” verir, o, Kiçik Asiyanı “Bibliya Ermənistanı” adlandırır. Qladston həmçinin zəifləmiş Osmanlının dağılacağı təqdirdə Osmanlını öz təsir dairəsinə salmaq və Osmanlı torpaqlarında İngiltərədən aslı bir neçə dövlət yaratmaq istəyirdi. Bu dövlətlərdən biri də məhz erməni dövləti olmalı idi. Qladston hətta mətbuata göstəriş vermişdi ki, Şərqi Anadolunu Ermənistan kimi təqdim etsinlər. Bu dövrdə həmçinin, Şərqi Anadolunun müxtəlif guşələrində Britaniya konsulluqları fəaliyyətə başlayır, Şərqi Anadoluya xüsusi agentlər, missionerlər göndərilir ki, bölgənin xristian və erməni əhalisi ilə əlaqələr qurulsun, onların psixoloji durumları barədə məlumat toplansın. Bundan əlavə, hal-hazırda demokratiya mərkəzlərindən sayılan Londonda ingilis və iki üzlü Erməni dostluq komitəsi təşkil olunur.

1880-ci il iyun 16-da İngiltərənin Anadoludakı konsulu U.Uilson ölkəsinin tapşırığı əsasında ermənilər barəsində ölkəsinə göndərdiyi məlumatda erməniləri avam, qazanc həris, təhsilsiz, nadan, fanatik, dözümsüz, tamamilə savadsız, hər cür yeniliyə qarşı və ehkamların təsiri altında olan toplum kimi qələmə vermişdi (1, s.38; 4).

İngiltərənin Şərqi Anadoludakı konsullardan Uilyam Everettin 1882-ci ilin yanvarında İstanbuldakı ingilis səfiri L.Dufferinə göndərdiyi məxfi məlumatda deyilirdi ki, Ərzurumda, həmiçinin bütün digər şərq əyalətlərindəki ermənilər arasında məxfi bir sənəd yayılıb. Məxfi orduya birləşmək haqda olan bu sənəddə qeyd olunur ki, "bu orduya qoşulan hər bir erməni and içir ki, xəyal aləmində olan ölkələrini azad etmək üçün döyüşmək onun başlıca məqsədidir" (1, s.39; 4). U.Everett sənədin haradan ortaya çıxdığını öyrənərək, 1882-ci ilin erkən baharında məlumat verirki, o sənədin arxasında "Rus Ermənistanı" dayanır. Həmçinin əlavə edir ki, Rusiyanın Vandakı konsulu erməni əsilli mayor ermənilər arasında Osmanlıdan ayrılmaq və müstəqil dövlət ideyasını yaymaqla məşğuldur. Və o, təbliğatında xüsusi olaraq qeyd edir ki, bu mübarizədə ermənilər yalnız Rusiyaya bel bağlamalıdırlar. Vanda erməni əsilli mayordan əlavə çox sayda agentlər var idi, onlar əyalətləri gəzir və erməniləri üsyana, qarışıqlığa sövq edirdilər (1, s.39; 4).

Gizli sənədlərdə həmçinin ermənilərin dövlət yaratmaq, Osmanlıdan ayrılmaq istəməyən, Osmanlıya yardım edən ermənilərə qarşı törədilən vəhşiliklər, terrorçuluq fəaliyətləri barəsində məlumat verilir. Bu məlumatların bir neçəsinə diqqət edək. Osmanlı-İran sərhəddində yerləşən Derik monastırında ermənilər 1893-cü ildə Osmanlıya informatorluq edən, terror əməliyyatlarına qoşulmaq istəməyən ermənilərə qarşı qətliam keçirir, öldürülən ermənilərin qulaqlarını kəsərək monastırın girişinə vururlar (5, s.21-22). Onlar öz toplumlarından olan bu ermənilərə qarşı elə amansız üsullardan istifadə edirdilər ki, digər ermənilər qorxuya düşsünlər. Hal-hazırda da bu duruma bənzər durumlar görməkdəyik. Bir əsrdən çox müddət keçməsinə baxmayaraq, xislətləri dəyişməmişdir. Buna əyani sübut olaraq Şanlı Qarabağ zəfərini göstərmək olar. Ermənilər terrorçu olma-

yan ermənini, sülh istəyən erməninі 1893-cü ildə Derik monastırından da faciəvi və rəzil durumda buraxmışdılar, 2020-ci ildə II Qarabağ savaşında da eyni hadisələrin şahidi olduq. Döyüşlər əsnasında maşına zəncirlənmiş erməni meyidlərini gördük, onlar döyüşmək istəmiyən ermənilәri bu cür cəzalandırırdılar; posta zəncirlənmiş erməni terrorçusunu gördük, öz aralarında atışmaların şahidi olurduq və s. Bütün bunlar hamısı məhz onların bir-birilərini cəzalandırması idi (II Qarabağ Döyüşləri zamanı Calibir və digər informatorlar tərəfindən qeydə alınmış video kadrlar).

Özlərinə qarşı terror aktı törətməyə çalışdıqları digər bir faktı isə İstanbuldakı Fransız səfiri öz ölkəsinə hesabatda yazmışdır. O, deyirdi: 1894-cü il aprelin 27-də patriarx Aşıqyan Qumqapı kilsəsindən dini mərasimdən İstanbula qayıdarkən ona 18 yaşlı erməni gənci atəş açmaq istəmiş, lakin silahın işləməməsi terror aktını əngəlləmişdir. Gəncin dindirilməsi zamanı məlum olur ki, o, Hınçak terrorçu təşkilatının üzvüdür. Onu da qeyd edim ki, Hınçak terror təşkilatı 1887-ci ildə Cenevrədə erməni Avetis Nazarbekyan tərəfindən yaradılmışdır. Hıncak sözünün mənası "zəng" deməkdir. Belə terror faktlarının sayı onlarladır, sübutlar isə İngilis casusların və konsulların hesabatlarında əks olunmuşdur.

1877-1878-ci illər Osmanlı - Rus müharibəsindən istifadə edərək İstanbuldakı erməni patriarxı Nerses Varcabedyan çar Nikolaydan yazaraq xahiş edir ki, Rusiya işğal etdiyi Şərqi Anadolunu özünün işğal dairəsində saxlasın və Bolqarıstan nümünəsində Şərqi Anadoluda ermənilərə muxtar dövlət yaratsın. Lakin rusların maraqlarına cavab vermədiynə görə təklifə maraq göstərilmir. Əsas səbəblərdən biri də, Bolqarıstanda xristian əhalinin çox olması, Şərqi Anadoluda isə ermənilərin sayının Türk və müsəlman əhalinin sayından qat-qat az olması idi (1, s.38-39).

1870-ci illərdə erməni patriarxı Nerses Varcabotyan rus çarı Nikolayla görüşərək ondan Şərqi Anadoluda müstəqil erməni dövləti yaratmaq üçün kömək istəyir. Bir müddət keçəndən sonra o, Van şəhərinin yepiskopu olmuş Mkrtıç Xrimyanı Rus Çarın yanına göndərir. Patriarx bildirirdi ki, guya Osmanlıda ermənilər təqib edilir, sıxış-

dırılırlar və buna görə də, ermənilərə Osmanlının 6 şərq vilayətində dövlət qurmaqda kömək göstərilməsini istəyirlər. Nikolay erməniləri pozuculuq fəaliyyətlərini davam etdirməyə həvəsləndirərək, saxta vədlər verərək geri göndərir. Halbuki, Osmanlı tolerantlıq məsələsində Avropa dövlətlərini qat-qat geridə buraxırdı. Avropada dinə qarşı çıxılanda, fərqli dinə mənsub olan insanlar təqib olunub tonqalda yandırılarkən və ya Fransada Volfolemey gecəsi qətliamı törədilərkən, dini müharibələr adını almış Quqenat müharibələri baş verərkən Osmanlıda dini azadlıqlar, millət idarəçilik sistemi mövcud idi. Qeyri-müsəlman əhali dövlət tərəfində qorunur, dinlərini, adət-ənənələrini sərbəst yaşamalarına imkan yaradılırdı. Hətta 1453-cü ildə İstanbul fəth olunandan sonra Bizans hökumətinin Krıma sürgün etdiyi 70.000-ə yaxın erməni Osmanlıya geri qaytarılmışdı. Rusiya imperiyası yaradılarkən, Osmanlının bu hərəkəti onu zəifdədən səbəb kimi dəyərləndirərək, öz imperyalarında müsəlmanlara və digər dinlərin nümayəndələrinə qarşı qadağalar tətbiq etmiş, repressiyalar və qanlı sürgünlər həyata keçirmişlər.

Osmanlının I Dünya müharibəsində niyə Almaniyanın yanında olmasının bir neçə səbəbi var. Lakin onların arasında, ilk olaraq qeyd etmək istədiyimiz səbəb odur ki, qazanan tərəfdə olsaydı belə, Osmanlını parçalayacaqdılar. Bunu anlayan Osmanlı məcbur olaraq Almaniyanın tərəfində durdu və müttəfiq kimi çıxış etdi, çünki artıq qarşısı alınmaz casusluqlar sarayın içinə belə sirayət etmişdi, ermənilərin satqınlıqları dayanmadan Avropa mətbuatında dərc etdirdikləri saxta qırğın məqalələri, Rusya ilə baş verən arası kəsilməyən müharibələr, İngiltərənin Hindistan yoluna nəzarəti ələ keşirmək istəməsi, Rusiyanın isə bu yolu tutub İngiltərənin yolunu kəsməyə çalışması və dayanmadan casuslar vasitəsiylə müxtəlif xalqlar arasında nifaq toxumlarının səpilməsi, Osmanlıya yaxşı izah idi ki, onu nə gözləyir. Bu səbəbdən, ehtiyatlı davranaraq manevr etməyə çalışan Osmanlı məğlubiyyətə düçar oldu.

***Saxta erməni genosidi***. 1914-cü ildə Osmanlının müharibəyə qoşulmasının qaçınılmaz olduğunu görən ermənilər bu fürsətdən məharətlə istifadə etməyə çalışdılar. Eçmiədzin katalikosu V Gevork

Qafqaz canişini olmuş V.Daşkova yazır ki, qarşıda yaranmış fürsətdə ermənilərə köməklik göstərilsin və ermənilərin istədiyi 6 vilayətdə yüksək statuslu muxtariyyatın yaradılmasına təşəbbüs göstərsin. Bundan əlavə, V Gevork çar II Nikolaya məktub yazaraq öz planını çara da təklif edir. Çar öz növbəsində ona cavab yazaraq bildirir ki, "Müqəddəs ata, öz təbbələrinizə deyin ki, erməniləri əla gələcək gözləyir". V Gevork həm çara, həm də V.Daşkova bildirir ki, ermənilər bu yolda ruslara hər cür yardım göstərməyə hazırdırlar (1, s.49). Ermənilər məkrli planlarına yardımı təkcə Rusiyadan istəmirdilər. Onlar bu plana İngiltərənin də daxil olmasına çalışırdılar. Londonda yerləşən Erməni Vətənpərvərlər Assosiasiyasının rəhbəri Hakopyan İngiltərənin xarici işlər naziri Edvard Qreyə yazaraq deyirdi ki, "müharibə başlanandan erməni xalqı oturub tamaşaçı kimi gözləmir, Britaniya donanmasına və öz torpaqlarına uğurlar diləyir və onlara dini ayinlər icra edilir" (1, s.50).

I Dünya Müharibənin başlaması ilə Osmanlıya sadiq olduqlarını, onun müdafiəsinə hazır olduğlarını bildirirən erməni rəhbərləri və keşişləri, əslində təmas xətti boyunca Osmanlı ordusuna, hətta Van, Ərzurum, Bitlis, Diyərbakır, Qarahisar, Sivasa xaincə hücum planları hazırlamışdılar. Ermənilər Osmanlı ordusuna arxadan zərbə endirir, təchizat yollarını tutur və təchizatı qarət edir, dinc əhaliyə divan tutur, evlərini yandırırdılar. Osmanlı hökuməti ermənilərin bu xain addımlarının qarşısını almaq üçün erməni kilsəsinə müraciat edir. Bundan başqa, erməni kilsəsinin patriarxı ilə görüşmək təşşəbüsünü qaldırır. Hökumət patriarxa bildirir ki, əgər bu xəyanətin qarşısı alınmazsa, Osmanlı ermənilərə qarşı ciddi tədbirlər görəcəkdir. Ermənilər bu xəbərdarlığı zəiflik əlaməti kimi qəbul edərək, Osmanlının Rusiya ilə olan döyüş xəttinin arxasındakı hərbi hücumları daha da artırırlar.

Qahirədəki İnglis komissioneri Henri McMahon öz xarici işlər nazirinə 12 may 1915-ci ildə göndərdiyi məxfi məktubda bildirirdi ki, ermənilər Türk ordusuna geniş miqyaslı problemlər yaradır. Buna görə də, Osmanlı hökuməti ermənilərə qarşı tədbir görməyə məcbur olur (1, s.51-52). Osmanlı hökuməti 1915-ci il aprelin 24-də erməni-

ləri Rusiyaya köməklik göstərdikləri strateji nöqtələrdən köçürmək haqda qərar qəbul edir. 1915-ci il mayın 26-da isə ermənilərin Şərqi Anadoludan köçrülməsi haqda Daxili İşlər Nazirliyinə göstəriş verilir. Burada əsas məqsəd pozuculuq fəaliyəti göstərən erməniləri döyüş bölgəsindən uzaqlaşdırmaq idi (1, s.52). Maraqlı faktlardan biri də odur ki, Eçmiədzin katalikosu 24 aprel 1915-ci il tarixli qərardan 3 gün keçməmiş Rusiyaya məlumat göndərmişdi ki, ermənilərə qarşı soyqırım olunub. Lakin Osmanlı tərəfindən hələ heç qərarın icraatına başlanmamışdı (1, s.54-55).

23 may 1915-ci ildə Osmanlı hökuməti ermənilərin köçrülməsi və haraya göndərilməsi haqqında əmri 4-cü ordu komandanlığına göndərir. Ermənilərin köçrülməsinin başlanması isə hələ vaxt aparacaqdı. 24 may 1915-ci ildə Müttəfiqlər Osmanlının erməni "soyqırımı"na görə məsuliyyət daşıdığını bildirən bəyanat yayırlar. Osmanlı dövləti saxta soyqırım bəyanatına dərhal cavab verir və etirazını qəti şəkildə bildirir (1, s.55).

1915-ci il mayın 30-da Osmanlı Nazirlər Kabineti Şərqi Anadoludakı Osmanlı döyüş xətləri arxasında yaşayan ermənilərin köçürülməsi qərarını təsdiq edir. Bu, Müttəfiqlərin, yəni İngiltərə, Fransa və Rusiyanın erməni "soyqırım" bəyanatından 6 gün sonra baş verir (1, s.56). Yəni müttəfiqlər hələ köçürülmənin başlanmasından 6 gün cə olmayan soqırımın hay-küyünə düşmüşdülər. Bu iddialarının yalan olduğunu elə həmin dövrdə təsdiq edən ingilis mənbələri mövcuddur. Məsələn, Şərq Departamenti Konsulluğunun zabiti U.S.Edmondus tərəfindən saxta erməni soyqırımı barəsində 1920-ci il yanvarın 20-də öz ölkəsinin Xarici İşlər Nazirliyi üçün hazırladığı sənəddə deyilirdi ki, "burada genosid faktının yaxına buraxılması üçün kifayət qədər material yoxdur" (1). Yenə də Şərq Departamentinin əməkdaşlarından olmuş Duayt Osborn yazırdı ki, "köçürmələrdə özbaşınalıq olmasın deyə, Osmanlı Daxili İşlər Nazirliyinin verdiyi əmrin son paraqrafında qeyd edilir ki, ermənilər köçürülərkən kütləvi qırğına oxşar hərəkətlər baş verərsə, xüsusi ölçü götürüləcək" (1, s.290). Bu uydurma soyqırım fikrini təqzib edən onlarca xarici hesabatlar var və bu hesabatlar əsasən 1915-ci ilə aiddir, ondan sonrakı

illərdə də buna oxşar onlarca hesabat mövcuddur. Bəs bu fikir hardan ortaya atıldı?

"Soyqırım" haqda fikir köçürülmədən həftələr öncə Eçmiədzin monastırında ortaya çıxdı. Məqsəd, xarici ölkələrin diqqətini çəkmək, yıxılmaqda olan Osmanlıdan ərazilər qoparmaq, özlərinə kilsə diqtəsi altında xaricilərin təbəəliyində saxta, uydurma "Ermənistan" yaratmaq idi. Burada ermənilərə heç bir soyqırım olmamışdı, əksinə Türklərə, Kürdlərə qırğınlar törədilmişdi. Bu faktı Amerika generalı Harbordun yazışmasında öz təstiqini tapır. O yazırdı: "harada ki, ruslarla ermənilər irəli gedir və ya geri çəkilir, orada onların qəddarlığı Türklərə qarşı çevrilirdi" (1, s.60). Digər bir neçə fakta diqqət yetirək. Bir İnglis polkovniki məlumat verir ki, "ermənilər Vanda və Bitlisdə 300.000 – 400.000 müsəlman kürdünü məhv etmişdir". Britaniya Xarici İşlər Nazirliyinin 21 fevral 1918-ci ildə hazırlanmış hesabatında bildirilirdi ki, "mənə elə gəlir ki, ermənilərin soyqırım törətdiyi şübhəsizdir. Bu barədə polkovnik Payn CİTS-ə məlumat vermişdir və bu dübbə-düzdür, güman ki, bu məsələyə lazımi diqqət yetirilməmişdir". Sonra, 20 mart 1918-ci ildə İngiltərənin Misir Ekspedisiya Baş qərərgahının briqada generalı F.Klaypton xarici işlər ofisinə özünün təbliğat materialı adlandırdığı, Betlehemdəki Ortass Monastırının keşişindən aldığı bir xəbəri göndərir. Xəbər ermənilərə Türk soyqırımı təbliğatını yayırdı. Xarici İşlər Nazirliyindən olan Uilyam Yanq yazırdı, "əmin ola bilərsiniz ki, biz artıq heç bir erməni təbliğatını istəmirik". Hətta bildirilirdi ki, son döyüşlərdə ermənilər soyqırım törətdiyi üçün məqam münasib deyil (1, s.60).

Ermənilərin digər ən böyük yalanı isə, qondarma "soyqırım"a məruz qalanların sayı ilə bağlıdır. Guya 1915-ci ildə 1.5 milyon nəfər erməni "soyqırım"a məruz qalmışdır. Bu saxta say o zaman Anadoludakı ermənilərin sayından qat-qat artıqdır. Həmin dövrdə Anadoluda yaşamış ermənilərin sayı ilə bağlı aşağıda qeyd edilən mənbələrə diqqət edək (1, s.62):

M.Zarçeşi, Fransanın Vandakı konsulu................1.300.000
Francis de Pressence (1895).................................1.200.000

Torumnekize........................................................1.300.000
Linç (1901) .........................................................1.158.000
Osmanlı siyahıya alması (1905)............................1.294.851
İngiltərənin Mavi Kitabı (1912)............................1.056.000
L.D.Konterson (1913)..........................................1.400.000
Fransanın Sarı Kitabı...........................................1.475 000
Erməni patriarxı Omanyan..................................1.579.000

Bu yalanlara son qoymaq, həqiqətləri araşdırmaq üçün Türkiyə hökuməti hər zaman bildirir ki, komissiya yaratmağa, arxivləri açmağa hazırdır, araşdrımalarda arzu edən bütün ölkələrin alimləri də iştirak edə bilərlər. Amma erməni tərəfi susmağı üstün tutur, çünki açılacaq arxivlərin erməni riyakarlığına, terroruna şahidlik edəcəyi şübhəsizdir.

***Nəticə.*** Bütün bu deyilənləri yekunlaşdıraraq belə qənaətə gəlmək olur ki, tarixi fakıtlar aydın şəkildə soyqırımın baş vermədiyni göstərir. Amerika Birləşmiş Sitatların bu son iki ildə aktual olaraq soyqırım məsələsinə toxunması məzh Türkiyəyə təziyq vasitəsi rolunu oynayır. Nədənsə bu saxta soyqırım məsələsi qərb, xüsusən də erməni təsiri güclü olan ölkələr üçün seçki zamanı dahada aktuallaşır. Bundan tam aydın olur ki, riyakarlardan yanlız öz çıxarları üçün istifadə edirlər eynən 1800 – 1900 cü illərdəki kimi.

## ƏDƏBİYYAT

1. Səmyuel A. Uimz. Ermənistan – terrorçu “xristian” ölkənin gizlinləri. Ermənilərin böyük fırıldaq seriyaları. I cild. Bakı, OKA Ofset Azərbaycan-Türkiyə Nəşriyyat-Poliqrafiya Şirkəti, 2004, 386 s. - https://achiqkitab.aztc.gov.az/upl/books/pdf/Ermenistan-terrorchu_xristian_olkenin_gizlinleri_55dae54bb8088.pdf [Müraciət tarixi: 30.04.2022].

2. Armenian Deportations: A Re-Appraisal In The Light Of New Documents. - Sonyel Salahi R. Yeni Belgelerin Işiği Altinda Ermeni Tehcirleri. Armenian Deportations: A Re-Appraisal in the lidht of new documents. Ankara, Türk Tarih Kurumu, 1972, 69 p. -

https://www.abebooks.com/Yeni-Belgelerin-Isigi-Altinda-Ermeni-Tehcirleri/30461584324/bd [Müraciət tarixi: 30.04.2022].
3. Mark Sikes " The Caliphɨ Lust Heritage, 1915, London,
4. Ergun Kirlikovali. Armenia And Christianity: The Holy Mess / Armenian Genocide Resource Center, 14.5.06. - https://armenians-1915.blogspot.com/2006/05/665-armenia-and-christianity-holy-mess.html. [Müraciət tarixi: 30.04.2022].
5. Salahi Sonyel. The Great War and The Tragedy of Anatolia (Turks and Armenians in the maelstrom of major powers). Ankara, Turkish Historical Society, 2000, 221 s. - http://gobustan.cls.az/front/files/libraries/1665/books/908193297.pdf [Müraciət tarixi: 30.04.2022].

**IZZAT BAGIROV**
*5th year student of West Caspian University*

## FALSE "GENOCIDE" CLAIMS IN THE LIGHT OF HISTORICAL FACTS

The false "genocide" claims of the Armenians are discussed almost every year in different countries, a number of countries declare that their recognition. For more than a century, Armenians have openly attacked with false documents and lobbying, creating a pyramid of slander and fraud. The result is tragic, the Armenian lie is gaining ground in the world and almost no one knows our great truths. In this article, historical truths were attempted to shed light based on researchs by the US researcher, Doctor of Law Samuel A.Weems and the Turkish Cypriot historian Prof. Dr. Salahi R. Sonyel.

*Keywords*: Eastern issue, Armenian issue, World War I, Armenian "genocide", Turkey, Armenia.

*Daxil olma tarixi*: 30.04.2022-ci il.
*Çapa imzalanma tarixi*: 25.05.2022-ci il.

**UOT 94(479.24)**

**LEYLA TAĞIZADƏ**
*Azərbaycan Universitetinin II kurs magistrantı*
**leila.taghizade98@gmail.com**

# ŞƏKİNİN SƏFƏVİ DÖVLƏTİNƏ BİRLƏŞDİRİLMƏSİ

*Elmi rəhbər:*
Tarix elmləri doktoru Qabil Əliyev
Bakı Dövlət Universiteti

*Məqalədə Şəki hakimliyinin Səfəvi dövlətinə birləşdirilməsi məsələsi araşdırılmışdır. XVI əsrin birinci yarısında Şəki hakimliyində ictimai-siyasi vəziyyət, şah I İsmayılın hakimiyyəti dövründə Şəki hakimliyinə münasibət, Dərviş Məhəmməd xanın qızılbaşlar ilə əlaqələri haqqında bilgi verilmişdir. Şah I Təhmasibin Şəkiyə hücum etmə səbəbləri, hərbi əməliyyatların nəticələri təhlil edilmiş, Azərbaycan torpaqlarının vahid hakimiyyətdə birləşdirilməsinin mütərəqqi nəticələri qeyd edilmişdir.*

*Açar sözlər*: Səfəvi sülaləsi, Şəki hakimliyi, Dərviş Məhəmməd xan, vahid hakimiyyət.

***Giriş.*** Azərbaycanın qədim yaşayış məskənlərindən biri də Şəki şəhəridir. Orta çağ qaynaqlarında Şəkini Şəkə, Şaki, Şaka, Şakki, Şakke, Şekən, Şakkan, Şəkkin kimi müxtəlif adlarla adlandırılmışdır. Bundan əlavə, Şəki şəhərinə müəyyən vaxtlarda Nuxa da deyilmişdir. Antik müəlliflərdən Ptolomey öz əsərlərində Niqa deyilən bir ərazidən də bəhs edirdi. Bu fikirləri təhlil edən tanınmış Azərbaycan tarixçisi A.Bakıxanova görə, isminin oxşarlığı və yerləşməsinə görə Nuxa şəhəri elə Şirvan şəhərlərindən sayılan Naxiya və ya Nağiya adlanan yaşayış məskəni ilə eynidir. Sonradan rus tarixçisi A.Krımskı Niqanın Nuxa olduğu fikrini təsdiq etmişdir.

Buna baxmayaraq, XIX əsrin əvvəllərində bu fikirlərə qarşı çıxanlar da var idi. Buna misal olaraq, akademik B.Dorn Niqanın İberiya və Alazan arasındakı bir yerdə yerləşdiyi qənaətinə gəlmiş və onun Nuxa ilə bir əlaqəsi olmadığını bildirmişdi. Rus sovet tədqiqat-

çısı K.V.Trever də bu fikirlə razılaşmış, xüsusi qeyd etmişdi ki, "Nuxa" adının qədim vaxtlardan bəlli olan Niqa ərazisi ilə əlaqəsinin olması hələ təsdiqini tapmamışdır.

Hal-hazırda Şəkinin etimologiyasına nəzər salaq. Bu ismin aşkar olunaraq həmin isimlə şəhərin meydana gəlməsi barədə tarixi ədəbiyyatlarda bir rəy mövcuddur. Bu mülahizə qədim dövrdə yaşayan məşhur tədqaiqatçılar Herodot və Strabondan tutmuş, sonrakı dövrün bir çox mənbələrində qərar tutur. Herodotun fikrincə, Şimali Qafqaz ərazisində məskunlaşan iskit-sak tayfaları m.ö.VII əsrdə Dərbənd keçidi vasitəsilə Qafqazdan keçərək Kiçik Asiya ərazisinə basqın etmişlər. Elə oradaca "İskit şahlığı" meydana gəlmişdir. Bu hadisələrdən söz açan Strabon iskitlərə sak deyə müraciət etmiş və qeyd etmişdi ki, "Saklar Cənubi Qafqaz ərazisində coğrafi cəhətdən ən münbit torpaqları ələ keçirərək, buralara öz isimlərinə müvafiq "Sakasena" adını qoymuşlar". Tarixçilərin fikirlərinə əsasən, iskitlərin əsas məskəni Azərbaycan, xüsusən də Şimali Azərbaycan torpaqları idi [4, s.4].

K.V.Trever birinci eranın axırlarında alban birliyini yaradan tayfalardan bəhs edərkən sak tayfalarının etnik kimliklərini və Sakasena adlı ərazinin adını qeyd edir və yazır ki, sak tayfaları Şəkidə məskunlaşmışdılar. O, həmçinin həmin bölgənin xəritəsini verməklə bildirirdi ki, bu yerlər Şəkinin mövcud olduğu yerlərə uyğundur. Bizə məlum olan qaynaqlardan gələn bilgilərə əsasən, IX əsrdə ərəb yazarı Bəlazuri öz yazılarında məhz o yerləri Şakaşen, şəhərin özünü isə Şake kimi qeyd etmişdir. Bütün bu deyilənləri nəzərə alaraq belə qənaətə gəlmək olar ki, indiki Şəki şəhərinin bünövrəsini m.ö. VII əsrdə, çox güman ki, 2700 il öncə saklar qoymuşlar. Vaxtikən Şakaşen və ya Sakasena kimi adlandırılan həmin ərazinin ismi müasir forma alanadək uzun müddət vaxt aparmışdır.

Şəkinin qədim dövr tarixi ilə bağlı məlumatlar azlıq təşkil edir. A.Krımski Şəkini Azərbaycanın ən qədim məskənlərindən biri hesab edərək, belə fikirləşir ki, Strabonun yazdığı İberiya ətrafındakı antik alban kilsəsi m.ö.I əsrdə xüsusən bu ərazidə mövcud olmuşdur. Nəhayət, belə demək olar ki, Şəki Alban çarlığında ən böyük şəhərlərdən hesab olunurdu.

XI əsrdə yaşayan gürcü əsilli tarixçi Cuanşer Cuanşerian öz qələmə aldığı "Vaxtanqa Qorqasalın tarixi" kitabında V əsrin olaylarını araşdırarkən, eyni zamanda Şəkini də vurğulayır.

III-V əsrdə Albaniya bir sıra əyalətlərə parçalanmışdı. Şimali-qərbi Albaniyada dağlıq ərazi kimi tanınan bir bölgədə Şəki mövcud idi. Şəki də digər ərazilərdə olduğu kimi qala divarları ilə dövrəyə alınmışdı.

Ərəb işğalları zamanında Şəki Azərbaycanda mühüm iqtisadi və siyasi mərkəzlərdən biri hesab olunurdu. Qaynaqlarda zamanının əhəmiyyətli yaşayış məskənləri kimi Dərbənd, Şirvan, Qəbələ, Şabran, Şamaxı, Şəmkir, Bərdə, Naxçıvan, Gəncə, Beyləqan, Cənzə, Təbriz və s. Kimi şəhərlərlə birgə Şəki şəhərinin də adı qeyd olunur.

Şəki vilayəti ərəb xilafəti dövründə yaranmış inzibati vahidlərdən biri hesab olunurdu. Sarayı Bərdədə qurulan bu əmirliyin tərkibində Şimali Azərbaycan, Kiçik Asiyanın şərq ərazisi və Mesopotamiyanın şimal hissəsi də var idi. Ərəb əmirliklərinin gücdən düşdüyü bir vaxtda, IX əsrin axırlarında Qriqor Hammam Albaniyanın şah hakimiyyətini dirçəltməyə can atırdı. Aranşahlıq adı ilə tanınan bu vilayətin tərkibində Şəki də var idi. Ancaq bu hakimiyyət uzun ömür sürmədi, belə ki, Şəkidə azad hakimiyyət yarandı.

Məlumdur ki, X əsrin yarısında Şəki şəhərində alban xristian hökmdarlarının davamçıları hələ də hökmranlıq edirdilər. X-XI əsr ərəb əsilli tarixçilər Şəki barədə maraq doğuran məlumatlar yazmışlar. Məsudi qeyd edir ki, Şəki Tiflis ilə Dərbənd arasında olan dağ yolunun üstündə yerləşir. "Hüdud-əl-Aləm" kitabını yazan yazıçının fikrinə əsasən, Şəki həm böyük, həm də varlı şəhər olub.

Artıq X əsrdə Şəki Azərbaycanın şimal hissəsində təzə-təzə meydana gəlmiş Şirvanşahların əsarətində idi. 960-cı illərin başlanğıcında Şəki hökmdarı həmsərhəd olan Sanariya şəhərini də özünə birləşdirib, Alban-Aranşah dövləti yaratmaq istədi və Şirvanşahlarla asılılıq əlaqəsini kəsdi. Şirvanda Kəsranilər hakimiyyəti fəaliyyətə başladıqdan sonra, A.Krımskinin fikrinə əsasən, Şəki Şirvanşahlara birləşdirilsə belə, yenə də öz azadlığını qoruyub saxlamışdı.

XIV əsrin əvvəllərində Hülakilər hakimiyyəti süqut etdikdə Şirvanşahlar ilə bərabər, Şəki də azadlıq əldə etdi. 1386-cı ildə Teymurləngin ordusu Şəkiyə basqın etdi və çox sayda ziyan vurdu. Teymurləngin vəfatından sonra Şəki yenidən azadlığını bərpa etdi. O, bu müddət ərzində Gürcü və Şirvanşah hökuməti ilə dostluq əlaqələrini qorumuşdu. I İbrahim Teymuri qoşununa qalib gəldikdən sonra da Şəki ilə Gürcüstan üzərində hökmranlığını davam etdirirdi.

Baharlı dövləti meydana gəldikdən sonra 1412-ci ildə Qara Yusifin ordusu Şirvanı qarət edərək, Şirvanşah I İbrahimi və Şəki hakimi Seyid Əhmədi əsir aldı. Buna baxmayaraq, Baharlı dövləti daxilində gedən iğtişaşlardan bəhrələnən Şirvan və Şəki yenidən öz azadlıqlarına qovuşdular.

XV əsrdə Şəki hakimləri Kaxetiya çarları ilə diplomatik əlaqələr qursalar belə, bəzi vaxtlarda öz aralarında çəkişmələr müəyyən müddət davam edirdi.

XV əsrdə Şəki haqqında, onun ictimai, iqtisadi həyatı barəsində mənbələrdə məlumatlar çox cüzidir. Şəki vilayətində kənd təsərrüfatının müxtəlif sahələri, xüsusən toxuculuq və ipəkçilik tərəqqi etmişdi.

XV əsrin axırı-XVI əsrin başlanğıcında Cənubi Azərbaycanda Bayandurlu hakimiyyəti artıq süquta gedirdi. Həmin vaxtı Səfəvilər sülaləsi nümayəndələrinin idarə etdiyi Ərdəbil hakimliyi bir qədər qüvvətləndi. Xüsusən də, bu sülalənin cavan üzvü olan İsmayıl və digər hakimlər Azərbaycanı birləşdirib yeganə hakimiyyət qurmağı özlərinə borc bildilər. İsmayılın niyyəti öncə Şirvanı zəbt etmək idi. 1500-cü ildə Şirvana hücum edən İsmayıl Səfəvi Kür çayının kənarında Şəki valisi ilə üz-üzə gəldi. Bu çəkişmədə Şəki valisi uduzaraq, geri qayıtdı. Səfəvilər hakimiyyəti meydana gəldikdən və Şah I İsmayıl hökmdar təyin edildikdən sonra Şəki valisi də Səfəvilərin uca hökmranlığı ilə barışmalı oldu. 1519-cu ildə Şah İsmayılın Təbrizdə olan sarayına yığılan başqa vassal hakimlərinin tərkibində Şəki valisi də var idi.

Div Sultan Rumlunun rəhbərliyi altında səfəvilərin üçüncü hücumu 1521-ci ildə baş vermiş və bu hücum Kaxetiya gürcü hökmdarı Ləvənd xanın Şəki xanlığına hücum etməsi ilə əlaqəsi var idi. Şəki

valisi Həsən bəy qışı Naxçıvan ərazisində keçirən Şah I İsmayıldan yardım istədi. Div Sultan Alazan və İori çaylarından keçib, Qərəm və Zəyəm qalalarına basqın etdi. Ləvənd xan səhvini boynuna alaraq, Div Sultanın yanına təşrif buyurdu. Gürcüstanın başqa xanları- Davud bəy, Kvarkare və Məniçöhr də belə davrandılar. Hamısı Div Sultanla birləşib, Şah İsmayılın Naxçıvandakı qışlağına üz tutdular. Bu yerdə gürcü kralları Səfəvi hakimiyyətinə ildə barc-xərac verməyə söz verib geri döndülər.

Bunu da qeyd etmək lazımdır ki, Səfəvilərlə əlaqəli olduğu üçün Şəki xanı haqqında daha dolğun bilgilər ancaq Budaq Qəzvinidə mövcuddur. Bu məlumatlar arasında 1519-cu ildə Şah İsmayılın Təbrizdəki qışlağında olduğu zaman hüzuruna qonşu əyalətlərin başçılarının toplum şəkildə gəlmələri qeyd olunur. Şeyxşah, Xan Əhməd Gilani, Məlik Kavus Rüstəmdari, Müzəffər Sultan Rəşti, Mirəbdülkərim Mazandarani, Məlik Bəhmən Rüstəm Abbasi, Həsən bəy Şəki, Ləvənd bəy Gürcü və Kvarkvare Gürcü bir araya gəlmişdilər. Beləliklə, bu valilər Şah I İsmayılın tabeçiliyinə keçdiklərini etiraf etdilər.

1524-cü ilin yaz fəslində İsmayıl Naxçıvanı tərk edərək, Şirvan istiqamətinə yol aldı. Tarixçilər bu yürüşü etməkdəki məqsədini açıqlamırlar. Şah Kür sahilinə çatdıqda, şirvanşah II Şeyxşahın ölüm xəbəri gəldi. Şirvan hakimiyyətinə oğlu, İsmayılın kürəkəni və 9-cu qızı Pərixan xanımın həyat yoldaşı olan Xəlillulah gəldi. Sonradan şah Şəki səmtinə yol aldı və orada Həsən bəylə yerli məmurlar tərəfindən təmtəraqlı şəkildə qarşılandı. İsmayılın Şəki ilə Gürcüstan arasında olan yerdə qurduğu möhtəşəm ov mərasimində din xadimləri və Şəki məmurları da var idi. Şəkini tərk edib Ərdəbilə dönərkən, İsmayıla xəbər çatdı ki, Kaxetiya çarı Ləvənd xan nəhəng ordu ilə Şəkiyə basqın etmişdir. Döyüşdə şəkililər uduzmuşdular və Həsən bəy həlak olmuşdu. Bu hadisədən Şah I İsmayıl hiddətlənərək, lovğa gürcü hökmdarına cəza vermək fikrinə düşdü. Lakin İsmayıl vəfat etməklə bu iş yarımçıq qaldı.

Başqa bir mənbədə qeyd olunur ki, Şah İsmayılın ölümündən az bir vaxt keçmiş Əlvənd xan xeyli ordu dəstələri ilə birlikdə Həsən sultan üzərinə hücuma keçdiyi bir zamanda, Həsən sultan Şəki əyalə-

tinin qüvvələrini bir araya toplayaraq, Əlvənd xanı qarşıladı. Car vilayətinin Padar kəndi önündə baş verən döyüşdə Həsən sultanın ordusu məğlub olmu, özü isə öldürülmüşdür. Əlvənd xan isə buradan Tiflis istiqamətində hərəkət etmişdir. Həsən sultanın nəşi Daşüz adlanan yerə gətirilərək, torpağa verilmişdir [5, s.127].

Bütün dəlillərdən belə aydın olur ki, Şəki xanı Həsən bəy Şah I İsmayılı özünə himayəçi bilib, qərb-gürcü hökmdarları ilə çarpışmalarda onun yardımına güvənirdi. Həsən bəyin Şah İsmayıla qulluq etməsi "Aləm-ara" adlanan tarix kitabında da qeyd olunmuşdur [2, s.10].

Azərbaycanda axırıncı azad xanlıq olan Şəki də Şah I Təhmasib dövründə tənəzzül etdi.

Həsən sultanın ölümüdən sonra Şəki əyalətinin yuxarı vəzifəliləri məşvərət qurub, Həsən sultanın oğlu Dərviş Məhəmməd xanı Şəkiyə başçı seçdilər. Həsən bəyin oğlu, həm də xələfi olan Dərviş Məhəmməd xanın dövründə Şəki xanlığının qızılbaşlarla əlaqələri pisləşməyə doğru gedirdi. Dərviş Məhəmməd xan atası kimi şaha xidmət etmirdi. 1538-ci ildə Şah I Təhmasib Səfəvi ordusunu Şirvanı işğal etməkdən ötrü yola salanda, Dərviş Məhəmməd xan Şəki ordusu ilə Buğurd qalasında mühasirəyə düşən Şirvanşah Şahruxa yardım etməyə gəlib, Səfəvilərə gecə basqını etmişdi. 1538-ci ildə hökmranlıqdan uzaqlaşdırılmış Şirvanşahların üzündən rəqibləri əlindən çıxmış Şəki xanlığı azadlığını qorumaq üçün Şah I Təhmasibə yaxınlaşmağa çalışdı. Misal üçün, Dərviş Məhəmməd xan Şirvanşahların süqutundan bir il keçdikdən sonra (1539-1540) Səfəvilərlə qohumluq əlaqəsi yaratdı. O, Şah Təhmasibin bacısı, Şirvanşah II Xəlilullahın dul qalan xanımı Pərixan xanımla izdivac qurdu. Ancaq onun vəfatından sonra əlaqələr təzədən korlandı.

Burada qeyd edilib ki, Dərviş Məhəmməd xan Əlqas Mirzənin qızılbaşlardan uzaqlaşmaq fikrinə tərəfdar olmuş və özünün Şahnəzər adında qardaşını ordu ilə hərbi köməklikdən ötrü ora yollamışdı. Elə bu səbəblə Sultan Süleyman Azərbaycandan çıxıb gedəndən sonra, Şah Təhmasib Kiş qalasında gizlənmiş Dərviş Məhəmməd xanın cəzasını vermək üçün Sevindik bəy Əfşarın başçılığı ilə 2500 nəfərlik

ordunu Qarabağdan Şəki istiqamətinə yönəltdi. Səfəvilər Şəkini xarabalığa çevirib, xeyli qazancla qayıtdılar.

Sonunda, 1551-ci ildə Şah I Təhmasib Şəki xanlığının azadlığını bitirmək fikrinə düşdü. A.Bakıxanov qeyd edir ki, Səfəvi ordusu Ərəş adlanan ərazidə ayaq saxladı.[3,s12] Bu yerdə Səfəvilərdən asılı olan Kaxetiya çarı Levan da onlarla birləşdi. Dərviş Məhəmməd xan onları heç qarşılmadı, hətta Səfəvi şahının hüzuruna təşrif belə buyurmadı. Bütün bunlar səfəvilərin Şəkiyə yürüş etmələrinə səbəb oldu. Şəkililər bu hərəkətləri ilə möhtəşəm Kiş qalası və Şəki xanının öz məmurları ilə gizlənmiş olduğu, basılmaz olan “Gələsən-Görəsən” qalasına arxayın olduqlarını göstərdilər. Şəki əhalisinin müəyyən qismi Siqnaxda - dağ yamacında yerləşən məkanda məskunlaşmışdılar. Bəzi mənbələrdə bu dağın adı Alburz olaraq qeyd edilir [5, s.96]. Səfəvilər eyni zamanda şəkililərə üç tərəfdən hücuma keçdilər. Kiş qalasını ələ keçirmək üçün Şahqulu Sultan Ustaclı, Bədr xan və Sevindik bəy, Gələsən-Görəsən qalasını tutmaq üçün Abdulla xan Ustaclı və Kaxetiya çarı Ləvənd xan vəzifələndirilir. Şahqulu xəlifə isə səfəvi ordusu ilə Sıqnaxdakı şəkililərə hücuma başlayır. Şəkililər rəqiblərinin güclü olmasına rəğmən, səfəvilərin səylərini puça çıxardaraq, təzyiq göstərməyə davam edirdilər. Qeyd edək ki, Şahqulu Xəlifə Siqnaxa basqın edəndə, şəkililərin odlu silahdan istifadəsi onları geri çəkilməyə məcbur etdi. Səfəvilər toplar və 2 qala ilə vuruşmaq üçün digər vasitələrə əl atdılar. 20 gün keçdikdən sonra Kiş qala səddini və qüllələrini uçurdular. Qala başçısı Mahmud bəy müqavimət göstərməyi əhəmiyyətsiz bilib qalanın açarları ilə birlikdə özü də şaha təslim oldu. Kişin tutulmasından xəbər alan Siqnax döyüşçüləri də yavaş-yavaş döyüşü saxlayıb şaha tabe oldular. Heç bir çıxış yolu qalmayan Dərviş Məhəmməd xan gecə ikən Gələsən-Görəsən qalasını tərk edib, 400 nəfərdən ibarət döyüşçüsü ilə səfəvilərin mühasirə xəttini keçmək istədi. Bədbəxtlikdən, xanın keçdiyi yol Levan ilə Abdulla xanın qoşununun yaxınlığına rast gəldi. Abd ulla xan ilə çar Levanın qoşunu qaçanları tutub cəzalandırdılar. Dərviş Məhəmməd xan Kosa Pirqulu ilə təkbətək döyüşə girdi və öldürülərək, başı bədənindən ayrıldı. Şah Şəki əhalisinə də aman verərək, əfv etmişdir. Dərviş

Məhəmməd xanın oğlu Bağı bəyə aman versə də, xanlıq hökumətini ona vermədi [5, s.128].

***Nəticədə***, Şəki hakimliyinin müstəqilliyinə son qoyuldu və o Səfəvir dövlətinə birləşdirildi. Şəkinin ilk Səfəvi hakimi Toygün bəy Qacar oldu [1, s.58].

## ƏDƏBİYYAT

1. Bayramov Q. Hüseynov R. Tarixi Azərbaycan dövlətləri. Bakı, 2012, 94s.
2. Fateh Kərim ağa. Şəki xanlığının müxtəsər tarixi. Bakı, Azərbaycan Ensiklopediyası, 1993, 32s.
3. İsmayılov M. Şəki. Bakı, Azərnəşr, 1982, 150 s.
4. İsmayıl M., Bağırova M. Şəki xanlığı. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1997, 36s.
5. Tahirzadə Ə. Şəkinin tarixi qaynaqlarda. Bakı, Master, 2005, 256 s.

**LEYLA TAGIZADEH**
*Azərbaycan Universitetinin II kurs magistrantı*

## UNİTE OF SHEKİ TO SAFAVİDS

The article examines the issue of uniting the Sheki government with the Safavid state. Information was given about the socio-political situation in the Sheki rule in the first half of the 16th century, the attitude to the Sheki rule during the reign of Shah Ismail I, and Dervish Muhammad khan's relations with the Qizilbash. The reasons of Shah I Tahmasib's attack on Sheki, the results of military operations were analyzed, the progressive results of the unification of the Azerbaijani lands in a single government were noted.

*Keywords*: Safavid dynasty, Sheki dominance, Dervish Muhammad khan, unified authority.

*Daxil olma tarixi*: 28.04.2022-ci il.
*Çapa imzalanma tarixi*: 25.05.2022-ci il.

**UOT 94; UOT 94”19/...”**

**НУШИРАВАН ИБАДОВ**
*Российский университет дружбы народов,*
*магистрант 1 курса по специальности «Юриспруденция»*
**ibadovnusiravan@gmail.com**

# ПОСЛЕВОЕННЫЕ РЕПРЕССИИ В СССР, ИСТОРИИ ЖЕРТВ: АВИАТОРЫ, ТРОФЕЙНОЕ ДЕЛО И «СОЮЗ БОРЬБЫ ЗА ДЕЛО РЕВОЛЮЦИИ»

*Научный руководитель*:
Доктор юридических наук Виноградова Елена Валерьевна
Российский университет дружбы народов

***В чужих грехах мы сходу сознавались,***
***Этапом шли навстречу злой судьбе.***
***Мы верили Вам так, товарищ Сталин,***
***Как, может быть, не верили себе.***
Юз Алешковский, «Песня о Сталине».

*Статья представляет собой обобщение исторических фактов, касающихся послевоенных репрессий в Советском Союзе. Причины, события, истории судеб непосредственных участников репрессий по обе стороны, последствия. В результате данного исследования будет выяснена общая закономерность, связывающая практически все послевоенные репрессии, – личное участие в процессах главы государства Иосифа Сталина.*

*Ключевые слова:* Иосиф Сталин, репрессии, СССР, высшая мера наказания.

***Введение***. 9 мая 1945 года Германия подписала договор о безоговорочной капитуляции. Великая Отечественная война закончилась сокрушительной, во всех смыслах, победой СССР. 3 сентября того же года завершилась советско-японская война, традиционно не включаемая советской и российской историографией в состав Великой Отечественной.

После победы советский народ был уверен, что глава СССР Иосиф Сталин в честь такого события, спасшего страну от порабощения и уничтожения, сделает послабления, в частности отменит колхозы и не будет проводить репрессии масштабов Большого террора. Действительно, ни в один из послевоенный годов количество приговоренных к высшей мере наказания даже близко не подходило к цифре 1937-1938 гг. – почти 700 тысяч человек (1, с.6), примерно столько же сегодня проживает в городе Тольятти (2), но откровенно сфабрикованных дел, направленных против отдельных слоев населения и государственного аппарата, стало намного больше.

***Основная часть.*** Одно из первых сфабрикованных послевоенных дел было «авиационное». В конце войны уже было невозможно скрывать проблемы в советской авиационной промышленности. Поставленные в рамках помощи британские Hawker Hurricane и американские Curtiss Tomahawk были во многих аспектах лучше советских истребителей (3, с.112).

Первые решения не заставили себя долго ждать. 14 декабря 1945 года в Чите был арестован и обвинен по статье 58-1 Уголовного кодекса РСФСР «Измена родине» маршал авиации Сергей Худяков. Только через три с половиной года, 18 апреля 1950 года, его приговорили к высшей мере наказания – приговор приведен в исполнение в этот же день.

29 декабря 1945 года Иосиф Сталин на первом за продолжительное время очном заседании Политбюро ЦК ВКП(б) предложил отстранить от должности Народного комиссара авиационной промышленности СССР Алексея Шахурина. Вечером прошлого дня об этом решении глава государства сообщил авиаконструктору Александру Яковлеву, которому очень доверял (4, с.362-363).

Фамилия Шахурина стала известной в негативном ключе еще во время войны, но это связано не с авиацией и вообще не с Алексеем, а с его сыном – Владимиром. 3 июня 1943 года Владимир Шахурин практически в самом центре Москвы – на лестнице

Большого Каменного моста – застрелил свою девушку Нину Уманскую – дочь Чрезвычайного и полномочного посланника СССР в Мексике Константина Уманского, а затем покончил с собой, но об этом позднее.

Шахурина арестовали в начале апреля 1946 года. Уже 11 мая Военная коллегия Верховного Суда СССР под председательством Василия Ульриха приговорила его к семи годам заключения по обвинению в «превышении власти» и «выпуске нестандартной, недоброкачественной и некомплектной продукции».

В течение 1946 года были арестованы командующий Военно-Воздушными Силами РККА Александр Новиков (приговорен к пяти годам заключения – освобожден 12 февраля 1952 года), его заместитель – главный инженер ВВС Александр Репин (приговорен к пяти годам заключения – освобожден 7 апреля 1952 года), член Военного Совета ВВС Николай Шиманов (приговорен к четырем годам заключения – освобожден в марте 1952 года), начальник главного управления заказов ВВС Николай Селезнев (приговорен к трем годам заключения – освобожден в апреле 1952 года) и еще множество высокопоставленных кадров авиационной промышленности.

Основным инициатором «авиационного дела» был сын главы государства Василий Сталин. Этими действиями он пытался реабилитироваться перед отцом за своенравный характер, но ничего не получилось. Отношения между отцом и сыном сошли на нет в 1950 году из-за авиакатастрофы, в которой в практически полном составе погибла хоккейная команда ВВС МВО.

Фальсификацией дела руководил непосредственно глава министерства государственной безопасности СССР Виктор Абакумов. Основными исполнителями были сотрудники МГБ СССР Яков Броверман (арестован в 1951 году и приговорен в 1954 году к 25 годам заключения); Михаил Лихачев, Алексей Леонов и Владимир Комаров (все трое приговорены к высшей мере наказания 19 декабря 1954 года).

После смерти Сталина все осужденные по «авиационному делу» были реабилитированы и им возвращены награды и звания, а также восстановили их членство в КПСС, в том числе и приговоренный к высшей мере наказания маршал авиации Сергей Худяков.

Одновременно с этим проводились репрессии по другому сфальсифицированному делу – «трофейному».

23 августа 1946 года на имя Иосифа Сталина пришла докладная записка от первого заместителя министра Вооруженных Сил СССР Николая Булганина. Замминистра доложил, что на Ковельском таможенном посту задержано семь вагонов с мебелью. Еще до этой записки арестованный маршал авиации Новиков в своих апрельских показаниях подтверждал то же самое. В обоих случаях единоличным получателем данного груза в документах был указан символ победы в Великой Отечественной войне – Маршал Советского Союза, трижды (на тот момент) Герой Советского Союза, кавалер двух орденов «Победа», трех (на тот момент) орденов Ленина и множества других советских и иностранных орденов и медалей Георгий Константинович Жуков.

Фигурантами по этому делу проходило исключительно высшее военное руководство. 1 июня 1946 года Георгий Жуков был вызван на Военный Совет. В открытом расследовании указывалось, что помимо картин, Жуков вывозил из побежденной Германии «в значительных количествах» мебель, произведения искусства, различное другое трофейное имущество «для своего личного пользования». Также к делу прилагалась объяснительная записка Жукова на имя секретаря ЦК ВКП(б) Андрея Жданова: «Я признаю себя очень виноватым в том, что не сдал всё это ненужное мне барахло куда-либо на склад, надеясь на то, что оно никому не нужно»; «Я даю крепкую клятву большевика – не допускать подобных ошибок и глупостей…»; «Я уверен, что я ещё нужен буду Родине, великому вождю товарищу Сталину и партии…» (5, с.241-244).

Через несколько дней Сталин, который к тому моменту уже занимал должность министра Вооруженных Сил СССР, подписал приказ об освобождении маршала Жукова от обязанностей заместителя министра Вооруженных Сил. Беря во внимание военные заслуги, его не арестовали, а понизили в должности – Жуков был назначен командующим войсками Краснознаменного Одесского военного округа. На февральском Пленуме ЦК ВКП(б) 1947 года он был выведен из числа кандидатов в члены ЦК ВКП(б) (6, с.464-465). Вместе с этим отдельно подчеркивался характер маршала победы – «бонапартистский».

3 марта 1947 года Сталин перестал быть единоличным главой министерства ВС СССР и передал свои полномочия Николаю Булганину, с которого все и началось. 4 февраля 1948 года приказом Булганина Жуков переведен с должности командующего войсками Одесского военного округа на должность командующего войсками Уральского военного округа.

20 января 1948 года Политбюро приняло постановление «О т. Жукове Г.К., Маршале Советского Союза. В постановлении военного прямо называли мародером и указывали на систематические нарушения во время занятия им высоких должностей. Его поведение указано как «антипартийное». А совершенные поступки характеризуют его как человека, «опустившегося в политическом и моральном отношении» (7, с.424-425).

Жукову в каком-то смысле повезло, ведь он не был подвергнут аресту и тюремному заключению, в отличие от других военных. В течение 1947-1948 гг. арестованы: генерал-полковник Василий Гордов (24 августа 1950 года приговорен к высшей мере наказания); генерал-лейтенанты Василий Терентьев (1 ноября 1951 года приговорен к 25 годам заключения – освобожден после смерти Сталина и ареста главы министерства внутренних дел Лаврентия Берии), Константин Телегин («изъято 16 кг изделий из серебра, около 250 отрезов шерстяных и шелковых тканей, 18 охотничьих ружей, много ценных антикварных изделий из фарфора и фаянса, меха, гобелены – работы французских и фламанд-

ских мастеров XVII и XVIII веков, картины и другие дорогостоящие вещи» (8, с.420); 20 марта 1952 года приговорен к 25 годам исправительно-трудовых лагерей – освобожден в июле 1953 года), Леонид Минюк (приговорен к 10 годам лишения свободы – освобожден 28 июля 1953 года), Владимир Крюков вместе с женой – известной советской певицей Лидией Руслановой (2 ноября 1951 года Крюков приговорен к 25 годам исправительно-трудовых лагерей – освобожден в июле 1953 года; 28 октября 1949 года Русланова приговорена к 10 годам исправительно-трудовых лагерей), Григорий Кулик (24 августа 1950 года приговорен к высшей мере наказания – в начале августа освобождена после ходатайства супруга); генерал-майоры Филипп Рыбальченко (25 августа 1950 года приговорен к высшей мере наказания), Алексей Сиднев (16 октября 1951 года приговорен к принудительному лечению в психиатрической больнице – 27 июля 1953 года освобожден из под стражи, но 31 июля был уволен из МВД «по фактам дискредитации»), Григорий Бежанов и Сергей Клепов (17 октября 1951 года приговорены к 10 годам заключения с последующим поражением в правах на три года – Бежанов освобожден 20 июля 1953 года, Клепов – 28 августа того же года). Впоследствии все виновные по трофейному делу были реабилитированы.

Послевоенные репрессии касались не только военных, но и простых жителей. Самым известным делом, направленным против мирного населения, являлся разгром «Союза борьбы за дело революции».

Огромное количество населения было настроено против действующей власти. Предвоенные репрессии, потеря из-за неумелого руководства миллионов советских военных в первые месяцы войны, взгляд своими глазами на жизнь капиталистической Европы – все это отразилось на взглядах людей.

В 1949 году в Московском городском доме пионеров трое молодых ребят Сусанна Печуро, Борис Слуцкий и Владилен Фурман основали литературный кружок. Несмотря на строгий выбор

книг от руководства, подросткам это не мешало, ведь они были друзьями.

После многочисленных конфликтов с руководством дома пионеров, один из подростков, Борис Слуцкий, ушел из учреждения, но продолжил общаться с друзьями и изучать с ними литературу. Вскоре подростки перешли на более серьезную литературы – самые первые редакции работ создателя советского государства Владимира Ленина. Когда они начали изучать работы Иосифа Сталина, то стали находить огромное количество несостыковок и противоречий.

Из-за юношеского максимализма Слуцкий объявил о желании создать подпольную организацию, которая будет бороться против бонапартистской сталинской диктатуры, перерождавшейся в государственный капитализм, за диктатуру пролетариата Ленина. Друзья поддержали Бориса и создали организацию, которой дали название «Союз борьбы за дело революции».

Ребята, как и большевики, придумывали себе подпольные псевдонимы, продолжали устраивать литературные встречи и обсуждали политическое устройство страны. Количество участников организации увечилось с трех до 16.

Владилен Фурман решил открыть филиал «Союза» по месту учебы в Рязани. Он вместе с другими участниками распространял антисоветские материалы, распечатанные на собранном своими силами гектографе. Также Фурман организовывал личные встречи, где вместе с молодежью обсуждал проблемы марксизма-ленинизма и предлагалась тактика борьбы с советской властью.

В январе-феврале 1951 года все члены организации были арестованы МГБ. 13 февраля 1952 года Военная коллегия Верховного Суда СССР вынесла приговор: наиболее активные участники Евгений Гуревич, Владилен Фурман (1931) и Борис Слуцкий (1932) – высшая мера наказания – приведена в исполнение 26 марта 1952 года; Инна Эльгиссер (1930), Ида Винникова, Феликс Воин, Григорий Мазур, Алла Рейф (1931), Ирэна Аргинская, Владимир Мельников, Екатерина Панфилова, Майя Улановская

(1932) и Сусанна Печуро (1933) – 25 лет заключения; Галина Смирнова (1931), Тамара Рабинович (1932) и Нина Уфлянд (1934) – 10 лет заключения.

Стоит также отметить, что из 16 участников «Союза» 14 были еврейского происхождения. Это можно считать одним из проявлений советского антисемитизма. Даже в приговоре суда было прямо сказано: «…группой еврейских националистов была создана изменническая, террористическая организация, участники которой ставили своей целью свержение существующего в СССР строя путём вооруженного восстания и совершения террористических актов над руководителями Советского правительства и КПСС».

Единственным из осужденных, не признавшим себя виновной, была Майя Улановская. У нее были свои причины вступить в «Союз» – в течение 1948-1949 гг. были арестованы родители Улановской.

После смерти Сталина всем оставшиеся в живых осужденные были освобождены после пересмотра дела в 1956 году. В 1989 году все члены «Союза борьбы за дело революции» были реабилитированы.

Советская власть небезосновательно боялась подпольных группировок, состоявших из подростков. Пистолет, найденный на месте упоминаемой ранее гибели Владимира Шахурина и Нины Уманской, принадлежал Вано Микояну – сыну заместителя Совета народных комиссаров СССР. Это в свою очередь привело следствие к подпольной организации подростков «Четвертый рейх», считавшей себя теневым правительством.

Следствие было в шоке – все участники подпольной группировки были родственниками самых высокопоставленных людей. Помимо главы правительства Шахурина и еврейки Уманской в состав входили: Серго и Вано Микояны (сыновья заместителя СНК Анастаса Микояна), Леонид Реденс (сын Станислава Реденса – мужа сестры жены Иосифа Сталина), Артем Хмельницкий (сын Рафаила Хмельницкого – заместителя председателя СНК

СССР Маршала Советского Союза Климента Ворошилова), Петр Бакулев (сын Александра Бакулева – советского ученого-хирурга и одного из основоположников сердечно-сосудистой хирургии в СССР), Феликс Кирпичников (сын генерала Петра Кирпичникова). Отпрыски элиты скрепили свой союз кровью, присвоили себе нацистские звания и проповедовали труды идеологов национал-социализма Адольфа Гитлера и Йозефа Геббельса.

Ни один из подростков не понес никакого наказания – не было даже суда: их всех просто выслали на год из Москвы вглубь СССР – на Урал, Сибирь и Среднюю Азию (9, с.315).

***Заключение.*** Иосиф Сталин скончался поздним вечером 5 марта 1953 года из-за кровоизлияния в мозг. Советское руководство и народ находились в прострации – никто не знал, что будет и как жить дальше. Главой государства стал Георгий Маленков. В первые же дни Лаврентий Берия прекратил политические репрессии и провел масштабную амнистию. Вскоре Берия и его соратники были арестованы и подвергнуты высшей мере наказания.

Еще в 1951 году был арестован Виктор Абакумов – в 1954 году его приговорили к высшей мере наказания. Во время следствия Абакумов утверждал: «Авиаторы те были арестованы по прямому указанию Сталина без предварительных предложений со стороны «Смерш» или НКГБ СССР» (10, с. 66). В последнем слове на суде опальный глава МГБ настаивал: «…Я ничего не делал сам. Сталиным давались указания, а я их выполнял» (10, с. 92). Всех убитых фальсификаторов и исполнителей не реабилитировали даже в Российской Федерации.

В сентябре 1953 года ко власти пришел Никита Хрущев, который в 1956 году осудил культ личности Сталина и вскоре сместил со всех постов верных Сталину людей: Вячеслава Молотова, Лазаря Кагановича, Георгия Маленкова и «примкнувшего к ним Шепилова».

Алексей Шахурин был полностью реабилитирован и освобожден 29 мая 1953 года, проведя в заключении семь лет. Уже 2 июня ему вернули все награды и звания. В 1953-1957 гг. он вер-

нулся в министерство авиационной промышленности, но уже в должности замминистра. В 1957-1959 гг. Шахурина назначили заместителем председателем Комитета по внешнеэкономическим связям при Совмине СССР. В августе 1959 года бывший нарком вышел на пенсию и скончался 3 июля 1975 года в возрасте 71 года. Он похоронен рядом с Женой и сыном Володей. Рядом с ними находится могила Нины Уманской, убитой сыном опального наркома.

После смерти Иосифа Сталина, Василий Иосифович оказался в опале. 28 апреля 1953 года он был арестован за антисоветскую деятельность и почти семь лет провел за решеткой Владимирского централа. Выйдя из тюрьмы, он стал еще больше пить и в итоге, находясь за рулем автомобиля в состоянии алкогольного опьянения, сбил насмерть человека. 19 марта 1962 года «сын отца народов» Василий Сталин скончался от алкогольного отравления.

Еще при Сталине Георгий Жуков снова смог взойти на военный и политический олимп и вновь был избран кандидатом в члены ЦК. После смерти Иосифа Сталина глава МВД Берия назначил Жукова заместителем министра обороны Николая Булганина. Вскоре непосредственно Георгий Жуков арестовал Лаврентия Берию во время заседания Президиума 26 июня 1953 года. После этого он был возведен в члены ЦК КПСС.

В 1955 году по настоянию Никиты Хрущева огромное количество трофейных ценностей было передано Дрезденской картинной галерее. В этом же году Жукова назначили министром обороны СССР. В 1957 году он ушел в отставку с поста минобороны на пенсию. С этого момента маршал был в опале. На XXII съезде Жукова назвали одним из участников антипартийной группы несмотря на то, что он поддержал Хрущева (11, с. 56). В последние годы жизни маршал победы был награжден четвертой звездой Героя Советского Союза и издал мемуары «Воспоминания и размышления». После его смерти 18 июня 1974 года в книгу постоянно вносили правки и исправления.

Представленные в данной статье случаи послевоенных репрессий были не единственными в то время. Здесь не упоминаются многие другие сфальсифицированные дела – Ленинградское (под подозрением были все руководители областных, городских и районных партийных организаций – наиболее высокопоставленные приговорены к высшей мере наказания) и Мингрельское (обвинения против высших партийных чиновников Грузинской ССР, в основном мингрельского происхождения) дела; убийство председателя Еврейского антифашистского комитета Народного артиста СССР Соломона Михоэлса по личному указанию Сталина; борьба с «безродными» космополитами, большинство из которых были евреями, и самое последнее сфальсифицированное дело при Иосифе Сталине – «Дело врачей».

Наиболее жестокие репрессии в СССР прекратились только со смертью Иосифа Сталина. До сих пор многие архивы закрыты, и мы не знаем точного количества пострадавших и погибших в результате этой кровавой мясорубки в стране, где «кто был никем, тот станет всем», а Российская империя, где с 1825 по 1905 гг. было вынесено 625 смертных приговоров по политическим преступлениям, а приведено в исполнение только 191, считалась «тюрьмой народов».

## ИСТОЧНИКИ

1. Земсков, В.Н. К вопросу о масштабах репрессий в СССР / В. Н. Земсков – Научно-образовательный портал Высшей Школы Экономики, 1995. – 10 с.

2. Численность постоянного населения Самарской области по состоянию на 01.01.2022 год, человек. [Электронный ресурс]: https://samarastat.gks.ru/storage/mediabank/Численность%20постоянного%20населения%20Самарской%20области%20на%2001.01.2022г.xlsx (Дата обращения 13.04.2022).

3. Ирвинг, Д. Конвой PQ-17 / Пер. с англ. П.Кашина. М.: Яуза: Эксмо. – 444 с.

4. Яковлев, А.С. Цель жизни / А.С.Яковлев. М.: Политиздат, 1987. – 511 с.
5. Военные архивы России: журнал / Гл. редактор Л.В. Мальцева. Тула: Пересвет, Церера, 1993. – Выпуск 1. – 415 с.
6. Краснов, В.Г. Жуков. Маршал великой империи. Лавры и тернии полководца / В.Г.Краснов. М.: Олма-Пресс, 2005. – 576 с.
7. Жуков, Ю.Н. Сталин. Тайны власти / Ю.Н.Жуков. М.: Вагриус, 2005. – 720 с.
8. Серов, И.А. Записки из чемодана / И.А.Серов. М.: Просвещение, 2016. – 700 с.
9. Кирпичников, А.Ф. «Сталинъюгенд» / А.Ф.Кирпичников. М.: Вече, 2008. – 320 с.
10. Карпов, В. В. Маршал Жуков: Опала / В. В. Карпов. М.: Вече, 1994. – 219 с.
11. Пыжиков, А.В. Хрущёвская «оттепель». 1953-1964 гг. – / А.В.Пыжиков. М.: Олма-Пресс, 2002. – 512 с.

**NUSHIRAVAN IBADOV**
*1st year master student of Peoples' Friendship University of Russia in the specialty "Jurisprudence"*

## POST-WAR REPRESSIONS IN THE USSR, STORIES OF VICTIMS: AVIATORS, TROPHY CASE AND «UNION OF STRUGGLE FOR THE CAUSE OF REVOLUTION»

The article is a summary of historical facts concerning the post-war repressions in the Soviet Union. Causes, events, stories of the fates of the direct participants of the repressions on both sides, consequences. As a result of this study, a general pattern linking almost all post–war repressions will be clarified - personal participation in the processes of the head of state Joseph Stalin.

*Keyword:* Josef Stalin, repressions, USSR, capital punishment.

*Daxil olma tarixi*: 30.04.2022-ci il.
*Çapa imzalanma tarixi*: 25.05.2022-ci il.

**UOT 94(479.24), UOT 371.3**

**REYHAN BAYRAMOVA**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*"Tarix fənninin tədrisi metodikası və metodologiyası"*
*ixtisasının II kurs magistr tələbəsi*
**reyhanbayramova9@gmail.com**

# AZƏRBAYCAN TARİXİNİN TƏDRİSİNDƏ ŞAGİRDLƏRİN TARİXİ ŞƏXSİYYƏTLƏRİN QƏHRƏMANLIQ NÜMUNƏSİNDƏ TƏRBİYƏ EDİLMƏSİNDƏ İNTERAKTİV TƏLİMİN ROLU

*Elmi rəhbər:*
Pedaqogika üzrə fəlsəfə doktoru Dəyanət Musayev
Azərbaycan Dövlət Pedaqoji Universiteti

*Məqalədə şagirdlərin tarixi şəxsiyyətlərin qəhrəmanlıq nümunəsində tərbiyəsi üçün interaktiv təlim metodlarından düzgün istifadə edilməsi öz əksini tapmışdır. Göstərilmişdir ki, seçilən metod tədris edilən mövzuya uyğun olmalı, məlumatlar dolğun şəkildə şagirdlərə çatdırılmalıdır.*

*Açar sözlər*: tarix, metod, texnika, təlim, şəxsiyyət, auksion, sinektika.

***Giriş***. Tarixi şəxsiyyətlərin fəaliyyəti bu və ya digər formada tarixin gedişinə təsir göstərir. Tarix öz şəxsiyyətlərinin fəaliyyətindən xeyli dərəcədə asılı olur. Onların tarix səhnəsində olan fəaliyyətləri, göstərdikləri qəhrəmanlıqlar şagirdlərin tərbiyəsi üçün mühüm və əhəmiyyətli rola malikdir. Buna görə də şagirdlərin tarixi şəxsiyyətlərin qəhrəmanlıq nümunəsində tərbiyə edilməsi prosesində keçmişdə və həmçinin müasir zamanda insan cəmiyyətinin inkişafında ayrı-ayrı tarixi şəxsiyyətlərin rolunu düzgün başa düşməsi və dəyərləndirməsi üçün onlara Azərbaycan tarixi ilə bağlı tarixi şəxsiyyətlərin qəhrəmanlıq fəaliyyəti barədə araşdırmalar aparmaq, interaktiv təlimin müxtəlif metod və texnikaları vasitəsi ilə fikir söyləmək imkanı verən bacarıqların aşılanması zəruri hesab edilir.

İnteraktiv sözünün hərfi mənası "qarşılıqlı əlaqə və fəaliyyət üzərində qurulmuş" deməkdir. Yəni, interaktiv təlimdə şagirdlər informasiyaları passiv olaraq qəbul edən tərəf olmaqdan çıxır və onu aktiv formada analiz edən, həyata keçirən, qiymətləndirən tərəfə çevrilirlər. Hətta ən pis oxuyan şagird belə dərsə etinasız qala bilmir. Onların gözlərində tarixə maraq yaranır və özlərindən asılı olmadan interaktiv təlim zamanı dərs prosesinin iştirakçısı olmağa çalışırlar. Bəs interaktiv təlimin hansı üstünlükləri vardır?

- Şagirdlərin motivasiya edilməsi. Belə ki, dərsdə qarşılıqlı fəaliyyətin qurulması şagirdlərdə passivliyin qarşısını alaraq sinifdəki hər kəsin dərsə fəal cəlb olunmasını təmin edir.
- Həqiqi həyat bacarıqları. İnteraktiv təlim metodlarında komanda işi, cütlərlə iş, ünsiyyət bacarığı, qərar vermək, problem həlletmə kimi bir sıra bacarıqlar ön plana çəkilir. Bütün bunlar şagirdləri həqiqi həyata hazırlaşdırır.
- Şagirdlərin nailiyyətlərinin rahat ölçülməsi. İnteraktiv təlim metodlarından istifadə edən müəllim təfəkkürün yuxarı səviyyələri ilə bağlı olan fəaliyyətlərdən istifadə etdiyi üçün şagirdlərin informasiyanı necə mənimsədiyini aydın şəkildə ölçə bilir (5, s.90).

İnteraktiv tapşırıqların əksəriyyəti şagirdlərin şəxsi təcrübəsindən istifadəni nəzərdə tutur. Bu təcrübə tək məktəb təcrübəsi ilə əhatə olunmur. İnteraktiv üsullar həyatda baş verən müxtəlif situasiyaların şagirdlərə tapşırıqlar, müzakirə, rollu oyun və s. formasında təqdim olunmasına, həmçinin, bu situasiyaların birlikdə həllinə yönəlmişdir. Bununla bu üsullar şagirdlərdə həyatda istifadə edilə biləcək bilik və bacarıqların, dəyərlərin formalaşdırılmasına onların qəhrəmanlıq nümunəsində tərbiyə edilməsinə xidmət edir. İnteraktiv üsullar, xüsusilə, demokratiya və vətəndaşlıqla həmçinin, tarixi şəxsiyyətlər ilə bağlı mövzuların təlimi üçün olduqca zəruridir, çünki əgər bu mövzular şagirdlərə tək mühazirə vasitəsi ilə tədris olunsa, bu məlumat onların hafizəsində ya qalar, ya qalmaz. Amma interaktiv üsullarla öyrənilən bu mövzular praktik xarakter daşıyır: şagirdlərdə nəinki biliklər, eyni zamanda bacarıqlar formalaşdırır, onları tarixi

şəxsiyyətlərin qəhrəmanlıq nümunəsində tərbiyə edir. Bu isə onları ictimai həyatda fəal vətəndaş olmağa hazırlayır.

İnteraktiv təlim metodlarından istifadə edən zaman tarix müəllimi şagirdlərin tarixi şəxsiyyətlərin qəhrəmanlıq nümunəsində tərbiyəsi üçün ilk öncə onları dərsə cəlb olunmağa həvəsləndirməlidir. Daha sonra şagirdləri tarixi şəxsiyyətlər haqqında suallara cavab verməyə, müzakirə etməyə sövq etməli, onların diqqətini çəkən, dərsə maraq yaradan təlim metodlarından istifadə etməlidir. Bütün bu sadalanan direktivlərin lazımi qaydada dərsdə tətbiq edilməsi tarix müəlliminin öz məqsədinə çatmasına, təlim nəticələrini reallaşdırmasına gətirib çıxaracaqdır. Bu da şagirdlərin tarixi şəxsiyyətlərin qəhrəmanlıq nümunəsində tərbiyə edilməsinə zəmin yaradacaqdır (5, s.124).

Şagirdlərin tarixi şəxsiyyətlərin qəhrəmanlıq nümunəsində tərbiyəsini həyata keçirərkən interaktiv təlim eyni zamanda şagirdlərdə faktları düzgün təhlil etmə və sərbəst fikir formalaşdırma bacarığının inkişafına müsbət təsir göstərir. Azərbaycan tarixi kursunun tədrisi prosesində didaktik oyunlar təşkil edilərkən aşağıdakı metodiki suallara cavab verilməlidir:

- ✓ Oyun prosesində tarixi şəxsiyyətin qəhrəmanlıqları haqqında yiyələnəcəkləri bilik və bacarıqlar;
- ✓ Oyunu təşkil etmək üçün tələb olunan resurslar;
- ✓ Mövzuya uyğun oyunun qaydalarını daha səlist və az vaxt ərzində şagirdə izah etmək:
- ✓ Oyunun keçirilməsi zamanı şagirdlərin fəallığına nəzarət;
- ✓ Oyuna ayrılan vaxt və qiymətləndirmənin təşkil edilməsi;
- ✓ Sadalanan prosesi düzgün təşkil edərkən əldə olunan nəticə;
- ✓ Tarixi şəxsiyyətin qəhrəmanlığı nümunəsində tərbiyə prosesinin baş tutması;
- ✓ Təlim standartlarını yerinə yetirən dərsin təşkili;
- ✓ Şagirdlərin intelektual səviyyəni yüksəltməklə onlarda məntiqi yanaşma, müstəqil fikir yürütmə və yaradıcı imkanlara yol açmanın inkişaf etdirilməsi;

✓ Dərsin mənimsənilməsinə gərgin proses kimi yanaşmadan, onu əyləncə dolu maraq dünyasında reallaşdırmaq.

İnteraktiv təlim meydana gələrkən özündə aşağıdakı komponentləri biləşdirir:

1. İş formaları, üsullar;
2. İş texnikaları.

Hər bir üsulun özünənəxsus texnikaları vardır. Dərsin səmərəliliyini artırmaq üçün üsullardan düzgün şəkildə istifadə vacibdir. Üsulları daha yaxşı qavramağa kömək olacaq iş formalarının təsvirini bilmək vacibdir. Bunlar aşağıdakılardan ibarətdir:

1. Məqsəd;
2. Alqoritm və ya işin gedişi;
3. Şərtlər;
4. Vasitələr;
5. Yarana biləcək problemlər (1, s.439)

Müəllim təlim üsulunun seçimini edərkən texnikanın əsas xüsusiyyətlərini diqqətlə öyrənməli və dərsin məqsədlərinə uyğun seçməlidir. Təlim üsullarının müxtəlif texnikaları mövcuddur. Bəzən bir təlim üsulunun bir neçə texnikası ola bilir. Məsələn, (4, s.17):

| Metodlar | Texnikalar |
|---|---|
| Beyin həmləsi | • BİBÖ,<br>• Auksion<br>• Klaster,<br>• Anlayışların çıxarılması,<br>• Anlayışların çıxarılması,<br>• Sinektika, Sinkveyn,<br>• Əlifbalı beyin həmləsi,<br>• 3-2-1 və s. |
| Müzakirə | • Diskussiya,<br>• Debat, |

| | |
|---|---|
| | • Sokrat dialoqu,<br>• Akvarium,<br>• Müzakirələr xəritəsi və s. |
| Tədqiqatın aparılması | • Problemin həlli,<br>• Frayer modeli,<br>• Mozaika,<br>• Kublaşdırma,<br>• Konkret hadisənin araşdırılması,<br>• Venn diaqramı,<br>• Layihələrin hazırlanması,<br>• Sorğu vərəqləri,<br>• Müsahibə,<br>• Qərarlar ağacı,<br>• İdeyalar xalısı,<br>• Refleksiya və s. |

Şagirdlərin tarixi şəxsiyyətlərin qəhrəmanlıq nümunəsində tərbiyə edilməsində dərsin quruluşunun, istifadə edilən metodların düzgün seçilməsinin əhəmiyyəti böyükdür. Aşağıda bəzi metodları və onlardan istifadə qaydalarını göstərmişik.

1. Babək haqqında olan "Qırx il kölə kimi yaşamaqdansa..." mövzusunu tədris edərkən Babək filmində məqsədəuyğun fraqment şagirdlərə göstərilir. Şagirdlər müzakirəyə cəlb edilir. Dərsin əsas ideyası olaraq Babəkin qəhrəmanlığı ön plana çəkilir. Yaradıcı tətbiq etmə mərhələsində müəllim **Rollu oyun** metodundan istifadə etməklə şagirdlər Babəkin qəhrəmanlıq nümunəsini səhnəciklərin köməyi ilə nümayiş etdirirlər. Rollu oyun hər hansı problemə müxtəlif nöqteyi-nəzərdən yanaşmalardan ibarətdir. Ondan istifadə şagirdlərə çətin vəziyyətdən çıxmağı bacarmaq vərdişləri aşılayır, sərbəst olmaq bacarıqlarını formalaşdırır. Şagirdlər bu səhnəciklər vasitəsilə həm əylənirlər, həm dərsə cəlb olunurlar, həm də onlarda Babək şəxsiyyətinə

qarşı pərəstiş formalaşır, onun qəhramanlığını özləri üçün nümunə seçirlər. Belə olan halda, şagirdlərdə Babək nümunəsində vətənpərvərlik, mərdlik kimi ali hislər formalaşmış olur (3, s.172).

Başqa bir nümunəyə müraciət edək. 5-ci sinifdə "Ağqoyunlu dövlətinin hökmdarı" mövzusunu tədris edərkən şagirdlər Sara xatun və II Mehmetin qarşılaşmasını kiçik səhnəciklər vasitəsi ilə canlandırırlar. Əlbəttə ki, qeyd etdiyimiz kimi uşaqlar nə psixoloji cəhətdən, nə də bilik, bacarıq və qabiliyyətlərinə görə eynidirlər. Nisbətən zəif şagirdlər tədris prosesində qoşula bilmir. Ancaq dərs bu cür təşkil olunarkən hər bir şagird belə yaradıcı prosesə qoşula bilər. Belə dərs şagirdlərə yorucu gəlmir (3, s.80).

2. Şagirdlərdə assosiasiya yaratmaq, tarixi şəxsiyyətlərin xarakterlərini və xüsusiyyətlərini tapmağa xidmət edir. Məsələn, "Böyük Azərbaycan xeyriyyəçisi" mövzusunu tədris edərkən H.Z.Tağıyev şəxsiyyətinin adı lövhəyə yazılır, şagirdlər sıra ilə həmin tarixi şəxsiyyətin gördüyü işlərini, fikirlərini, xarakterik xüsusiyyətlərini və s. söyləyirlər. Bu zaman həmin tarixi şəxsiyyət haqqında geniş fikirlərə yiyələnən şagirdlər onun müsbət yönlərini mənimsəyir, öz həyat prioritetinə çevirirlər. Şagirdlərin H.Z.Tağıyev şəxsiyyətinin nümunəsində tərbiyəsi baş verir. Onlarda vətənə, millətə sevgi, yardımsevərlik, darda olana əl tutmaq kimi hislər formalaşır (3, s.44).

3. Tarixi sənədlər və memuarlardan istifadə edilməsi şagirdlərdə öyrəndikləri fakta marağı daha da, artırır. Hadisə haqda sənədli materiallar memuarlar müəllimin şərhinə konkretlik verir və onu inandırıcı edir. Müasir tarix kursunun öyrənilməsi zamanı şagirdlərin tarixi şəxsiyyətlərin qəhrəmanlıq nümunəsində tərbiyə edilməsi zamanı bütün dünyaya qəhrəmanlıq sərgiləyən Milli Qəhrəman M.İbrahimovun sonuncu məktubunu şagirdlərə çatdırmaq olar. Əlavə şərhə heç bir ehtiyacı olmayan bu sənəd şagirdlərə vətən xainlərinə nifrət, öz şəxsiyyətlərində Mübariz kimi insan formalaşdırmaq, qəhrəmanlıq hissi tərbiyə edir.

Dərsi sadəcə sinif otağında deyil, keçilən mövzu ilə bağlı olaraq muzeydə, yaxud hər hansı bir abidənin yerləşdiyi məkanda da keçmək maraqlı olur. Şagirdlər tarixi şəxsiyyətlərin fəaliyyəti ilə

bağlı araşdırmalarını, tədqiqat işlərini, layihələrini burada da apara bilirlər. Çoxsaylı suallara cavab tapırlar. Dərsin bu formada təşkili şagirdlərdə həmin tarixi şəxsiyyətə qarşı xüsusi maraq oyadır və tarixi şəxsiyyət artıq onun idealına çevrilir. Onlar tarixi şəxsiyyətin qəhrəmanlıqlarını böyük maraqla dinləyir və şagirlərdə artıq müsbət keyfiyyətlər yaranaraq qəhrəmanlıq nümunəsində tərbiyə edilməsi prosesi icra edilir.

Təcrübəli müəllim hər zaman şagirdlərini dərsə necə cəlb edəcəyini yaxşı bilir. Bunun üçün müxtəlif interaktiv metodlardan istifadə edir. Təlim taktikalarından istifadə şagirdləri dərsə daha yaxşı cəlb edir və passiv öyrənmə prosesini aktiv öyrənmə ilə əvəz edir. Seçilən metodlar yaxşı olar ki, tarixi şəxsiyyətlər haqqında məlumatları istənilən dərəcədə şagirdlərə verə bilsin, onlarda tarixi şəxsiyyətlər haqqında təsəvvürlərin formalaşdırılmasına şərait yaratsın və onların həmin tarixi şəxsiyyətlərin qəhrəmanlıq nümunəsində tərbiyə edilməsinə xidmət etsin.

***Nəticə***. İnteraktiv təlimin aktuallığı tərbiyə prosesinin aşılanması zamanı xüsusi əhəmiyyətə malikdir. Tarixi şəxsiyyətlərin qəhrəmanlıq fəaliyyətləri və onların aşılanması şagirdlərin məhz bu nümunədə tərbiyə edilməsi nəticəsində gələcəyə yönəlmiş, vətənpərvər, ziyalı, mötəbər şəxsiyyət kimi formalaşmasına şərait yaradır.

Beləliklə, yuxarıda sadaladıqlarımıza əsasən belə bir nəticəyə gələ bilərik ki, şagirdlərin tarixi şəxsiyyətlərin qəhramanlıq nümunəsində tərbiyə edilməsi prosesində interaktiv təlimin həmçinin, onun metod və texnikalarının xüsusi və özünəməxsus rolu vardır. Ənənəvi təlimdən fərqli olaraq interaktiv təlimdə müəllim müxtəlif metod və üsullardan istifadə edərək şagirdlərin tarixi şəxsiyyətlərin qəhrəmanlıq nümunəsində tərbiyə edilməsi prosesini icra etməsi daha səmərəli və keyfiyyətlidir.

ƏDƏBİYYAT

1. Əmirov M.M. Ümumtəhsil məktəblərində tarixin fəal/interaktiv təlimi metodikası. Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti. Bakı, ADPU nəşriyyatı, 2014, 707 s.

2. TAİM "Kurikulum". Bakı, 2020, 227 s.
3. Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün “Azərbaycan tarixi” fənni üzrə dərslik. Bakı, “Təhsil”, 2016. 208 s.
4. Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün “Azərbaycan tarixi” fənni üzrə metodik vəsait. Bakı, “Təhsil”, 2016. 208 s.
5. Boris G.D. “Effective teaching methods”. Upper Saddle River: “İntroduction”, 2016. 345 s.

**REYHAN BAYRAMOVA**
*2nd year master student of ADPU, specialty "Methodology and methodology of teaching history"*

## THE ROLE OF İNTERACTİVE LEARNİNG İN TEACHİNG STUDENTS THE HİSTORY OF AZERBAİJAN İN THE HEROİC EXAMPLE OF HİSTORİCAL FİGURES

This article reflects the correct use of interactive teaching methods to educate students in the heroic example of historical figures. It was noted that the chosen method should be relevant to the topic being taught, and the information should be fully communicated to students.

*Keywords*: history, method, technique, training, identity, auction, synectics

*Daxil olma tarixi*: 29.04.2022-ci il.
*Çapa imzalanma tarixi*: 25.05.2022-ci il.

№6(6) 2022

UOT 94(479.24), UOT 94”19/...”

**RƏCƏB ZEYNALLI**
*Bakı Dövlət Universiteti Tarix fakültəsinin*
*Tarix müəllimi ixtisası üzrə III kurs tələbəsi*
**zeynallireceb@gmail.com**

# AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ PARİS SÜLH KONFRANSINDA

*Elmi rəhbər:*
Tarix üzrə fəlsəfə doktoru Rövşən Hətəmov
Bakı Dövlət Universiteti

*I dünya müharibəsinin baş verməsi ilə dünyanın həm siyasi, həm də iqtisadi xəritəsində müəyyən dəyişikliklər baş vermişdi. Almanya, Avstriya-Macaristan, Osmanlı, Rusiya kimi imperiyalar dağılmış, bəzilərinin ərazisində yeni milli dövlətlər yaranmış, bəzilərinin ərazisi isə Antanta dövlətlərinin və ya ona müttəfiq qüvvələrin nəzarəti altına düşmüşdü. Müharibə gedişində baş verən bu plansız işğallar bir sıra problemlər yaratmışdı. Bu hal Vyana Konqresinin yaratdığı dünya nizamına zidd idi, bunun görə də yeni dünyanın yeni bir nizama ehtiyacı olduğu artıq daha çox hiss edilirdi. I dünya müharibəsinin bitməsindən sonra 4 dövlətin (ABŞ, İnglitərə, Fransa, İtaliya) rəhbərliyi ilə Parisin Versal sarayında 1919-1920-ci illəri əhatə edən Sülh Konfransı çağırldı. Burada əsas məqsəd vaxt itirmədən məğlub dövlətlərlə sülh müqaviləsi imzalamaq, problemli məsələlər aradan qaldırmaq və yeni nizamı təsdiq etmək idi. Müstəqilliyini yenicə əldə etmiş Azərbaycan da Paris Konfransında 4-cü qrup dövlətlər siyahısından iştirak edərək, onun işindən faydalanaraq öz istiqlaliyyatını bütün dünyaya bəyan etmək istəyirdi. Bu səbəbdən də AXC rəhbərliyi bu məsələni həll etmək üçün, bütün imkanlarla çalışırdılar. Məqalədə Nümayəndə heyətinin təsdiq və tərkibi, Paris səfəri, oradakı fəaliyyəti, heyətin tələbləri və Paris səfərinin nəticəsi haqqında məlumatlar öz əksini tapmışdır.*

*Açar sözlər:* Azərbaycan Xalq Cümhuiyyəti, Paris Sülh Konfransı, nümayəndə heyəti, parlament, Əlimardan bəy Topçubaşov, V.Vilson, "Bölünməz Rusiya", "Böyük Ermənistan", Lord Kerzon.

***Giriş.*** 1917-ci il fevral inqilabının baş verməsi ilə Azərbaycanda uzun illərdir davam edən Milli Azadlıq hərəkatı yeni mərhələyə qədəm qoydu. Bu mübarizə Oktyabr çevrilişindən sonra daha da qızğın xarakter almağa başladı. Artıq Qafqazda 1918-ci ilin ilk rübündə vəziyyət daha da ağırlaşdı. Bu dövrdə yaradılmış Zaqafqaziya Seymi (22 fevral) və Federativ respublika (22 aprel) Qafqaz xalqlarının azadlıq istəyinin təcəssümü kimi çıxış edirdi. Lakin hər ikisi fəaliyyəti o qədər də uğurlu deyildi (6, s.243-253). Bu səbəbdən də 1918-ci il mayın 28-də Tiflis şəhərində Azərbaycan Milli Şurası Azərbaycanın istiqlaliyyəti haqqında Akt (Əqdnamə) qəbul etdi. Müstəqlliyin elanından sonra Cümhuriyyətin qarşısında çox böyük işlər dayanırdı ki, onlardan da ən mühümi Cümhuriyyəti dünya səviyyəsində de-fakto səviyyəsində tanıtmağa nail olmaqdan ibarət idi. 1918-ci ilin dekabrına kimi bir sıra gecikmələr olsa da, dekarbın 7-sində fəaliyyətə başlayan parlament ilə hüquqi baza tam şəkildə təşkil edilidi və bununla da dövlətin de-fakto səviyyəsində tanınmasında heç bir əngəl qalmırdı.

***Nümayəndə heyətinin təşkili və təsdiqi.*** Paris Sülh Konfransının təşkili haqqında məlummatlar artıq 1918-ci ilin noyabrından məlum idi. Bu haqda Əli Mərdan bəy İstanbuldakı ingilis nümayəndələri ilə görüşüb Sülh konfransı barədə məlumat almışdı. Noyabr ayının 20-də Azərbaycan nazirlər kabinəsinin sədrinə göndərdiyi məktubda Ə.M.Topçubaşov ingilis nümayəndəsi polkovnik Tampl ilə görüşdüyünü bildirib yazırdı ki, Sülh konfransı iki-üç ay ərzində Parisdə keçiriləcəkdir (9, s.172). Bu dövrdə Azərbaycan Xarici İşlər Nazirliyinin hazırladığı proqrama görə də Avropaya və ABŞ-a gedəcək diplomatik nümayəndəlik, bir çox mühim vəzifələr təyin edilmişdi. Heç şübhəsiz ki, belə bir addım Azərbaycanın istiqlaliyyətinin tanınmasına müsbət təsir göstərərdi. Lakin Paris Sülh konfransının açılmasına az qalırdı, dünyanın bütün siyasi dairələri Versala toplanmalı idi.

Ona görə hökumət Parisə elə bir nümayəndə heyəti göndərmək istəyirdi ki, Versal Sülh konfransında Azərbaycan Respublikasını təmsil etməklə yanaşı, bir çox mühim vəzifəni də yerinə yetirməyə qadir olsun.

26 dekabr 1918-ci ildə keçirilən parlamentin 5-ci iclasında hökumət proqramı ilə çıxış edən F.X.Xoyski xarici siyasət məsələlərinə, ümumdünya Sülh konfransına hazırlığın gedişi və xarici işlər nazirliyinin fəaliyyət istiqamətləri haqqında daha sonra isə Beynəlxalq Sülh konfransından Azərbaycanın gözləntiləri ilə bağlı nitq söylədi (3, s.88-89). Dekabr ayının 28-də hökumət kabinəsi Paris Sülh konfransına gedəcək Azərbaycan nümayəndə heyətinin tərkibini təsdiq etdi. Nümayəndə heyətinəin başçısı parlamentin sədri Əli Mərdan bəy Topçubaşov, onun müavini hökumət üzvü Məmməd Həsən Hacınski təyin edildi. Nümayəndə heyətinə iki nəfər parlament üzvü Əhməd bəy Ağayev və Əkbərağa Şeyxülislamov daxil edildilər. Parlament üzvləri Mir Yaqub Mehdiyev, Məmməd Məhərrəmov və "Azərbaycan" qəzetinin redaktoru Ceyhun bəy Hacıbəylidən ibarət məsləhətçilər müəyyən edildi. Bundan əlavə heyətdə Hüseynzadə Əli Turan (heyətin texniki işçisi və tərcüman), Rəşid bəy Topçubaşov (sədrin köməkçisi), Viktor Marçevski, Səfvət Məlikov (hər ikisi köməkçi) kimi şəxslərdə var idi. Heyətin tərcüməçiləri isə A.Qafarov (fransız dili), Q.Qafarova (ingilis dili), H.Məmmədov (fransız və türk dili) (9, s.11-13). Ə.M.Topçubaşov Bakıda olmadığı üçün M.H.Hacınski İstanbula çatana qədər hökumətin tapşırığı ilə müvəqqəti olaraq nümayəndə heyətinə başçılıq etməli idi.

***Nümayəndə heyətinin ağır Paris səfəri.*** Hökümət nümayəndə heyətini təsdiq etdikdən sonra elə yanvarın ilk günlərindəcə nümayəndə heyətinin üzvlərinə diplomatik pasportlar və zəruri sənədlər təqdim edildi. Müttəfiq qoşunlarının baş komandanı V.Tomson nümayəndə heyətinə öz imzası ilə rəy məktubu verdi. Avropa və Amerikaya nümayəndəlik göndərmək üçün ayrılmış 2,5 milyon manat vəsait də xarici işlər nazirliyi tərəfindən nümayəndəliyin hesabına keçirildi (8, s.321-322). Tiflisdə olarkən Azərbaycan nümayəndələri Qafqazdan gedən Dağlılar Respublikası və Gürcüstan nümayəndə heyəti

ilə birlikdə yanvar ayının 8-də İstanbula yola düşdülər (9, s.177). Yanvar ayının 11-də Batuma çatan Azərbaycan nümayəndələri bir gün sonra Ermənistan Respublikasının nümayəndələri ilə burada görüşdülər. Yanvar ayının 13-nə kimi gürcü nümayəndələri ilə də bir sıra görüşlər keçirildi.

Yanvar ayının 18-də Azərbaycan, Gürcüstan və Şimali Qafqaz nümayəndələri Batumdan İstanbula yola düşdülər. Nümayəndə heyəti İstanbula gələnə kimi Ə.M.Topçubaşov elə yanvarın ilk günlərindən İstanbulda olan müttəfiqlərin və neytral ölkələrin nümayəndələri ilə görüşmüş, onlara Mudros sazişi ilə bağlı Azərbaycan Respublikasının etiraz notasını təqdim etmiş, yanvar ayının 11-də Türkiyə Sultanı tərəfindən qəbul edilmiş, Ameirakalı nümayəndə Heyk ilə, Hollandiya və İsveç nümayəndələri ilə, Ağqvardiyaçı nümayəndə S.D.Sazonovla, Rusiya nümayəndəsi V.İ.Savitski ilə, İranın xarici işlər naziri Əliqulu xan Ənsari ilə (9, 11 və 15 yanvar tarixlərində), Ermənistanın Parisə göndərdiyi nümayəndə heyətinin başçısı A.Ağaronyanla (16 yanvar) həyata keçirilən görüşlər sülh konfransı öncəsi böyük əhəmiyyət daşıyırdı (9, s.180-187).

Yanvar ayının 20-də Azərbaycan nümayəndə heyəti İstanbula gəlib çatdı. Yanvar ayının 22-də Ə.M.Topçubaşovun mənzilində heyətin ilk iclas keçirildi. Heyət İstanbula gəldikdən sonra T.Svyatoçevskinin də ifadə etdiyi kimi müttəfiqlərin ilk hörmətsizliyi ilə qarşılaşdılar (12, s.154). Bu Əli bəy Hüseynzadə və Əhməd bəy Ağayevin haqsız yerə həbs edilməsi ilə bağlı idi. Lakin Əli bəyi həbsdən azad etmək mümkün olsa da, ona Parisə aparmaq olmadı. Bu hadisə əslində ermənilərin yalançı təbliğatı ilə baş vermişdi (8, s.337-338). Ermənilər, təkcə azərbaycanlılara qarşı deyil, eyni zamanda gürcülərə və Dağlılar İttifaqının nümayəndələrinə qarşı da mübarizə aparırdılar.

Əvvəllər çoxluqla texniki məsələlərlə izah edilən gecikmə az sonra siyasi məzmuna malik olduğu bəlli oldu. Bunu Ə.M.Topçubaşovun Azərbaycan hökumətinə mart ayının 5-də göndərdiyi hesabatında aydın formada görmək olurdu. O, yazırdı: “Parisə səfərin ləngi-

məsi texniki çətinliklərdən əlavə, məhz siyasi xarakterli mülahizələrlə bağlıdır".

Azərbaycan nümayəndələrinin Parisdə olmamasından istifadə edən Ermənistan və İran nümayəndələri Azərbaycanın mənafeyinə toxunan böyük ərazi iddiaları ilə çıxış edirdilər. Azərbaycan nümayəndə heyətinin bu çətin vəziyyəti ilə bağlı professor T.Svyatoçovski yazır: "Qonşularından fərqli olaraq onlara heç bir kömək göstərilmədi. Qərbdəki ermənipərəstlik hərəkatı, yaxud gürcü menşeviklərinin beynəlxalq sosializm ilə əlaqələri fonunda azərbaycanlıların mövqeyi zəif idi" (12, s.154).

Viza məsələsində yaranmış vəziyyətlə əlaqədar Həmin dövrdə olan məktub və yazışmalara nəzər yetirdikdə aydın olur ki, bütün problemlərin kökündə franszılar dayanırdı ki, onlar da hər vəchlə vizanı verməyi gecikdirirdilər. Lakin ABŞ prezidenti Vudro Vilsonun rəsmi şəkildə Versal Sülh konfransında Qafqaz məsələsini qoymasına bir neçə gün qalmış təcili şəkildə Azərbaycan nümayəndələrini Parisə çağırması fransızların işini puça çıxardı. Nəhayət, uzun yazışmalardan sonra nümayəndə heyətinin bütün üzvlərinə, texniki işçiləri çıxmaq şərti ilə Parisə getmək üçün pasport və viza verildi. Aprel ayının 22-də Azərbaycan nümayəndələri İstanbuldan çıxdılar.

***Nümayəndə Heyətinin Paris Fəaliyyəti.*** Parisə çatdıqdan sonra Nümayəndə heyətinin ilk mühüm addımı hələ İstanbulda Ə.M.Topçubaşov, Ə.Ağayev və C.Hacıbəyov tərəfindən hazırlanmış "Qafqaz Azərbaycanı Respublikasının Paris Sülh konfransına memorandumu" adlı sənədi yenidən işləmək oldu (5, s.4).

Cənubi Qafqaz məsələsi ilk dəfə may ayının 2-də mandatlar məsələsinə görə müzakirə edildi və ABŞ prezidenti V.Vilsonun Cənubi Qafqazın bu haqda fikrini öyrənmək istədi. Bunun nəticəsində Azərbaycana görüş təklif edildi. Bu görüşün keçirilməsi Azərbaycan üçün tarixi bir günə - istiqlalın birinci ildönümü gününə təsadüf edirdi. Günün ikinci yarısında Azərbaycan nümayəndə heyəti prezident V.Vilson tərəfindən qəbul edildi. Görüş zamanı Ə.M.Topçubaşov öz çıxışında Qafqaz xalqlarının - konfederasiyasının mümkünlüyünü prezident Vudro Vilsona bildirdi və Qafqaz Azərbaycan Respublikası

nümayəndələrinin memorandumu və Azərbaycan Cümhuriyyətinin tələbləri ABŞ prezidentinə verildi. Danışıqlarda V.Vilson Azərbaycanın müstəqilliyinin tanınması məsələsini açıq saxlamış, bir çox məqamlarda olduğu kimi Azərbaycana qarşı ikili standart göstərilmişdi (6, s.38).

V.Vilsonun təklifi ilə Azərbaycanın tələbləri ilk öncə əl yazma, daha sonra isə 50 səhifəlik çap şəklində Konfransa təqdim edildi. Azərbaycan nümayəndələrinin tələbləri Parisdə ciddi müzakirələrə səbəb oldu. Ərazi məsələləri ilə bağlı İran, Ermənistan və Gürcüstanın tələbləri kimi Azərbaycanın tələbləri də şişirdilmiş tələblər hesab edilirdi. Xüsusən, Qars və Batumun Azərbaycana verilməsi məsələsi o qədər də real qiymətləndirilmirdi.

***Azərbaycan "Bölünməz Rusiya" iddiası ilə üz-üzə.*** "Bölünməz Rusiya" ideyası getdikcə müttəfiqlərin siyasətinə sirayət etməyə başlamışdı və bunun nəticəsində iyun ayının 12-də Antanta ölkələrinin Ali Şurası bir sıra şərtlər daxilində Omsk hökumətinin tanınması barədə nota ilə çıxış etdi. Həmin nota iyun ayının 13-də mətbuatda dərc edildi. Bununla da Parisə öz müstəqilliyini tanıtmaq üçün gəlmiş yeni respublikalar çox ciddi fakt qarşısında qalmış oldular. Ona görə də, yeni yaranmış respublikalar müttəfiqlərə və Sülh konfransının sədrinə iyun ayının 17-də Azərbaycan, Estoniya, Gürcüstan, Latviya, Şimali Qafqaz, Belorusiya və Ukrayna nümayəndələri adından Bəyannamə imzalandı. Bəyannamə iyunun 18-də Latviya hökumətinin xarici işlər naziri Z.A.Meerovits tərəfindən ABŞ prezidenti V.Vilsona təqdim edildi (7, s.243-244). Lakin konfransda etiraza fikir verilmədi.

Rus siyasi mühacirlərinin fəallaşması və yeni yaranmış respublikalara qarşı mürtəce mövqe tutması Azərbaycan nümayəndələrini təmsil etdikləri respublikanın istiqlaliyyətinin qorunmasında daha fəal olmağa sövq edirdi. Ümumilikdə isə Könüllü ordu ilə bağlı Azərbaycan nümayəndələrinin Parisdə qarşılaşdığı çətinliklər 1919-cu ilin axırlarına qədər davam etdi.

***"Böyük Ermənistan" iddasına qarşı.*** 1919-cu ilin yayında Paris Sülh konfransında Azərbaycan nümayəndələrinin qarşılaşdığı cid-

di məsələlərdən biri də erməni nümayəndəliyi ilə münasibətlər idi. Ermənilər özlərini "böyük müttəfiqlərin kiçik müttəfiqi" hesab edib, "Böyük Ermənistan" yaratmaq xülyasına düşmüşdülər. Amerika tarixçisi F.Kazımzadə haqlı olaraq yazırdı ki, onların əsassız iddialarını Paris, London və xüsusilə, Vaşinqton müdafiə edirdi" (10, s.253-255).

Ermənilərin irəli sürdüyü ərazi iddiaları o qədər böyük idi ki, hətta Antantanın qalib üzvü olan dövlətlər belə tələblər irəli sürməmişdilər. Lloyd Corc bununla heç cürə razılaşmırdı. O.V.Kaçaznuni ermənilərin şişirdilmiş ərazi planları ilə bağlı 1923-cü ildə yazırdı: Biz ən əsas, ən məsul və ən mühüm məsələlərin həlli zamanı öz iradəmizi ifadə etməyib, işlərimizi özümüz anladığımız kimi aparmayıb, öz yolumuzla getməyib başqalarının bizi öz ardınca aparmasına imkan verdik" (11, s.69). Müttəfiqlərin erməni məsələsini həll etməkdə yubandığını görən daşnaklar 1919-cu ilin may ayının 28-də Türkiyənin yeddi vilayətinin Ermənistana ilhaq edilməsi və vahid Ermənistan dövlətinin yaradılması barədə akt qəbul etdilər. Versalda olan gürcü nümayəndə heyətinin üzvü Zurab Avalov yazırdı ki, Qafqaz və Türkiyə Ermənistanın birləşdirilməsi haqqında akt qəbul etməklə, Ermənistan Respublikası sırf Qafqaz siyasətindən çıxıb, Türkiyə məsələsinə daxil olmağa başladı (13, s.211).

Ermənilər təkcə ərazi iddiaları ilə deyil, yalan və əsassız məlumatlarla müraciətlər edirdilər. Onlar iddia edirdilər ki, müsəlmanlar erməniləri qırır, zorbalıq edirlər. Bu haqda Fransız mətbuatında hər fürsətdə məlumat yaymağa çalışırdılar. Azərbaycan nümayəndələri ermənilərin mənfur siyasəti qarşısında geri addım atmayıb, müqabilində respublikanın mənafeyi, xüsusilə, onun ərazi bütövlüyünün qorunub saxlanılması ilə bağlı dəfələrlə Sülh konfransına, Versal Ali Şurasına və Antanta ölkələrinin dövlət başçılarına öz haqları və hüquqları ilə bağlı tələbnamələr verdilər. 1919-cu ilin sentyabrından Parisdə nəşr olunmağa başlayan "Azərbaycan informasiya bülleteni"-nin səhifələrində mütəmadi olaraq, Ermənistan silahlı dəstələrinin İrəvanda, Naxçıvanda, Zəngəzurda və Qarabağda törətdiyi deportasiya və qətllər barəsində məlumatlar verdilər. Nəticə olaraq, Azərbay-

can nümayəndə heyəti Qərb ölkələrinin dövlət və hökumət başçıları tərəfindən müdafiə edilən və bilavasitə Azərbaycan Respublikasının ərazi bütövlüyünə qarşı yönələn "Böyük Ermənistan" iddialarını bütün vasitələrlə dəf etməyə nail oldu.

***Konfransda sona doğru - istiqalımızın tanınması.*** 1919-cu ilin noyabrında Böyük Britaniyanın Baş naziri Lloyd Corcun İngiltərə Parlamentinin İcma palatasındakı çıxışından sonra Qafqaz respublikalarının müstəqilliyinin tanınmasına doğru meyl başlandı. Uzun müzakirələrdən sonra 1920-ci il yanvarın 10-da Böyük Britaniyanın təşəbbüsü ilə Paris Sülh Konfransı Ali Şurasının sessiyası çağırıldı. Sessiyada İngiltərə, Fransa, İtaliya ABŞ və Yaponiya iştirak edirdi. İlk dəfə olaraq Cənubi Qafqaz respublikalarının problemi geniş və hərtərəfli müzakirə edildi. Lloyd Corc Cənubi Qafqaz dövlətlərin silah və hərbi sursatla təchiz olunmasının ən sərfəli variantını işləyib hazırlamağı təklif etdi. Onun təklifilə Ali Şura qərar qəbul etdi.

Ali Şuranın gündüz iclasında İngiltərə naziri lord Kerzonun təklifi ilə Qafqaz respublikalarına münasibət probleminin siyasi tərəflərinə aid müzakirə aparıldı. Öz çıxışında Kerzon Lloyd Corcun Azərbaycan və Gürcüstanın müstəqil dövlət kimi tanınmaq məsələsini Ali Şuranın gündəliyinə çıxartmaq niyyətində olduğunu bildirdi. Vəziyyətin kəskinliyinə görə Lord Kerzon Azərbaycan və Gürcüstanın dərhal de-fakto tanınması təklifini irəli sürdü. Versal konfransında yaranmış vəziyyət faktiki olaraq fəaliyyət göstərən dövlətlərin tanınması üçün bütün zəruri şərtlərin olmasından xəbər verirdi. Onun reallaşmasından ötrü yalnız təkan verəcək bir tərəf lazım idi, o tərəf də sülh konfransının iştirakçısı Böyük Britaniyanın xarici işlər naziri lord Kerzon oldu.

Aparılan mübarizə artıq son mərhələyə qədəm qoyurdu. Ali Şurada son müzakirələr gedirdi. Belə bir məqamda - yanvar ayının 11-də Ali Şuras lord Kerzonun təklifi ilə aşağıdakı məzmunda qərar qəbul etdi: "Müttəfiq və birləşmiş dövlətlər Azərbaycan və Gürcüstan hökumətlərini de-fakto səviyyəsində ("Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası I Cild"də bu hadisə de-fakto kimi deyil də, de-yure kimi qiymətləndirilir (4, s.175)) birgə tanıyırlar". ABŞ qərara

qoşulmaqdan rəsmi olaraq imtina etdi. ABŞ yenədə ikili siyasət yeridirdi, çünki Ermənistanın tanınması məsələsində eyni hərəkəti göstərmədi və onun müstəqilliyini tanıdı.

Yanvarın 15-də Azərbaycan və Gürcüstan nümayəndələri Fransa Xarici İşlər Nazirliyinə dəvət olundular. Azərbaycan və Gürcüstan nümayəndələri nazirliyin birinci katibi Jül Kambon, İngiltərə nümayəndəsi Filipp Kerr və İtaliya nümayəndəsi Markiz de la Torreta tərəfindən qəbul edildilər. Jül Kambon Azərbaycanın Ali Şura üzvləri və müttəfiq dövlətlər tərəfindən de-fakto tanınması haqqında Paris Sülh Konfransının rəsmi qərarını Ə.M.Topçubaşova təqdim etdi (6, s.362).

***Ali Şuranın yekun qərarı***. Yanvarın 17-də Azərbaycan nümayəndələrinin yaşadığı "Klaric" mehmanxanasında H.Vilsonun sədrliyi altında admiral Bitti, İngiltərə Xarici İşlər Nazirliyinin nümayəndəsi Robert Vansittart, həmçinin Azərbaycan və Gürcüstan nümayəndələrinin iştirak etdikləri müşavirə keçirildi. Daha sonra müzakirələr davam etdirildi və 1920-ci il yanvarın 19-da Paris Sülh Konfransı Ali Şurasının hökumət başçılarının iştirakı ilə keçirilən son iclasında Ali Şura Qafqaza aid dörd maddədən ibarət olan qərar qəbul etdi: 1.Ermənistan və Dağıstanın de-fakto tanınması. Bu qərarda Ermənistanın sərhədlərinin müəyyənləşdirilməsi məsələsinə toxunularaq qeyd edilirdi ki, bu məsələyə "Türkiyə məsələsi" ilə birlikdə baxılacaqdır. 2.Müttəfiq dövlətlərin Qafqaz respublikalarına qoşun göndərmək imkanları yoxdur. 3.Müttəfiqlər Qafqaz respublikalarına silah, döyüş sursatı və ərzaq göndərməklə yardım edəcəklər. 4.Hərbi materialların nədən ibarət olması və onların Qafqaz respublikalarına çatdırılması yollarının dəqiqləşdirilməsilə bağlı məsələlərə baxılması marşal Foş və feldmarşal Vilsondan xahiş edilsin (9, s.366).

Azərbaycan Cümhuriyyətinin tanınması xəbəri Bakıya gəlib çatandan sonra yanvarın 14-də bütün Azərbaycan ərazisində bayram şənlikləri keçiriləcəyi elan edilmişdi, respublikanın paytaxtında mitinqlər və nümayişlərin, həmçinin Azərbaycan Ordusunun hərbi keçidinin və Azərbaycan parlamentinin təntənəli iclasının keçirilməsi haqqında qərar qəbul edildi (6, s.366).

***Nəticə.*** Azərbaycan Xalq Cümhuriyyətinin de-fakto səviyyəsində tanıdılması sahəsində Azərbaycan nümayəndə heyəti çətinliklərə, qarşısına çıxan əngəllərə, Fransa hökümətinin viza sahəsində yaratdığı mərhumiyyətlərə baxmayaraq 3 ay İstanbulda konfransa hazırlıq kimi bir çox məsələrə aydınlıq gətirdi. Müttəfiq dövlətlərin nümayəndələri ilə görüşlər keçirib, Cümhuriyyət haqqında onları məlumatlandırdılar. Bütün probelmlər həll edildikdən sonr Parisə gələn heyət burada olduğu ilk 8 ay ərzində bir çox məsələrlə üz-üzə qalıb onlarla mübarizə apardı. "Bölünməz Rusiya", "Böyük Ermənistan" kimi iddaların əsassızlığı sübuta yetirildi, onlara qarşı kəskin etirazlar Ali Şuraya təqdim edildi. Burada olarkən Azərbaycan höküməti də eyni zamanda Bakı da iddialara, böhtanlara qarşı mübarizə aparır və nümayəndə heyətini bütün məlumatlarla operativ şəkildə təmin edirdilər. 1920-ci il 11 yanvarda artıq Azərbaycan istəyinə nail olmuş, müstəqilliyi dünya tərəfindən tanınmışdı. Bu hadisə ilə əlaqədar Ə.M.Topçubaşov Parisdən Azərbaycan hökumətinin başçısı N.Yusifbəyliyə göndərdiyi məktubda yazırdı: "Hər hansı real bir formada bizim də azad və müstəqil yaşamaq ümidlərimizin möhkəmləndiyi bir dövr başlandı. Ə.M.Topçubaşov məktubunda vurğulayırdı: "Öz azadlıqlarını əldə etmək üçün bu xalqlar yarım il, bir il yox, on illərlə və daha çox mübarizə aparmış, çoxlu insan və maddi itkilər hesabına arzularına çatmışlar. Belə dəyərli xoşbəxtliyin qarşısında biz heç vaxt geri çəkilməmişik və çəkilməyəcəyik də, çünki biz bu səadətə bərabər olan heç nə tanımırıq (6, s.365). Həqiqətən də bu xoşbəxtliyin həddi hüdudu yox idi. Bu hadisə həmçinin o dövrdə Azərbacyan üçün bir çox üstünlüklər qazandırdı. İran ilə olan narazılıq aradan qaldırıldı, 20-dən sonra dövlətin nümayəndəlikləri Bakıda təsis edili, bir çox avropa dövləti ilə qaşılıqlı əlaqə yaradıldı. Nümayəndə heyətinin nail olduğu bu uğurlar bu gün belə öz aktuallığını və vacibliyini qorumaqda davam edir.

## ƏDƏBİYYAT

1. Али Марданбек Топчибашев. Письма из Парижа. Баку, Азернешр, 1998, 112 с.

2. Niyazi Qasımov. Paris Barış Konferansı'nda Azerbaycan Halk Cumhuriyeti Nümayende Heyeti'nin Çalışmaları // Akademik Tarih ve Düşünce Dergisi, Cilt: IV, Sayı: XI, Mayıs, MMXVII. - https://dergipark.org.tr/tr/download/article-file/445483 [Müraciət tarixi: 27.04.2022].
3. Azərbaycan Xalq Cumhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). I cild. Bakı, "Azərbaycan" nəşriyyatı, 1998, 976 s.
4. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki Cilddə. I cild. Bakı, "Lider nəşriyyatı", 2004, 440 s.
5. Azərbaycan Paris Sülh Konfransında (1919 -1920). Bakı, "Ozan", 2008, 244 s.
6. Azərbaycan tarixi. Yeddi cilddə. V cild (1900-1920-ci illər). Bakı. "Elm". 2008. 696 səh. + 40 səh. illüstrasiya.
7. Б.Е.Штейн. "Русский вопрос" на Парижской мирной конференции. Москва, Госполитиздат, 1949, 465 с.
8. Cəmil Həsənli. Tarixi Şəxsiyyətin tarixi: Əlimərdan bəy Topçubaşov. Bakı, Azərbaycan Diplomatik Akademiyası, 2013, 588 s.
9. C.P.Həsənli. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920). Bakı, "GARISMA" MMC, 2009, 576 s.
10. F.Kazemzadeh. The Struggle for Transcaucasia. Birmingham, 1951, Templar Press, 356 p. - https://babel.hathitrust.org/cgi/pt?id=mdp.39015002294687&view=1up&seq=381 [Müraciət tarixi: 30.04.2022].
11. O.Kaçaznuni. Taşnak Partisinin yapacağı bir şey yok. (Çeviri: Arif Acaloğlu). İstanbul, Kaynak Yayınları, 2008, 120 s.
12. Swietochowski, Tadeusz. Russian Azerbaijan, 1905-1920. Soviet and East European studies. Cambridge, Cambridge University Press, 1985, 256 p.
13. З.Авалов. Независимость Грузии в международной политике. Париж, 1924, 218 с. - https://rev-lib.com/avalov-z-d-nezavisimost-gruzii-v-mezhdunarodnoj-politike-1918-1921-g/ [Müraciət tarixi: 30.04.2022].

**RAJAB ZEYNALLI**
*3rd year student of the Faculty of History of Baku State University*

## AZERBAIJANI DELEGATION AT PARIS PEACE CONFERENCE

With the outbreak of World War I, certain changes took place in both the political and economic map of the world. Empires such as Germany, Austria-Hungary, the Ottoman Empire, and Russia collapsed, new nation-states emerged on the territory of some, and the territory of others came under the control of the Allies or allied forces. These unplanned invasions during the war created a number of problems. This was contrary to the world order created by the Congress of Vienna, so it was felt more and more that the new world needed a new order. After the end of World War I, a Peace Conference covering the years 1919-1920 was convened at the Palace of Versailles in Paris under the leadership of four states (USA, Britain, France, Italy). The main goal was to sign a peace agreement with the defeated states without delay, to eliminate problematic issues and to approve a new order. Newly independent Azerbaijan also wanted to declare its independence to the whole world by taking part in the list of the 4th group of states at the Paris Conference and taking advantage of its work. For this reason, the leadership of the Azerbaijan Democratic Republic did its best to resolve this issue. The article contains information on the approval and composition of the delegation, the visit to Paris, its activities there, the requirements of the delegation and the outcome of the visit to Paris.

*Keywords:* Azerbaijan Democratic Republic, Paris Peace Conference, delegation, parliament, Alimardan bey Topchubashov, V.Wilson, “Indivisible Russia”, “Greater Armenia”, Lord Curzon.

*Daxil olma tarixi*: 30.04.2022-ci il.
*Çapa imzalanma tarixi*: 25.05.2022-ci il.

**UOT 94**

**SÜMEYYA EKİNCİ**
*İnönü Üniversitesi*
*Sosyal Bilimler Enstitüsü, Tarih Anabilim Dalı,*
*Yükseklisans Öğrencisi, Malatya/Türkiye,*
**sumeyyaekinci.44@hotmail.com**

# BİZANS'TA İKONOKLAZMA HAREKETİ

*Danışman:*
Dr. Fatma İnce
İnönü Üniversitesi, Tarih Bölümü

*İkona, ikon kelimesi daha çok farklı boyutlarda ve taşınabilir ölçülerdeki ahşap üzerine, mozaik, mermer veya metal kabartma ve diğer teknikler ile yapılmış dinî figür ya da dinî konulu resimleri tanımlamak için kullanılmaktadır. İkonoklast kelimesi ise tasvir kırıcı anlamına gelir ve İkonoklazm Dönem VIII. veya IX. yüzyıllarda Bizans İmparatorluğu'nda devlet tarafından ikonalara ve ikona ibadetine karşı yürütülen politikayı ifade etmektedir. Bizans Tarihi'nin en dikkat çeken olgularından biri dini resimlerin kutsallığına ve onlara ibadete karşı çıkan İkonoklazma Hareketidir. İki döneme ayrılan hareket 726 yılından 843 yılına kadar süren bir süreci ifade etmektedir. Yaklaşık bir asır imparatorluğun gündemini meşgul eden hareket başlangıçta kutsal tasvirlere ibadeti hedef almıştır. Hareket daha sonrasında genişleyerek batıl inanç ve adet olarak gördüğü diğer uygulamaları da hedef alır.*

*Anahtar Kelimeler:* Bizans İmparatorluğu, İkon, İkonoklazma, III. Leo.

***Giriş.*** Erken Hristiyan sanatında, "ilahların sadece sembolik suretlerinin tasvir edilmesi" kuralından dolayı Hz. İsa ve azizlerin resmedilmesinden kaçınılmıştır. Bununla birlikte özellikle Konstantinopolis'in geçirdiği dönüşümden sonra artık dini resimlerde yapılmaya başlanılmıştır. Lakin Caesarealı Eusibius vb. pek çok Hristiyan bu yeni yönelime karşı çıkmışlardır (13, s.64; 18, s.207).

İbadet amacıyla kullanılan ikonalar Tanrı'nın ve azizlerin genelde ahşap üzerine yapılmış iki boyutlu tasvirleridir. İkonalar azizlerin bağlı oldukları mezheplerin ve kutsal emanetlerin geleneklerinden gelen ancak onlardan farklı olarak ilahi güç ile insanoğlu arasındaki mesafeyi biraz da olsa kapatmaya yaradığı düşünülen dini araçlar olarak nitelenmektedir. Bazı ikonaların İsa'nın çağdaşları mesela Havari Lukas tarafından yapıldıkları ya da insan eliyle yapılmamış yani mucizevi biçimde yaratıldığı düşünülmekteydi (1, s.392; 2, s.164).

V. ve VI.asırlarda kiliselerin süslenmesinde ikona kullanımı giderek arttı. İkonalar özellikle VI.asrın ikinci yarısından itibaren Hristiyanların bu dini tasvirlere düşkünlüklerinin arttığından ötürü ayrıca siyasi ve dini liderlerin güçlerinin göstergesine dönüştüğü için yaygın biçimde kullanılmaya başlanmıştır. 691/692 Trullo Konsil'inde (Quinisext Konsili) Hz. İsa'nın semboller yerine kendi insani görüntüsüyle tasvir edilmesine karar verildi. Ayrıca II. Iustinianus (685-695 ve 705-711) imparatorluğun esenliğinin korunması açısından imparator ve halkı için en uygun olanın Bizans paraları üzerinde Hz. İsa'nın tasvirlerinin bulunması gerektiğine karar vermiştir (8, s.129; 18, s.207).

İkonalar, imparatorluğun ve kurumlarının sarsıldığı dönemlerde kişisel bağlılığın göstergeleri olarak önem kazanmışlardır. Bu nedenle kişiler veya aileler kendilerine ait olan ikonalar edinerek bunlara kendilerini adayabilmekteydiler. Öte yandan erken dönem ikonaları Tanrı'nın, Hz. Meryem'in ve diğer azizlerin güçlerinin mucizevi göstergeleri olarak kabul edilmekteydi. Şahıslara ait ikonaların ise sahiplerine ilahi bir kuvvet kazandırdığına ve ikona sahipleri bu güç sayesinde tanrısal güçlerle doğrudan irtibat kurarak ihtiyaçları için yardım dileyebildiklerine inanılırdı. Bundan sonra ikonalar, ilahi güçlerin birer tezahürü olarak inananların isteklerini yerine getiren, mucizeler gösteren ve şükretmek amacıyla kullanılan dini unsur mahiyetini kazandı (3, s.147; 12, s.5-14).

Bizans Tarihinin en dikkat çeken olgularından biri de dini resimlerin kutsallığına ve onlara ibadete karşı çıkan İkonoklazma Hareketi'dir. Grekçe asıllı olan İkonoklazm ifadesi Türkçe'de ikonokırı-

cılık/ tasvirkırıcılık şeklinde ifade edilmektedir. Başlangıçta kutsal tasvirlere ibadeti hedef alan hareket daha sonraki süreçte genişleyerek batıl inanç olarak gördüğü kandil yakma ve tütsüleme gibi diğer uygulamalara da cephe almıştır (16, s.103).

***İkonakırıcılık'ın Ortaya çıkışı ve III. Leo Dönemi.*** III. Leo (717-741) tahta çıkar çıkmaz otoritesini kuvvetlendirmek ve Arap tehdidine karşı imparatorluğu muhafaza etmek için bir takım reformlar yapmıştır. Halkın refah seviyesini artırmak için arazi ve tarımda düzenlemeler yaptığı gibi sosyal güvenceyi sağlamak için yeni bir kanunname Ecloga'yı hazırladı. Ayrıca Thema sisteminde de bir takım yeniliklerde bulundu (8, s.148).

III. Leo (717-741) dini alanda ise İkonoklazma hareketini başlatmıştır. Az önce de bahsettiğimiz gibi kimileri ikonların üretimine ve bunlara tapınılmasına her zaman karşı olmuşlardır. Zira bu gibi eylemleri, putlara izin vermeyen mozaik geleneğinin ihlali olarak görmekteydiler. Lakin bu karşıtlık hiçbir zaman fiili bir harekete yol açmamıştı. Ancak bu durum III. Leo'nun tahta geçmesiyle değişir. Zira ikon yapımı ve ikon kültüne harcanan masraflar Bizans ekonomisine zarar vermekte ayrıca ikonlar toplumun düşünce ve psikolojik yapısına zarar veren bir putperestlik halini almaktaydı. Öte yandan insanüstü güce sahip olduğuna inanılan ikonalar, imparatorun otoritesini zayıflatmakta ve çeşitli sosyal sorunlara sebep olmakta idi (18, s.212).

III. Leo'nun (717-741) ikonalarla mücadeleye girişmesinin temelinde, doğulu olmasıyla biçimlenen kişisel inancı ve doğu bölgesindeki toplumsal eğilimin etkisi olduğu düşünülmektedir. Isaurialı olan III. Leo (717-741) asırlardır monofizitlerin barınağı olan ve sonraki dönemlerde Pavlikanlar gibi heretiklerin sığındığı yerlerden biri olan Maraş'ta doğmuştur. Burada doğup büyüyen III. Leo (717-741) bu bölgede hâkim bulunan monofizitizmden etkilenerek dini tasvirlere karşıt bir inanç benimsemiş olması muhtemeldir. Öte yandan doğu bölgesi genellikle Bizans Devleti ve kilisesinin baskılarından kaçan heretik mezheplerin sığındığı bir bölgeydi. Bu yüzdende doğu bölgesi düşmanların (Arapların) Bizans topraklarına girmesini kolaylaştı-

ran bir hususken imparatorluk açısından ise tehlike arz etmekteydi. Bu nedenle imparatorun Araplara karşı doğu sınırlarındaki savunma gücünü arttırmak için monofizit halkı devlete bağlaması gerekmekteydi. III. Leo (717-741), şahsen ikon karşıtı inancı ile İkonoklazma hareketine girişmekte ve siyasi olarak da Bizans'tan kopmaya başlayan heretik mezhepleri bir arada tutmayı hedeflemekteydi (5, s.1220; 12, s.13).

Dönemin kaynaklarında III. Leo'nun (717-741) dini tasvirler ile mücadeleye tutuşmasının sebebi olarak doğal afetler ve devletin Araplar karşısında sürekli yenilgiye uğraması gibi olaylar zikredilir. III. Leo (717-741) devleti zor durumda bırakan bu felaketlerin nedeni olarak tapınma nesnesi haline gelen ikonları göstermekte ve bundan dolayı Tanrı'nın imparatorluğu cezalandırdığını düşünmekteydi. III. Leo bu sebeplerle putperestlik eylemini ortadan kaldırmak amacıyla İkonoklazma hareketini başlattı ( 4, s.67; 18, s.213).

III. Leo (717-741) 726'da ikonlara karşı çıkan konuşmalar yapmaya başlamış ve sarayın Khalke Kapısında yer alan büyük Hz. İsa ikonasının kaldırılmasını emretmiştir. Bu hareket hem başkentte hem de diğer Avrupa devletlerinde büyük bir muhalefete sebep oldu. Leo 730 yılında bir konsil toplayarak ikonalara tapınmanın kanunlara aykırı olduğunu belirtir ve ikonların toplatılması emrini vermiştir. Bu karar tahmin edileceği üzere büyük tepkiye sebep oldu. Patrik Germanos ikonları destekleyen konuşmasından sonra görevinden azledildi. Hellas Themasında çıkan isyan ise kolaylıkla bastırıldı. Papa ise bu durumu öğrenince vergileri göndermeyi reddettiği gibi imparatora bir mektup kaleme alarak Kutsal Kilise Babaları tarafından belirlenen doktrinler üzerine konuşmaması gerektiği konusunda onu uyarır (5, s.1220; 15, s.8).

***V. Konstantin Dönemi.*** V. Konstantinos (741-775), babası Leo'nun (717-741) ona taç giydirerek halefi yapmasına rağmen kayınbiraderi Artobasdos'a karşı iki yıl taht mücadelesi verdikten sonra tahta oturabildi (18, s.214).

Konstantinos (741-775), siyasi ve askeri tedbirlerin ardından 751'de Hiereia'da ve ardından Blakhernae Kilisesi'nde ekümenik ol-

ma iddiasında bir synod topladı. Bu konsilde 338 ikonoklast rahip, 7 ay süren bir çalışmanın ardından Konstantinos'un görüşlerini ihtiva eden bir honos yayınladı. İmparator bu tarihten itibaren imparatorluğun her köşesinde dinsel tasvirleri ortadan kaldırıp daha dünyevi konular içeren tasvirler yaptırdı. Kiliseler ve halka açık yerlerde figüratif olmayan süslemeler, bitki motifleri, imparator tasvirleri, savaş, av, araba yarışı ve tiyatro sahnelerine ilişkin tasvirler konulmuştur (5, s.1221; 7, s.24).

Konstantinos (741-775) döneminde gerçekleşen bazı şiddet olaylarından söz edilmektedir. Blakhernae Kilisesi rahiplerinden Andreas Kolybites Konstantinos aleyhinde konuşarak onun hakkında II. Julian ve II. Valens gibi ifadeler kullandığından ötürü Aziz Homos Hipodromunda kırbaçlanarak öldürülmüştür. Bunun haricinde imparatora karşı bir tür komplo teorisi içinde yer aldığı söylenen Auxentios Manastırı Rahibi Genç Stephonas, Konstantinos tarafından kendisine karşı kışkırtılan halk tarafından 767'de linç edildiği aktarılmaktadır. Anostasios'tan sonra patriklik makamına gelen Konstantinos'ta imparator aleyhinde sözler söylediği için benzer biçimde cezalandırıldığı belirtilir. Tarihi kaynaklarda ikonlara ibadet ettikleri gerekçesiyle çoğu kişinin ölüm veya sürgün gibi cezalara çarptırıldığı belirtilmektedir (8, s.162-163).

Konstantinos (741-775) yönetiminin ikonlara karşı mücadeleyi ne kadar sert yürüttüğü Throkosion theması strategosunun uygulama şeklinden de anlaşılır. Bu Strategos, kendi bölgesinde bulunan keşişleri ya keşişliği bırakıp evlenmek ya da gözleri kör edilmek suretiyle Kıbrıs'a sürülmek şartlarından birini seçmeye zorlamıştır. Yine de ikonoklast zorlama imparatorluk topraklarının her yerinde aynı şiddette gerçekleşmemiştir. Özellikle başkent ve yakın çevreleri Opsikion ve Throkosion themalarında etkili olmuştur. İmparatorluğun diğer bölgelerinde yöneticilerin iradesine ve görüşlerine göre etkinliği değişiklik arz etmektedir. İkonoklazmaların şiddetli olduğu merkezlerden kaçan keşişler daha güvenli bölgelere ve İtalya'ya giderek faaliyetlerine devam etmişlerdir. Ayrıca bu dönemde İmparator, 754 konsil kararlarının ötesinde hatta bunlara tezat oluşturan yalnızca

dini resimlere ve kutsal röliklere karşı mücadeleyle yetinmemiş ve aziz kültünü ve Bakire Meryem'e yapılan ibadeti de yasaklamıştır. (5, s.1222; 9, s.20; 18, s.216).

Eğer, V. Konstantin'in (741-775) ölümü ile kurduğu düzen iflas etmeseydi, Bizans Devleti'nin dinsel hayatında tam bir değişim olması önlenemez bir durumdu. V. Konstantin dönemi İkonoklazma hareketinin en korkunç ve en zalim devresini teşkil eder. Bu sebeple Konstantin'e duyulan kin İkonoklazm Dönemin kapanmasından sonra da devam etmiş ve imparatorun cesedi Kutsal Havariler Kilisesi'nden çıkartılmıştır (5, s.1222).

***IV. Leo Dönemi.*** Bu dönem İkonoklast hareketin en şiddetli safhasından İmparatoriçe İrene'nin tasvirlere ibadeti yeniden canlandırdığı safhaya bir geçiş devridir. IV. Leo (775-780), V. Konstantin'in (741-775) Hazar Prensesi eşinden olan çocuğudur. Bu nedenle Hazarlı Leo olarak da bilinmektedir. IV. Leo'nun saltanat yılları babasının dönemine göre sakin geçmiştir. IV. Leo'da (775-780) ikonoklast fikri benimsemiş ve desteklemiştir. Leo (775-780) döneminde ikona taraftarlarına karşı yapılan tek cezalandırma, tasvirlere tapan saray memurlarının kırbaçlattırılması ve hapse konulması olmuştur. Leo'nun (775-780) saltanat yıllarında Meryem kültüne karşı girişilen takibata son verilmiştir. Ayrıca babasının keşişlere karşı olan düşmanca faaliyetlerinden vazgeçildiği gibi din adamlarının piskoposluk makamına çıkmasında bir sakınca görülmemiştir. IV. Leo'nun (775-780) bu ılımlı tavrının eşi Atinalı İrene 'den dolayı kaynaklandığı ileri sürülmektedir. IV. Leo (775-780) kendisine veliaht olarak oğlu Konstantin'i seçmiştir (3, s.154; 8, s.164).

***İmparatoriçe İrene Dönemi.*** Atina'da doğmuş olan İrene, Bizans İmparatorluğunun ilk kadın hükümdarıdır. Öte yandan imparator III. Leo'nun (717-741) başlattığı I. İkonoklazma hareketine son vermiş, ikon ibadetini serbest bırakmış ve daha sonra ikon taraftarları tarafından azize mertebesine yüceltilmiştir. İrene azize mertebesinde anılmışsa da, devlet yönetimi açısından pek de parlak işler yapmamıştır. Bizans'ta İkonoklazma Hareketini başlatan İsauria hanedanı-

nın son hükümdarı olan İrene siyasi kabiliyetsizliği ve başarısızlığı yüzünden hanedanın sonunu getirmiştir (17, s.735-748).

IV. Leo 730 yılında ölünce karısı İrene henüz 9 yaşında bulunan oğlu VI. Konstantin'in naipliğini üstlenir. İrene ikonaları yeniden serbest bırakmak için hemen bir girişimde bulunmamıştır. IV. Leo'nun ölümünden tam 4 yıl sonra İrene, papaya bir mektup yazarak bir ekümenik konsil toplamasını rica etmiştir. İrene'nin patriklik makamına dini bir görevli olmayan devlet memuru Tarasios'u getirmesi imparatorluğun papa ile olan ilişkileri germişse de papa buna ikonaları tekrar yerine getirmesi şartıyla karşı çıkmayacağını bildirmiştir. VI. Konstantinos ve naibesi İrene gözetiminde Havariyyun Kilisesinde toplanan konsil ikonoklast gruplar hala etkin olduğu için askeri bir müdahale sonucunda yarıda kesilerek dağılmıştır (8, s.165).

Ertesi yıl 787'de İrene, karşıt görüşteki askerleri Sarazen tehlikesi nedeniyle kent dışına çıkartarak, İznik'teki Kutsal Bilgelik Kilisesi'nde yeni bir konsil toplar. Tarasios'un başkanlığında toplanan konsil İkonakırıcılığı herhangi bir direnişle karşılaşmaksızın usullere uygun şekilde yasakladı. Eski ikonakırıcıların tövbe etmeleri karşılığında kilise ve devlet kurumlarında görevlerine devam etmeleri sağlandı. İrene şimdiki konumunu kocası ve onun ailesine borçlu olduğunu bildiğinden onların suçlu olarak cezalandırılmamaları için itinayla hareket etti (7, s.25).

VI. Konstantinos 797'de annesi İrene'nin taraftarları tarafından tahtan indirildi ve gözleri dağlandı. Genç imparator bu olaydan sonra hayatını kaybetti. Bunun üzerine İrene kontrolü ele geçirdi ve erkek imparator unvanı olan basileus unvanını aldı. Roma ile kurulan bağlar, papa III. Leo'nun, I. Karl'a kendi eliyle taç giydirmesi ile kopmuştur ve böylece Roma İmparatorluğu o güne kadar sahip olduğu Hristiyan âleminin tek temsilcisi olma sıfatını kaybetti.

İrene 802 yılında bir isyan sonucu tahtan indirildi ve yerine saray memuru Nikephoros (802-811) geçti. Nikephoros dönemi daha çok ekonomiyi düzeltmekle geçer ve Nikephros'un (802-811) 811 yılında Bulgaristan'daki savaşta ölmesi üzerine de tahta Ortodoksluğu

kabul ettiğini beyan eden Mikhail Rangabe (811-813) geçmiştir. Mikhael (811-813) manastırlarla anlaşma yolunu seçmiştir. Hatta manastırlara yüklü miktarlarda bağış dahi yapmıştır. Ayrıca Mikhail, I. Karl'ın imparatorluğunu tanıyıp Basileus Romanium unvanını almıştır. Lakin bu dönemde ikonoklastların sesleri çıkmaya başlamıştır. İkonoklastlar, V. Konstantinus'u (741-715) anarak onun sürgündeki oğullarını geri getirmek için çabaladılar. Ayrıca bir keşişin Meryem'in bir tasvirinin yüzünü tahrip ettiği ve bu hareketinden dolayı dilinin kesildiği anlatılır. Mikhael Rangabe (811-813) Krum Hana karşı harekete geçmeye karar verdiği sırada ikonoklastların yaptığı bir komplo sonucu tahtan indirilir ve Anatolikon strategosu Ermeni Leon (V. Leo) (813-820) tahta çıkarılır (5, s.1223; 8, s.172; 17, s.742; 18, s.222).

***II. İkonakırıcılık Dönemi ve İkonoklazm Dönemi'n Sona Ermesi.*** II. İkonoklazma dönemi ilk döneme oranla zayıflamış olan bir harekettir. Bu dönemde ilk dönemdeki gibi şiddet olaylarına rastlanmaz. Hareketi yeniden canlandıran V. Leo (813-820) döneminden sonra hareket gücünü kaybetmiştir. Bu dönemde dahi hareketin şiddetini yitirdiğini görülmektedir. Zira Selanik'teki Hosius David Kilisesi apsis mozaiğinin açığa çıkartılması ve tekrar kapatılmaması gibi gelişmeler hareketin şiddetini yitirdiğinin en güçlü göstergesidir (5, s.1224).

V. Leo (813-820) doğu kökenli bir askerdir. Taç giyişi sırasında Khalke Kapısındaki İsa ikonasına şükranlarını sunsa da aslında kendisi tasvir karşıtıdır ve bu durum imparatorluğunun ikinci yılında anlaşılmıştır. Bu politikayı benimsemesinin nedeni bilinmemekle birlikte ya doğulu kimliğnden ötürü ya da politik bir amaçla seçtiği düşünülmektedir. Oğlunun adını Konstantinos olarak değiştirmesi, III. Leo'nun (717-741) izinde olduğunu kanıtlamaktadır. V. Leo‘nun (813-820) teolojik konularda pekte bilgisi bulunmaz. Leo'yu ikonoklast politikaya iten üç kişiden bahsedilir. Bunlar Theodotos Kossiretos, rahip Antonios ve Ioannes Grammatikov'tur. Bu üç rahip bir araya gelerek tasvir karşıtı hareketin yenilenmesi için teolojik zemini oluşturmuşlardır (10, s.39).

Tartışmalar devam ederken, Khalke kapısındaki İsa ikonası kaldırıldı ve Patrik Nikephoros görevinden alınarak sürgün edildi. Patriklik makamına Theodotos getirildi. Khalke kapısındaki İsa ikonasının kaldırılması İkonakırıcılık'ın imparatorluk politikası olarak yeniden kabulünün simgesi olmuştur. Ayrıca Ayasofya'da yeni bir konsil toplandı ve bu konsilde İkonakırıcı Hiera Konsili 'nin (754) kararları tekrar onaylanarak içlerinde Studioslu Theodoros 'un da bulunduğu birçok keşiş ve piskopos sürgüne gönderilmiştir. Theodoros sürgündeyken ikonoklazmaya karşı örgütlenme girişiminde bulunmuş ve papaya arabuluculuk talebinde bulunmuştur. Öte yandan imparatorluğun din politikalarına karşı olanlarında papalığa itirazlarını iletmeleri devrin dini ve politik tartışmalarını daha karmaşık bir hale sokacaktır (7, s.25; 18, s.226-227).

820 yılında V. Leo'nun (813-820) eski silah arkadaşı olan Amorionlu Mikhail (820-829) bazı kişisel ve ailevi nedenlerden ötürü imparatora karşı bir komplo hazırlığında bulunmuş ve bu komplonun fark edilmesi üzerine hapse atıldı. Amorionlu Mikhail'in (820-829) yandaşları Ayasofya'daki bir ayin sırasında V. Leon‘yu öldürürler. Tahta Amorion Hanedanı'nın kurucusu II. Mikhail (820-829) çıkmıştır. Mikhail ikona konusunun tartışılmasını yasaklayarak sürgündekilerin geri gelmesine müsaade etmiştir. Mikhail'den (820-829) sonra tahta oturan Theophilos'un (829-842) askeri açıdan bir başarısı bulunmasa da o, idari bir takım reformlarla merkezi yönetimi güçlendirmeye çaba göstermiştir. 837 yılında Ioannes Grammatikos'un patrik olarak tayin edilmesi ile tasvir karşıtlığı tekrardan güçlenmiştir. Theophilos (829-842) kaynakların ifadesine göre Arap hayranıdır ve bu dönemde Bizans mimarisi doğu etkisini görünür bir biçimde yansıtmaktadır (5, s.1225;18, s.227).

Theophilos'un (829-842) ölümü üzerine küçük yaştaki oğlu III. Mikhail'in (842-867) naibesi olarak eşi Theodora yönetimi eline alır. Theodora döneminde Ioannes Grammatikos görevinden alınarak yerine Methodios atanır. İkonoklast dönem Theodora ve Methodios'ın 843 yılında toplanan dini bir toplantıda VII. Ekümenik İznik konsili kararlarını onaylamaları ile sona ermiştir. Theodora, eşi Theophi-

los'un lanetlenen kişiler arasında anılmaması için Theophilos'un hasta yatağında tasvir yanlısı olduğunu itiraf edip bağışlanmayı dilediğini belirtir. Ayrıca V. Leo (813-820) tarafından kaldırılan Khalke kapısındaki İsa ikonası da Theodora tarafından tekrar yerine asılmıştır (6, s.62;18, s.232).

***Sonuç.*** İkonoklazm Dönem VIII. veya IX yüzyılda Bizans İmparatorluğunda devlet tarafından ikonalar ve ikona ibadetine karşı yürütülen politikadır. Başlangıçta kutsal tasvirlere ibadeti hedef alan hareket daha sonra genişleyerek batıl inanç ve adet olarak gördüğü kandil yakma ve tütsüleme vb. diğer uygulamaları da hedef alır.

726-843 yılları arasında İmparatorluğun gündemini bir yüzyıldan fazla bir süre meşgul eden ve etkisi din ve siyaset başta olmak üzere her alanda hissedilen İkonoklazma hareketi iki devreye ayrılmaktadır. İlk dönem III. Leo'nun 726 yılında yayınladığı tasvir aleyhtarı emirname ile başlar ve VI. Konstantinos adına devleti yöneten İmparatoriçe İrene döneminde 787 yılında tasvir kültünün yeniden canlandırılması ile sona erer. İkinci dönem ise İrene ve haleflerinin tasvir yanlısı tutumlarından sonra 813 yılında tahta oturan V. Leo'nun tekrar tasvirlere cephe almasıyla başlayıp III. Mikhail adına devleti yöneten İmparatoriçe Theodora döneminde 843 yılının Mart ayında toplanan konsilin tasvir kültünü yeniden kabul etmesiyle sona ermiştir.

İkonoklazm mücadelesi resmi olarak VIII. asrın ortalarında başlamış olmakla beraber tasvir karşıtı hareketin tarihi arka planı uzun bir süreçtir. Tasvirlerle ilgili farklı görüşler Hristiyanlığın ilk asırlarından itibaren ortaya çıkmıştır. İkon yapımını destekleyenler bulunurken karşı çıkanlarda bulunmaktaydı.

İkonoklazm Hareketi Bizans'ın sürekli Araplar karşısında yenilgiye uğraması ve ikon yapımının büyük maliyete sahip olması dolayısıyla ortaya çıkmış olması muhtemeldir. Zira Araplar karşısında uğranılan yenilgilerin ve yaşanılan mali sıkıntıların Tanrı'nın İmparatorluğu cezalandırdığı düşüncesine sebep olmuştur. Tasvir aleyhtarlarına göre, Hristiyanların ikonlara olan ibadetinin artması dolayısıyla puta tapan halkı Tanrı cezalandırmaktaydı.

# KAYNAKÇA

1. Ahmet Hikmet Eroğlu. Doğu Batı Kiliselerinin Ayrılış Sebepleri // *Dini Araştırmalar Dergisi,* C.2, S.5, 1999, s.387-414.
2. Auguste Bailly. Bizans Tarihi *I*. (Çev. Haluk Şaman), İstanbul, Tercüman Gazetesi, 1974,440 s.
3. Casim Avcı. İslam- Bizans İlişkileri *(610-847).* Ankara, TTK Yay., 2018, 320 s.
4. Charles Diehl. Bizans İmparatorluğu Tarihi. (Çev. A.Göke, Bozkurt), İstanbul, İlgi Yay., 2006, 176 s.
5. Fatma İnce. Bizans Devletinde İkonacılık-İkonakırıcılık ve Bunun Sümela Manastırındaki Yansımaları // I. Uluslararası Geçmişten Günümüze Trabzon'da Dini Hayat Sempozyumu, (8 -10 Ekim 2015 Trabzon), İstanbul, Değişim Yay., 2016, s.1217.
6. Fatmagül Berktay. Bizans'ta İkonakırıcılık Din, Kadınlar ve Tasvirin Önemi // Toplumsal Tarih, 2007, s.58-62.
7. Francis Dvornik. Konsiller Tarihi İznik'ten II. Vatikan'a. ( Çev. Mehmet Aydın), Ankara, TTK Yay., 1990, 137 s.
8. Georg Ostrogorsky, Bizans Devleti Tarihi. (Çev. Fikret Işıltan), Ankara, TTK, 2015, 582 s.
9. Gülgün Köroğlu. Bizans Sanatında İkonoklazma Dönemi. İstanbul, Mimar Sinan Üniversitesi Sosyal Bilimler Enstitüsü, 1994, 269s.
10. İdil Öncü. Bizans İmparatorluğu'nda İkonoklast Dönem (726-843), Konstantinopolis ve Yakın Çevresindeki Etkileri. Ankara, Hacettepe Üniversitesi Sosyal Bilimler Enstitüsü, 2010, 171 s.
11. Jung Hye Lee. Bizans Siyasi ve Sosyal Tarihinde Tasvir Kırıcılık (İkonoklazma) Hareketinin Başlangıç Dönemi. İstanbul, İstanbul Üniversitesi Sosyal Bilimler Enstitüsü, 2004, 86 s.
12. Mehmet Aydın. Bizans Kilisesinde İkonoklast Tasvir Kırıcı Hareketin Kökenleri // Necmettin Erbakan Üniversitesi İlahiyat Fakültesi Dergisi, C. 13, S.13, 2002, s.5-14.
13. Mustafa Göregen. İkonoklastik Konsil ve Yahya Dımeşki // Kafkas Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, S. 14, 2014, s. 59-74.

14. Nevra Necipoğlu. Judith Herrin'le Söyleşi: Bizantolojide Yeni Eğilimler //(Çev. Ayşe Hür), *Toplumsal Tarih*, S.28. 1986, s.13-20.
15. Onur Yamaner. Bizans İkonakırıcılığı Üzerine Bir İnceleme: III. Leon ve İkonakırıcılık //Akademik Bakış Dergisi, S.29, 2012, s.1-10.
16. Paul Lemerle. Bizans Tarihi. (Çev. Galip Üstün), İstanbul, İletişim Yayınları, 2019, 135 s.
17. Talat Koçak. İmparatoriçe İrene'nin Yasa Eklerine Göre Roma Hukukunda Kitab-ı Mukaddes İzleri //Cumhuriyet İlahiyat Dergisi, C.24, S.2, 2020, s.735-748.
18. Timothy E. Gregory. Bizans Tarihi. (Çev. Esra Ermert), İstanbul, Yapı Kredi Yayınları, 2008, 452s.

**SUMEYYA EKINCI**
*İnönü Universty, Institute Of Social Sciences,*
*Department Of History, Graduate Student*

## ICONOCLASM MOWEMENT IN BYZANTİUM

The word icon, icon, is mostly used to describe religious figures or paintings with religious themes made on wood in different sizes and portable sizes, with mosaic, marble or metal reliefs and other techniques. The word iconoclast means depiction, and Iconoclasm refers to the policy carried out by the state against icons and icon worship in the Byzantine Empire in the 8th or 9th centuries. One of the most notable phenomena in Byzantine History is the Iconoclasm movement, which opposes the sanctity of religious paintings and their worship. The movement, divided into two periods, refers to a process that lasted from 726 to 843. The movement, which had occupied the Empire's agenda for nearly a century, initially targeted worship of sacred depictions. The movement then expands, targeting superstition and other practices it considers menstrual.

*Keywords*: Byzantine Empire, Icon, Iconoclasm, Leo III.

*Daxil olma tarixi*: 29.04.2022-ci il.
*Çapa imzalanma tarixi*: 25.05.2022-ci il.

**UOT 94**

**ÜLFƏR MƏMMƏDLİ**
*Bakı Dövlət Universitetinin I kurs magistrantı*
**ulfermemmed@gmail.com**

# TÜRKLƏRİN DÜNYA HÖKMRANLIQ İDEALI - QIZILALMA

*Elmi rəhbər:*
Tarix üzrə fəlsəfə doktoru Sevinc Ruintən
Bakı Dövlət Universiteti

*Qızılalma türklərin hədəfi olmaqla yanaşı, fəth və hökmranlıq anlayışını ifadə edən ən qədim məfkürələrdən biridir. Türk dövlətinin o zamankı gücünə uyğun olaraq Qızılalma bəzən qərbdə şəhər, bəzən də şərqdə bir yer olmuşdur. Qızılalma coğrafi yer, fəth edilməli olan məkandan daha çox Türk millətinin hədəfi olaraq zehinlərdə yerini almışdır. Zaman-zaman dövlət olma idealı olan Qızılalma, çox vaxt türk birliyi idealının adı olmuşdur. Bütün dövrlərdə Qızılalma öz mənbəyini xalqdan götürmüş və xalqı hərəkətə gətirən simvola çevrilmişdir.*

*Açar sözlər*: Qızılalma, məfkürə, ülkü, türk, cahan hakimiyyəti.

***Giriş.*** Tarixin ən köklü xalqlarından biri olan türklər qədim zamanlardan dünyanın müxtəlif yerlərində gah toplum, gah dövlət, gah da imperiya şəklində mövcud olmuşlar. Türk millətinin keçmişdən bu günə kimi varlığını qoruması, adının ölü xalqlar içində olmamasının arxa cəbhəsində bir milləti yaşadan məfkürələr (ülkü, məfkürə, ideal, milli qayə, simvol kimi sözlərdən məqaləmin sonrakı gedişində eyni mənada istifadə edəcəm) dururdu. Nihal Atsız "Türk ülküsü" əsərində məfkürənin xalq üçün nə qədər əhəmiyyətli olduğundan bəhs etmişdir.

*Toplumda insanları bir-birinə bağlayan təkcə etnik birliyi, mənafe və ehtiyacları deyil, həm də bunlarla birlikdə ülküdür. Məfkürəsiz bir cəmiyyət yerində sayan, məfkürəli bir cəmiyyət isə irəliləyən*

*kütlədir. Ülkü əvvəlcə, insanların, qəlbinin dərinliklərində, şüuraltında, xəyallarında yaranır və özünü dastanlarda göstərir. Sonra şüura keçir və araşdırmaçılar tərəfindən izah edilir. Daha sonra isə, qəhrəmanlar bunu həyata keçirmək üçün hərəkətlər edirlər. Bütün bunların nəticəsi olaraq millət əvvəlcə mənəvi, sonra maddi olaraq irəliləyir, yetişir, kamilləşir. Türk dastanlarından yaranan ümumiləşdirməyə görə, Türkün məfkürəsi fəthlərin nəticəsində böyük və qüdrətli dövlət qurmaq, bu dövlətdə bolluq və əmin-amanlığa nail olmaqdır. Demək olar ki, hər bir millət həm də milli qayələrinin arxasındadır. Millətlərin böyüklüyünə, qabiliyyətinə görə milli idealların təfərrüatlarında fərqlər olsa da, onların hamısı ana xətt baxımından bir-birinə bənzəyir: Böyümək və rahatlıq qazanmaq!* [6, s.18].

Bir millətin varlığının qorunub saxlanılmasında əhəmiyyətli rol oynayan ülkülərdən bəhs edərkən türklərin tarixə miras qoyduğu simvol olan Qızılalma idealı haqqında danışmamaq mümkün deyildir. Bu məqaləmdə Qızılalma nədir? Qızılalma haqqında hansı müxtəlif fikirlər mövcuddur? Türklərdə və başqa toplumlarda Qızılalma nədir? kimi suallara cavab tapmağa çalışacam.

***Qızılalma məfkürəsi nədir?*** Əsasən, cahan hakimiyyəti olaraq bizə məlum olan Qızılalma məfkürəsi haqqında müxtəlif mənbələrdə müəlliflər tərəfindən səslənən fikirlər bir-biriylə oxşarlıq təşkil etməklə yanaşı, bir o qədərdə bir-birindən fərqlənir. Bunun səbəbi isə, fikrimizcə, müxtəlif tarixi dövrlərdə gedən proseslərlə əlaqədar olaraq Qızılalmaya fərqli yanaşmaların mövcudluğundan irəli gəlir.

“Qızılı” türk mədəniyyətində ümumiyyətlə qiymətli sayılan rəng, "alma" isə, əksinə, mistik anlayışa malik olmaqla, bolluq, məhsuldarlıq və şəfa mənbəyi hesab edilən bir meyvədir. Ancaq Qızılalma idealının alma üzərində deyil, əski türklərdə Günəş və Ayı təsvir edən qızıl top üzərində qurulduğu hesab olunur. Türk milliyətçiliyinin əhəmiyyətli simvollarından biri olan bu Qızılalma bəzən cahan hakimiyyətinin simvolu, bəzən türk birliyi, bəzən türk millətinin düşüncəsi, bəzən də fəth edilmək üzrə seçilən yerin simvolu kimi xarakterizə edilmişdir. Bunlardan əlavə, bir çox tədqiqatçılar Qızılalmanı yaxınlaşdıqca uzaqlaşan və uzaqlaşdıqca cazibəsi artan bir xə-

yali yer kimi təsvir edirlər. Fikrimizcə, bu fikri doğru hesab etmək olmaz . Belə ki, Qızıl Alma konkret hədəflər siyahısıdır, bir utopiya deyil. Lakin hər bir dövr Qızılalmasını öz şərtləri və reallıqları çərçivəsində dəyərləndirmək lazımdır.

***Qızılalma haqqında müxtəlif baxışlar.*** Müxtəlif yazarlar tərəfindən qələmə alınan Qızılalma idealı haqqında, əsasən, subyektiv fikirlər çoxluğu özünü göstərsə də, bu fikirlər sayəsində faktiki olaraq obyektiv nəticəyə gəlmək mümkündür. Övliya Çələbi və Peçəvi İbrahim Əfəndi Qızılalma haqqında ilk söhbət açan, hekayələrini yazıya çevirənlərdir. Onlar öz əsərlərində Qızılalmaya məkan baxımından yanaşmışlar. (məqaləmin sonrakı hissəsində həmin şəhərləri qeyd edəcəm).

Nihal Atsız "Türk Ülküsü" əsərində Qızılalmanı türk xalqının öz düşüncəsinin məhsulu kimi vermiş, hər hansı bir məkana işarə etməmişdir.

*"Bu addakı sadəlik və təbiilik, Türk məfkürəsinin çox qədim olduğunu göstərmək baxımından əhəmiyyətlidir. Qızılalma adı, məfkürənin ilk öncə xalq arasında meydana çıxdığını göstərir. Qızılalma məfkürəsi, Osmanlının parlaq çağlarında formalaşmışdır və malikanə türk böyüklüyünün təcəssümünü ifadə etmişdir"* [6, s.19].

Ziya Göyalp "Kızılelma" əsərində Qızılalmanı Turan məfkürəsi ilə birləşdirərək ona yeni məna qazandırmışdır. Kitabın adını "Kızılelma" qoyması heç də təsadüf deyil, hətta kitabındakı ilk şeir "Turan" şeiri ilə başlayır. Bu iki şeir Ziya Gökalpın həyatı boyu müdafiə və ifadə etdiyi əsas fikirlərin xülasəsidir. "Turan" şeiri türklərin böyük bir ölkədə bir yerdə yaşamaq ideallarını və arzusunu təsvir edərkən, "Qızılalma" bu ölkədə yaşayan insanların idealını ifadə edərək, onların axtarmalı olduqları ideyalara işarə edir. *Kızılelma oldu bir güzel Cennet, Oradan Turan'a yağdı saadet* [11, s.416]. Göyalp, Türk millətinin qurtuluş yolu olaraq bu məfkürə altında birləşməyi göstərmişdir [5, s.508].

Ömər Seyfəddin "Kızılalma neresi?" əsərində sultanın getmək, işğal etmək istədiyi yer kimi göstərmişdir. Burada xəyali bir yerdən daha çox həqiqətən var olan ərazilər düşünülür. *"Kızılalma neresi?"*

*hekayəsinin sonunda Sultan Süleyman Qanuni üç əsgərin gətirilməsini xahiş edir və onlardan Qızılalmanın harada olduğunu soruşur. Üç nəfərdən də Qızılalma sultanımızın bizi aparacağı yer, harada olmasını təkcə sultanımız bilir, cavabını alan Sultan Süleyman bu nəticəyə gəlir ki, "Qızılalma mənim getmək istədiyim yerdir. Haqqın məni göndərəcəyi yerdir* [5, s.509].

Osman Turana görə, Qızılalma cahan hakimiyyətidir, həmçinin o, cahan hakimiyyətinin maddi və mənəvi qaynaqlarını vermişdir. Bundan əlavə, Qızılalmanı Hunların zamanında ortaya çıxdığını bildirmişdir. *Türklərin dünya hökmranlığı və idealları ilk olaraq böyük türk imperiyasını quran Hunlar, xüsusən də, hökmdarı Mete xaqan ilə başlamışdır* [15, s.7].

İsmail Hami Danişmənd "Kızılelmanın çürüyüşü" əsərində Qızılalmanın Osmanlı imperiyasının süqutu ilə bərabər artıq yox olduğunu irəli sürür. *Osmanlı dövlətinin ilk vaxtlarında Qızılalma unudulduğu gündən çürüməyə başladı, sonrakı dövrlərdə isə Qızılalma tamamilə çürüdü!* [8, s.161-162] Fikrimizcə, bu tamamilə yanlışdır. 2018-ci ildə Afrin əməliyyatı zamanı telekanal müxbirinin cəbhəyə gedən Çavuş Mehmed Kuzudan istiqamət haradır? sualını soruşduqda "Qızılalmaya" [9] cavabını alması və 2022-ci ildə Türkiyə Respublikasının Qızılama puasını təqdim etməsi [3] məfkürənin qədimdən günümüzə qədər davam etməsini göstərir.

Muhsin Kadıoğlu "Kızılelma" əsərində Qızılalmanı İslam mənşəli ülkü olduğunu irəli sürür. O göstərir ki, *Qızılalma idealı İslam mənşəlidir. İstanbulun fəthi və Ayasofyanın İslam məbədi kimi tikilməsi də Qızılalmalardır* [10, s.12]. Lakin bir şeyi unutmaq olmaz ki, Qızılalma islamdan öncə türklər arasında artıq varlığını sübut etmişdir.

Qızılalmanın türklərdən başqa digər toplumlarla bağlı olduğunu iddia edən tədqiqatçılara da rast gəlirik. Carl Brockelmann və Martin Hartmann Qızılalmanın mənşəyinin yunan mifologiyası olan Hesperidlərin Qızılalmalarından gəldiyini iddia edərkən, Avqust Fişer onu dünya hökmranlığının simvolu kimi göstərir. Bəzi tədqiqatçılar isə, Qızılalmanın Şərq ölkələrində də suverenlik rəmzi hesab edildiyini göstərən müxtəlif tarixi qeydlərə diqqət yetirirlər [14].

Roerik H.Davison, E.J.Gibb və ya onlardan sonra Stefanos Yerasimos kimi tədqiqatçıların fikrincə, Qızılalma əfsanəsi Bizansda yaranmışdır [1].

***Digər toplumlarda Qızılalma.*** Xüsusən, Yunan mifologiyasında Qızılalma ilə bağlı əfsanələr geniş yayılmışdır. Hətta türklərin həmin əfsanələrdən qaynaqlanaraq Qızılalma məfkürəsini ortaya çıxarmalarını iddia edənlərdə az deyil. Unudulan bir şey var ki, Türklərdə Qızılalma məfkürə olaraq qeyd olunursa, Yunan mifologiyasında bu sadəcə bir əfsanə olaraq keçir. Bundan başqa, türklərdə birləşdirici simvol olaraq öz əksini tapan Qızılalma digər yunanlarda nifaq, acgözlük, hiyləgərlik simvolu kimi xarakterizə edilir.

Yunan mifologiyasında Qızılalma ilə bağlı əfsanələr "Hesperidlər bağındakı Qızılalmalar", "Atalanta ilə əlaqəli Qızılalmalar" və "qızıl nifaq alması"dır.

Hesperid bağçasındakı Qızılalmalar Heraya toy hədiyyəsi idi və Ladon adlı böyük əjdaha tərəfindən qorunurdu. Qızılalmalara Hesperidlər, kiçik pərilər və Titan Atlasın qızları qulluq edirdi. Kral Eurystheus Heraklı üç Qızılalma almaq üçün Bağçaya göndərir. Herakl müxtəlif hiylələrdən istifadə edərək əmri yerinə yetirmiş olur [18].

Hesperidlərin Qızılalmaları ölümsüzlüyü təmsil edirlər. Qızılalmalar tanrılara məxsus idi və tanrılar onları asanlıqla geri ala bildilər. Başqa sözlə, ölümsüzlük (və almalar) ölümlülərə deyil, yalnız tanrılara aid idi.

Atalanta, ayı tərəfindən böyüdülən qız idi və ondan üstün ola biləcək ilk kişi ilə evlənəcəyinə söz vermişdi. Hippomen (və ya Melanion) onunla evlənmək üçün Afroditadan kömək istəmişdi. Afrodita ona qızıldan üç alma verir və onlardan necə istifadə etməsini söyləyir. Yarış zamanı o, hər dəfə almalardan birini Atalantanın qabağına atır. Atalanta öz nəfsinə sahib çıxa bilməyib sirli meyvələri götürmək üçün dayanır. Beləliklə, Hippomenes onu məğlub edir. O, Afroditanın köməyi müqabilində ona dua etməli idi, fəqət məqsədinə çatdıqdan sonra bunu unudur [20]. Burada Qızılalma diqqəti yayındırmağı simvolizə edir.

Yəqin ki, Yunan mifologiyasının almalarının ən məşhuru Troya müharibəsini dolayı yolla başlatmış qızıl alma olan nifaq almasıdır. Tanrılar toya toplaşanda bu məclisə dəvət edilməyən Eris toyun əyləncəsini pozmaq üçün ilahələrin yerinə üzərində "ən gözəlinə" yazıldığı qızılalma atır. Bu yazını görən tanrılar Hera, Afina və Afrodita arasında mübahisə başlayır. Tanrıların tanrısı kimi simvollaşdırılan Zevs bu müzakirəyə son qoymaq üçün Troya Paris adlı birinə tanrıların ən gözəlini seçməyi tapşırır. Bununla da, məşhur Troya müharibəsi başlayır [19]. Nifaq alması adından da bəlli olduğu kimi problemin mahiyyətini aşkara çıxarır. Bütün bu mifologiyaların hamısı hiyləgərlik edən Herakl, nəfsinə sahib ola bilməyən Atalanta, eqoist olan Hippomen, mübahisə yaratmayı sevən Eris kimi mənfi xarakterli insanlarla əhatə olunmuşdur.

Yunan mifologiyasından başqa Skandinaviya və İrlandiya mifologiyasında da Qızılalmalara rast gəlirik. Skandinaviya mifologiyasında ölümsüzlük mənbəyi, İrlandiya mifologiyasında isə o biri dünyada alma budağının bir hissəsi olan İzun tanrısının yetişdirdiyi alma əfsanələridir. Türklərdə olan Qızılalmalardan tamamilə fərqləndiklərindən dolayı, bu əfsanələrin heç biri türklərə təsir etməyib [10, s.11].

Haqqında bəhs etdiyim mifologiyalardan başqa Bizansdakı Yustinian heykəlində də Qızılalma təsvir olunmuşdur. Dövrün Bizans tarixçisi Prokopios Ayasofya qarşısında sütunda atın üzərində I Yustinianın (527-565) təsvir olunan heykəli haqqında belə deyir: "Və doğan Günəşə baxır. Bu vaxt o, sol əlində qlobus tutaraq iranlıların üzərinə yürüş edir. Heykəltəraş bu qlobusla əlində qılınc, nizə və ya başqa bir silah olmasa da, bütün yerin və dənizin ona bağlı olduğunu göstərmək istəyirdi. Amma əlindəki qlobusun üzərində xaç var. O, öz imperiyasını, müharibələrdəki qələbəsini bu xaç sayəsində qazandı. Sağ əlini çıxan Günəşə tərəf uzadıb barmaqlarını açır və o tərəfdəki barbarlara öz torpaqlarında qalmalarını və yaxınlaşmamalarını əmr edir [1].

I Yustinian heykəlinin əlində qızıl qlobusun (Qızılalmanın) XV əsrdə düşməsi, Bizans başda olmaqla bir çox ölkənin türklər tərəfindən tutulacağına və imperiyanın çöküşünə işarə sayılırdı. Bundan əlavə, buradakı bir yazıda "nə qədər ki, bu top mənim əlimdədir,

dünyaya sahibəm" sözləri yazıldığı deyilir [16, s.61]. Bir çox tədqiqatçılar görə, "Türklər İstanbulu ələ keçirdikdən sonra Bizansa məxsus bu Qızıl topun özlərinə aid olduğunu iddia etməyə başlamışlar" fikrini səsləndirirlər. Lakin türklərdə olan Qızılalma çox qədim zamanlarda özünü göstərmişdir. Həmçinin, burada olan Qızıl top təkbaşına deyil xaçla birlikdə dünya hökmranlığını ifadə edir.

***Türklərdə Qızılalma.*** Türklərdə Qızılalma ülküsünün çox böyük anlamı vardır.

Bildirilir ki, keçmişdə türklər Altay xalqlarındakı Qızılalmaları müqəddəs görüb, onların şərəfinə ziyafətlər keçirmişlər [13, s.135]. Qızılalmanın harada və nə zaman ortaya çıxması ilə bağlı dəqiq məlumat yoxdur. Tədqiqatçılar tərəfindən ilk olaraq "Ərgənəkon" dastanı Qızılalmanın mənbəyi kimi göstərilsə də, zənnimizcə, bu daha qədimlərə gedib çıxa bilər.

Düşmənin hiyləsinə hədəf olan türklərin Ərgənəkon düzənliyində yenidən törəyib təkrar öz torpaqlarına dönmə əzmini və düşmənlə mübarizəsini ifadə edən dastanın Qızılalma idealının təməlində dayanması təsadüfi deyildir. XVI əsrdən yeni bir vüsət alan Qızılalma cahan hakimiyyəti idealının istiqamət hədəfləri də Avropa ölkələri idi. Burada "əski yurda təkrar dönmək" fikirləri də Qızılalma idealının köklərini daha qədim zamanlarda tapa bilmək ehtimalını artırmaqdadır [4].

Aydındır ki, Qızılalmanın adı ilk dəfə türk dastanlarında, yəni milli şüur və inanclarında çəkilmişdir. Bildiyimiz kimi, millət qəhrəmanlar dünyaya gətirir və o qəhrəmanlar xalqın şüurundakı idealları təcəssüm etdirməyə doğru addımlar atmağa başlayırlar. Görəcəksiniz ki, əsrlər boyu yatmış kimi görünən böyük şövq və iddialar milli davaya çevrilib, millətin istiqamətini müəyyən edib.

Türklərin cahan hakimiyyəti məfkürəsi, əsasən, büyük bir Türk imperiyası quran Hunlar ilə, xüsusilə, onların hökmdarı Mete xaqan ilə daha geniş vüsət almışdır. Oğuz Xanın əldə etmək istədiyi Pekin onun Qızılalması olmuşdur. Göytürklər hunların davamçısı olmuşdur. Onların milli şüur və dünya hökmranlığı idealı tarixdə daha müstəsna yer tuturdu. Göytürklərə aid olan Orxon abidələri isə milli

şüur, demokratik ruh, insanlıq hissi və dünya hökmranlığı baxımından bənzərsiz bir əsərdir. Səlcuqların Qızılalması Anadoluya sahib olmaq olmuş, Osmanlı imperiyası dövründə isə Qızılalma öz zirvəsini yaşamışdır. Osmanlı imperiyası ilə Qızılalma həqiqətə əvvəlkindən daha çox yaxınlaşır.

Övliya Çələbi, Avropada altı əsas Osmanlı Qızılalmasından bəhs edir. Lakin o, onlardan beşini (Budin, Belqrad, Esztergon, Vyana, Roma) qeyd edir. Altıncı şəhərin adını isə Peçevinin "əhli İslam" əsərində Köln şəhəri kimi qeyd edirlər [8, s.156]. Bəs Övliya niyə “altıncı Qızılalma”nın adını çəkmədi? Bu təbii ki, unutqanlıq ola bilər. Bununla belə, bu Qızılalmanın ruhuna uyğun gələn bir müəmmadır. Çünki Qızılalma əldə edilənlərdən kənara çıxan bir idealın adıdır [17, s.35].

Osmanlı imperiyasında Qızılalma sultanların miniatürlərində öz əksini tapıb. Topkapı Sarayı Muzeyinin Kitabxanasında I Əhməd Albomu kimi tanınan bir albom var. Əlində qızıl kürə tutan və Sultan Osman Qazidən, Sultan III Murada qədər miniatür texnikasında on iki Osmanlı sultanının portretləri var [11, s.189] Bu, Qızılalmanın Osmanlı imperiyasında Cahan Hakimiyyəti kimi təcəssüm olunduğunu göstərir.

***Nəticə.*** Qızılalma türklərin qarşılarına qoyduğu hədəf-ülküdür. Qızılalma ülküsü sonsuzdur. Tarixin müəyyən dövrlərində bu ülkü coğrafi yer, birlik idealı, cahan hakimiyyəti və.s kimi fərqli xarakterizə edilmişdir.

Turan dünyada Türklərin yaşadıqları coğrafi məkan mənasına gəlirsə, Qızılalma müasir çağımızda tarixin müxtəlif dönəmlərində dünyaya yayılmış türk izlərini aşkar etmək, dünya mədəniyyətinə türklərin verdiyi töhfələri meydana çıxarmaq, türklərin öz qədim torpaqlarına bütünlüklə hökmranlıq etmə ülküsü anlamına gəlir.

Ümumiyyətlə, Türkün məfkürəsi bütün türklərin birləşməsinə əsaslanır. Qızılalma, qədim dövrdə Ərgənokon dağından bir igidin rəhbərliyində oradan çıxaraq cahan hakimiyyətini yaymaq, Kürşad üçün qəhrəmanca vuruşub ölmək, lakin geri çəkilməmək, Toğrul və Çağrı bəyin rəhbərliyi ilə Anadoluya gəlmək, Sultan Alp Arslan üçün

Malazgirt savaşında qalibiyyət, Sultan Fateh Mehmed üçün 1453-cü ildə İstanbulu ələ keçirmək, M.Ə.Rəsulzadə üçün Demokratik Respublika qurmaq, M.K.Atatürk üçün dövləti qorumaqdır. Keçən əsrin 90-cı illərində Qızılalma yenidən müstəqillik qazanmaq olmuşdur. Günümüzdə isə Qızılalma Krım, Qaraqalpaqıstan, Qaqauziya, Qaraçay, Dağıstan, Balkariya, Tatarıstan, Başqırdıstan, Tuva, Şoriya, Yakutiya, Xakasiya, Altay, Çuvaşiya, Güney Türküstan, Güney Azərbaycan, Şərqi Türküstandır. Türk var olduqca var olan məfkürədir. Yolumuz Qızılalma...

*Orda bir yol var, uzaqda*
*O yol bizim yolumuzdur.*
*Dönməsəkdə, varmasaqda*
*O yol bizim yolumuzdur…*

## ƏDƏBİYYAT

1. Ayşe Hur. Kızılelma nedir, neresidir? / Radikal, Dijital gazete, 13.12.2015. - http://www.radikal.com.tr/yazarlar/ayse-hur/kizil-elma-nedir-neresidir-1491607/ [Müraciət tarixi: 16.04.2022].
2. Banuçiçek Kırzıoğlu. Kızılelmanın türklük için anlamı ve Cengiz Aytmatovun kızılelma hikayesi // Atatürk Üniversitesi Türkiyat Araşdırmalar Enstitüsü dergisi, 2010, Sayı 7, s.89-101. - https://dergipark.org.tr/tr/download/article-file/33252 [Müraciət tarixi: 16.04.2022].
3. “Bayraktar” “Kızılelma” adlı yeni PUA-nı təqdim etdi. - https://qafqazinfo.az/news/detail/bayraktar-kizilelma-adli-yeni-pua-ni-teqdim-etdi-foto-356608 [Müraciət tarixi: 16.04.2022].
4. Bəsirə Əzizəli, Muhsin Kadıoğlunun. "Kızılelma" kitabında türkün Qızıl Alma idealı / Ədəbiyyat qəzeti, 2018. - http://www.anl.az/down/meqale/edebiyyat/2018/aprel/588533.htm [Müraciət tarixi: 16.04.2022].
5. Fatih Özdemir. Kızılelmayı arayan üç yazar: Ömer Seyfettin, Ziya Gökalp, Ragib Şevki Yeşim // International Periodical For the

Languages, Literature and History of Turkish or Turkic Volume 3/5 Fall, 2008, s.503-515. - http://turkoloji.cu.edu.tr/YENI%20TURK%20EDEBIYATI/fatih_ozdemir_kizil_elmayi_arayan_uc_yazar.pdf [Müraciət tarixi: 16.04.2022].
6. Hüseyin Nihal Atsız. Türk Ülküsü. Ankara, Ötüken neşriyat, 2011, 167 s. - https://www.otuken.com.tr/u/otuken/docs/t/u/turk-ulkusu-1606225552.pdf [Müraciət tarixi: 16.04.2022].
7. İsmet Çetin. Kızılelma // Düşünce Dünyasında Türkiz Siyaset ve Kültür Dergisi, 2014, Sayı 25, s.55-88. - https://www.tasav.org/media/k2/attachments/25.pdf [Müraciət tarixi: 16.04.2022].
8. İsmail Hami Danişmend. Kızılelmanın çürüyüşü // Düşünce Dünyasında Türkiz Siyaset ve Kültür Dergisi, 2014, Sayı 25, s.155-162. - https://www.tasav.org/media/k2/attachments/25.pdf [Müraciət tarixi: 16.04.2022].
9. "İstikamet Kızıl Elma" diyen Uzman Çavuş Mehmet Kuzu'nun ailesi konuştu / HaberTürk, 24.01.2018. - https://www.haberturk.com/istikamet-kizilelma-diyen-uzman-cavus-mehmet-kuzu-nun-ailesi-konustu-1809546 [Müraciət tarixi: 16.04. 2022].
10. Muhsin Kadıoğlu. Kızılelma (Golden apple), 173 s. - https://books.google.az/books?id=LrtQDwAAQBAJ&printsec=frontcover&source=gbs_ge_summary_r&cad=0#v=onepage&q&f=false [Müraciət tarixi: 16.04.2022].
11. Necati Gültepe. Kızılelmanın izinde. İstanbul, Elif Kitabevi Milenyum yayıncılık, 2007, 443s. - https://www.pdfdrive.com/necati-g%C3%BCltepe-e48844194.html [Müraciət tarixi: 16.04.2022].
12. Nurullah Bulut. Soyut bir ülkü olan kızılelma ve Ömer Seyfettinin kaleminden kızılelma, 19 s. - https://www.academia.edu/38475767/SOYUT_B%C4%B0R_%C3%9CLK%C3%9C_OLAN_KIZILELMA_VE_%C3%96MER_SEYFETT%C4%B0N_%C4%B0N%C4%B0N_KALEM%C4%B0NDEN_KIZILELMA [Müraciət tarixi: 16.04.2022].

13. Oğuz Şentürk, Hakimiyyetin sembolü: Kızılelma // Türk Dünyası Araşdırmaları dergisi, Cilt 123, Sayı 242, s.131-140. - https://dergipark.org.tr/tr/download/article-file/851288 [Müraciət tarixi: 16.04.2022].
14. Orhan Şaik Gökyay. Kızılelma / İslam Ansiklopedisi, 25.Cilt. Ankara, TDV, 2002, s.559-561. - https://islamansiklopedisi.org.tr/kizilelma [Müraciət tarixi: 16.04.2022].
15. Osman Turan, Türk Cihan Hakimiyeti mefküresi tarihi: Türk Dünya nizamının milli, islami ve insani esasları // Düşünce Dünyasında Türkiz Siyaset ve Kültür Dergisi, 2014, Sayı 25, 7-24s. - https://www.tasav.org/media/k2/attachments/25.pdf [Müraciət tarixi: 16.04.2022].
16. Rahmi Sönmez. Yasak elmadan, Kızıl elmaya // İpek Yolu Medeniyyetler dergisi, Sayı 15, s.60-68. - https://www.tdmmb.org.tr/storage/catalogs/references/ipekyolu-medeniyetleri-15sayi-3-0626829001539797985.pdf [Müraciət tarixi: 16.04.2022].
17. Recai Coşkun, Kızılelmadan Türk İslam ülküsüne: Türklerin Küresel Düşleri // Düşünce Dünyasında Türkiz Siyaset ve Kültür Dergisi // 2014, sayı 25, s.25-54. - https://www.tasav.org/media/k2/attachments/25.pdf [Müraciət tarixi: 16.04.2022].
18. Symbolism of the Apple in Greek Mythology. Highgate Private School Nicosia, CYPRUS, 3 p. - https://ec.europa.eu/programmes/erasmus-plus/project-result-content/273d0f04-3c91-49da-a490-736b006c209c/CYPRUS_Symbolism_of_the_Apple.pdf [Müraciət tarixi: 16.04.2022].
19. The Apple of Discord -The Story of the Trojan War, 4 p. - https://www.wboro.org/cms/lib/NY01914047/Centricity/Domain/1006/Story%20of%20Trojan%20War.pdf [Müraciət tarixi: 16.04.2022].
20. The Golden Apples, The story of Atalanta and Hippomenes, p.51-54. In: Favorite Greek Myths. Retold by Mary Pope Osborne.

Scholastic Press, 1989, 96 p. - http://saintrita-school.org/wp-content/uploads/Golden-Apples.pdf [Müraciət tarixi: 16.04.2022].

**ULFAR MAMMADLI**
*1st year master student of Baku State Universitety*

## THE IDEAL OF TURKISH WORLD DOMINATION – THE GOLDEN APPLE

In addition to the goal of the Turks, Golden Apple is one of the oldest ideologies expressing the concept of conquest and domination. According to the power of the Turkish state at that time, sometimes has meant a city in the west and sometimes a place in the east. Golden Apple is not only a geographical place or a place to be conquered, but also a target of the Turkish nation. Golden Apple which is the ideal of statehood from time to time, has often been the name of the ideal of Turkish unity. Throughout the ages, Golden Apple has taken its source from the people and has become a symbol that moves the people.

*Keywords*: Golden Apple, ideology, ideal, Turkish, world power.

*Daxil olma tarixi*: 20.04.2022-ci il.
*Çapa imzalanma tarixi*: 25.05.2022-ci il.

№6(6) 2022

**UOT 94(479.24)**

**ÜLFƏR MƏMMƏDLİ**
*Bakı Dövlət Universitetinin I kurs magistrantı*
**ulfermemmed@gmail.com**

**SEMA ŞAHBAZ**
*Humboldt Üniversiteti Berlin,*
*Kültür, Sosyal ve Eğitim Bilimleri Fakültəsi,*
*Asya ve Afrika Araşdırmaları Enstitü,*
*Merkezi Asya Araşdırmaları ihtisası üzrə magistrant*
**sema.sahbaz@student.hu-berlin.de**

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNDƏ QADIN HAQLARI

*Elmi rəhbər:*
Tarix üzrə fəlsəfə doktoru Sevinc Ruintən
Bakı Dövlət Universiteti

*Qadın gülərsə şu ıssız mühitimiz güləcək,*
*Sürüklənən bəşəriyyət qadınla yüksələcək.*
Hüseyn Cavid.

*Gender tədqiqatlarına marağın artması ilə əlaqədar olaraq, postsovet ölkələri ilə bağlı çoxlu araşdırmalarda qadınların acınacaqlı vəziyyətinə diqqət yetirilir. Lakin bu sənədlərin bir çoxu qadınların azadlığının sovet dövründən başladığını göstərir. Bəzi ölkələrin sovet dövründən əvvəlki keçmişinə daha yaxından nəzər salsaq görərik ki, qadın hüquqları uğrunda mübarizə xeyli əvvəllər başlayıb. Xüsusilə 20-ci əsrin əvvəllərində Azərbaycanda bunun əksini göstərən çoxlu nümunələr var. Məhəmməd Əmin Rəsulzadə, Hacı Tağıyev, Əlimərdan bəy Topcubaşov, Səfiqə Əfəndizadə, Səfiqə Qaspirinski kimi maarifçilər qadınların müdafiəsi, təhsili və işləməsi ilə bağlı səyləri ilə tanınırlar. Bundan əlavə, bu ilk günlərdə qadınlara səsvermə hüququ da verilmişdir. Ona görə də belə görünür ki, Azərbay-*

*can Xalq Cümhuriyyətinin Sovet İttifaqından əvvəl qadınların emansipasiyasına verdiyi töhfələr qəbul edilməlidir.*

*Açar sözlər*: Qadın haqları, Azərbaycan Xalq Cümhuriyyəti, qadın məktəbləri, qadın maarifçiləri, qadınların təhsili.

***Giriş.*** Qadın hüquqları məsələsi dünən olduğu kimi bu gün də ən çox müzakirə olunan məsələlərdən biridir. Xüsusilə artan gender araşdırmaları nəticəsində qadınların rolu və cəmiyyətdəki mövqeyi haqqında çoxlu fikirlər yaranır. Məqaləmizin başlanğıcında müraciət etdiyimiz Hüseyn Cavid misralarından da anlaşıldığı kimi, keçmişdə qadınların cəmiyyətdə daha fəal rol oynaması arzusunun olduğunu görürük. Bu səbəbdən Qafqazda və Azərbaycanda gender və qadın hüquqlarının tarixinə fərqli prizmadan yanaşmağı və araşdırmağı vacib bildik. Bu məqalə Azərbaycanda qadın hüquqları uğrunda mübarizənin sovet dövründən başladığını iddia edən araşdırmaları müqayisə edərək yeni baxış təqdim edir və tarixşünaslıqda ideoloji əzbərləri şübhə altına alır. Məqalə XX əsrin əvvəllərindən Azərbaycan Xalq Cümhuriyyətinin sonuna qədər qadın hüquqları uğrunda mübarizənin tarixi gedişatına giriş olacaqdır. Qadın hüquqları məsələsinə toxunan mühüm ədəbi əsərlərdən, həm qadın, həm də kişi ziyalılarından bəhs ediləcəkdir. Məqalədə qadın məktəbləri, qadın jurnalları, qadınların təhsili ilə bağlı qanunlar və digər mühüm hadisələrə də toxunulacaqdır. Mövzunun aktuallığı baxımından aşağıdakıları demək istərdik. Qadın hüquqlarına diqqət yetirmək və araşdırmalar aparmaq xaricdən gətirilən gender nəzəriyyələrinə yerli perspektiv gətirə bilər. Gender bərabərliyini təmin edəcək qanunların qəbulu həm də Azərbaycanın postsovet ölkəsi adlandırılmasının qarşısını alacaqdır. Bundan əlavə, AXC dövründəki təcrübələrin bugünki qadınların problemlərinə həlli yollarının axtarışında kömək edə biləcəyini düşünürük. Məqalə də bu düşüncə və niyyətlərin nəticəsi olaraq yazıya alınıb.

*Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına qədər qadınların tarixdə roluna qısa baxış.* Tarixi keçmişimizə səyahət etdiyimiz zaman Azərbaycan xalqının əski çağlardan günümüzə qədər qadını,

ananı müqəddəs saydığına şahid oluruq. Ən qədim dastanlarımızdan olan "Kitabi- Dədə Qorqud" dastanında "Ana haqqı tanrı haqqına bərabərdir" deyimi bu dastandakı qadına, anaya verilən dəyəri anlatmağa kifayətdir. Odur ki, tarixin bütün dövrlərində Azərbaycanda qadınların ictimai-siyasi həyatdakı rolundan bəhs etdiyimiz zaman Dəmir xatun Tomris, qəhrəman qadınlar Nüşabə, Heyran Nisə Bəyim, Tuti Bikə, diplomat qadınlar Sara xatun, Dəspinə xatun, Mehinbanu Sultanım xanım və s. qadınlardan bəhs etməmək mümkün deyildir. Onlar dövlətin idarəçiliyində, xarici əlaqələrinin tənzimlənməsində xüsusi rol oynamış, sərkərdəlik bacarığına və məntiqi mühakimə aparmaq qabiliyyətinə malik olan Azərbaycan qadınları olduqlarını dəfələrlə göstərmişdilər. Bütün bunlarla bərabər keçən əsrin əvvəllərində qadınların təhsil alması, seçkidə iştirakı və ən əsası azadlığı bir növ problem xarakteri daşıyırdı. Bu dövrü analiz etmək baxımından Mirzə Ələkbər Sabir tərəfindən qələmə alınan "Ey fələk zülmün əyandır" əsəri xüsusi təqdirə layiqdir. Dahi sənətkar, dövrün cəhalətini kinayəli bir şəkildə mübaliğə olmadan göstərmişdir.

Azərbaycanda qızların təhsil almasına şəraitin yaradılmasında Azərbaycanın böyük xeyriyyəçisi H.Z.Tağıyevin əvəzsiz xidmətləri olmuşdur. O, 1901-ci ildə bütün çətinliklərə rəğmən ilk qız məktəbini tikdirmişdi. O inanırdı ki, təhsilli qız, təhsilli ana olacaq. Təhsilli ana övladlarını gələcək həyata daha yaxşı hazırlaya biləcək. Bununla da cəmiyyyətimiz öz inkişafında durmadan addımlar atacaqdır [13].

Azərbaycan qadınlarının azadlıq problemi ilə bağlı məsələnin gündəmdə aktual bir şəkildə qalmasında "Şərqi-Rus" və "İşıq" adlı qazetlərin rolu böyükdür. 1903-cü ildə Tiflisdə nəşrə başlayan Məhəmməd ağa Şahtaxtlının təsisçisi olduğu "Şərqi-Rus" qəzetində yayımlanan yazılar əsasən qadın azadlığını məhdudlaşdıran və ictimai həyatdan təcrid edən problemlərə həsr olunmuşdur. XX əsrin əvvəllərindən etibarən Xədicə Əlibəyovanın redaktorluğu ilə "İşıq" adlı qadın qəzeti isə Azərbaycan qadınlarının öz problemlərini ictimaiyyətə çatdırmaq baxımından əhəmiyyətli idi.

Qadınların səs verməsi, azadlığı ilə bağlı məsələsi dumalarda, qurultaylarda da müzakirə olunurdu. 1907-ci ildə Rusiya Dövlət Du-

masında Azərbaycanı təmsil edən deputat Xəlil bəy Xasməmmədov müsəlman-türk qadınlarına səsvermə hüququ və Əlimərdan bəy Topçubaşov Rusiya Müsəlmanlarının III Qurultayında qadınların seçmək və seçilmək hüququ ilə bağlı təklifləri ilə irəli sürüldü, lakin bu təkliflər rədd edildi [7, s.41]. 1917-ci il aprelin 15-20-də Bakıda keçirilən Qafqaz Müsəlmanları Qurultayında Şəfiqə xanım Əfəndizadə və Sara xanım Talışxanovanın başı açıq və yaylıqsız tribunaya çıxması [7, s.42] qadınların azadlıqlarına qovuşacaqları günün heç də uzaqda olmadığına dair bir işarə idi. Buna 1918-ci il 28 mayda Azərbaycan tarixində yeni şərəfli bir dövrə keçidin təməli atılması ilə nail oldular. Belə ki, bu tarixdə Şərqdə ilk demokratik Respublika quruluşuna malik olan Azərbaycan Xalq Cümhuriyyətinin əsası qoyuldu. Cümhuriyyət, özünün 23 aylıq fəaliyyəti dövründə xalqımızı demokratik dövlətdə yaşamağa, xalqın milli mənlik şüurunu özünə qaytarmağa, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu əyani şəkildə sübuta yetirməklə ən böyük xidmətini göstərmişdir.

***Azərbaycan Xalq Cümhuriyyəti dövründə qadınların seçki hüququ.*** Seçki hüququ-fundamental insan hüququ olmaqla bərabər, onun vasitəsilə xalq öz suveren hüquqlarını həyata keçirdiyindən vətəndaşların ən əsas hüquqlarından biri olmuşdur.

Buna görə də 1918-ci ilin 28 mayında M.Ə.Rəsulzadənin sədr seçildiyi Azərbaycan Milli Şurasının qəbul etdiyi 6 maddəlik "İstiqlal bəyannaməsi"nin IV maddəsində Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif, silk və cins fərqi gözləmədən qələmrəvində yaşayan bütün vətəndaşlarına hüquqi-siyasiyyə və vətəniyyə təmin eylər [6, s.260]. Yəni, Azərbaycan Xalq Cümhuriyyəti öz sərhədləri daxilində milliyyətindən, dinindən, sosial vəziyyəti və cinsindən asılı olmayaraq, bütün vətəndaşlara vətəndaşlıq və siyasi hüquqlar təmin edirdi. Bu maddə ilə ölkə ərazisində yaşayan hər bir şəxsin istər qadınların, istərsə də kişilərin siyasi və mülki hüquqları təmin edildi.

Azərbaycanlı qadınların seçki hüquqlarının təsdiqi istiqamətində atılan növbəti addım 1919-cu il iyulun 21-də qəbul edilən "Müəssislər Məclisinə seçkilər haqqında Əsasnamə" idi. 4 fəsildən və 116 bənddən ibarət olan həmin əsasnamədə deyilirdi: - I fəsil: "Müəssis-

lər Məclisi əhali tərəfindən cinsindən asılı olmayaraq və bərabər seçki hüququ əsasında, birbaşa və gizli səsvermə vasitəsi ilə, mütənasib nümayəndəlik əsasları təmin edilərək seçilən üzvlərdən ibarətdir”. - II fəsil: “Müəssislər Məclisinə seçkilərdə səsvermə gününədək 20 yaşı tamam olmuş hər iki cinsdən olan respublika vətəndaşları iştirak hüququna malikdirlər” [12, s.92]. Haqqında bəhs etdiyimiz qanunlar ilə Azərbaycan Şərqdə kişilərlə bərabər, qadınlara seçki hüququnu verən ilk ölkə oldu. Hüquqi və siyasi baxımdan Azərbaycan qadınına tam istiqlal verən və onu insan haqlarına qovuşduran bu qərarlar Azərbaycan xalqının təfəkkürünün məntiqi nəticəsi idi.

Müqayisə üçün xatırlatmaq yerinə düşərdi ki, ABŞ-da qadınlara ilk dəfə 1920-ci ildə seçmək hüququ verilib. İndi Avropanın qabaqcıl ölkələrindən sayılan Fransada qadınların səsvermə hüququ yalnız 1944-cü ildə, İsveçrədə isə 1971-ci ildə qəbul edilib [11]. Bizə bir daha aydın olur ki, nəinki Şərqdə, hətta bir sıra Avropa ölkələrindən və ABŞ-dan əvvəl qadınlara siyasi proseslərə qoşulmaq hüququ Azərbaycanda verilmişdir.

Növbəti qanun 1919 il avqustun 11-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində “Azərbaycan Vətəndaşlığı Haqqında Qanun”dur. Qanunun birinci bölməsinin 1-ci maddəsinə əsasən, milliyyətindən və dini mənsubiyyətindən asılı olmayaraq, özləri və ya valideynləri Azərbaycan Xalq Cümhuriyyəti ərazisində doğulmuş keçmiş Rusiya imperiyası vətəndaşları Azərbaycan Xalq Cümhuriyyətinin vətəndaşları hesab olunurdu [3, s.197]. 1920-ci il aprelin 11-də isə «Azərbaycan Müəssislər Məclisinə seçkilər» komissiyasının Azərbaycan xalqına müraciəti qəbul edildi. Mərkəzi Seçki Komissiyasının qərarı ilə aprelin 20-dən Cümhuriyyət ərazisində yaşayan seçicilərin siyahısının tərtib edilməsinə başlandı. Seçkilərdə iştirak edəcək 20 yaşına çatmış kişi və qadınların qeydiyyat vəsiqəsi alması nəzərdə tutulurdu [8, s. 268].

Yuxarıda sadaladığım qanunlara istinadən deyə bilərik ki, Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk gündən qadınlara seçki hüququnun verilməsini qanunvericiliklə təsbit etməyə çalışmış və

qısa zamanda buna müvəffəq olaraq qadın siyasətinin hüquqi bazasını yaratmışdır.

***Azərbaycan Xalq Cumhuriyyəti dövründə qadınlarının təhsil haqları.*** Azərbaycan qızları arasında təhsilə olan marağı göstərmək üçün ən gözəl nümunə fikrimizcə, Hüseyn Cavidin “Qız məktəbində” əsəridir. Əsərin qəhrəmanı Gülbaharın dili ilə qızların təhsilə, elmə marağı göstərilmiş, təhsilin zinət əşyalarından daha önəmli olduğuna diqqət çəkilmişdir. Bunun nəticəsidir ki, 1918-ci ildə AXC yarandığı gündən qadınların azadlığına, savadlanmasına, maariflənməsinə xüsusi diqqət ayrıldı.

Təhsil sahəsində ilk addımlardan biri Xalq Maarifi Nazirliyinin yaranması üçün nazirlik tərəfindən plan hazırlanıb hökumətə təqdim edilməsi idi [5, s.4]. Nazirliyin səlahiyyətinə bir sıra məsələlər daxil idi. Belə ki, xalq maarifinə aid qanun layihələri hazırlamaq, respublikada elmin və maarifin inkişafına dair tədbirlər planı müəyyən etmək və s.-dir.

Bu dövrdə prioritet məsələlərdən biri isə ana dili ilə bağlı idi, bildiyimiz kimi, Çar Rusiyası XIX əsrin əvvəllərindən başlayaraq xanlıqlarımızı işğal etməsi ilə başlatdığı ruslaşdırma siyasətini davam etdirirdi. Ən əsası isə məktəblərdə tədris rus dilində həyata keçirilirdi. 1918-ci il 28 avqust tarixli qərarı ilə bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin ana dilində aparılır, bununla yanaşı dövlət dili icbari qaydada tədris olunurdu [1, s.159]. Bu bir başa xalqın öz keçmişinə dönməsini təmin etmək məqsədi daşıyırdı.

Qızların təhsilinə xüsusi əhəmiyyət verildiyi üçün 1918-ci ilin sentyabrında Bakı Qızlar Peşə Məktəbi açıldı. Bakı Qızlar Peşə Məktəbində təhsil müddəti 4 il müəyyən edilmişdi. Uğur qazanan tələbələrə 25 manat təqaüd verilirdi. Fəqət maarif nazirinin əmrinə əsasən 1919-cu il yanvarın 1-də bu məktəb kişi müəllimlər texnikumuna çevrildi [7, s.43]. 1919 ilin əvvəllərində ölkədə dövlət hesabına 637 ibtidai məktəb və 23 orta ixtisas təhsili məktəbi fəaliyyət göstərirdi. Orta məktəblər arasında 6 kişi və 4 qadın gimnaziyası, 5 realnı məktəb, 3 müəllimlər seminariyası, 3 müqəddəs Nina qız tədris müəssisəsi, politexnik məktəb və kommersiya məktəbi var idi [3, s.79]. Orta

təhsil müəssisələrində azərbaycanlı qızların sayı günü-gündən artmağa davam edirdi. Məsələn, əgər 1918/1919-cu tədris ilində Gəncə gimnaziyasında cəmisi 4 azərbaycanlı qız oxuyurdusa, 1919/1920-ci tədris ilində onların sayı 296 nəfərə çatmışdı [1, s.162].

Nazirlik ölkədə xalq maarifinin inkişafına dair geniş tədbirlər planı hazırlamışdı. Hökumət bu planı bəyənmiş və həyata keçirilməsinə razılıq vermişdi. Həmin plana əsasən, təhsil almaq üçün maddi imkanı olmayan 650 şagirdə təqaüd təyin olunması, Bakıda qızlar üçün 25 nəfərlik pansionatın təşkili, Xalq Maarifı Nazirliyi nəzdində pedaqoji və elmi-bədii jurnalların nəşr edilməsi, xaricdən gətirilən tədris-çap məhsulların gömrük xərclərindən azad olunması və s. nəzərdə tutulmuşdu [3, s.82-83]. Bu dövrdə məktəblərdə qadın müəllimlərin sayı heçdə ürək açıcı deyildi. Yox deyə biləcəyimiz qədər az idi. Buna görə də müəllimlərinin hazırlanması üçün isə Nazirlik 17 iyul 1919-cu il tarixində qəbul edilmiş qanuna əsasən qısamüddətli pedaqoji kurslar təşkil etmişdi. Bakıda və Gəncədə ikiaylıq qadın pedaqoji kurslar açılmışdı. 1919-cu ilin sentyabrında Bakıda, Gəncə və Şəkidə ikiillik qadın pedaqoji kurslarının açılması haqqında qanun layihəsi hazırlanmışdı. Hökumət yaşlı əhalinin savadlanmağa cəlb edilməsi üçün tədbirlər görürdü. Azərbaycanlı qadınların savad almasına xüsusi əhəmiyyət verilirdi. 24 oktyabr 1919-cu il tarixində Xalq Maarifi Nazirliyi Azərbaycan milli gimnaziyasının nəzdində yetkin türk qadınları üçün kursların təntənəli açılışı oldu [9].

Bu dövrdə universitetin açılması ilə bağlı məsələ də aktual idi. M.Ə.Rəsulzadə milli kadrların azlığına görə Universitetin açılmasını vaxtsız hesab edənlərə və başqa dildə açılmasına qarşı çıxanlara cavabında demişdi: “Universitetin təsis edilməsi dövlətin əsas vəzifələrindən biri olmalıdır, buna görə də bütün maneələr aradan qaldırılmalıdır. Əlbəttə, yaxşı olardı ki, açılacaq elm ocağı türk dilində olaydı, lakin bu hələlik mümkün deyildir. Lakin, bu başqa dildə də olsa, Universitetin fəaliyyət göstərməsinə mane olmamalıdır [4, s.304]. Bütün bu səylərdən sonra Azərbaycan gənclərinin ali təhsil alması üçün 1919-cu ildə Bakı Dövlət Universiteti yaradıldı. Universitetə qəbulda həm qadınlar, həm də kişilər iştirak edə bilərdilər. Universi-

tetin yaranması təhsilə marağı artırır, qızların təhsil almasına şərait yaradırdı. Cəmi 23 ay mövcud olmuş bir dövlətin qadınların təhsilə marağını artırmaq üçün yuxarda sadaladığı qərarları qəbul etməsi təhsilə nə qədər önəm verdiyini bir daha subut edirdi.

***Azərbaycan Xalq Cümhuriyyət dövründə qadınların əmək və sosial-təminat hüququ.*** Azərbaycan Xalq Cümhuriyyətinin diqqətdə saxladığı mövzulardan biri qadınların əməyi ilə bağlı məsələ olmuşdur. Elə bu səbəbdən də AXC Parlamentinin 10 dekabr 1918-ci il tarixində keçirilmiş iclasında "İşçi məsələsi" adlı qanunla qadınların hamiləlik, analıq, sağlamlıq və iş yerində təhlükəsizliyin qorunması və s.bu kimi məsələlər göstərilmişdir. O maddələrə nəzər salaq.

Maddə 28. Hər bir şəxs (kişi və qadın) üçün iş günü səkkiz saatdan artıq olmamalıdır.

Maddə 29. Hər bir şəxsə həftədə 24 saat yəni bir gün istirahət verilməlidir.

Maddə 30. Qanunən müəyyən olunan iş günündən artıq işləmək qaydası tamamilə ləğv edilməlidir.

Maddə 32. On altı yaşına qədər məktəbli şəxslərin işləməsi qadağandır. 16 yaşından 18 yaşına qədər olan cavanların iş günü isə altı saatdan artıq olamaz.

Maddə 33. Qadınların səhhət və vücudlarına zərərli olan işlərdə çalışdırmaq qadağandır. Hamilə olan qadın doğuşdan dörd həftə əvvəl və altı həftədə sonra xidmətdən azad edilir. Əmək haqqı tam ödənilməlidir.

Maddə 34. Qadın işlədiyi fabrik, zavod və sair karxanalarda südəmər uşaqlara məxsus tərbiyəxanalar təsis ediləcək. Uşaq əmizdirən ana qulluqçular hər üç saat arasında yarım saatdan az olmamaq şərtilə xidmətdən azad ediləcəklərdir.

Maddə 38. Qadınların çalışdığı yerlərə qadın müfəttişlər təyin olunmalıdır.

Maddə 40. Hər bir kargah, fabrika və emalatxanada səhiyyə təsis olunmalıdır. İş sahiblərinin hesabına xəstələrə dərman verməli və sağalana qədər məvacibləri tam şəkildə verilməlidir [2, s.25].

Bu qanunların həyata keçirilməsində bəzi çətinliklər özünü göstərirdi. Belə ki, maddə 38-də göstərilirdi ki, qadın müəssisələrinə qadın mütəxəssislər başçılıq edəcək. Lakin çox vaxt qadın mütəxəssislərin azlığı baxımından qadın müəssisələrinə də kişilər rəhbər təyin edilirdi. Bu da həmin dövrdə verilən qərarların yanlız kağız üzərində qaldığını iddia edən anti-cumhuriyyətçilərin əlinə fürsət olaraq düşür. Fikrimizcə, həmin dövrü öz tarixi şəraitinə baxaraq dəyərləndirdiyimiz zaman hər bir həyata keçirilən tədbirlərin necə çətinliklə olduğunu anlaya bilirik. Verilən qərarlardan bir neçəsinin həyata keçirilə bilməməsi heç də demokratik dövlətin üzərinə kölgə salmamalıdır.

Qadınların məşğulluğunun və iqtisadi-sosial vəziyyətinin inkişaf etdirilməsi ilə bağlı bir sıra qanunlar verildi. Xüsusən bu qanunlar toxuculuq sahəsi ilə bağlı idi. Toxuculuq Azərbaycanda qadın əməyinin üstünlük təşkil etdiyi ən qədim məşğuliyyət sahələrindəndir. 1919-cu il noyabrın 13-də Azərbaycan parlamentinin iclasında «Azərbaycanın bəzi nöqtələrində şal, xalı və başqa əşyaları toxumaqdan ötəri iş evlərinin güşadı (açılışı) üçün 3694000 rubl buraxılması haqqında» qanun layihəsi ilə müzakirə edilmiş və qəbul olunmuşdur [8, s.276].

1920-ci ildə aprel ayında müstəqilliyinə son qoyulmuş Cümhuriyyətin qadınlar, onların azadlıqları, hüquqları və rifahı ilə bağlı həyata keçirdiyi tədbirlər yarımçıq qalsa da, 1918-ci il "işçi məsələsi" qanunu ilə qadınların əməyə olan marağı, 1919-cu il 13 noyabr qanunu ilə isə, məşğulluğa olan marağı artmışdır.

***Nəticə.*** Çar Rusiyasının XIX əsrin əvvəllərindən etibarən xanlıqlarımızı işğal etməsi ilə başlatdığı müstəmləkəçilik siyasəti geniş şəkildə bütün sahələrdə özünü göstərirdi. Xüsusən də bu dövrdə Azərbaycan qadınları bir çox hüquqlardan məhrum edilmişdi. Bu məsələ bir çox aydınlarımızı narahat edir, çıxış yolu tapmaqlarına sövq edirdi. XX əsrin əvvəllərindən başlayaraq ziyalılarımızın aktiv şəkildə bu məsələnin həlli üçün çalışmaqları öz bəhrəsini verməyə başladı. Məhəmməd Əmin Rəsulzadə bir qadının toplum üçün dəyər və əhəmiyyətini çox yaxşı dərk edərək bir çıxışında demişdir ki,

dünyanın bütün xalqlarında kişilərlə qadınlar siyasətdə bərabər mübarizə apardığı bir zamanda, Müsəlman qadın dustaq olmamalıdır [10, s.80]. Elə bu səbəbdən də öz əqidə dostları ilə birgə əsasını qoyduqları demokratik cümhuriyyət olan Azərbaycan Xalq Cümhuriyyətində qadınlara layiq olduqları dəyər verildi. Bütün çətinliklərə baxmayaraq 23 aylıq fəaliyyəti dövründə qadınları seçkilərə cəlb etməsi, onların təhsil alması üçün lazımı şərait yaratması, əməklə bağlı qanunlar qəbul etməsi Cümhuriyyət qurucularının ölkənin kişilərlə bərabər qadınların sosial-siyasi mədəni həyatında, balanslaşdırmanı təmin etmək istədiklərini bizə açıq-aşkar göstərir. Bununla da deyə bilərik ki, qadınlara haqların verilməsi Sovet dövrünün deyil XX əsrin əvvəllərindən başlanan ziyalılarımızın fəaliyyətinin nəticəsidir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Cümhuriyyəti (1918-1920). Bakı, Elm nəşriyyatı, 1998, 335s. - https://www.ebooks.az/view/TKFuqhi1.pdf [Müraciət tarixi: 30.04.2022].
2. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), Parlament (Stenoqrafik Hesabatlar) iki cilddə, I cild, Bakı, 1998, 427 s. - https://ebooks.az/view/uSjb49G5.pdf [Müraciət tarixi: 30.04.2022].
3. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild. Bakı, Lider nəşriyyat, 2004, 471 s.
4. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. II cild. Bakı, Lider nəşriyyat, 2005, 469 s. - http://anl.az/el/a/axce2.pdf [Müraciət tarixi: 30.04.2022].
5. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Təhsil Siyasəti (Sənədlər Toplusu). Baki, Elm və təhsil nəşriyyatı, 2018, 468s. - https://www.ebooks.az/view/8Twpv69U.pdf [Müraciət tarixi: 30.04.2022].
6. Azərbaycan tarixi 1900-1920-ci illər , VII cilldə, V cild, Bakı, Elm, 2008, 584 s. - http://lib.az/users/1/upload/files/Azerbaycan_tarixi_7_cildde%2C_cild__5.pdf [Müraciət tarixi: 30.04.2022].

7. Laman Suleymanli, Cumhuriyeti Döneminde Azerbaycan Kadını (1918-1920) // İrs Tarih, s.40-47. - https://irs-az.com/sites/default/files/2020-12/40_1.pdf [Müraciət tarixi: 30.04.2022].
8. Gülzar İbrahimova, Azərbaycan Xalq Cümhuriyyəti dövründə qadin hüquqlari //Uluslararası Medeniyet Çalışmaları Dergisi// cild 3, sayı 1, Nevşehir, Türkiyə, 2018, s.262-286. - https://dergipark.org.tr/tr/download/article-file/1353050 [Müraciət tarixi: 30.04.2022].
9. Hicran Hüseynova. Azərbaycan qadınları müstəqil dövlətimizin inkişafına böyük töhfələr verirlər / İki sahil, 2018. - https://ikisahil.az/post/news-48923 [Müraciət tarixi: 30.04.2022].
10. Mehriban Aghayeva, Azerbaycan'da Kadinlarin Siyasal Hayatta Temsili, İstanbul, İstanbul Üniversitesi Sosyal Bilimler Enstitüsü Avrasya Araştirmalari Anabilim Dali, 2019 131s. - http://nek.istanbul.edu.tr:4444/ekos/TEZ/ET001293.pdf [Müraciət tarixi: 30.04.2022].
11. Sevinc Mürvətqızı. Şərqdə ilk dəfə qadına səsvermə hüququ verildi / İki sahil, 2018. - http://ikisahil.az/post/1078-news-1078 [Müraciət tarixi: 30.04.2022].
12. Turan Nəsirova, Azərbaycan Xalq Cumhuriyyətində qadın siyasəti // Azərbaycan Respublikası Dini Qurumlarla üzrə Dövlət Komitəsinin Jurnalı, 2019, s.90-98. - https://www.elibrary.az/docs/JURNAL/jrn2019_84.pdf [Müraciət tarixi: 30.04.2022].
13. Yılmaz Harun. Zeynalabdin Tağıyevin Qızlar məktəbi və I Dünya müharibəsi. - https://www.bbc.com/azeri/azerbaijan/2014/08/140814_ww1_school_for_girls [Müraciət tarixi: 30.04.2022].

**ULFAR MAMMADLI**
*1st year master student of Baku State Universitety*

**SEMA SHAHBAZ**
*Humboldt University Berlin,*
*Faculty of Culture, Social and Educational Sciences,*
*Institute of Asian and African Studies,*
*Master's degree in Central Asian Studies*

# WOMEN'S RİGHTS İN THE AZERBAİJAN DEMOCRATİC REPUBLİC

Due to the increasing interest in gender studies a high number of researches about the post-soviet countries pay attention to the plight of women. Many of these papers, however, indicate that the emancipation of the women have started with the Soviet era. If we take a closer look at the pre-Soviet past of some countries, we see that the struggle for women's rights began much earlier. Azerbaijan in the beginning of the 20th century, in particular, has many examples, which demonstrate the opposite. Leaders such as Mehmed Emin Resulzade, Haji Tagiyev, Alimerdan Bey Topcubashov, Shefika Efendizade, Shefika Gaspirinski etc. are known for their efforts in educating, employing and protecting women. Furthermore, the right to vote was also given to women during these early days. It, therefore, seems to be that the Azerbaijani Democratic Republic needs to be credited for its contributions to the emancipation women prior to the Soviet Union.

*Keywords*: Women's rights, Azerbaijan Democratic Republic, Schools for women, Female educators, Female education.

*Daxil olma tarixi*: 30.04.2022-ci il.
*Çapa imzalanma tarixi*: 25.05.2022-ci il.

№6(6) 2022

**UOT 94 (479.24)**

**ŞƏHLA MƏHYƏDDİNLİ**
*Bakı Dövlət Universiteti*
*Tarix fakültəsinin III kurs tələbəsi*
**mahyaddinlishahla@gmail.com**

# AXC DÖVRÜNDƏ TƏHSİL VƏ TARİXİN TƏDRİSİ MƏSƏLƏLƏRİ

*Elmi rəhbər:*
Tarix üzrə fəlsəfə doktoru Mətanət Məmmədova
Bakı Dövlət Universiteti

*XX əsr Azərbaycan dövlətçiliyi tarixinə qızıl hərflərlə daxil olmuş Azərbaycan Xalq Cümhuriyyəti özünün qısa müddətli fəaliyyəti dövründə Milli İstiqlaliyyət Bəyannaməsi ilə dövlət müstəqilliyini elan etmiş və onun dünyanın aparıcı dövlətləri tərəfindən de-fakto tanınmasına, xalqın milli mənlik şüurunun özünə qaytarılmasına nail olmuşdur. Öz milli müqəddəratını təyin etməyə qadir və onu qorumağa, yaşatmağa layiq olduğunu əyani şəkildə sübuta yetirmiş, eləcə də Şərqdə, Türk dünyası və İslam aləmində ilk demokratik, dünyəvi, parlamentli dövlət qurmaqla, zəngin mədəniyyətə və ulu tarixi keçmişə sahib olan sivil millət olduğunu bütün dünyaya nümayiş etdirmişdir.*

*"Azərbaycan Demokratik Cümhuriyyəti bizim milli sərvətimizdir, tariximizin parlaq səhifəsidir" - deyən Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin imzaladığı "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında" 30 yanvar 1998-ci il tarixli sərəncamında göstərildiyi kimi, "Azərbaycan Xalq Cümhuriyyəti ölkənin daxilində və xaricində yaranmış gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərmişdir. Bu dövlətin qısa bir müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində böyük iz buraxmışdır. Milliyətindən,siyasi və dini mənsubiyyətindən, cinsindən asılı olmayaraq, bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, dövlət sərhədlərinin müəyyən olunması, Azərbaycan dövlətçiliyi atributlarının qəbul edilməsi, ana dilinin dövlət dili elan olunması Azər-*

*baycanın gələcək müstəqilliyi üçün möhkəm zəmin yaratmışdır. Demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq sahələrində atılmış addımlar Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyətini əks etdirən əsas istiqamətlərdir... 1918-ci ildə Azərbaycanda yaranmış respublika müstəqil dövlət kimi süqut etsə də, respublika quruluşu yaşamış, müstəqillik hisləri xalqımızı heç vaxt tərk etməmişdir...”(7).*

*Açar sözlər:* Azərbaycan Xalq Cümhuriyyəti, Xalq Maarif Nazirliyi,Tarixin tədrisi, Proqram, Dərslik, Maarif.

***Giriş.*** Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk günlərdən başlayaraq xalqın maariflənməsi, təhsillənməsi, savadlanması yolunda, milli kadrların yetişdirilməsi, millətin mədəni və intellektual səviyyəsinin yüksəldilməsi istiqamətində görülməli işləri özünün ali məqsədlərindən biri elan etdi. Maarif və mədəniyyətin inkişafını milli azadlığın, milli istiqlalın, müstəqil dövlətçiliyin təməl prinsiplərindən biri kimi irəli sürdü, milli dövlət quruculuğunda,iqtisadi və mədəni quruculuqda maarifin,təhsilin müstəsna rolunu ön plana çəkdi.

Xalq Maarifi naziri N.Yusifbəyli 1918 il dekabrın 31-də Azərbaycan qubernatorlarına göndərdiyi məktubda göstərirdi ki, Azərbaycan Xalq Cümhuriyyətində maarif sahəsində qarşıda çox böyük və çətin vəzifələr durur. Nazirlik yeni məktəblər, müəllim kursları açmaqla, təhsil sahəsində ölkəni mümkün qədər qısa müddətdə lazımi səviyyəyə qaldırmaq üçün bütün qüvvələri səfərbərliyə aldı. Məktubda qeyd edilirdi ki, indiki zamanda yalnız yüksək maarifə malik olan xalq tərəqqi edə bilər (4). Təhsilə, maarifə belə münasibətin nəticəsi idi ki, hələ Tiflisdə yaranan ilk müvəqqəti milli hökümət kabinetinin (28.05.1918-17.06.1918) tərkibindəki 9 nazirlikdən biri Xalq Maarifi Nazirliyi idi. Birinci Azərbaycan höküməti Kabinetində “Maliyyə və Xalq Maarifi Nazirliyi”kimi fəaliyyətə başlayan bu nazirlik sonrakı 4 hökümət kabinetində “Xalq Maarifi və Dini Etiqad Nazirliyi” kimi adlandırılmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin I, II və III hökumət kabinetlərində Nəsib bəy Yusifbəyli (1881-1920), IV hökümət

kabinetində Rəşid Xan Qaplanov (1883-1937), V hökümət kabinetində isə Həmid bəy Şahtaxtinski (1880-1943) Xalq maarifi naziri olmuş, sonuncunun istefasından sonra qısa müddətdə 05.04.1920-27.04.1920) Nurməmməd bəy Şahsuvarov (1883-1958) Xalq maarif naziri vəzifəsini müvəqqəti olaraq icra etmişdir (9, s.11).

Azərbaycan Xalq Cümhuriyyəti höküməti 1918-ci il iyunun 16-da Tiflisdən Gəncəyə köçdükdən sonra Fətəli Xan Xoyskinin rəhbərliyi ilə yaranan ikinci müvəqqəti hökümət kabinetinin Azərbaycan Cümhuriyyətinin vətəndaşlarına ünvanlanan 17 iyun 1918-ci il tarixli müraciətində yeni hökümətin qarşıdakı dövrdə keçirəcəyi tədbirlər içərisində digər sahələrlə yanaşı, təhsil, maarif, məktəb sahəsində aparılacaq islahatların, ilk növbədə təhsil müəssisələrinin milliləşdirilməsi, ölkədə təhsilin, maarifin tezliklə ana dilində aparılmasına keçiləcəyi, həmçinin bu proseslərin tədrici yolla, mərhələlərlə reallaşdırılacağı xüsusi olaraq vurğulanırdı (14, s.15-16). Əslində bu tarixi müraciət müstəqil Azərbaycan dövlətinin ilkin platforması, hökumətin təxirəsalınmaz tədbirlər proqramı idi. 10 dekabr 1918-ci ildə (ikinci iclas) "Əhrar" partiyasından olan nümayəndə Aslan bəy Qardaşov dövlətin daxili qanunları ilə bağlı çıxışında deyir: "Neçə müddətdir deyirlər ki, adam asmaq ilə işlər düzəlməz. Məncə də asmaq ilə camaatı düzəltmək olmaz. Məktəb və tərbiyə ilə düzəltmək olar. Heç vaxt Allah verən canı bəndənin almağa ixtiyarı yoxdur"(5, s.62). 26 dekabr 1918-ci ildə keçirilən 5-ci iclasda Fətəli Xan Xoyski çıxış edərkən deyir: "Maarif Nəzarəti haqqında da bir neçə kəlmə söyləməliyəm. Maarif nəzarəti hər kəsə imkan verməlidir ki, öz ana dilində məktəb açıb oxusun. Oxumuz mənim sizinlə danışdığım kimi olar. Maarif Nəzarəti ana dilində milli məktəblər ilə bərabər sənət məktəblərinə də böyük əhəmiyyət verməlidir. Çünki bizə hamıdan artıq sənət məktəbləri lazımdır" (5, s.124).

AXC-nin maarif nazirinin müavini olmuş Həmid bəy Şahtaxtinskinin müraciəti əks olunan AXC-nin Xalq Maarif Nazirliyinin 31 dekabr 1918-ci il 3980 saylı Bakı, Gəncə və Zaqatala quberniyalarının qubernatorlarına göndərdiyi sənəd Xalq Cümhuriyyətinin təhsil siyasətinin əsas istiqamətlərinin özündə əks etdirir. Bu sənəddə qeyd

olunurdu: "1917-ci il çevrilişinə qədər Rusiya hökuməti öz siyasi baxışlarından çıxış edərək xalqın maariflənməsinə çox az diqqət göstərirdi. Ölkədə məktəblərin vəziyyəti arzu edilən səviyyədə deyildi. Xalq məktəbi dövlət təşkilatında sağalmaz yara, qarşısıalınmaz bəla kimi qəbul edilirdi. Hökumət bütün vasitələrlə məktəbləri çox böyük məhdudiyyətlərə məruz qoyurdu…, xalq müəllimləri hökumət tərəfindən hər cür təhqirlərə və təqiblərə məruz qalırdılar… Bu səbəblərdən bu gün Azərbaycanda məktəblərə böyük ehtiyac hiss edilir… və Nazirlik bütün səyləri ilə qısa zamanda yeni məktəblər, müəllim kursları və s. açmaqla ölkədə maarifi lazımi səviyyəyə qaldırmaq istəyir. Belə ki,müasir dövrdə yalnız mariflənmiş xalq müstəqil mövcud olmaq imkanına malikdir… Yalnız bu halda biz digər xalqlar arasında müstəqil yaşamaq imkanları əldə edə bilərik" (16).

1918-ci il iyunun 30-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə Xalq Maarifi və Dini Etiqad Nazirliyinin strukturu və ştat cədvəli təsdiq edilir. Həmin Struktura nazir, onun müavini, nazirliyin idarə, şöbə rəisləri və dəftərxana aparatının işçiləri daxil idi. Nazirliyin səlahiyyətinə xalq maarifi və dini etiqad məsələləri üzrə müvafiq normativ sənədlərin, hüquqi aktların layihələrini hazırlayıb hökumət kabinetinə təqdim etmək, təhsilin, elmin, mədəniyyətin inkişafına xidmət edən müvafiq təkliflər hazırlamaq, maarif sistemi üzrə maliyyə-smeta sənədləri tərtib etmək, Nazir Şurasında ölkədəki təhsil müəssisələrinin illik hesabatlarını müzakirə edib müəyyən qərarlar qəbul etmək, məktəb və maarif işinə nəzarəti və hökumətin təhsil sahəsindəki siyasətini həyata keçirmək və s. kimi məsələlər daxil idi. Hökumətin həmin qərarı ilə Xalq Maarifi Nazirliyinin məktəblər idarəsi nəzdində ali və orta ixtisas təhsili,xalq təhsili və peşə təhsili sahələri üzrə üç müstəqil şöbə də yaradılmışdı (10, s.56). Az keçmir ki, hökumətin qərarı ilə Azərbaycanda həmin Nazirliyin tabeçiliyində əvvəlkilər saxlanmaqla,10 bölgədə yeni xalq məktəbləri müfəttişliyi yaradılır və regionlardakı təhsil müəsssisələrinin fəaliyyətinə nəzarət onlara tapşırılır.

***İslahatlar və onların əsas istiqamətləri.*** Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin maarif, elm, təhsil və mədəniyyət sahə-

sində apardığı siyasətin, reallaşdırdığı təxirəsalınmaz tədbirlərin və həyata keçirilməsi nəzərdə tutulan islahatların əsas istiqamətləri, əsasən, aşağıdakılardır: Azərbaycanda fəaliyyət göstərən maarif müəssisələrinin, təhsil ocaqlarının qısa müddətdə, istisnasız olaraq milliləşdirilməsi; Ölkədə tədrisin, əsasən, dövlət dilində - Azərbaycan türkcəsində aparılmasına nail olunması;təlimi müvəqqti olaraq başqa dillərdə olan məktəblərdə dövlət dilinin məcburi və intensiv şəkildə tədrisinin təmin edilməsi; Tezliklə hamılıqla icbari ibtidai təhsilə keçirilməsi; milli maarif və təhsilin ahəngdar inkişafının milli azadlığın, milli istiqlalın gələcəyinin təməl prinsipi olması ideyasının təhsil quruculuğu prosesində dönmədən həyata keçirilməsi: "İstiqlalımız, istiqbalımız həp maarifə bağlıdır. Əgər milli maarifimiz, milli məktəbimiz tərəqqi etməzsə, bizim üçün fəlah və nicat ümidi qalmaz. Hökumət bunu bilir…" (2, s.120-127); təhsil sahəsində islahatlar aparmaq üçün xüsusi hökümət komissiyasının,o cümlədən ,təhsilin məzmunu, proqram və dəsliklərin hazıırlanması üzrə komissiyaların təsis edilməsi; ölkə büdcəsində təhsilə ayrılan xərclərin mərhələlərlə intensiv olaraq artırılması; ölkənin tarixini, mədəniyyətini, etnoqrafiyasını, ədəbiyyatını öyrənmək üçün elmi müəssisələrin, elmi cəmiyyətlərin, universitetlərin təsis olunması və s. (9, s.18).

Maarifə, təhsilə, mədəniyyətə xüsusi əhəmiyyət verməyin nəticəsidir ki, Azərbaycan Xalq Cümhuriyyəti hökümətinin tarixini tədqiq edən bir çox Qərb araşdırmacıları haqlı olaraq o dövrün Milli Hökumətini "maarifçi hökümət" kimi dəyərləndirirlər (3, s.8). Professor Tadeuş Svyatoçovski özünün 1985-ci ildə Kembric Universiteti tərəfindən nəşr edilmiş "*Rusiya Azərbaycanı: 1905-1920"* əsərində "Cümhuriyyət" hökümətinin təhsil, maarif, mədəniyyət sahəsində gördüyü işlərdən, həyata keçirdiyi tədbirlərdən danışarkən yazır: "İndi ölkəni artıq ziyalılar idarə etdiyi üçün ana dilində təhsil almaq kimi köhnə arzu artıq reallaşmağa başlamışdı. Yeni rejim bütün səylərini xüsusi olaraq bu sahəyə yönəltmişdi və bu da ruslaşdırma siyasətinin təzahürlərini aradan qaldırmağa kömək etməli idi. Təhsil səviyyəsindən və istiqamətindənasılı olmayaraq, bütün məktəblərdə Azərbaycan dilinin öyrənilməsi məcburi idi. Rusiya tarixi əvəzinə, türk xalqlarının

tarixi tədris olunmağa başlanmışdı. Bir çox ibtidai məktəblərdə bütün dərslər Azərbaycan dilində keçirilirdi, lakin kadr çatışmazlığı orta təhsildə türkcələşdirmənin inkişafını ləngidirdi” (8, s.61-62).

Milli hökumət təhsildə milliləşdirmə sahəsində işlərə Fətəli Xan Xoyskinin imzaladığı “*İbtidai, ali ibtidai və ümumi orta təhsil müəssisələrinin milliləşdirilməsi haqqında*” 28 avqust 1918-ci il tarixli qərarı ilə başladı. Həmin qərarla müəyyən edilirdi ki, bütün ibtidai məktəblərdə təlim yalnız ana dilində aparılmalı, dövlət dili olan Azərbaycan türkcəsinin məktəblərdə tədrisi məcburi surətdə və intensiv qaydada aparılmalıdır. Ümumtəhsil məktəblərinin 5-ci sinfindən yuxarı siniflərində təhsil alan şagirdlərə rus dilində təhsillərini davam etdirməyə o halda icazə verilirdi ki, dövlət dili olan Azərbaycan türkcəsinin orta məktəblərin bütün siniflərində məcburi fənn kimi intensiv olaraq öyrənilməsi təmin edilmiş olsun. Həmin qərarla müəyyən edilirdi ki, bütün siniflərdə Azərbaycan türkcəsinin tədrisi üçün həftəlik dərs yükü 4 saatdan az olmamalıdır.

Azərbaycan hökuməti ölkədə yaşayan və azlıqda olan xalqların dil və mədəniyyətlərinin qorunub saxlanması və inkişaf etdirilməsini təmin etmək məqsədilə 1918-ci il sentyabrın 7-də xüsusi qərar qəbul etdi. Həmin qərarla müəyyən olunurdu ki, əgər sinifdə 10 nəfərdən çox azlıqda olan xalqın nümayəndəsi oxuyursa, onda onlara öz dillərində ana dili və ilahiyyatdan dərs keçilməlidir. Həmin fənlərə həftəlik dərs yükünün miqdarı Xalq Maarifi Nazirliyi tərəfindən müəyyənləşdirilir, həmin fənlərin tədris xərcləri isə dövlət tərəfindən ödənilirdi.

Bir müddət sonra məlum olur ki, ümumtəhsil müəssisələrinin milliləşdirilməsi ilə bağlı çoxlu sayda uşaq məktəbdən, təhsildən kənarda qalıb. Bu reallığı vaxtında görən və düzgün qiymətləndirən Azərbaycan hökuməti 28 avqust 1918-ci il tarixli qərarında müəyyən dəyişiklik etmək məcburiyyətində qalır. Beləliklə, 1918-ci il noyabrın 13-də Azərbaycan hökuməti özünün ibtidai, ali ibtidai və ümumi orta təhsil məktəblərinin milliləşdirilməsinə dair dəyişiklik edir. Yeni qərarla müəyyən edilirdi ki, o şəhərlərdə ki, yaşayış məntəqələrində bir neçə eyni tipli ümumi təhsil müəssisəsi mövcuddur,onda,onlardan

bir hissəsi milliləşdirilir, qalan hissəsində tədris bütün siniflərdə rus dilində aparılır, lakin Azərbaycan türkcəsi məcburi fənn kimi tədris edilməli idi. Bu qərarda azərbaycanlı uşaqların yalnız milliləşdirilmiş məktəblərdə təhsil almaları bir vəzifə kimi tələb edilirdi. Lakin müstəsna hallarda ana dilində danışmağı bilməyən azərbaycanlı uşaqlar Xalq Maarifi Nazirliyinin xüsusi icazəsi ilə rus bölmələrində təhsil almağa buraxıla bilərdilər. Azərbaycan Xalq Cümhuriyyəti devrildikdən sonra "qurulan"bolşevik hökümətinin ilk illərində ümumi təhsil müəssisələrində tədrisin təşkili məhz bu təməl üzrə - təlimin başlıca olaraq ana dilində - Azərbaycan türkcəsində aparılması prinsipi əsasında davam etdirildi. Azərbaycan İctimai Şura Cümhuriyyəti Xalq Komissarları Sovetinin sədri N.Nərimanovun imzaladığı (aprel, 1921) xüsusi dekretlə Azərbaycan türkcəsi yenidən dövlət dili elan edildi, Ümumi təhsil müəssisələrində tədrisin dövlət dilində aparılması faktı bir daha təsdiqləndi (9, s.32). Cümhuriyyətin banilərindən olan Məhəmməd Əmin Rəsulzadə "Milli hökümət"in Sovet Rusiyasının hərbi təcavüzü nəticəsində süqutunun ilk günlərində Lahıcda gizli şəkildə qələmə aldığı *"Əsrimizin Səyavuşu"* əsərində maarif sahəsində başlanmış irimiqyaslı maarifçilik hərəkatından danışarkən yazırdı: "Təhsil-tərbiyə təşkilatına ayrı bir təzəlik verilmişdi. Məmləkəti irfanın nuruyla işıqlandırmaq üçün ciddiyyətlə işə başlanmışdı. Ümumi örgənimin həyata keçirilməsi əsas tutularaq, bunu təmin etmək üçün bir tərəfdən məktəblər açılır, digər tərəfdən yeni qurulmuş erkək və qızlar darülmüəlliminləri vasitəsilə öyrətmənlər hazırlanırdı. Bundan başqa, xüsusi olaraq hər bir qəza məktəbində öyrətmənlər kursu açılmışdı. Maarif işində qadınların tərbiyəsi də kişilərlə bərabər tutulurdu. Mövcud rus gimnaziya və liseylərindən biri tamamilə milliləşdirilmiş, bir çox qız ibtidai məktəbləri açılmış, hamısı da qızlarla dolmuşdu.

Məktəb yaşından böyük vətəndaşlar da unudulmamışdı. Bunlar üçün gecə kursları açılmışdı. Bu xüsusda qadınlar da unudulmayaraq, onlara fərdi gündüz kursları açılmış və cəmiyyətlə ilgili dərslər tərtib edilmişdi.

Azərbaycan gəncliyini elm və texnika əsrinə hazırlamaq üçün Bakı universiteti açılmışdı. Bundan başqa yüzə yaxın tələbə müxtəlif texniki sahələrdə təhsil almaq üçün dövlət məsrəfi ilə Avropanın universitetlərinə və digər yüksək məktəblərinə göndərilmiş,nbir o qədər də tələbənin İstanbula yollanması qərara alınmışdı…" (11, s.43).

***Orta təhsil pilləsində Tarixin tədrisi.*** Azərbaycan Xalq Cümhuriyyəti hökümətinin təhsilin, maarifin və mədəniyyətin inkişafına xüsusi önəm verməlstartının əsas göstəricilərindən biri bu sayıla bilər ki, həmin dövrdə dövlət büdcəsində təhsil sahəsinə ayrılan vəsait başqa sahələrlə müqayisədə üstünlük təşkil edirdi. Müqayisə üçün deyək ki, Azərbaycan Xalq Cümhuriyyəti hökümətinin 1919-cu il dövlət büdcəsində (cəmi: 665mln) təhsilə ayrılan vəsait (75mln) az qala milli orduya ayrılan vəsaitə (80 mln) bərabər olmuşdu. Azərbaycan Xalq Cümhuriyyəti höküməti ümumi təhsil müəssisələrini milliləşdirməklə yanaşı, onların şəbəkəsini ildən-ilə genişləndirməyi də unutmurdu.

Xalq Maarif Nazirliyinin təhsil müəssisələrinin açılmasına dair 1919-cu ilin oktyabrında hökümətə ünvanladığı rəsmi təqdimatından aydın olur ki,hər il təxminən 35 yeni ümumi orta məktəb (ibtidai məktəblər bura daxil deyil) açılması nəzərdə tutulurdu. Bu sənəddən onu da öyrənirik ki, hökümətin ümumi təhsil sahəsində planlarında ümumi təhsil məktəbləri şəbəkəsinin genişləndirilməsi milli hökumətin nəzərdə tutduğu gələcəkdə ümumi icbari orta təhsilə keçid üçün əsas amillərdən biri sayılırdı (14, s.358). Azərbaycan Xalq Cümhuriyyəti hökümətinin təhsil və tədrisinə müstəsna əhəmiyyət verməsinin bir göstəricisi də bu idi ki, milli hökümət əvvəlcə hamılıqla ibtidai təhsilə, sonra isə ümumi icbari təhsilə keçidi özünün təhsil siyasətində prioritet istiqamət hesab edirdi. Belə ki, Azərbaycan Xalq Cümhuriyyətinin sayca dördüncü hökümət kabinetinin Parlamentə təqdim etdiyi deklarasiyasında deyilirdi ki, təhsilin milli müstəqilliyin möhkəmləndirilməsində müstəsna rolu nəzərə alınaraq ümumi icbari təhsil haqqında qanun layihəsinin hazırlanmasını və həmin ilin payızından ümumi təhsil müəssisələri şəbəkəsi daha da yeniləşdiriləcəkdir. Bu məqsədlə hökümət ilk növbədə təhsilin məzmunu sahəsin-

də də islahatlar aparmaq, yeni dərsliklər hazırlamaq məqsədilə komissiyalar yaradılacağını xüsusi olaraq vurğulayırdı (14, s.209).

Azərbaycan hökümətinin bu sahəyə xüsusi diqqəti sayəsində tezliklə qabaqcıl müəllimlərdən, görkəmli pedaqoqlardan, tanınmış ziyalılardan ibarət həm məktəb islahatı, həm də yeni dərslik hazırlanması üzrə müvafiq komissiyalar yaradılır. Aparılacaq islahatın mahiyyətində ilk növbədə məktəbi yeni şəraitə uyğunlaşdırmaq, milli dövlətçilik ideologiyasına yaxınlaşdırmaq, milli ruhlu yeni nəsil yetişdirilməsinə nail olmaq kimi ümummilli prinsiplər ön plana çəkilirdi. Ümumi təhsilin məzmunca milliləşdirilməsi ümumi təhsilin məzmununda türk dünyası, islam aləmi ilə əlaqələrin gücləndirilməsi və Qərb dəyərlərinə üstünlük verilməsi əsas tələb kimi irəli sürülür. Bu sahədə ən uğurlu addım ümumtəhsil məktəblərində,o cümldən realnı məktəb, gimnaziya və seminariyaların tədris planlarına məcburi və əsas fənlər sırasına *"Türk xalqları tarixi"* kursunun salınması olur.

Bu dövrdə məktəblərdə tədrisin yeni proqram və dərsliklər əsasında həyata keçirilməsi Xalq Maarifi Nazirliyi tərəfindən günün zəruri tələbi kimi qaldırılmışdı (16, s.296). Lakin ilkin dövrlərdə bunun həyata keçirilməsi zamanı bir qədər çətinliklərlə üzləşildi. Belə ki, milli ruhlu proqram və dərs vəsaitlərinin hazırlanması ilə bağlı maddi və texniki imkanlar məhdud idi. Xalq Maarifi Nazirliyi iclaslarında qaldırılan digər əsas məslələrdən biri də ibtidai siniflərdə tədrisin ümumi proqram üzrə aparılması ilə bağlı olmuşdur. Məktəblərin tədris proqramları üzrə təmin edilməsi məqsədilə 1919-cu ildə D.B.Rəfibəyovun sədrliyi ilə komissiya təşkil edildi. Birinci komissiyaya ümumi tarix və coğrafiya, türk tarixi və coğrafiyası üzrə proqramlar hazırlamaq həvalə edildi. Komissiyanın üzvləri H.Sadıqbəy, M.A. Şahtaxtinski, L.A.Zimin, İ.A.Belyayev, E.K.Akimov, E.A.Poxomov, Deşkeyev və başqaları idi (15, s.109). Digər fənn və sahələr üzrə daha 4 komissiya təşkil edilmişdi. Orta təhsil müəssisələrində nəzərdə tutulan islahatla əlaqədar olaraq, şərqşünas A.A.Zimin tərəfindən türk xalqlarının Şərqin ümumi tarixi ilə əlaqələndirilmiş tarixinin proqramı işlənib hazırlandı. Bu proqramda başlıca diqqət milli ictimai hərəkatlara verilirdi. 1919-cu il oktyabrın əvvəllərində Maarif

Nazirliyi rusdilli orta məktəblər üçün türk xalqları tarixi üzrə epizodik və sistematik kursların, habelə türk xalqlarının coğrafiyası proqramının tərtib edilməsi üzrə müsabiqə elan etdi. Ən yaxşı layihə hökumət mükafatına layiq görüləcəkdi.

Məktəb islahatı sahəsində məsələləri ətraflı müzakirə etmək, müəyyən təkliflər hazırlayıb hökümətə təqdim etmək məqsədilə Azərbaycan hökümətinin qərarı ilə 1919-cu il avqust ayının 20-dən sentyabrın 1-dək Bakıda Azərbaycan müəllimlərinin qurultayı çağırılır. Qurultayın keçirilməsi xərcləri üçün Azərbaycan hökümətinin 2 avqust 1919-cu il tarixli qərarı ilə Xalq Maarifi Nazirliyinin sərəncamına 35.600 manat məbləğində vəsait də ayrılır (13, s.340). Qurultayın Xalq Maarifi Nazirliyinə təqdim etdiyi təkliflər əsasında bütövlükdə məktəb islahatı və xüsusi olaraq təhsilin məzmunca milliləşdirilməsini əsas tutan proqram və dərslik islahatı üzrə müvafiq proqram hazırlamaq məqsədilə hökümət komissiyası yaradılır. 1919-cu il noyabrın 7-də Xalq Maarif Nazirliyi yanında yaradılan hökümət islahat komissiyasına xalq maarifi nazirinin müavini Həmid bəy Şahtaxtinski, Nurməhəmməd bəy Şahsuvarov, Azad bəy Əmirov, Fətulla bəy Rzabəyov, Soltan Məcid Qənizadə, Abdulla bəy Əfəndiyev, Sara xanım Yaqubova, Sara xanım Xuramoviç, Əhməd bəy Pepinov, Xədicə xanım Ağayeva, Məmmədağa Şahtaxtinski, Cabbar bəy Orucəliyev və Saleh bəy Vəkilov daxil idilər. Hökümət bu komissiya qarşısında növbəti dərs ilinin əvvəlinə kimi məktəb islahatı,o cümlədən təhsilin məzmunu ilə bağlı məsələlərin həlli üzrə hökümət proqramını hazırlamaq missiyası qoymuşdu (14, s.366). Bu komissiyanın təşəbbüsü və rəhbərliyi ilə 1919-cu ilin dekabrında Bakıda keçirilmiş müəllim seminariyaları xalq maarifi inspektorları,ali ibtidai və orta məktəb müdirlərinin 15 günlük müşavirəsində ümumtəhsil müəssisələrində istifadə olunan dərsliklər məsələsini geniş müzakirə edərək müəyyən təkliflər hazırlandı. Bununla yanaşı müxtəlif fənlər üzrə,o cümlədən, Mahmud bəy Mahmudbəyovun sədrliyi ilə ana dili və ədəbiyyat fənni (7 nəfər) üzrə, Pənah Qasımovun sədrliyi ilə tarix fənni (2 nəfər) üzrə komissiyalar yaradıldı (12, s.49).

Azərbaycan hökümətinin mövcud dərsliklərdən istifadə və ya yeni dərsliklərin yaradılması sahəsində apardığı məqsədyönlü iş nəticəsində, dərslik üzrə Nazirliyin xüsusi komissiyalarının təklifləri əsasında təkcə 1919-cu ildə "Son Türk əlifbası", "Türk çələngi", "Ədəbiyyat dərsləri", "Tarixi-təbii" kimi yeni dərsliklər hazırlandı, yaxud məzmunca yeni şəraitə uyğunlaşdırılaraq kütləvi tirajla nəşr edilərək məktəblilərin istifadəsinə verildi. Hökümət hələ Gəncədə fəaliyyyət göstərdiyi dövrdə 22 iyun 1918-ci il tarixli qərarı ilə görkmli publisist, siyasi xadim olan Əhməd bəy Ağayevi (1875-1939) Azərbaycan məktəbləri üçün dərslik tədarükü görmək və müəllimlər dəvət etmək üçün Türkiyəyə ezam etmişdi (13, s.215). Bundan əlavə, Azərbaycan Parlamenti özünün 18 sentyabr 1919-cu il tarixli qərarı ilə xalq məktəblərinin kitabxanaları üçün Türkiyədən ana dilində dərslik və digər tədris ədəbiyyatı kitabları almaq məqsədilə Xalq Maarifi Nazirliyinin sərəncamına 1 milyon manat vəsait ayırmışdı (13, s.103).

Hökümətin məktəb təhsilinə verdiyi mühüm diqqət və qayğının nəticəsi idi ki, bu istiqamətdə vəsait xərclənməsini əsirgəmirdi. 1918-ci ilin sentyabr-dekabr aylarında bir sıra təhsil ocaqları büdcəyə tabe etdirildi. 5-ci iclasda (26 dekabr 1918) "Əhrar" fraksiyasından Abdulla bəy Əfəndiyev AXC-nin maarifə olan ehtiyacının başqa ehtiyaclardan üstün olduğunu deyərək, məktəblərdə tədrisin ibtidai, ümumi və məcburi olmasını istəyir. O, bütün fəlakətlərin birinci səbəbinin maarifin yoxluğunda olduğunu deyərək, müəllimlərin dilənçilik halından çıxarılması üçün də maarif məsələlərinin həllinin zəruriliyindən danışır. O həmçinin darülmüəllimlər rüşdi (ibtidai ilə orta məktəb arasında olan məktəb), edadi (ali məktəbə daxil olmağa hazırlayan məktəb), və hərbi məktəblər, sənaye və ticarət, ziraət (kənd təsərrüfatı) məktəblərinin açılmasını, məktəblərin tez bir zamanda milliləşdirilməsini, həmçinin camaatın anlayacağı dildə siyasi, elmi və texniki jurnalların, təlim-tərbiyə üsullarına aid əsərlərin yazılıb ucuz qiymətlə geniş miqyasda satılmasını təklif edir (5, s.136).

Bunlardan Salyan realnıy məktəbi, Göyçay ali ibtidai məktəbi, Müqəddəs Nina adına Gəncə və Nuxanın təhsil ocaqlarını qeyd etmək olar. Zaqatala dairəsində 25 birsinifli məktəb açılması məqsədilə

Xalq Maarifi nazirinin sərəncamına 100 rubl həcmində kredit ayrılmışdı. İki Şəki seminariyasının nəzdində fəaliyyət göstərən orta ixtisas təhsili müəssisələrinin nümunəsində Bakı, Şəki və Şuşada müəllim seminariyalarının və Göyçay şəhərində realnıy məktəbin açılmasını nəzərdə tutan və Xalq Maarif Nazirliyi tərəfindən hazırlanan qanun layihəsi 1919-cu il oktyabr ayında Parlamentə təqdim edilmişdi. Azərbaycan Parlamenti respublikanın büdcə imkanlarını nəzərə alaraq, yalnız Göyçayda realnıy məktəbin açılması haqqında qanun layihəsini təsdiq etdi (10, s.58).

***Milli "ilk"lər.*** Azərbaycan hökuməti məktəblərin müvafiq əlavə oxu ədəbiyyatı, sinifdənxaric oxu materialları ilə təmin etmək üçün Xalq Maarif Nazirliyinin təklifi əsasında 200 səhifəlik dövri ədəbi jurnalın, həmçinin, müəllimlər və məktəblilər üçün dörd elmi-pedaqoji jurnalın 1. Pedaqoji; 2. Kiçik yaşlı məktəblilər üçün oxu; 3. Orta yaşlı məktəblilər üçün oxu; 4. Yaşlılar üçün oxu nəşr olunması haqda Parlamentə qərar layihəsi təqdim olunmuş,ilkin razılıq alınmışdı. Lakin təəsüf ki, milli hökumətin devrilməsi səbəbində bu ideyanın gerçəkləşməsi mümkün olmadı (14, s.295-298). Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin təhsil sahəsində uğurlu tədbirlərindən biri də təhsil tariximizdə ilk dəfə olaraq dövlət səviyyəsində məktəbəqədər tərbiyə müəssisələrinin ilk nümunəsini yaratması idi. Belə ki, Azərbaycan Parlamentinin 1 mart 1919-cu il tarixli qərarı ilə Bakıda Azərbaycan Birinci milli qadın gimnaziyası nəzdində 1 sentyabr 1919-cu ildən uşaq bağçası təsis olunmuşdu (13, s.156). Mənbələr göstərir ki, həmin məktəbə qədər tərbiyə müəssisəsi Frebel sistemi əsasında qurulan və dövlət himayəsində olan ilk milli uşaq bağçası idi. Bu müəssisənin proqramları içərisində: 1) kəsmə üzrə işlər; 2) rəsm; 3) müxtəlif əl işləri; 4) riyazi oyunlar; 5) gimnastika; 6) musiqi və nəğmə əsas yer tuturdu. Milli hökumətimizin təhsil quruculuğunda və təhsil siyasətində təhsildə fasiləsizlik prinsipi əsas kriteriyalardan biri idi (9, s.43).

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti bu dövrdə təhsildən yayınmış "küçə uşaqları"nın taleyinə biganə qalmamış, 1919-cu ilin avqustunda Bakıda həmin uşaqlar üçün dövlət hesabına uşaq evi aç-

mış, bu cür uşaqların toplanıb koloniyayagöndərilməsi üçün Bakıda "Uşaqlara yardım bürosu"da təşkil etmişdi (14, s.292-294). Təhsilin orta pilləsi sayılan texniki-peşə təhsili müəssisələrinin inkişafı müstəqil dövlətin əsas qayğılarından biri idi. Dəmiryolu, bank, poçt, teleqraf xidməti üzrə milli kadrların hazırlanması üçün kurslar açılmışdı. Hökumətin qərarı ilə azərbaycanlı gənclərin texniki-peşə təhsili müəssisələrinə qəbulunda onların belə məktəblərə imtahansız qəbuluna geniş şərait yaradılmışdı. Azərbaycanın əsasən kənd təsərrüfatı ölkəsi olmasını nəzərə alan milli hökümət, həmin profilli mütəxəssislər hazırlamaq üçün kurslar açmışdı. Bakıda Şərq incəsənəti və təsviri sənətininənənələrini davam etdirmək məqsədilə sənaye-incəsənət məktəbinin açılması qərara alınmışdı.

Azərbaycan Xalq Cümhuriyyətinin birinci tədris ili 1918-ci ilin 15 sentyabrında Qafqaz İslam Ordusunun Bakıya daxil olmasından bir ay sonra başladı. Tədris üçün şərait ağır idi. Müəllim və şagirdlərin bir hissəsi 1918-ci ilin mart hadisələri dövründə soyqırıma məruz qalmış, bir çoxları yaşayış yerlərini atıb getmişdi. Məktəb komissiyası dərslərin başlanmasına qərar verdi, oktyabrın 20-dək məktəbə qayıtmayan müəllimlr işdən azad olunmuş sayıldı. Hökümətin səyi nəticəsində təlim və tədris işləri qaydaya salınırdı. 1919-cu ilin martında Bakıda şəhər məktəblərində oxuyanların sayı 6.400 nəfərə, həmin ilin noyabrında isə 9.100 nəfərə çatdı (1, s.40). Əgər 1914-cü ildə Azərbaycanda bütün tiplərdən olan 976 məktəb var idisə və bunlarda 73,1 min şagird təhsil alırdısa, 1919-1920-ci təhsil ilində cəmisi 643 ibtidai və 23 orta məktəb fəaliyyət göstərirdi. İbtidai məktəblərdə 48 078, orta məktəblərdə isə 9 611 şagird oxuyurdu (6, s.525).

Xalq Maarifi Nazirliyi orta məktəb rəislərinə göndərdiyi 1919-cu il 7 sentyabr tarixli xüsusi sərəncamında azərbaycanlı uşaqların ancaq milliləşdirilmiş əlifba və hazırlıq siniflərinə, həmçinin birinci siniflərə qəbul olunması göstərişini vermişdi. Tədrisin rus dilində aparıldığı həmin siniflərə azərbaycanlı uşaqların qəbul edilməsinə isə ancaq müstəsna hallarda, nazirin icazəsi ilə yol verilirdi. Tədris müəssisələrinə qəbul zamanı azərbaycanlılara bəzi güzəştlər edilirdi.

Görülmüş tədbirlər nəticəsində şagirdlərin ümumi sayı içərisində azərbaycanlıların xüsusi çəkisi artdı. Əgər 1914-1915-ci tədris ilində 9643 nəfər orta məktəb şagirdindən (müəllimlər seminariyaları çıxılmaqla) ancaq 1137 nəfəri azərbaycanlı idisə, 1919-1920-ci tədris ilində 9611 şagirddən 3115-i azərbaycanlı idi. Məktəb şəbəkəsinin bərpa edilməsi məqsədilə hökumət onun maddi-texniki bazasının möhkəmləndirilməsi, məktəb binalarının təmiri, bərpası və yeni məktəblərin tikintisi üçün vəsait ayrılması üzrə tədbirlər görürdü. Nazirliyin göstərişi ilə müxtəlif qəzalarda məktəblərin bərpa edilməsinin smetaları hazırlanıb təqdim olunurdu. Zaqatalada, Göyçay və Şuşa qəzalarında, başqa yerlərdə yeni məktəblər açılırdı. Nəticədə köhnə məktəblərin xeyli hissəsinin bərpasına, bir sıra yeni məktəblər açılmasına və nəzərdə tutulmuş layihələrin qismən yerinə yetirilməsinə nail olundu. Məsələn, əgər 1918-ci ildə Şamaxı və Göyçay qəzaları xalq məktəbləri müfəttişliyində uçotda olan 108 məktəbdən ancaq 10-u fəaliyyət göstərirdisə, 1919-1920-ci tədris ilində onların sayı 70-ə çatdırıldı (6, s.527).

Bakı Şəhər İdarəsi məktəb şöbəsinin məlumatlarına görə, şəhər ibtidai təhsil ehtiyaclarının ödənilməsi üçün artıq kifayət qədər məktəblər şəbəkəsinə malik idi. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ümumi təhsil müəssisələrinin milliləşdirilməsi sahəsində apardığı siyasət və həyata keçirdiyi tədbirlər nəticəsində 1919-cu ilin məlumatlarına görə, Bakı politexnik və kommersiya məktəbləri, iki kişi və üç qız gimnaziyası istisna olunmaqla, bütün orta məktəblər milliləşdirilmişdi (3, s.160).

Maarifin milliləşdirilməsi ilə əlaqədar olaraq, bütövlükdə məktəb islahatı məsələsi ortaya çıxdı. İslahatın mahiyyəti məktəbi yeni şəraitə uyğunlaşdırmaqdan, onu milli dövlətçilik ideyaları və mənafelərinə yaxınlaşdırmaqdan, milli dəyərləri mənimsəmiş yeni nəsil hazırlamaqdan ibarət idi. Bu məqsədlə orta məktəblərin yeni proqramlarının hazırlanması üçün komissiyalar yaradılırdı. Hökumətin təşəbbüsü ilə 1919-cu ilin sentyabrında Azərbaycan (türk) dilinin öyrənilməsi üzrə kurslar təşkil olundu və onun üçün 351000 manat vəsait ayrıldı.

Azərbaycan hökumətinin ən mühüm təşəbbüslərindən biri - əlifba islahatı da onun maarifçilik fəaliyyətinin və xalq təhsili üzrə proqramlarının reallaşdırılmasına xidmət edirdi. 1919-cu il martında X.Məlikaslanovun sədrliyi altında əlifba islahatı üzrə xüsusi komissiya yaradıldı (6, s.528). Təqdim olunmuş layihələrdən ancaq müəllim Abdulla bəy Əfəndiyevin variantı parlament tərəfindən bəyənildi və yeni əlifba üçün əsas kimi qəbul edildi.

Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən iqtisadiyyat, idarəçilik və mədəniyyətin bütün sahələri üzrə kadrlar hazırlanmasına dair cürətli proqramlar işlənib hazırlanmışdı və onların həyata keçirilməsindən ötrü hər cür imkan və mümkün formalardan istifadə olunur, kompleks tədbirlər görülür və xeyli vəsait xərclənirdi. Azərbaycan hökuməti təhsil sistemini kökündən yeniləşdirmək üçün pedaqoji kadrların hazırlanmasına birinci dərəcəli əhəmiyyət verirdi. Pedaqoji kadrlara olan ehtiyacın ödənilməsi üçün Maarif Nazirliyi tərəfindən hər il respublikanın müxtəlif məntəqələrində dörd seminariya açılması nəzərdə tutulurdu. Qori Müəllimlər Seminariyasının müsəlman şöbəsi Qazax şəhərinə köçürüldü və müstəqil seminariyaya çevrildi. 1919-cu ilin sentyabrında Bakıda kişi seminariyası açıldı. Lakin bu seminariyalar zəruri olan qədər pedaqoji kadrların hazırlanması üçün kifayət deyildi. Parlamentin 1919-cu il iyulun 19-da qəbul etdiyi qanuna əsasən, Qazax, Nuxa, Şuşa, Quba, Zaqatala, Salyan, Gəncə və Bakıda (sonuncu iki şəhərdə kişilər və qadınlar üçün) bir-birindən ayrı olan iki aylıq pedaqoji kurslar açıldı və onlara dövlət xəzinəsindən 2390 min manat vəsait ayrıldı. Kursların hər birində ən azı 50 müəllim hazırlanmışdı. Peşə təhsili almaq üçün azərbaycanlılara müəyyən güzəştlər verilirdi. Maarif nazirinin Bakı Politexnik Məktəbinin direktoruna ünvanlanmış 1919-cu il 30 avqust tarixli sərəncamında təklif olunurdu ki, qəbulun digər tələblərinə uyğun gələn bütün azərbaycanlı şagirdlər məktəbə imtahansız qəbul olunsunlar.

Kənd Təsərrüfatı üzrə orta təhsilin təşkili də mühüm məsələ idi. 1919-cu ilin noyabrında Əkinçilik Nazirliyinin kənd təsərrüfatı şöbəsində kənd təsərrüfatının müxtəlif sahələri və balıqçılıq üzrə təlimatçılar hazırlayacaq iki illik kursların təşkili haqqında qanun layi-

həsi işlənib hazırlandı. Gəncədə orta, Nuxa və Zaqatalada isə ibtidai kənd təsərrüfatı məktəblərinin açılması qərara alındı. İxtisaslı fəhlə kadrlarının hazırlanması üçün texniki kurslardan istifadə olunurdu. Qadınların peşə hazırlığının təşkili üzrə də bəzi tədbirlər görülürdü. Beləliklə, Azərbaycan hökumətinin həyata keçirdiyi demokratik siyasət nəticəsində liberal təmayüllü mədəni-maarif cəmiyyətləri böyüyür və inkişaf edirdi.

Azərbaycan Cümhuriyyətinin varlığı dövründə milli dirçəliş naminə maarif və mədəniyyətin inkişaf etdirilməsi əsas amil sayılmış və onun həyata keçirilməsi üçün mümkün olan heç nə əsirgənməmişdi. Daxili sabitlik möhkəmləndikcə, müstəqillik qüvvətləndikcə sosial-mədəni sahəni əhatə edən konkret, məqsədyönlü siyasət işlənib hazırlanmış, bu zaman dünyəvi dövlət, təhsil və mədəniyyət prinsipləri əsas götürülmüşdü. Milli özünüdərkin güclü oyanışı, onun yüksəlişi düzgün yola, yaradıcı axara istiqamətləndirilərək inkişaf etdirilirdi. Sosial-mədəni problemlərin həlli zamanı milli mənafelər diqqət mərkəzində saxlanır, meydana çıxan ziddiyyət və çətinliklər demokratik məzmunlu, sivil üsullarla həll edilirdi. Azərbaycan Cümhuriyyətinin xalq maarifi və mədəniyyət sahəsindəki fəaliyyətinin təhlili belə bir qənaətə gəlməyə imkan verir ki, onun bu istiqamətdə gördüyü işlər mədəni inkişafın qanunauyğun davamı, Azərbaycan maarifçilərinin çoxdankı arzularının yeni şəraitdə gerçəkləşməsi idi.

***Qadınların maariflənməsi məsələsi.*** Xüsusi diqqət yetirilən daha bir sahə türk qadınlarının maariflənməsi idi. Məsələn, Keşlədəki müsəlman qadınlar cəmiyyətinin xahişini nəzərə alaraq, hökumətin səyi ilə 1919-cu ilin oktyabrında burada qızlar üçün ibtidai məktəb açıldı. Keşlə qadın cəmiyyətinin müvəkkili İzzət xanım Rəsizadənin coşqun fəaliyyəti sayəsində məktəb kəndlilərin hörmətini elə qazanmışdı ki, artıq noyabr ayında burada 100 qız təhsil alırdı. Orta təhsil müəssisələrində azərbaycanlı qızların sayı artırdı. Məsələn, əgər 1918-1919-cu tədris ilində Gəncə gimnaziyasında cəmisi 4 azərbaycanlı qız oxuyurdusa, 1919-1920-ci tədris ilində onların sayı 296 nəfərə çatmışdı (6, s.527). 1919-cu il mart ayının 24-də Azərbaycan milli gimnaziyasında qadınlar üçün kursların təntənəli açılışı oldu.

Bu mərasimdə 120 azərbaycanlı qadın iştirak edirdi. Sara xanım Xuramoviç, Şəfiqə xanım Qaspıralı, Hənifə xanım Məlikova çıxış etdilər. Kurslara G.Usubova rəhbərlik edirdi. 1920-ci ilin yanvarında artıq 200 azərbaycanlı qadın burada təhsil alırdı. 1920-ci il aprel ayının 1-dən Azərbaycan dilini öyrənmək üçün qadın kursları açılmışdı. Kurslarda təhsil pulsuz idi. Məşğələləri aparmaq üçün Türkiyədən müəllimlər dəvət olunmuşdu. Qeyd etmək lazımdır ki, kurslarda onlar təmənnasız işləyirdilər. Dərslər 2-ci Türk qadın məktəbinin binasında keçirilirdi. Birinci şəhər məktəbində isə savad öyrənmə və əl işləri üzrə qadın kursları fəaliyyət göstərməyə başladı. Müəllimlər yalnız müsəlman qadınlar idi. Gigiyena dərsini tanınmış həkim Əminə xanım Batirşina aparırdı. 1919-cu il sentyabrın 11-də Azərbaycan hökümətinin qərarı ilə "Müqəddəs Nina" məktəblərinin adları dəyişdirilərək, Bakı birinci qadın gimnaziyası, Gəncə qadın gimnaziyası və Şəki qadın gimnaziyası adlandırıldı. Ümumiyyətlə, 1919-cu ildə Azərbaycanda 23 dövlət orta təhsil müəssisəsi vardı: 6 kişi, 4qadın gimnaziyası, 5 realnı məktəb, 3 müəllimlər seminariyası, 3 "Müqəddəs Nina" qız məktəbi, politexnik məktəb və kommersiya məktəbi. Bakı Qadın Seminariyası kişi seminariyasına çevrildi,orada təhsil alanlar üçün (40 nəfər) pansion açıldı.

Azərbaycan hökümətі ümumi təhsil müəssisələri şəbəkəsini genişləndirmək haqqında nəzərdə tutduğu tədbirləri öz fəaliyyətinin ən mürəkkəb, ölüm-dirim məsləsinin həll olunduğu günlərdə belə dayandırmırdı. Artıq 1920-ci ilin aprelindən ölkədə hakimiyyət böhranı son həddə çatmasına baxmayaraq, Azərbaycan Parlamenti aprelin 12-də Quba uezdinin Qusar sahəsinin Xuluq kəndində və Şuşa uezdinin Ağdam kəndində ali ibtidai məktəblərin açılması haqqında qanunlar qəbul edir (13, s.168).

***Nəticə.*** Bütün qeyd edilənlər bir daha sübut edir ki, bəzi dövlətlərin illərlə, əsrlərlə əldə etmək istədiyi, lakin edə bilmədiyini Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə reallığa çevirdi. Göründüyü kimi Azərbaycan Xalq Cümhuriyyəti hökümətinin maarif, təhsil sahəsində apardığı siyasətin və ya həyata keçirdiyi islahatların əsasında ölkənin intellektual potensialının qüvvətləndiril-

məsi, əhali arasında savadsızlığın ləğv edilməsi, təhsil müəssisələrinin, bütövlükdə təhsil sisteminin milliləşdirilməsi- tədrisin ana dilində - Azərbaycan türkcəsində aparılması yolu ilə xalqın milli dirçəlişini, milli mənlik şüurunun oyanışının təmin edilməsi kimi pak amallar, ümummilli məqsədlər dururdu. Maarif və təhsil sahəsində əldə edilən nailiyyətlərlə yanaşı, Tarixin tədrisi məsələlərinin ön plana keçirilməsi və "Türk xalqları tarixi" fənninin ümumtəhsil müəssisələrində tədris olunması o dövr üçün çox mütərəqqi bir addım olmaqla yanaşı, tarixin tədrisi məsələlərinin sonrakı inkişafına bu və ya digər dərəcədə təsir göstərmişdir. Daha yüksək amallar üçün çalışan Azərbaycan Xalq Cümhuriyyəti tezliklə milli tariximizə ilk çağdaş ali təhsil və elm ocağı təsis edən, Azərbaycan türkcəsini ilk dəfə dövlət dili elan edən və dövlət dilini tədris müəssisələrinin əsas dilinə çevirən, əlifba islahatı ilə Avropa mədəniyyətinə yaxınlaşmaq yolunda ilk addım atan demokratik, hüquqi, dünyəvi, sivil dövlət kimi daxil oldu…

## ƏDƏBİYYAT

1. Abdullayeva M.Ə., Məmmədov E.H. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dil, məktəb və tədris məsələləri. Magistrantlar üçün dərslik. Bakı, "Elm və təhsil", 2018, 148 s.
2. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). I cild. Bakı, "Azərbaycan", 1998, 976 s.
3. Azərbaycan Xalq Cümhuriyyəti (Ədəbiyyat, dil, mədəniyyət quruculuğu). Bakı, "Elm", 1998, 336 s.
4. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. 2 cilddə. II cild. Bakı, "Lider nəşr", 2004, 440 s.
5. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti (1918-1920-ci illər). I cild. Bakı, Azərbaycan nəşriyyatı, 1998, 974 s.
6. Azərbaycan tarixi 7 cilddə. V cild (1900-1920-ci illər), Bakı, "Elm", 2008, 696 s.+40 s. illüstrasiyalar.
7. Əliyev H. Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyin həsr olunmuş təntənəli mərasimdə nitq (27 may 1998-ci il) / "Azərbaycan" qəzeti, 28.05.98, № 121.

8. Quliyev V. Azərbaycan Demokratik Respublikası. Bakı, “Gənclik”, 1992, 191 s.
9. Mərdanov.M.C., Quliyev Ə.Q.; Azərbaycan Təhsili Xalq Cümhuriyyəti illərində (1918-1920). Bakı, “Çaşıoğlu”, 2003, 240 s.
10. Paşayev A. Açılmamış səhifələrin izi ilə. Bakı, “Azərbaycan”, 2001, 536 s.
11. Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan tarixi. Çağdaş Azərbaycan ədəbiyyatı. Bakı, “Gənclik”,1991, 112 s.
12. Seyidov F., Azərbaycan pedaqoji fikir tarixindən səhifələr. III kitab. Bakı; “Çaşıoğlu”, 2002, 324 s.
13. Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты. Баку, «Азербайджан»,1998, 560 с.
14. Азербайджанская Демократическая Республика (Документы и материалы 1918-1920 г.г.). Баку, «Елм», 1998, 440 с.
15. Назарли А.Э. Народное образование в Азербайджанской Республике (1918-1920 гг.). Баку, Нурлан, 2008, 224 с.
16. Səadət Məmmədova. Azərbaycan Xalq Cümhuriyyətinin təhsil siyasəti // Strateji təhlil jurnalı, Say 1-2 (23-24), 2018, s.291-305. - https://www.elibrary.az/docs/jurnal/jrn2018_462.pdf [Müraciət tarixi: 08.03.2022].

**SHAHLA MAHYADDINLI**
*Baku State University,*
*3rd year student of the Faculty of History*

# EDUCATION AND HISTORY TEACHING ISSUES IN THE AXC PERIOD

The Azerbaijan Democratic Republic, which wrote its name in the history of Azerbaijani statehood in golden letters in the twentieth century, declared its independence with the Declaration of National Independence and achieved de facto recognition by the world's leading states and the restoration of the people.s national identity. Demonstrating to the world that it is a civilized nation capable of determining its own national destiny and worthy of its protection and

survival, as well as the first democratic, secular, parliamentary state in the East, the Turkic world and the Islamic world with a rich culture and great historal past.

"The Azerbaijan Democratic Republic is our national treasure, a bright page in our history," said the national leader of the Republic of Azerbaijan Heydar Aliyev during the" 80th anniversary of the Azerbaijan People's Republic" dated January 30, 1998. Operated in a tense and complicated socio-political environment. The measures taken by this state in a short period of time have left a great mark on the history of our people. Giving equal rights to all citizens, regardless of nationality, political and religious affiliation, gender, defining state borders, adopting the attributes of Azerbaijani statehood, declaring mother tongue as a state language created a solid foundation for the future independence of Azerbaijan. The steps taken in the field of democratic state building, economy, culture, education, military construction are the main directions reflecting the 23-months activity of the Azerbaijan Democratic Republic… "(7).

*Keywords:* Azerbaijan Democratic Republic, Ministry of Public Education, History Teaching, Program, Textbook, Education.

*Daxil olma tarixi*: 08.03.2022-ci il.
*Çapa imzalanma tarixi*: 25.05.2022-ci il.

**UOT 94(479.24)**

**ZƏHRA ƏLİLİ**
*Bakı Dövlət Universitetinin*
*Tarix müəllimim ixtisası üzrə III kurs tələbəsi*
**zahra.alili@bsu.edu.az**

# ƏLİ BƏY HÜSEYNZADƏ İCTİMAİ FİKRİN İDEOLOJİ ƏSASININ YARADICISI KİMİ

*Elmi rəhbər*:
Tarix üzrə fəlsəfə doktoru Sevinc Qasımova
Bakı Dövlət Universiteti

*"Mən türkəm, qafqazlı bir türkəm, türk bir müsəlmanam, müsəlman bir insanam, demək ki, mən bu dörd sifətlə dünyaya gəldim, bu dörd sifətlə yaşamaq məcburiyyətindəyəm..".*

*Geniş ictimai hərəkat dövrünün yeni mərhələsinə XX əsrin əvvəllərində qədəm qoyan Azərbaycan maarifçiliyi məhz bu dövrdə öz inkişafının zirvə nöqtəsini yaşamışdır.Turan elinin xilasını türkçülüyün yayılmasında görən, Türk dünyasının böyük ideoloqu, Azərbaycançılıq ideologiyasının ilk yaradıcısı olan, qabaqcıl fikir xadimimiz Əli bəy Hüseynzadə bu dövrün maarifçilik hərəkatına sanki yeni bir nəfəs vermişdir. O, öz mütərəqqi ideyaları ilə yalnız ölkəmizin deyil, bütün türk dünyasının ictimai fikrinə tamamilə yeni bir istiqamət verərək, türk xalqlarının milli şüurunun oyanmasına xidmət etmişdir. Türkçülük ideologiyasının mənəvi prinsipinin islamlaşmaq olduğunu qeyd edən Ə.Hüseynzadə məhz bu mənada "Türkləşmək, İslamlaşmaq, Avropalaşmaq" ideologiyasının da təməl daşlarını qoymuşdur. Məqalədə Ə.Hüseynzadənin millətinin tərəqqi etməsi yolunda apardığı məşəqqətli mübarizə tarixi və onun bu günümüz üçün də aktual olan məşhur "üçlü düstur"nun əsas mahiyyətinin aydınlaşdırılmasına cəhd ediləcəkdir.*

*Açar sözlər:* türkçülük, islamçılıq, avropalaşma, ortaq dil, dövlətçilik.

***Giriş.*** Milli məfkurəmizin uçuruma getdiyi, xalqa öz kimliyinin unutdurulduğu, "Türk" kəliməsinin hətta dilə belə gətirilmədiyi tarixi məqamda Ə.Hüseynzadə doğma xalqına Tanrı tərəfindən sanki bir xilaskar kimi bəxş edilmişdi. Türkləşmək məqamını özünün siyasi-nəzəri doktirinasına çevirən Ə.Hüseynzadəni haqlı olaraq bu gün də bütün türk dünyasının mücahidi kimi yad edirlər. Azərbaycanda türkçülük hərəkatının həqiqi tarixi məhz onun redaktorluq etdiyi "Həyat" qəzeti ilə başlamış, sonralar isə öz mütərəqqi ideyalarının davamını "Füyuzat" jurnalının səyfələrində işıqlandırılmışdır. O "millət, o qövm səadət və nicat tapa bilər ki, öz qövmiyyətini, dilini, dinini, tarixini, adət və əxlaqını öyrənir" deyən, ömrünün sonuna qədər də məhz bu amal uğrunda üzləşdiyi bütün çətinliklərlə mübarizə aparmışdır. Turan məfkurəçisi Ə.Hüseynzadə bu gün də xalqının yaddaşına əbədi həkk olmuş, onun irsinin öyrənilməsinə xüsusi maraq və qayğının yaranması da, məhz bu səbəbdəndir.

***Türkçülük ideyasının mahiyyəti.*** "Türk hissiyatı ilə mütəhəssis, islam diniylə mütədəyyin və Avropa mədəniyyəti-hazırasıyla mütəməddin" olmağa çağıran Ə.Hüseynzadə istisna olunarsa, ona qədər bu məsələni bu şəkildə düşünən və ifadə edən başqa biri yoxdur və elə buna görə də Ə.Hüseynzadə bu istiqamətdə birinci dahimizdir. "Fədai lazımdır, fədai! Yuxarı sıçrayan murdarlıqlardan qorxmayan fədai! Türk qanlı, müsəlman etiqadlı, firəng fikirli, Avropa qiyafətli fədai!" (3, s.70) deyə hayqıran Ə.Hüseynzadə Türk-İslam-Qərb dəyərlərinin sintezindən ibarət olan bir cəmiyyyət yaradılması ideyasının müdafiəçilərindən olmuşdur.

1915-ci ilin oktyabrın 2-də Bakıda nəşrə başlayan "Açıq söz" qəzetinin ilk sayında baş redaktor M.Ə.Rəsulzadə "Tutacağımız yol" adlı baş məqaləsi çap edilmişdi. Həmin məqalədə M.Ə.Rəsulzadə vaxtilə Ə.Hüseynzadənin əsasını qoyduğu məşhur üçlük düsturunu belə təqdim edirdi:"Hər bir millət azadə yaşayıb da tərəqqi edə bilmək üçün üç əsasa istinad etmək məcburiyyətindədir: Dil, din və zaman..." (12, s.422). Sağlam və oyanıq düşüncəyə sahib olan bir millət yetişdirmək istəyiriksə zamanın tələb etdiyi, "Türkləşmək, müasirləşmək və islamlaşmaq" ideyasına istinad etməli olduğumuzu vurğula-

yan M.Ə.Rəsulzadə xalqını da daima inkişaf edən ölkələrlə bərabər görmək istədiyi üçün bu ideyanı irəli sürmüşdü. Eyni zamanda qeyd etmək lazımdır ki, M.Ə.Rəsulzadə sonradan bu ideologiyada müəyyən qədər dəyişiklik edərək müasirliyi önə çəkmiş və dövlət bayrağımızda da bu şəkildə öz əksini tapmışdır.

Ə.Hüseynzadənin türklüyün keçmişi və bu günü ilə bağlı yazdığı ayrı-ayrı məqalələri içərisində "Türklər kimdir və kimlərdən ibarətdir" əsəri xüsusi yer tutur. Müəllif bu əsərini 1905-ci ildə yazmış və "Həyat" qəzetinin 4-cü sayından başlayaraq dərc etdirmişdir. Ə.Hüseynzadə hələ "Qəzetimizin məsləki" adlı baş məqaləsində yazırdı: "Müsəlmanız, onun üçün dünyanın hər neresinde xeyirxahi bulunduğumuz din qardaşlarımız tərəqqi etsə biz o tərəqqiyi əz cani dil alqışlarız. Türküz, binaəleyh türküz. Türkün hər yerdə tərəqqi və təkamül ilə məsud olmasını arzu eyləriz" (5, s.186). Qeyd etdiyimiz məqaləsində ifadə etdiyi fikirlər onun sonrakı məqalələrinin prioritet istiqamətinə çevrilmişdir. "Türk" və "İslam" anlayışlarının izaha ehtiyacı olduğunu qeyd edən müəllif xüsusi olaraq vurğulayırdı ki, nə qədər ki qəzetimiz fəaliyyət göstərəcək biz bu ifadələri daima bəyan edəcəyik. O, həmçinin qeyd edirdi ki, türk olduğu ilə fəxr edən şəxslərimiz türkün kim və kimlərdən ibarət olduğunu bilmirlər. Bu baxımdan da o, həmin kəlimələrin əsl mahiyyətini üzə çıxarmağı özünün vətəndaşlıq borcu hesab etmişdir.

Ə.Hüseynzadə Rusiyada "tatar" adlı millətin olmadığını, krımlıların, orenburqluların, kazanlıların "türk oğlu türk" olduqlarını vurğulamaqla türkçülüyü müəyyən qədər də islamçılıqdan fərqləndirmişdir. Həmçinin mütəfəkkir türklərin dünya tarixi və mədəniyyətinin inkişafında oynadıqları fövqəladə rolu yaxşı bilir və həmin ənənələrin bir zamanlar yenidən dirçələcəyinə inanırdı: "Çəkilin ortadan! Mədəniyyət gəlir. Təbriz mücahidlərinin, Səttərxanların qalibiyyəti ilə gəlir" (8, s.201). Görkəmli ziyalımızın irəli sürdüyü türçülük ideyası ayrı-ayrı türk xalqlarında müstəqillik eşqi yaratmış, onlara türkün qüdrətini, qədim bir dövlətçilik ənənəsinə sahib olmasını və necə şanlı bir ulusun üzvləri olduqlarını xatırlatmışdır. Ə.Hüseynzadə tərəfindən türkçülük ideyasının zamanında irəli sürülməsi türklə-

rin sinfi mənsubiyyətlərindən asılı olmayaraq birləşmək ehtiyaclarından yaranmışdır.

***İslamçılıq ideyası.*** Ə.Hüseynzadə türkçülük ideologiyasının mənəvi prinsipinin islamlaşmaq məramı haqqında danışarkən tövsiyə edirdi ki, Qurani-Kərim bütün müsəlman xalqlarının dilinə tərcümə edilib yayılsın. Ona görə ki, İslam dini türk birliyinin, milli mədəniyyətlərinin ən əxlaqi sağlamlığının təməlidir." Allahını tanıyan millət, milli birliyini də dərk edəcəkdir (11). İslami dəyərləri düzgün şəkildə dərk edib, onun buyurduğu əxlaq normalarını rəhbər tutaraq öz yoluna davam edən millət sözsüz ki, öz kimliyinidə dərk etməkdə heç bir çətinlik çəkməz.

Ə.Hüseynzadə türkçülüklə islamın, bütün islam aləminin vəhdət halında inkişafını, tərəqqisini ən uyğun çıxış yolu kimi dəyərləndirərək yazırdı:"Aləmi-İslam,ya məmaliki-ətrak"(türk ölkələri, elləri) qeyri-münbit bir çöl, bir biyaban halını aldığı təqdirdə əmin olunuz ki, Osmanlı mədəniyyəti dahi nə qədər çalışsa, yenə bu biyabanın ortasında bir vahədən başqa şey olmaz!... İslam, türk hər tərəfdə tərəqqi etsə, qüvvət bulsa, məmaliki-Osmaniyyə (Osmanlı dövləti) də o aləmin içində bir vahə deyil, bir behişt əndər-behişt olur" (2, s.71). Müəllifin bizlərə çatdırmaq istədiyi budur ki, islami dəyərlərimizi, həm də türk milliyyətimizi dərk etsək o zaman əsl inkişaf etmiş olarıq. Bu iki amil olmadan hər nə qədər irəli getməyə çalışsaq da buna nail ola bilmərik.

Ə.Hüseynzadə mədəni cəhətdən islamı və türklüyü bütöv şəkildə gördüyünü ifadə etsə də, siyasi cəhətdən türk xaqlarının milli kimliklərini (türklüklərini) və dinlərini (islamlıqlarını) tanımalarını, bilmələrini vacib saymışdır: "Müsəlmanlar və özəlliklə türklər, harada olur-olsun-istər Osmanlıda, istər Türküstanda, istər Baykal gölü ətrafında, ya Qaraqorum civarında, bir-birlərini tanıyacaq, sünnilik, şiəlik və daha bilməm nəlik adları ilə məzhəb təəssübünü azaldıb "Qurani-Kərimi" anlatmağa qeyrət edəcək, dinin əsasının Quran olduğunu biləcək olurlarsa, əl verməzmi?" (8, s.201). Müqəddəs kitabımız olan Qurani-Kərimin bütün müsəlmanlar üçün əsas rəhbər olmasını və dinimizi bu kitaba əsaslanaraq anlayıb, onun bizlərə bəxş etdiyi

əxlaqi ideyaları yaymalı olduğumuzu qeyd edən müəllif həmçinin də müsəlmanların arasında yaranan dini parçalanma məsələlərinə də toxunaraq bunun yolverilməz olduğunu xüsusi vurğulamışdır.

***Avropalaşmaq ideyası.*** "Türk xalqları birinci dövrdə qılıncla (Hun imperatorluğu dövrü nəzərdə tutulur), ikinci dövrdə dinlə (Osmanlı imperatorluğu dövrü), üçüncü dövrdə (XX əsrdə) elm və biliklə parlamalıdırlar" deyən müəllif bu fikirlərini "Bizə qılınc deyil, əhli-maarif lazımdır" (7, s.8) yazısıyla daha da qüvvətləndirmişdir. Zamanın ruhu ilə səsləşən bu fikirləri ilə Ə.Hüseynzadə xalqının hər daim irəliyə getməsi və inkişaf etməsi üçün onların dövrün yeniliklərindən xəbərdar olmasının vacibliyini vurğulamışdır. Bu inkişafın isə yalnızca elm və təhsillə mümkün olacağını ifadə edən müəllif haqlı olaraq xalqına yalnız maariflənmək lazım olduğunu qeyd edir.

Avropaçılığa meyil məsələsində bəzən müasir Türkiyədə və Azərbaycanda özünü göstərən açıq-aşkar aldudəlik və ifratçılıq hallarının mənbəyini Əli bəy hələ o zamandan görmüş, türklüyü və islamı ayıq-sayıq olmağa çağırmışdı: "Türklük və islam dairəsində tərəqqi etmək istiyoruz. Biz arzu ediriz ki, bizim tərəqqimizə baxıldıqda" Türk və müsəlmanlar nə gözəl tərəqqi ediyolar " denilsin, yoxsa "Türklər, müsəlmanlar irtidat ediyor, firəngləşiyolar" denilməsin!" (6, s.5). "Biz avropalıların ədəbiyyatlarına, sənayelərinə, elm və maariflərinə, kəşfiyyat və ixtiralarına müraciət etmək istəyirik, özlərinə deyil! Biz istəyirik ki, islam ölkəsinə onların beyinləri girsin, boğazları, mədələri girməsin. Biz istərik ki, ölkəmiz onların beyinlərini həzm etsin, yoxsa mədələrində həzm olunmasın" (7, s.8). Gördüyümüz kimi, müəllif avropalaşmaq dediyi zaman əslində xalqın inkişaf edib daha da irəliyə getməsini qeyd etmişdir. Xalqının avropalaşaraq öz tarixi köklərindən uzaqlaşmasını, avropa mədəniyyətini tamamilə əxz edərək öz milli dəyərlərinə yad olmasının yolverilməz olduğunu vurğulamışdır.

Ə.Hüseynzadənin özünəməxsus bədii-estetik görüşləri onun "Tolstoyluq nədir?" məqaləsində özünün daha bariz əksini tapmışdı. Ə.Hüseynzadə L.N.Tolstoyu təkcə "Rusiyanın deyil, bütün cahanın ən böyük üdəbası adlandırır, onun dünya ədəbiyyatının Şekspir, Ge-

te, Hüqo kimi nəhəng simaları ilə bir sırada durduğunu göstərir və yazırdı: "Biz Tolstoyun böyüklüyünü onun məzhəbində deyil, onun məsləki-ədəbiyi-ictimaiyyəsində görənlərdəniz" (9). Qeyd etdiyimiz nümunəyə əsaslanaraq da görə bilərik ki, böyük ziyalımız saf beynəlmiləlçilik ideyalarının daşıyıcısı olmuşdur. Ümumilikdə isə müəllifin "avropalaşma" ideyasının əsas mahiyyəti, elmi və texnoloji yeniliklərin ölkəmizdə də tətbiq edilməsi olmuşdur. Həmçinin bu ideya ilə türkçülük və islamçılıq ideyaları arasında bağlılıq olduğu qənaətində olmuşdur.

***Əli bəy Hüseynzadənin dilçilik görüşləri və dövlətçilik.*** "Mən milliyətpərvər bir insanam, türkəm" deyən Ə.Hüseynzadə mənsub olduğu millətin dilinə çox böyük həssaslıqla yanaşırdı. O,"Füyuzat" jurnalının səhifələrində türk dillərinin quruluşu, keçmişi, bu günü, gələcəyi, dünya mədəniyyətində yeri, etnogenezi və.s məsələləri işıqlandırmışdır (10, s.9). Qədim türklər və onların dili məsələsi Ə.Hüseynzadənin daima diqqət mərkəzində olmuşdur. Türk dilinə qarşı edilən təzyiqlər, türk dillərinin parçalanması, onlar arasında yayılan ayrılıqlar nəticəsində türklərin bir-birlərini anlamamaları məsələsi fəaliyyətinin əvvəlindən axırına qədər böyük mütəfəkkiri hər zaman düşündürən məsələlərdən olmuşdur.

Türk ictimai fikrində ortaq türkcə ideyası və ortaq türkcənin yaradılmasına "Dildə birlik!" şüarını irəli sürməklə başlayan İsmayıl bəy Qaspıralıdan sonra, ilk sistemli və hərtərəfli elmi baxış Ə.Hüseynzadənin bu sözləri ilə meydana çıxır: "Qəzetimizin dilinimi sadələşdirməli, yoxsa camaatımıza öz dili olan türkcəyi öyrətməli?". Məsələ burada! Zənnimizə görə, yazdığımızdan daha sadə, Qafqazda söylənən şivələrdən biriylə yazmaq mümkün deyil. Həpimiz ayrı bir yerdən gəlmişiz, bu şivələrdən birini tərcih edəməyiz. Onları birləşdirməliyiz. Çünki ayrı-ayrı hankı şivəyi alsaq, bir əskikliyi vardır. Yeni türkcə artıq əski türkcə deyildir" (4,s.59). Xalqının dil problemləri Ə.Hüseynzadənin türkçülük ideyalarının əsas səbəblərindən olmuşdur. Məhz bu baxımdan da o, türk dünyasının digər türkçüləri kimi ümumtürk dilinin parçalanmaması üçün ən uyğun çıxış yolunu ortaq türk dilinin yayılmasında görmüşdür.

Çin Səddindən Ağ dənizə qədər yayılan türklərin vahid dildən uzaqlaşması onların pərakəndə şəkildə yaşamalarına, bir-birini kifayət qədər anlamamasına gətirib çıxarmışdır. "Füyuzat" jurnalının dil faktlarının türk ədəbi dilindən qaynaqlanması türkçülük ideyaları ilə bağlıdır. Bu ideya türk xalqlarını, onların din və dilini əsarətdən xilas etmək məqsədi daşıyırdı. "Füyuzat" jurnalında mənsub olduğumuz millətin bütün dünyadakı türklərdən ibarət olduğu fikri irəli sürülür. Jurnalın ideyalarına görə, müasirləşmək prosesi türk milli dilini qoruyub saxlamaqla getməlidir (13, s.14). Dilimizin saflığının qorunub-saxlanılmasına çalışan Ə.Hüseynzadə bu ideyaların özünün "Füyuzat" jurnalında rəhbər ideyaya çevirmişdir. Fikrimizcə, "Füyuzat" jurnalına qədər hər hansı bir mətbu orqanı ədəbi dil məsələsini prinsip olaraq ortaya qoymamış və praktik tətbiqinə ciddi səy göstərməmişdir.

Azərbaycan Xalq Cumhuriyyətinin ideoloji banisi Ə.Hüseynzadənin 1918-ci ilin may ayının 28-də öz təsdiqini tapan və arzuladığı dövlətin təşəkkülündə iştirakı barəsində xeyli faktiki materiallar mövcuddur. O, eyni zamanda yeni dünya düzənində tək Azərbaycanın deyil, Rusiya əsarətində olan türklərin dövlət qurmaq imkanlarının nəzəriyyəsinin də müəllifidir. Təbii ki, bu sistem içərisində Güney Qafqazda pərvəriş tapan Azərbaycan Cumhuriyyətinin ideyadan milli-dövlət quruluşuna keçidi də Ə.Hüseynzadənin fikri dünyasının məhsulu idi (1). Onun ideya dünyasının məhsulu olan Azərbaycan Xalq Cumhuriyyətinin fikri sonradan tarixi reallığa çevrilmişdir. Xalqımızın qədim dövlətçilik ənənlərinə sahib olmasını xüsusi olaraq vurğulayan böyük mütəfəkkir onların öz müstəqil dövlətlərini qurmalarının önəmini qeyd edərkən buraya yalnız Azərbaycan türklərini deyil, bütün türk dünyasının türklərini də daxil etmişdir.

Tarixdə Azərbaycan türklərinin cəngavər bir xalq olduğunu, rus istilasından sonra əhalinin hərbi mükəlləfiyyətə alınmadığını, buna görə də indiki dönəm öz istiqlalını hərbi yolla təmin edə bilmədiyi üçün Anadolu qardaşlarının yardımından istifadə etdiyini söyləyir. "Azərbaycanı azad edən Anadolu öz özünü də azad edir, buna şübhə etməyin! Deyirlər ki, dağ-dağa qovuşmaz, insan-insana qovuşar!

Xeyr, tarixin elə anları vardır ki, dağ-dağa da qovuşar. Bu gün Ərciyəz dağı Qaf dağına qovuşur və qovuşduqca yüksəlir" (1). Bu fikirdən də gördüyümüz kimi, turan birliyi ideyasının təməl daşları da məhz Ə.Hüseynzadə tərəfindən qoyulmuşdur. O, Türk birliyinin nə qədər önəmli olduğunu və bu birləşmənin türklərin yüksəlişinə səbəb olacağı fikrini önə çəkmişdir. XX əsr mədəniyyətimizlə çox yaxından tanış olmuş Hilmi Ziya Ülkenin Ə.Hüseynzadənin "Turan" ideyasının banisi olması ilə bağlı fikirləri xüsusi maraq doğurur. Onun fikrincə, məhz Ə.Hüseynzadənin təsiri ilə Ziya Göyalp da türkçülük cərəyanına daxil olmuş və onun "Türləşmək, islamlaşmaq avroplaşmaq" ideyasına əsaslanaraq "Turan" ideyasını da ondan mənimsəmişdir. Ümumilikdə isə o, Ə.Hüseynzadənin yaradıcıllıq irsini çox yüksək dəyərləndirmiş və onun türk xalqlarının siyasi-mədəni həyatındakı misilsiz xidmətlərini də xüsusi qeyd etmişdir.

***Nəticə.*** Özünü daima xalqı, milləti yolunda bir şam kimi əridən, millətinin səadəti və işıqlı gələcəyi uğrunda qarşılaşdığı bütün çətinliklərə rəğmən daima mübarizə aparmış böyük ideoloqumuz Ə.Hüseynzadənin qabaqcıl ideyaları zamanın nəbzinə uyğun atırdı. Onun əsasını qoymuş olduğu "üçlü düstur"u öz dövrünə görə irəli sürülmüş çox mütərəqqi bir ideya idi. Xalqa kimliyinin unutdurulmağa çalışıldırıldığı, öz milli soy-köklərindən uzaqlaşdırılması siyasətinin yeridildiyi bir zamanda Ə.Hüseynzadə xalqına milli və dini kimliyini öyrətmiş, necə deyərlər millətinə milliyyətini anlatmışdı. Bu dahi şəxsiyyətimizin xalqına göstərdiyi bütün xidmətlərin üzərinə kölgə salan 1920-ci il 28 aprel Sovet işğalı onun fəaliyyətini xalqının yaddaşından silərək, haqqında mənfi düşüncə formalaşdırmağa çalışmışdılar. Lakin, həqiqət torpaq altında qalmış qiymətli metala bənzəyir. İllər, əsrlər, hətta qərinələr də keçsə üzə çıxır. Ölkəmiz ikinci dəfə öz müstəqilliyini əldə etdikdən sonra, Ə.Hüseynzadə də yenidən siyasi-mədəni fikir tariximizdəki yerini təsdiqlədi. Ölkə prezidentimiz cənab İlham Əliyev tərəfindən 2014-cü ilin 21 yanvarında Ə.Hüseynzadənin 150 illik yubileyinin keçirilməsi haqqında sərəncam bir daha göstərdi ki, maarifpərvər ziyalımızı xalqın yaddaşından silməyə çalışanlar buna nail ola bilmədilər. Bu gün Ə.Hüseynzadə və onun

əbədiyaşar ideyaları deyil ölkəmizdə bütün türk dünyasında qürurla yad edilir. Təsadüfü deyil ki, məhz Ə.Hüseynzadə tərəfindən əsası qoyulan ideologiya bu gün istər dövlət bayrağımızda, istər dövlət gerbimizdə və istərsə də təhsil sistemimizdə öz layiqli yerini tapmışdır.

ƏDƏBİYYAT

1. Akif Aşırlı. Azərbaycan Cumhuriyyəti Əli bəy Hüseynzadə publisistikasında / "Şərq", 2015, 24.01, №14, s.7.
2. Akif Musayev, Seyfəddin Səməndərov. Əli bəy Hüseynzadə iqtisadi fikirləri // Türkologiya, №1 2020, s.69-70. - https://www.turkologiya.org/saylar/2020-1/Akif-Musayev.pdf [Müraciət tarixi: 20.03.2022].
3. Azər Turan. Əli bəy Hüseynzadə. Moskva, "SALAM press", 2008, 280 s.
4. Azər Turan (Əbilov). Əli bəy Hüseynzadənin dil siyasəti-Ortaq türkcə // Azərbaycan Milli Elmlər Akademiyasının xəbərləri, Humanitar elmhrseriyası, 2018, №1, s.58-61.
5. Bədirxan Əhmədli. Azərbaycan mühacirət ədəbiyyatı: təşəkkülü, problemləri, şəxsiyyətlər. Bakı, "Elm və Təhsil", 2017, 376 s.
6. Əli bəy Hüseynzadə. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2017, 480 s.
7. Əsgər Quliyev.Əli bəy Hüseynzadə Azərbaycan maarifçiliyinin korifeylərindən biri kimi. Azərbaycan Respublikası Təhsil Nazirliyi, "Azərbaycan məktəbi ", 2014/2, s.6-15.
8. Faiq Ələkbərli. Əli bəy Hüseynzadənin dünyagörüşündə türkçülüyün və islamçılığın nəzəri-fəlsəfi əsasları // Dini araşdırmalar jurnalı, №1, Dekabr 2018, s.199-212.
9. Füyüzat jurnalının biblioqrafiyası. Bakı, Azərbaycanda Atatürk Mərkəzi AMEA Füzuli adına Əlyazmalar İnstitutu, 2002, 30 s.
10. Həsənova Sədaqət. Əli bəy Hüseynzadənin dilçilik görüşləri. Bakı, Naxçıvan Müəllimlər İnstitutu, 2006, 100 s.
11. Məmməd Mirzəliyev. Türk dünyasının böyük ideoloqu-Əli bəy Hüseynzadə / Hürriyət, 2019, 10-12 avqust, s.13 -

http://www.anl.az/down/meqale/hurriyyet/2019/avqust/668091.htm [Müraciət tarixi: 20.03.2022].
12. Nəsiman Yaqublu. Məmməd Əmin Rəsulzadə ensiklopediyası. Bakı, Kitab Klubu, 2013, 505 s.
13. Sədaqət Həsənova. "Füyuzat" jurnalının dil siyasəti və dili. Fil. elm. dokt. alimlik dər. Almaq üçün təqdim edilmiş diss. aftoreferatı. Naxçıvan, 2007, 43 s.

**ZAHRA ALİLİ**
*3 rd year student of the faculty Baku State University*

## ALİ BEY HUSEYNZADEH AS THE CREATOR OF THE İDEOLOGİCAL BASİS OF PUBLİC OPİNİON

Entering a new stage of the broad social movement in the early twentieth century, the Azerbaijani enlightenment reached its peak of development during this period. Seeing the salvation of Turan in the spread of Turkism, the great ideologue of the Turkic world, the first creator of the idelogy of Azerbaijanism, our leading this period.With his progresive ideas, he served to awaken the national consciousness of the Turkic peoples, giving a completely new direction to the public opinion not only of our country, but of the entire Turkic world. Noting that the moral principle of the ideology of Turkism is İslamization, A.Huseynzadeh laid the foundations of the ideology of "Turkification, İslamization, Europeanization" in this sense. The article will try to clarify the history of A.Huseynzadeh's arduous struggle for the progress of the nation and the essence of this famous "triple formula", which is still relevant today.

*Keywords:* turkism, islamism, europeanization, common language, statehood.

*Daxil olma tarixi*: 26.03.2022-ci il.
*Çapa imzalanma tarixi*: 25.05.2022-ci il.

***Çapa hazırlayan:*** **Lamiyə Ruintən**

Çapa imzalanmışdır: 25.05.2022.
Kağız formatı: 60x84 1/16 Həcmi: ____ ç.v. Sayı: 200

"Elm və təhsil nəşriyyatı"nın mətbəəsində hazır pozitivlərdən çap olunmuşdur